# AZƏRBAYCAN DİLİ

METODİK VƏSAİT

3

dövlət dili




LAYİHƏ

Rafiq İsmayılov
Ülkər Nurullayeva
Aynur Rüstəmova

Ümumi təhsil müəssisələrinin 3-cü sinifləri üçün

# AZƏRBAYCAN DİLİ *(dövlət dili)*

fənni üzrə dərsliyin

METODİK VƏSAİTİ

© Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

**Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International (CC BY-NC-SA 4.0)**

Bu nəşr Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International lisenziyası (CC BY-NC-SA 4.0) ilə **www.trims.edu.az** saytında əlçatandır. Bu nəşrin məzmunundan istifadə edərkən sözügedən lisenziyanın şərtlərini qəbul etmiş olursunuz:

İstinad zamanı nəşrin müəllif(lər)inin adı göstərilməlidir.

Nəşrdən kommersiya məqsədilə istifadə qadağandır.

Törəmə nəşrlər orijinal nəşrin lisenziya şərtlərilə yayılmalıdır.

Bu nəşrlə bağlı irad və təkliflərinizi trm@arti.edu.az və derslik@edu.gov.az elektron ünvanlarına göndərməyiniz xahiş olunur. Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

LAYİHƏ

## MÜNDƏRİCAT


**GİRİŞ** ........................................ **3-7**

**I BÖLMƏ. AİLƏ VƏ MƏKTƏB**

1-ci fəsil. Ailə ........................................ 9-13
2-ci fəsil. Məktəb ........................................ 13-20
3-cü fəsil. Sinfimizin uşaqları ........................................ 21-24
4-cü fəsil. Sevimli dostum ........................................ 25-26
Ümumiləşdirici təkrar ........................................ 27-28
Kiçik summativ qiymətləndirmə ........................................ 28

**II BÖLMƏ. ANA VƏTƏN**

1-ci fəsil. Mənim vətənim ........................................ 30-33
2-ci fəsil. Dövlət atributları ........................................ 33-37
3-cü fəsil. Abidələr ........................................ 37-40
4-cü fəsil. Qarabağ ........................................ 41-44
Ümumiləşdirici təkrar ........................................ 44-45
Kiçik summativ qiymətləndirmə ........................................ 45

**III BÖLMƏ. SEVİMLİ QƏHRƏMANLARIM**

1-ci fəsil. Yenilməz qəhrəmanlar ........................................ 47-51
2-ci fəsil. Kələkbazlar ........................................ 52-56
3-cü fəsil. Sehrli qüvvələr ........................................ 57-62
Ümumiləşdirici təkrar ........................................ 62
Kiçik summativ qiymətləndirmə ........................................ 62

**IV BÖLMƏ. YAXŞI NƏDİR, PİS NƏDİR?**

1-ci fəsil. Zəhmətkeşlik ........................................ 64-67
2-ci fəsil. Dürüstlük ........................................ 68-73
3-cü fəsil. Dostluq ........................................ 74-77
4-cü fəsil. Nizam-intizam ........................................ 77-81
Ümumiləşdirici təkrar ........................................ 81-82
Kiçik summativ qiymətləndirmə ........................................ 82

**V BÖLMƏ. QƏRİBƏ CANLILAR**

1-ci fəsil. İnsanın dostları ........................................ 84-89
2-ci fəsil. Sincab ........................................ 89-93
3-cü fəsil. Yarasalar ........................................ 94-99
Ümumiləşdirici təkrar ........................................ 99-100
Kiçik summativ qiymətləndirmə ........................................ 100

**VI BÖLMƏ. DÜNYANI KƏŞF EDİRƏM**

1-ci fəsil. Yağış ........................................ 102-107
2-ci fəsil. Uçmaq arzusu ........................................ 107-113
3-cü fəsil. Ay ........................................ 113-118
Ümumiləşdirici təkrar ........................................ 118-119
Kiçik summativ qiymətləndirmə ........................................ 119


LAYİHƏ

# GİRİŞ

## 1. Dərslik komponentləri

Təqdim olunan dərslik komplekti məzmun standartlarının reallaşdırılması baxımından bir-birini tamamlayan üç kitabdan ibarətdir: dərslik, iş dəftəri və metodik vəsait.

Dil tədrisinin əsas məzmununu təşkil edən informasiya materialı – oxu üçün mətnlər, vizual materiallar, nitq bacarıqlarının inkişafı üçün zəruri dil qaydaları və tapşırıqlar dərslikdə verilir. Digər komponentlər dərsliyin məzmunu ilə bağlıdır.

Metodik vəsait dərslik komplektinin vacib komponentlərindən biridir. Müəllim üçün nəzərdə tutulmuş bu vəsaitdə məzmun standartları açıqlanır, mətnlərin oxunması üçün üsul və strategiyalar təklif olunur, hər bir dərs üzrə təlim nəticələri göstərilir, diferensial təlim yolları, əlavə resurslar və s. haqqında məlumat verilir.

İş dəftəri mənimsədilən bilik və bacarıqların tətbiqi üçün nəzərdə tutulmuş çalışmalardan ibarətdir.

## 2. Dərsliyin strukturu

**Tədris vahidləri.** 3-cü sinifdə Azərbaycan dilinin (dövlət dili kimi) tədrisinin 6 mərhələdə keçilməsi nəzərdə tutulur. Dərslik komplektində bu mərhələlər ayrı-ayrı bölmələr (tədris vahidləri) şəklində təqdim olunmuşdur. Hər yarımil üçün 3 bölmə nəzərdə tutulmuşdur.

**Bölmənin strukturu**. Hər bir bölmə üç və ya dörd fəsil və ümumiləşdirici təkrardan ibarətdir. Dərslikdə bölməyə giriş olaraq təqdim olunmuş titul səhifəsində müvafiq bölmənin məzmunu ilə bağlı vizual materiallar və diaqnostik qiymətləndirmə üçün suallar verilir.

Ümumiləşdirici təkrar dərsində müvafiq bölmədə mənimsədilmiş nitq bacarıqlarının reallaşdırılması və dil qaydalarının tətbiqi üzrə çalışmalar yerinə yetirilir.

**Fəslin strukturu**. Dərslikdə ən kiçik məzmun vahidi fəsildir. O, bir neçə dərsi (2-4) əhatə edir. Fəsildə müəyyən mövzu zəminində müxtəlif nitq bacarıqlarının inkişafı üçün materiallar verilir. Bu materiallar oxu üçün nəzərdə tutulmuş mətn(lər) üzərində qurulur, bütün məzmun xətləri üzrə standartlar müvafiq mövzuya aid nitq materialı üzərində reallaşdırılır. Ona görə də dərsliyin məzmun kompozisiyası haqqında danışarkən bir dərsin deyil, fəsli təşkil edən bir neçə dərsin mərhələlərindən danışmaq lazım gəlir.

Fəsillərin strukturu aşağıdakı kimidir:




Bu struktur hər bir fəsildə müxtəlif məzmun xətlərinə aid standartların taksonomiyanın mərhələlərinə uyğun reallaşdırılmasına imkan yaradır:

1) **Oxu.** Şagirdlər mətni oxuyur, mövzu üzrə yeni məlumat əldə edirlər; bu zaman müxtəlif oxu strategiyaları tətbiq olunur: növbəli oxu, istiqamətləndirilmiş oxu, qruplarla oxu və s.

2) **Özünüifadə.** Əldə etdikləri məlumat və ya ideya ətrafında danışır (müzakirə, debat), yazır (təqdimat, esse), dinlədiklərini oxuduqları ilə müqayisə edirlər.

3) **Ədəbi dil normalarına uyğun yazı.** Hər fəsildə ekspressiv yazı bacarığının inkişafı üçün praktiki əhəmiyyət daşıyan müəyyən dil qaydası mənimsədilir. Möhkəmləndirici tapşırıqlardan sonra şagirdlər həmin qaydanı yazıda tətbiq edirlər.

LAYİHƏ

## 3. Məzmun vahidlərinin saatlar üzrə bölgüsü

3-cü sinifdə Azərbaycan dilinin tədrisinə 68 saat ayrılır: 34 həftə x 2 saat. Bölmə və fəsillərin saatlar üzrə bölgüsü aşağıdakı kimidir.

| Fəsil | Oxu | Yazı. Dil qaydası | Saat |
|---|---|---|---|
| **1-ci bölmə. AİLƏ VƏ MƏKTƏB** | | | |
| **1. Ailə** | İsti ana qucağında | Sait və samit<br>Heca. Sözlərin sətirdən sətrə keçirilməsi | 3 |
| **2. Məktəb** | Yaxşı yoldaş | Qalın və incə saitlər<br>Dodaqlanan və dodaqlanmayan saitlər | 4 |
| **3. Sinfimizin uşaqları** | Ananın məsləhəti | Ahəng qanunu | 2 |
| **4. Sevimli dostum** | Dostum Lətif | | 1 |
| Ümumiləşdirici təkrar | | | 1 |
| Kiçik summativ qiymətləndirmə | | | 1 |
| **2-ci bölmə. ANA VƏTƏN** | | | |
| **1. Mənim vətənim** | Azərbaycan | “K” hərfi ilə bitən sözlərin yazılışı | 2 |
| **2. Dövlət atributları** | Bayraqlar | “Q” hərfi ilə bitən sözlərin yazılışı | 3 |
| **3. Abidələr** | Yanardağ | “O” hərfi ilə yazılan sözlər | 2 |
| **4. Qarabağ** | Şuşa bizimdir | B, C, D, G samitləri ilə bitən sözlərin yazılışı | 2 |
| Ümumiləşdirici təkrar | | | 1 |
| Kiçik summativ qiymətləndirmə | | | 1 |
| **3-cü bölmə. SEVİMLİ QƏHRƏMANLARIM** | | | |
| **1. Yenilməz qəhrəmanlar** | Məlikməmməd | Nəqli və sual cümlələri | 3 |
| **2. Kələkbazlar** | Çəkməli Pişik | Əmr cümləsi. Nida cümləsi | 2 |
| **3. Sehrli qüvvələr** | Ələddinin sehrli çırağı | Mürəkkəb cümlə | 3 |
| Ümumiləşdirici təkrar | | | 1 |
| Kiçik summativ qiymətləndirmə | | | 1 |
| **4-cü bölmə. YAXŞI NƏDİR, PİS NƏDİR?** | | | |
| **1. Zəhmətkeşlik** | Bağban və oğulları | *-lar, -lər* çoxluq bildirən şəkilçi | 2 |
| **2. Dürüstlük** | Üç oğlan | Xüsusi isimlərin böyük hərflə yazılması | 4 |
| **3. Dostluq** | Dilarə | Əlamət bildirən sözlər | 2 |
| **4. Nizam-intizam** | Ballı və Vız-vız | Hərəkətin təsdiqi və inkarı | 2 |
| Ümumiləşdirici təkrar | | | 1 |
| Kiçik summativ qiymətləndirmə | | | 1 |
| **5-ci bölmə. QƏRİBƏ CANLILAR** | | | |
| **1. İnsanın dostları** | İtlər və pişiklər | Miqdar və sıra sayları | 3 |
| **2. Sincab** | Bağban Sincab | Bağlayıcılar | 3 |
| **3. Yarasalar** | Yarasa nə üçün gecə-lər uçur? Gecəquşu | Mürəkkəb sözlər | 3 |
| Ümumiləşdirici təkrar | | | 1 |
| Kiçik summativ qiymətləndirmə | | | 1 |
| **6-cı bölmə. DÜNYANI KƏŞF EDİRƏM** | | | |
| **1. Yağış** | Çayın gileyi | Təkrar | 3 |
| **2. Uçmaq arzusu** | Təyyarənin ixtirası | Təkrar | 4 |
| **3. Ay** | Ayın itməsi | Təkrar | 3 |
| Ümumiləşdirici təkrar | | | 1 |
| Kiçik summativ qiymətləndirmə | | | 1 |

LAYİHƏ

## 4. Məzmun standartları və təlim nəticələri

Aşağıda məzmun standartlarının tədris prosesində reallaşdırılması yolları açıqlanır. Hər dərsdə bir və ya bir neçə alt standart reallaşdırılır. Dərslərdə qoyulan təlim məqsədləri – gözlənilən şagird nailiyyətləri məzmun standartlarına doğru aparan addımları və ya standartların reallaşma üsullarını göstərir.

**1. DİNLƏMƏ**

**1.1. Təqdim olunan sadə nitq nümunələrini anladığını nümayiş etdirir.**

**1.1.1. Dinlədiyi sadə fikrin mahiyyətini müəyyən edir.**

- Dinlədiyi və bildiyi məlumatları müqayisə edib nəticə çıxarır.
- Dinlədiyi və oxuduğu mətnlərdəki məlumatları müqayisə edir.
- Dinlədiyi və oxuduğu mətnləri mövzu, məzmun, ideya baxımından müqayisə edir.

**1.1.2. Dinlədiyi kiçikhəcmli mətnlərin məzmununu anladığını nümayiş etdirir.**

- Dinlədiyi informasiyaya əsasən verilmiş suallara adekvat cavab verir.
- Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir.
- Dinlədiyi mətnin məzmunu ilə bağlı suallar tərtib edir.
- Mətni dinləyərkən mühüm məlumatları qeyd edir.

**2. DANIŞMA**

**2.1. Danışarkən fəal leksikadan və sadə qrammatik konstruksiyalardan istifadə edir.**

**2.1.1. Fikrini ifadə etmək üçün sintaktik konstruksiyalardan düzgün istifadə edir.**

- Rabitəli cümlə qurmaq üçün sözlərdə müəyyən şəkilçilərdən düzgün istifadə edir.
- Verilmiş söz, söz birləşməsi və nitq etiketlərini düzgün tələffüz edir.

**2.1.2. Nitqində yeni öyrəndiyi söz və söz birləşmələrindən istifadə edir.**

- Öyrəndiyi sözlərdən istifadə etməklə şəkillər üzrə danışır.
- Yeni öyrəndiyi söz və ifadələri cümlələrdə kontekstə uyğun işlədir.
- Fikrini əsaslandırmaqla münasibət bildirir.
- İnformasiyadan istifadə etməklə təqdimat edir.

**2.2. Verilmiş sadə nitq nümunələrindən istifadə etməklə ünsiyyət bacarıqlarını nümayiş etdirir.**

**2.2.1. Müşahidə etdiyi əşya və hadisələr haqqında danışır.**

- Həyatda gördükləri və təəssüratları haqqında danışır.
- Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir.
- Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır.
- Qrafik işarələri (yol nişanları və s.) cümlə şəklində ifadə edir.
- Şəkildə gördüklərini təsvir edir və onları şəxsi həyatı ilə əlaqələndirir.
- Süjetli şəkil kompozisiyası üzrə mətn qurub danışır.

**2.2.2. Aldığı məlumatları sadə formada şərh edir və genişləndirir.**

- Aldığı məlumatları rabitəli mətn halına salaraq şifahi təqdim edir.
- Bildiyi məlumatlardan istifadə etməklə şəkillər üzrə danışır.
- Verbal və qrafik materialları (şəkil, sxem, xəritə və s.) şərh etməklə mövzu üzrə danışır.
- Verilmiş mövzu ilə bağlı şifahi təqdimat hazırlayır.

**2.2.3. Dialoq zamanı fikirlərini rabitəli şəkildə çatdırır.**

- Müzakirə zamanı mövzuya uyğun fikir yürüdür.
- Sözlərə çoxvariantlı şəkilçilər artırarkən ahəng qanununa riayət edir.
- Sualı cavablandırarkən fikrini əsaslandırır.
- Tərtib etdiyi suallar əsasında müsahibi ilə dialoq qurur.

LAYİHƏ

**3. OXU**

**3.1.1. Kiçikhəcmli mətnləri düzgün və ifadəli oxuyur.**

- Dialoji mətni səsləndirərkən obrazların nitqini fərqli səs tonu ilə oxuyur.
- Obrazların nitqini müəllif nitqindən fərqli intonasiya ilə oxuyur.
- Sözləri bütöv tələffüz etməklə kiçikhəcmli mətnləri oxuyur.

**3.1.2. Kiçik mətnləri oxuyur və məzmununu şərh edir.**

- Bədii və informativ mətnlərdə mövzu, məzmun və ideya anlayışlarını fərqləndirir.
- Əsas epizodları müəyyənləşdirməklə mətnin planını qurur.
- Əsərdəki obrazları, zaman və məkanı müəyyənləşdirir.
- Faktlardan istifadə etməklə mətndə birbaşa əks olunmayan məlumat əldə edir.
- Götürdüyü qeydlər və ya plan əsasında mətni nəql edir.
- İnformasiyanı mətnin tərkib hissələrinə uyğun qruplaşdırır.
- Mətndə problem-qərar əlaqələrini müəyyənləşdirir.
- Mətndəki hadisələr arasındakı səbəb-nəticə əlaqəsini müəyyən edir.
- Mətndəki hadisələrin ardıcıllığını müəyyən edir.
- Mətndəki hadisələrin məntiqi ardıcıllığını (səbəb-nəticə əlaqəsini) müəyyən edir.
- Mətndəki informasiyaları müəyyənləşdirir.
- Mətndən əsas fikri müəyyənləşdirməyə kömək edən məqamları seçir.
- Mətnə əsasən hekayə xəritəsi tərtib edir.
- Mətnə və ya abzasa uyğun başlıq müəyyənləşdirir.
- Mətnin məzmununa uyğun gələn fikirləri müəyyən edir.
- Mətnin məzmunundan çıxış edərək hadisələrin davamını təxmin edir.
- Mətnin tərkib hissələrini müəyyən edir.
- Mətnlə illüstrasiya arasındakı uyğun(suz)luğu müəyyən edir.
- Məzmunun açılmasına xidmət edən açar sözləri müəyyənləşdirir.
- Mövzuya aid yeni məlumatları mətnin uyğun hissələri ilə əlaqələndirir.
- Oxuduğu cümlədə ifadə olunan fikri müəyyən edir və ona münasibət bildirir.
- Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir.
- Sərlövhədən və illüstrasiyalardan çıxış edərək mətnin məzmununu təxmin edir.
- Verilmiş məlumatlara uyğun olaraq mətni genişləndirir.

**3.1.3. Oxuduğu mətndəki sözlərin mənasını müəyyən edir.**

- Anlayışın əsas əlamətlərinə görə sözü müəyyən edir.
- Cümlədə buraxılmış sözü müəyyən edir.
- Çoxmənalı söz və ya omonimin kontekstə uyğun mənasını təxmin edir.
- Kontekstdən çıxış edərək tanış olmadığı söz və ifadələrin mənasını təxmin edir.
- Sözləri ümumi mənalarına görə qruplaşdırır.
- Təqlidi sözün səslənməsinə görə mənasını təxmin edir.
- Yaxınmənalı sözləri müəyyənləşdirir.
- Yeni sözləri kontekstə uyğun cümlədə işlədir.
- Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir.

**4. YAZI**

**4.1.1. Hərfləri və sözləri düzgün yazır.**

- Səslə hərfi uyğunlaşdıraraq eşitdiyi sözü yazır.
- Sözlərin yazılışında orfoqrafik normalara riayət edir.
- “K” hərfi ilə bitən sözləri düzgün yazır.



LAYİHƏ

- "Q" hərfi ilə bitən sözləri orfoqrafik qaydaya uyğun yazır.
- Buraxılmış hərfləri yerinə qoymaqla sözləri köçürür.
- Həm ümumi, həm də xüsusi isim kimi işlənən sözlərin yerindən asılı olaraq böyük, yoxsa kiçik hərflə yazıldığını müəyyənləşdirir.
- Xüsusi isimlərin böyük hərflə yazılış qaydalarına əməl edir.
- Mürəkkəb sözlərin yazılış qaydalarına riayət edir.
- Özünün və başqasının yazısında orfoqrafik normalara uyğun düzəlişlər edir.
- Sözləri sətirdən sətrə düzgün keçirir.
- Sözlərin sonundakı orfoqramları düzgün yazır.
- Tərkibində "o" hərfi olan alınma sözləri düzgün yazır.
- Sayların söz və rəqəmlə yazılışında uyğun qaydalara riayət edir.
- Ahəng qanununa tabe olan sözləri fərqləndirir.
- Ahəng qanunundan asılı olaraq çoxvariantlı şəkilçilərdən uyğun olanını seçir.
- Sözlərə çoxvariantlı şəkilçilər artırarkən ahəng qanununa riayət edir.
- Cəm şəkilçisini orfoqrafik normalara uyğun yazır.

**4.1.2. Söz birləşmələri və cümlələrin yazılışında sadə qrammatik normalara əməl edir.**
- Məqsədə uyğun olaraq sual cümləsi qurur.
- Cümləni quruluşuna görə fərqləndirir.
- Əmr və nida cümlələrini fərqləndirir.
- Feilin inkar şəkilçisindən düzgün istifadə edir.
- Fikrini yazılı şəkildə ifadə edərkən cümləni düzgün qurur.
- Mürəkkəb cümlə qurur.
- Nəqli və sual cümlələrini fərqləndirir.
- Sayların söz və rəqəmlə yazılışında uyğun qaydalara riayət edir.
- Söz birləşmələri və cümlələrdə qrammatik baxımdan zəruri düzəlişlər edir.
- Sözlər və cümlənin tərkib hissələri arasında uyğun bağlayıcılardan istifadə edir.
- Sözləri quruluşuna görə fərqləndirir.
- Sual cümlələrində sual əvəzliklərindən yerli-yerində istifadə edir.
- Yazarkən cümlədə söz sırasına əməl edir.
- Sözlər və cümlənin tərkib hissələri arasında uyğun bağlayıcılardan istifadə edir.

**4.1.3. Yazıda durğu işarələrindən istifadə qaydalarına əməl edir.**
- Bağlayıcılarda durğu işarələrindən yerli-yerində istifadə edir.
- Durğu işarələrinin işlənmə yerini və məqsədini müəyyən edir.
- Mürəkkəb cümlənin tərkib hissələri arasında durğu işarələrindən düzgün istifadə edir.

**4.1.4. Fakt, hadisə, fikir və duyğularını yazıda əks etdirir.**
- Verilmiş şəklə uyğun söz və cümlələr yazır.
- Verilmiş situasiyaya, məqsədə uyğun məktub yazır.
- Mətnin verilmiş şəklə uyğun gələn hissəsini tapıb köçürür.
- Əldə etdiyi məlumatlar əsasında kiçikhəcmli informativ mətn yazır.
- Mövzuya, situasiyaya uyğun kiçikhəcmli mətn (açıqça, təəssürat) yazır.
- Oxuduğu mətnin qısa məzmununu yazır.
- Şəkil və ya plan əsasında təsviri xarakterli mətn yazır.
- Verbal informasiyanı qeyri-verbal şəkildə və əksinə ifadə edir.
- Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı (məlumat vərəqi, cədvəl, diaqram, sxem və s.) hazırlayır.
- Verilmiş informasiyalardan istifadə etməklə rabitəli mətn yazır.

LAYİHƏ

## Bölmə 1 AİLƏ VƏ MƏKTƏB

| Dərs saat | Mövzu (oxu, söz ehtiyatı, şifahi nitq) | Yazı (Dil qaydaları) | Dərslik səh. | İş dəftəri səh. | MV səh. |
|---|---|---|---|---|---|
| 1-ci fəsil. **Ailə** | | | | | |
| 1 | Ailə ağacı | | 8 | 3 | 9-10 |
| 2 | İsti ana qucağında | | 9 | 4 | 10-11 |
| 3 | | Sait və samit. Heca. Sözlərin sətirdən sətrə keçirilməsi | 10 | 5 | 12-13 |
| 2-ci fəsil. **Məktəb** | | | | | |
| 4 | Dərs cədvəli | | 11 | 6 | 13-14 |
| 5 | Yaxşı yoldaş | | 12-13 | 7 | 14-16 |
| 6 | Hekayə xəritəsi | | 14 | 8 | 17-18 |
| 7 | | Qalın və incə saitlər. Dodaqlanan və dodaqlanmayan saitlər | 15 | 9 | 19-20 |
| 3-cü fəsil. **Sinfimizin uşaqları** | | | | | |
| 8 | Ananın məsləhəti | | 16-18 | 10 | 21-23 |
| 9 | | Ahəng qanunu | 18-19 | 11 | 23-24 |
| 4-cü fəsil. **Sevimli dostum** | | | | | |
| 10 | Dostum Lətif | Qoşasaitli sözlər | 20-21 | 12 | 25-26 |
| 11 | 1-ci bölmə üzrə ümumiləşdirici təkrar | | 22 | | 27 |
| | 1-ci bölmə üzrə kiçik summativ qiymətləndirmə | | | 13-14 | 28 |

**Bölmənin icmalı**

1-ci bölmə şagirdlərin məktəb mühitinə adaptasiya dövrünə təsadüf etdiyindən əvvəlcə onların nitq bacarıqları üzrə diaqnostik qiymətləndirilməsi aparılır. Bu, diferensial təlimin keyfiyyətinə müsbət təsir göstərir. Cari tədris ilində şagirdlərin öncədən sahib olduqları bilik və bacarıqlar aşağıdakılardır:

– özü (ailə üzvləri, qohumları) haqqında rabitəli cümlələrlə danışır;

– sözləri hecalamadan, bütöv tələffüz etməklə kiçikhəcmli mətnləri oxuyur;

– nəzm və nəsrlə yazılmış mətnin əsas struktur elementlərini (bənd, misra, abzas, başlıq və s.) tanıyır;

– mətnin məzmunu ilə bağlı əsas anlayışları (“zaman”, “məkan”, “obraz”, “baş qəhrəman”, “əsas hadisə”, “əsas fikir” və s.) tanıyır;

– mövzu ilə bağlı sadə şifahi və yazılı təqdimat hazırlayır.

**Dinləmə və danışma.** Şagirdlərin şifahi nitqi, əsasən, 1) süjetli kompozisiya üzrə mətn qurub danışma; 2) qrafik informasiyanı rabitəli mətn şəklində ifadə etmə; 3) mətni təxəyyülünə uyğun davam etdirmə; 4) danışarkən cümlədə söz sırasına əməl etmə bacarıqlarının təkmilləşdirilməsi istiqamətində inkişaf etdirilir.

**Söz ehtiyatı.** Şagirdlərin, əsasən, mövzu üzrə keçən tədris ilindən mənimsədikləri sözlərdən istifadə edilir. Eyni zamanda bir çox yeni sözlər də öyrənilir.

**Oxu.** Mətndəki məlumatların düzgün və sürətlə qavranılması bacarıqları formalaşdırılır.

**Yazı.** Qrammatik normalara əməl etməklə yazı bacarıqları formalaşdırılır. Azərbaycan dilinin orfoqrafik normalarına uyğun yazı bacarığına yiyələnilir.



LAYİHƏ

# 1-ci fəsil
# AİLƏ

## 1-ci DƏRS
## Ailə ağacı

**Təlim nəticələri:**

**Danışma:**

• Həyatda gördükləri və təəssüratları haqqında danışır (st. 2.2.1).

• Öyrəndiyi sözlərdən istifadə etməklə şəkillər üzrə danışır (st. 2.1.2).

**Söz ehtiyatı:**

• Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir (st. 3.1.3).

**Yazı:**

• Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı (məlumat vərəqi, cədvəl, diaqram, sxem və s.) hazırlayır (st. 4.1.4).

**Mövzuya yönəltmə.** Müəllim şagirdlərin diqqətini bölmənin titul səhifəsindəki şəkillərə, bölmənin adına yönəldir.

**Danışma.** Danışma fəaliyyəti bölmənin titul səhifəsində verilmiş şəkillər əsasında yerinə yetirilir. Müəllim danışmağa həvəsləndirmək üçün yönəldici suallardan istifadə edir.

**Dərslik, səh. 7**

**1.** Siz günün çox hissəsini harada keçirirsiniz?
**2.** Sizə doğma olan insanlar haqqında danışın.
**3.** İnsanın həyatında məktəbin rolu haqqında nə deyə bilərsiniz?

Əlavə suallar vasitəsilə mövzu şagirdlərin həyatı ilə əlaqələndirilir.

**Söz ehtiyatı**

**Dərslik, səh. 8. "Söz mücrüsü" rubrikası**

Söz mücrüsü

əmi • dayı • bibi • xala

Müəllim aşağı siniflərdə ailə üzvləri haqqında öyrəndikləri söz ehtiyatını *(ana, ata, baba, nənə, qardaş, bacı)* şagirdlərə xatırladır. "Söz mücrüsü"ndə verilmiş yeni sözlərin *(əmi, dayı, xala, bibi)* mənasını şagirdlərə izah edir.

**İş dəftəri, səh. 3**

**1.** İzahlara uyğun sözlər yaz.

Şagirdlər iş dəftərində verilmiş 1-ci tapşırığı yerinə yetirməklə sözlərin mənasını anladıqlarını nümayiş etdirir və növbəti tapşırıqda istifadə edəcəkləri sözləri mənimsəyirlər.

**Danışma**

**Dərslik, səh. 8**

**1.** Nümunəyə əsasən qohumluq bildirən sözlərin mənasını izah edin.

Dərslikdə şagirdlərə ailə ağacı təqdim edilmişdir. Şagirdlər növbə ilə nümunədə göstərilən kimi cümlələr qurub söyləyirlər. Digər şagirdlər isə onu dinləyir və lazım gələrsə, səhvini düzəldirlər. Tapşırığın əsas məqsədi şagirdlərə qohumluq əlaqələrini izah etmək və qohumluq bildirən sözləri mənimsətməkdir. Həmçinin şagirdlərin qrafik informasiyanı rabitəli cümlələr quraraq izah etmək bacarıqları formalaşdırılır.

**Yazı. Söz ehtiyatı**

**Dərslik, səh. 8**

**2.** Yuxarıdakı nümunəyə əsasən siz də öz "ailə ağacı"nızı yaradın.

Şagirdlər bu tapşırığı müxtəlif üsullarla yerinə yetirə bilərlər.

**I üsul:**

1. A3 vərəqində ailə ağacını çəkin.
2. Ailə üzvlərinizin şəklini və yaxud adlarını ağacın uyğun budaqlarının üzərində yerləşdirin.
3. Qohumluq əlaqələrini qeyd edin.

**II üsul:**

1. Kiçik budağı plastilinin köməyi ilə qutuda yerləşdirin.
2. İstədiyiniz formada kiçik kağızlar kəsin.
3. Kağızın üzərində doğmanızın adını və qohumluq əlaqənizi yazın.
4. Hazır kağızlara ip keçirin.
5. Kağızları budaqdan asın.

Sonda hər bir şagird öz işini təqdim edir. Şagirdlər şəkildəki qohumlarının adlarını və

LAYİHƏ

onlarla qohumluq əlaqələrini izah edirlər. Təxminən belə olmalıdır:

*– Bu mənim əmimdir. Adı Adildir. Adil əmim həkimdir. Bu isə bibimdir, bibimin adı Sevildir. O, müəllimdir* və s. Şagirdlər qohumluq bildirən sözlərlə bağlı biliklərini öz şəxsi nümunəsində tətbiq etməklə həmin sözlərin mənasını mənimsədiklərini nümayiş etdirirlər. Bu tapşırıq şagirdlərin yazı və təqdimetmə bacarığını inkişaf etdirir.

**Müəllimin nəzərinə!** Bu tipli tapşırıqların yerinə yetirilməsi zamanı müəllim ailə üzvlərindən birini və ya bir neçəsini itirmiş şagirdlərlə həssas davranmalı, məktəb psixoloqunun köməyindən istifadə etməlidir.

**Diferensial təlim.** Təqdimatı söz ehtiyatı zəngin olan, Azərbaycan dilini daha yaxşı bilən şagirdlərin birinci təqdim etməsi daha məqsədəuyğundur. Bu digər şagirdləri istiqamətləndirər, təqdim etməzdən əvvəl öz nitqlərində düzəlişlər edə bilərlər.

**İş dəftəri, səh. 3**

**2.** Dərslikdəki ailə ağacına bax və nümunəyə uyğun cümlələr yaz.

Tapşırıq şagirdlərin qohumluq əlaqələri bildirən sözlərin və düzgün yazı bacarıqlarının möhkəmləndirilməsinə yönəlib.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Həyatda gördükləri və təəssüratları haqqında danışır. | Titul səhifəsi (D.) |
| Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir. | “Söz mücrüsü” rubrikası, tap. 1 (İ.D.) |
| Öyrəndiyi sözlərdən istifadə etməklə şəkillər üzrə danışır. | Tap. 1 (D.) |
| Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı (məlumat vərəqi, cədvəl, diaqram, sxem və s.) hazırlayır. | Tap. 2 (D.), tap. 2 (İ.D.) |

# 2-ci DƏRS
# İsti ana qucağında

**Təlim nəticələri:**

**Yeni sözlər:** əziz, sözəbaxan, gözü yaşla dolmaq, əyləndirmək, atılmaq, qucaq, qurumaq.

**Danışma:**
- Müzakirə zamanı mövzuya uyğun fikir yürüdür (st. 2.2.3).

**Oxu:**
- Yaxınmənalı sözləri müəyyənləşdirir (st. 3.1.3).
- Mətndəki hadisələrin məntiqi ardıcıllığını (səbəb-nəticə əlaqəsini) müəyyən edir (st. 3.1.2).
- Əsərdəki obrazları, zaman və məkanı müəyyənləşdirir (st. 3.1.2).

**Yazı:**
- Mətnin verilmiş şəklə uyğun gələn hissəsini tapıb köçürür (st. 4.1.4).

**Mövzuya yönəltmə.** Keçmiş dərsin mövzusu xatırlanır. Müəllim lövhədə dairə çəkir. Şagirdlər ötən dərsdə tanış olduqları ailə üzvlərinin adını söylədikcə müəllim həmin sözləri *(ana, ata, baba, nənə, bacı, qardaş, əmi, dayı, bibi, xala)* dairənin ətrafına yazır. Mərkəzdə hansı sözün yazıla biləcəyini soruşur.

**Düzgün cavab:** ailə.

**Söz ehtiyatı**

**Dərslik, səh. 9. “Söz mücrüsü” rubrikası**

**Söz mücrüsü**

əziz • sözəbaxan • gözü yaşla dolmaq
əyləndirmək • atılmaq • qucaq • qurumaq

Əvvəlcə “söz mücrüsü”ndəki sözlərin mənası üzərində iş aparılır. Müəllim şagirdlərə yeni sözlərin mənasını izah edir (*əziz* – sevimli, istəkli; *sözəbaxan* – sözə qulaq asan, deyilənə əməl edən; *gözü yaşla dolmaq* – ağlamaq; *atılmaq* – hoppanmaq; *qurumaq* – yaşlığı yox olmaq). Müəllim ehtiyac olarsa, bəzi sözlərin mənasını jestlər (məsələn, qucaq) və yaxud tədris dilinə tərcümə ilə izah edə bilər.

Şagirdlər həmin sözləri cümlələrdə işlətməklə mənasını anladıqlarını nümayiş etdirirlər.

LAYİHƏ

**Oxu ("İsti ana qucağında" şeiri üzərində iş)**

**Dərslik, səh. 9**

**1.** Şeiri oxuyun. Qohumluq bildirən sözləri qeyd edin.

Şagirdlər "İsti ana qucağında" şeirinin bəndlərini növbə ilə səsli oxuyurlar. Şeirdə işlənmiş qohumluq bildirən sözləri dəftərlərinə qeyd edirlər.

**"Nə anladın?"** rubrikasında verilmiş sual və tapşırıqlar oxuyub-qavrama, ümumiləşdirmə bacarığının inkişafına yönəlmişdir.

**Dərslik, səh. 9**

**2.** Verilmiş sözlərin yaxınmənalı qarşılığını "söz mücrüsü"ndən seçin.

Tapşırıq söz ehtiyatının möhkəmləndirilməsinə xidmət edir. Şagirdlər tapşırıqda verilmiş sözlərə *(ağlamaq, hoppanmaq, sevimli)* "söz mücrüsü"ndən yaxınmənalı sözlər seçirlər.

**Düzgün cavab:**

*ağlamaq* – gözləri yaşla dolmaq

*hoppanmaq* – atılmaq

*sevimli* – əziz

**Dərslik, səh. 9**

**3.** Şeirin məzmununa əsasən cümlələri tamamlayın.

Şagirdlər şeirdə haqqında danışılan uşağın ailə üzvlərinə qarşı olan sevgisinin səbəbini izah edərək cümlələri tamamlayırlar.

**"Düşün və cavab ver"** rubrikasında verilmiş tapşırıq şagirdlərdə danışma bacarığının, həmçinin tənqidi və yaradıcı təfəkkürün formalaşmasına xidmət edir.

**Dərslik, səh. 9**

**4.** Sizcə, uşaq babasına, atasına, qardaşına sevgisinin səbəbini necə izah edərdi?

Tapşırıqda verilmiş sualı cavablandırmaqla şagirdlər mövzuya uyğun şəxsi fikir yürüdürlər.

İş dəftərində verilmiş tapşırıqlar formativ qiymətləndirmə üçün istifadə edilə bilər.

**İş dəftəri, səh. 4**

**1.** "İsti ana qucağında" şeirində hansı ailə üzvlərinin adı çəkilmədi? Həmin ailə üzvlərinə aid bəndləri müəyyənləşdir.

Şagirdlər "İsti ana qucağında" şeirində adı çəkilməyən ailə üzvlərini müəyyənləşdirirlər *(ata, baba)*. İş dəftərindəki tapşırıqda verilmiş şeir bəndlərini oxuyurlar. Həmin ailə üzvlərinə aid bəndləri müəyyənləşdirirlər.

**İş dəftəri, səh. 4**

**2.** Uyğunluğu müəyyən et.

Şagirdlər tapşırıqda verilmiş fikirlərin hansı ailə üzvünə aid olduğunu müəyyənləşdirirlər.

**Düzgün cavab:**

Ağıllıdır, sözəbaxandır – şeirin əsas obrazı, qız.

Qıza həmişə "can" deyir – qızın xalası.

Məktəblidir – qızın bacısı.

Nağıl danışır – qızın nənəsi.

**Oxu. Yazı**

**İş dəftəri, səh. 4**

**3.** Şeirin şəklə uyğun bəndini müəyyənləşdir. Öz sözlərinlə yaz.

Tapşırıqda "İsti ana qucağında" şeirinin məzmununa uyğun illüstrasiya verilmişdir. Şagirdlər şeirin illüstrasiyaya uyğun misralarını öz sözləri ilə yazırlar. Tapşırıq yerinə yetirilərkən şagirdlərin şeirdəki fikri saxlamaqla təhkiyə şəklində rabitəli mətn qurmalarına və cümlələrdə söz sırasına riayət etmələrinə diqqət yetirilməsi tövsiyə olunur.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Yaxınmənalı sözləri müəyyənləşdirir. | Tap. 2 (D.) |
| Mətndəki hadisələrin səbəbini müəyyən edir. | Tap. 3 (D.) |
| Müzakirə zamanı mövzuya uyğun fikir yürüdür. | Tap. 4 (D.) |
| Əsərdəki obrazları, zaman və məkanı müəyyənləşdirir. | Tap. 1, 2 (İ.D.) |
| Mətnin verilmiş şəklə uyğun gələn hissəsini tapıb köçürür. | Tap. 3 (İ.D.) |

LAYİHƏ

# 3-cü DƏRS
## Sait və samit. Heca. Sözlərin sətirdən sətrə keçirilməsi

**Təlim nəticələri:**

**Yazı:**
- Sözləri sətirdən sətrə düzgün keçirir (st. 4.1.1).
- Özünün və başqasının yazısında orfoqrafik normalara uyğun düzəlişlər edir (st. 4.1.1).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 10**

**1.** "Mən" sözündə neçə hərf var? Bu sözdəki səsləri tələffüz edin. Hansı səsi uzadaraq tələffüz etmək olur?

Tapşırıq sait və samit səslər mövzusuna keçid məqsədi daşıyır. Müəllimin yönəldici sualları ilə tapşırıqda verilmiş "mən" sözünü təşkil edən səslərin [m], [ə], [n] tələffüzü üzərində müşahidə aparılır və həmin səslər müqayisə olunur. Məsələn: [m] və [n] səslərini tələffüz edin. Tələffüz edərkən diqqətinizi dilinizə, dişinizə və dodaqlarınıza yönəldin. İndi isə [ə] səsini tələffüz edin. Hansı səsi uzatmaq mümkündür? Hansı səsi tələffüz edərkən dodaqlarınız bitişdi? Hansı səsin tələffüzündə diliniz dişinizə toxundu?

**"Bunları bilməliyik" rubrikası.** Müəllim şagirdlərin diqqətini "Bunları bilməliyik" rubrikasına yönəldir. "Mən" və "ana" sözlərinin sxemi əsasında sait və samit səsləri fərqləndirmək bacarığı aşılanır.

**Müəllimin nəzərinə!** Müəllim sait və samit səsləri fərqləndirmək bacarığını aşılamaq üçün bir çox əlavə sözlər üzərində iş apara bilər.

**Dərslik, səh. 10**

**2.** Verilmiş sözlərdə saitlərin və samitlərin sayını müəyyən edin. Onları ayrılıqda tələffüz edin.

**İş dəftəri, səh. 5**

**1.** Hərfləri elə ardıcıllıqla yaz ki, saitlə başlayıb saitlə bitən sözlər alınsın.

**Düzgün cavab:**

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| t | a | s | u | → | u | s | t | a |
| r | a | u | z | → | a | r | z | u |
| i | n | e | y | → | e | y | n | i |
| r | a | t | o | → | o | r | t | a |

Şagirdlər bu tapşırıqları yerinə yetirməklə sait və samit səsləri müqayisə yolu ilə mənimsəyirlər.

**Dərslik, səh. 10**

**3.** Ailə üzvlərinizlə necə vaxt keçirirsiniz?
- Bu haqda məlumat vermək üçün bir neçə cümlə yazın.
- Yazdığınız cümlələrdə saitlərin altından xətt çəkin.
- Yazınıza diqqət edin. Söz sətrin sonuna yerləşməyəndə nə etmisiniz?

Tapşırıqlar sözün sətirdən sətrə keçirilməsi üzrə dil qaydasının mənimsədilməsi üçün hazırlıq rolunu oynayır. Şagirdlər tapşırığı yerinə yetirdikdən sonra müəllim suallar vasitəsilə onların diqqətini mövzuya yönəldir:
- Nə üçün bəzi sətirlərin sonunda boş yer qalmasına baxmayaraq növbəti söz yeni sətirdən yazılıb? Həmin sözü sətrin sonundakı boşluğa yerləşdirə bilmərikmi?
- Nə üçün sətrin sonundakı söz çox sıx yazılıb? Hərfləri bu qədər xırda yazıb sıxlaşdırmaq əvəzinə başqa nə edə bilərik?

**"Bunları bilməliyik" rubrikası.** Bu rubrikada şagirdlərə sözlərin sətirdən sətrə keçirilməsi qaydaları izah edilir.

**Dərslik, səh. 10**

**4.** Hansı sözlər hecalara düzgün ayrılıb?

**Düzgün cavab:**
Gödəkçə, bənövşəyi, qayğıkeş.

**Dərslik, səh. 10**

**5.** Hansı sözləri sətirdən sətrə keçirmək olmaz?

LAYİHƏ

**Düzgün cavab:**

Ata, ana, əmi, zəng, ürək.

**İş dəftəri, səh. 5**

**2.** Nümunəyə əsasən hərf sxeminə uyğun sözlər yaz. Sətirdən sətrə keçirilməsi mümkün olmayan sözləri qeyd et.

**Düzgün cavab:**

I sütundakı xanalara yazılacaq sözlər: *arzu, gün, ayaq, axşam.*

II sütundakı xanalara yazılacaq sözlər: *çörək, dost, ata, araba.*

Sətirdən sətrə keçirilə bilməyənlər: *gün, ayaq, dost, ata.*

**İş dəftəri, səh. 5**

**3.** Aşağıdakı mətndə sətirdən sətrə səhv keçirilmiş sözlərin altından xətt çək. Düzgün keçirilmə qaydasını göstər.

Şagirdlər dərslikdəki 5-ci tapşırıqda bəzi sözlərin sətirdən sətrə keçirilməsinin mümkün olmadığını "Bunları bilməliyik" rubrikasına əsaslanaraq izah edirlər. İş dəftərindəki 3-cü tapşırıqda isə sətirdən sətrə səhv keçirilmiş sözləri müəyyənləşdirib qarşıdakı sütunda həmin sözlərin sətirdən sətrə düzgün keçirilmə variantını yazırlar.

**Düzgün cavab:** iba-rət-dir, ay-rı-ca, otaq-da, ota-ğı-mı-zı, sax-la-yı-rıq.

Möhkəmləndirmə məqsədi daşıyan bu tapşırıq sözlərin sətirdən sətrə keçirilməsi haqqında biliklərin möhkəmləndirilməsinə yönəldilib.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sait və samit bildirən hərfləri fərqləndirir. | Tap. 2 (D.), tap. 1, 2 (İ.D.) |
| Sözü təşkil edən hecaları müəyyən edir. | Tap. 3, 4 (D.) |
| Sözləri sətirdən sətrə düzgün keçirir. | Tap. 5 (D.) |
| Özünün və başqasının yazısında orfoqrafik normalara uyğun düzəlişlər edir. | Tap. 3 (İ.D.) |

# 2-ci fəsil
# MƏKTƏB

## 1-ci DƏRS
### Dərs cədvəli

**Təlim nəticələri:**

**Oxu:**

- Məzmunun açılmasına xidmət edən açar sözləri müəyyənləşdirir (st. 3.1.2).
- Cümlədə buraxılmış sözü müəyyən edir (st. 3.1.3).

**Danışma:**

- Verilmiş mövzu ilə bağlı şifahi təqdimat hazırlayır (st. 2.2.2).

**Mövzuya yönəltmə.** Müəllim şagirdlərə gündəliklərinə, bugünkü dərs cədvəlinə baxmağı tapşırır. Köməkçi suallar vasitəsilə şagirdlərin diqqətini mövzuya yönəldir.

– Bu gün neçə dərsiniz var?

– Birinci saat hansı dərsiniz idi?

– Sonuncu dərs hansıdır?

Şagirdlər artıq aşağı siniflərdən fənlərin adlarını Azərbaycan dilində bilirlər.

**Dərslik, səh. 11**

**1.** Cümlələri oxuyun. Raufun bu günə olan dərs cədvəlini təxmin edin.

Tapşırıq şagirdlərin oxuyub-qavrama bacarığını inkişaf etdirir. Eyni zamanda *aşağı, yuxarı, sağ, sol, qarşısında* kimi sözlərin nitqində möhkəmləndirilməsinə xidmət edir. Şagirdlər cümləni oxuyur, açar sözün köməyi ilə haqqında danışılan sinif otağını müəyyənləşdirirlər. Bu sinifdə keçirilən fənnin adını dərs cədvəlinə əlavə edirlər. Beləliklə, gün ərzində keçiriləcək fənlərin siyahısını tərtib edirlər.

**Düzgün cavab:**

1. İnformatika
2. Riyaziyyat
3. İdman
4. Təsviri incəsənət

LAYİHƏ

**Dərslik, səh. 11**

**2.** Suallara cavab verməklə məktəbiniz haqqında danışın.

Tapşırıq rabitəli nitq söyləmək və təqdimetmə bacarığının inkişafına yönəlib. Şagirdlər tapşırıqda verilmiş sualları da cavablandırmaqla təhsil aldıqları məktəb haqqında şifahi təqdimat hazırlayırlar. Hazırlaşmaq üçün şagirdlərə müəyyən vaxt verilir. Sinfin bütün şagirdlərinin təqdimat etməsini təmin etmək məqsədilə hər bir şagirdə vaxt ayrılır.

**İş dəftəri, səh. 6**

**1.** Krosvordu həll et.

Tapşırıq şagirdlərin aşağı siniflərdə məktəb ləvazimatları ilə bağlı öyrəndikləri söz ehtiyatını yoxlamağa imkan yaradır. Şagirdlər krosvordu həll etməklə sahib olduqları söz ehtiyatını nümayiş etdirirlər.

**Düzgün cavab:**

**Yuxarıdan aşağı:** 1) albom; 2) şagird; 4) xətkeş; 6) müəllim.

**Soldan sağa**: 3) pozan; 5) qələmdan; 7) qələm; 8) lövhə.

**İş dəftəri, səh. 6**

**2.** Tapdığın sözləri uyğun nöqtələrin yerinə yazmaqla cümlələri tamamla.

**Düzgün cavab:**

a) ***Şagird*** məsələnin həllini müəllimdən soruşdu.

b) Ana, mənə rəsm çəkmək üçün ***albom*** al.

c) Seymur dəftərinə ***xətkeş*** ilə düz xətt çəkdi.

ç) ***Müəllim*** yeni dərsin mövzusunu izah etdi.

d) Mən səhv yazdığım sözü ***pozan*** ilə pozdum.

e) Sözlərin altından xətt çəkmək üçün yaşıl ***qələm*** lazımdır.

ə) Sinfimizin divarından iri ağ ***lövhə*** asdılar.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Məzmunun açılmasına xidmət edən açar sözləri müəyyənləşdirir. | Tap. 1 (D.) |
| Verilmiş mövzu ilə bağlı şifahi təqdimat hazırlayır. | Tap. 2 (D.) |
| Cümlədə buraxılmış sözü müəyyən edir. | Tap. 2 (İ.D.) |

# 2-ci DƏRS

## Yaxşı yoldaş

**Təlim nəticələri:**

**Yeni sözlər:** örtmək, növbətçi, tənəffüs, qayda, əməl etmək, mızıldanmaq, narazı.

**Oxu:**

• Sözləri bütöv tələffüz etməklə kiçikhəcmli mətnləri oxuyur (st. 3.1.1).

• Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 2.2.1).

• Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir (st. 3.1.3).

• Mətndəki hadisələrin məntiqi ardıcıllığını (səbəb-nəticə əlaqəsini) müəyyən edir (st. 3.1.2).

**Danışma:**

• Süjetli şəkil kompozisiyası üzrə mətn qurub danışır (st. 2.1.1).

**Dinləmə:**

• Dinlədiyi və bildiyi məlumatları müqayisə edib nəticə çıxarır (st. 1.1.1).

**Yazı:**

• Mövzuya, situasiyaya uyğun kiçikhəcmli mətn (açıqca, təəssürat) yazır (st. 4.1.4).

**Mövzuya yönəltmə. Danışma**

**Dərslik, səh. 12**

**1.** Sizcə, yaxşı yoldaş necə olmalıdır?

Müəllim tapşırıqda verilmiş motivasiya sualı vasitəsilə şagirdlərin diqqətini mövzuya yönəldir.

Şagirdlər suala cavab verərkən mövzunu öz şəxsi həyatları ilə əlaqələndirə bilərlər.

**Oxu ("Yaxşı yoldaş" mətni üzərində iş)**

**Dərslik, səh. 12**

Mətni oxumaq üçün müəllim müxtəlif oxu strategiyaları tətbiq edə bilər. "Yaxşı yoldaş" süjetli mətn olduğundan oxunması üçün **proqnozlaşdırma** üsulunu tətbiq etmək tövsiyə olunur. Mətnin düyün və ya kulminasiya nöq-

LAYİHƏ

təsində oxu prosesi dayandırılır və müəllim soruşur:

– *Sizcə, bundan sonra hadisələr necə davam edəcək?*

Şagirdlərin cavabı dinlənildikdən sonra oxu davam etdirilir və şagirdlərin versiyaları mətnlə müqayisə edilir.

**Söz ehtiyatı**

**Dərslik, səh. 12. "Söz mücrüsü" rubrikası**

**Söz mücrüsü**

örtmək • növbətçi • tənəffüs
qayda • əməl etmək
mızıldanmaq • narazı

"Söz mücrüsü"ndəki və oxu prosesində rast gəlinən tanış olmayan sözlərin mənası üzərində iş aparılır. Müəllim şagirdlərə yeni sözlərin mənasını izah edir *(örtmək, növbətçi, tənəffüs, qayda, əməl etmək, mızıldanmaq, narazı)*. Müəllim ehtiyac olarsa, bəzi sözlərin mənasını jestlər və mimikaların köməyi ilə (məsələn, narazı) və yaxud tədris dilinə tərcümə ilə izah edə bilər. Şagirdlər həmin sözləri müxtəlif cümlələrdə işlətməklə mənasını anladıqlarını nümayiş etdirirlər.

**Dərslik, səh. 13**

**2.** Mətnin məzmununa əsasən suallara cavab verin.

Şagirdlər tapşırıqdakı sualları mətnin məzmununa əsasən cavablandırmaqla mətni diqqətlə oxuduqlarını nümayiş etdirirlər.

**Dərslik, səh. 13**

**3.** Şəkillərə əsasən "Yaxşı yoldaş" mətninin davamını təxmin edib danışın.

Tapşırıq şagirdlərin təxminetmə, təsviretmə kimi bacarıqlarının inkişafına yönəlib.

**Diferensial təlim.** Şəkilləri rabitəli cümlələrlə təsvir etməkdə çətinlik çəkən şagirdlərə müəllim yardım etməlidir. Bu məqsədlə həmin şagirdlərə yönəldici suallar təqdim edilə bilər. Şagirdlər suallara cavab yazmaqla "Yaxşı yoldaş" mətninin davamını təxmin edə bilərlər.

**Yönəldici suallar:**

1. Sizcə, Rüfət nə üçün yıxılıb?
2. Rüfət hansı hissləri keçirir?
3. Rüfətə kim kömək edir?
4. Rüfəti hara aparıblar?

**Dinləmə və danışma**

**Dərslik, səh. 13**

**4.** "Yaxşı yoldaş" mətninin sonluğunu dinləyin və öz təxminlərinizlə müqayisə edin.

Müəllim "Yaxşı yoldaş" mətninin davamını oxuyur. Şagirdlər mətni dinləyir, öz versiyaları ilə müqayisə edirlər.

**Yaxşı yoldaş**

*...Az qala evə çatmışdı, amma Rüfət görünmürdü. Birdən qarın üstündə bir qaraltı göründü. Murad tez irəli qaçdı. Rüfət qarın üstündə yıxılıb qalmışdı. O sürüşüb yıxılmış, ayağını əzmişdi. Ayağa qalxa bilmirdi. Murad Rüfəti kürəyinə aldı. Belə güclü boranda addım atmaq çətin idi. O yorulmuşdu, amma buna baxmayaraq yoluna davam edirdi. Rüfəti evə çatdırmağa tələsirdi. Qabaqdan gələn adamları görəndə qışqırdı. Onları köməyə çağırdı. Rüfəti xəstəxanaya apardılar. Bir neçə gündən sonra Murad Rüfəti görmək üçün xəstəxanaya gəldi. Rüfət onu görüb çox sevindi. Dostundan üzr istəyib dedi:*

*– Sən mənim əsl dostumsan!*

*Bu hadisədən sonra onlar daha da möhkəm dost oldular.*

**Söz ehtiyatı**

**Dərslik, səh. 13**

**5.** İzahların "söz mücrüsü"ndəki hansı sözlərə aid olduğunu müəyyənləşdirin.

Tapşırıq şagirdlərin öyrəndikləri yeni sözlərin möhkəmləndirilməsinə yönəlib. Şagirdlər tapşırıqda verilmiş izahlara uyğun sözləri "söz mücrüsü"ndən seçirlər. Bununla da yeni sözləri mənimsədiklərini nümayiş etdirirlər.

**Düzgün cavab:**

Razı olmayan – *narazı*;

Hər hansı bir işi növbə ilə yerinə yetirən adam – *növbətçi*;

Məktəbdə dərslər arasında fasilə – *tənəffüs*;

Astadan, dodaqaltı danışma – *mızıldanmaq*.

LAYİHƏ

**Oxuyub-qavrama**

**İş dəftəri, səh. 7**

**1.** "Yaxşı yoldaş" mətninə əsasən verilmiş fikirlərin doğru, yoxsa yanlış olduğunu qeyd et.

Şagirdlər 1-ci tapşırıqda verilmiş fikirlərin doğru, yoxsa yanlış olduğunu müəyyən edirlər. Mətndən uyğun cümlələri oxumaqla seçimlərini əsaslandırırlar.

**Düzgün cavab:**

1. Yanlış. Güclü qar yağmışdı. Möhkəm şaxta və boran var idi. Hər tərəf buz bağlamışdı. Bu hadisələr qış fəsli üçün xarakterikdir.
2. Doğru. Rüfət və Murad yaxın qonşu idilər.
3. Yanlış. Rüfət və Murad bir sinifdə oxuyurdular.
4. Yanlış. Rüfət növbətçilik qaydalarına əməl etmirdi.
5. Doğru. Rüfət Muraddan üzr istədi.

**İş dəftəri, səh. 7**

**2.** "Yaxşı yoldaş" mətninə əsasən cümlələri tamamla.

**Düzgün cavab:**

1. Muradla Rüfət evdən tez çıxdılar, çünki dərsə gecikmək istəmirdilər.
2. Rüfət növbətçilik qaydalarına əməl etmək istəmədi, çünki Muradın dostu olduğu üçün qaydaların ona aid olmadığını düşünürdü.
3. Rüfət Muraddan incimişdi, çünki Murad qaydaların hamıya aid olduğunu söylədi.
4. Murad Rüfətə görə narahat oldu, çünki boranda Rüfətin evə necə gedəcəyini düşünürdü.
5. Rüfət Muraddan üzr istədi, çünki səhvini anlamışdı.

Bu tapşırıqları yerinə yetirməklə şagirdlər mətni oxuyub-qavradıqlarını nümayiş etdirirlər.

**Yazı**

**İş dəftəri, səh. 7**

**3.** Mətnə və təcrübənə əsasən sinifdə növbətçilik qaydaları tərtib et.

Tapşırıq şagirdlərdə ekspressiv (özünüifadə) bacarığını inkişaf etdirməyə yönəlib. Şagirdlər "Yaxşı yoldaş" mətninin məzmununa və şəxsi təcrübələrinə əsasən sinifdə növbətçilik qaydaları tərtib edirlər.

**Müəllimin nəzərinə!** Müəllimə tapşırığı yerinə yetirməzdən əvvəl şagirdlərlə sinifdə növbətçilik qaydaları haqqında müzakirə aparmaq tövsiyə olunur. Aşağıdakı suallar vasitəsilə şagirdləri müzakirəyə cəlb etmək olar:

*– Hansı növbətçilik qaydaları sizin xoşunuza gəlmir? Nə üçün?*

*– Sinifdə növbətçilik qaydalarında hansı dəyişikliklər etmək istərdiniz? Nə üçün bu dəyişikliyə ehtiyac var?*

*– Sinifdə növbətçilik qaydalarına nəyi əlavə etmək istərdiniz? Nə üçün?*

Şagirdlər tərəfindən tərtib edilən qaydalar müzakirə olunur. Bir çox şagird tərəfindən təklif olunan qaydalar hansılardır? Nə üçün bir neçə şagird eyni qaydanı təklif edir? Qaydalar müzakirə edildikdən sonra vahid növbətçilik qaydaları hazırlanıb sinif divarından asılır.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözləri bütöv tələffüz etməklə kiçikhəcmli mətnləri oxuyur. | "Yaxşı yoldaş" mətninin I hissəsi |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tap. 2 (D.), tap. 1 (İ.D.) |
| Süjetli şəkil kompozisiyası üzrə mətnin davamını qurub danışır. | Tap. 3 (D.) |
| Dinlədiyi və bildiyi məlumatları müqayisə edib nəticə çıxarır. | Tap. 4 (D.) |
| Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir. | Tap. 5 (D.) |
| Mətndəki hadisələrin səbəbini müəyyən edir. | Tap. 2 (İ.D.) |
| Sinifdə növbətçilik qaydaları tərtib edir. | Tap. 3 (İ.D.) |

LAYİHƏ

# 3-cü DƏRS
## Hekayə xəritəsi

**Təlim nəticələri:**

**Oxu:**
• Mətnə əsasən hekayə xəritəsi tərtib edir (st. 3.1.2).

**Dinləmə:**
• Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir (st. 1.1.2).
• Dinlədiyi və bildiyi məlumatları müqayisə edib nəticə çıxarır (st. 1.1.1).

**Yazı:**
• Verilmiş şəklə uyğun söz və cümlələr yazır (st. 4.1.4).

**Mövzuya yönəltmə.** Müəllim sual-cavab üsulu ilə "Yaxşı yoldaş" mətninin məzmununu xatırladır.

**Oxuyub-qavrama**
**Dərslik, səh. 14**

**1.** "Yaxşı yoldaş" mətninə aid məlumatları hekayə xəritəsinin bölmələri ilə uyğunlaşdırın. Hansı bölməyə aid məlumat yoxdur?

Aşağı siniflərdə şagirdlər oxuduqları mətnlə bağlı hekayə xəritəsinin sadə nümunələri üzərində işləmişlər. Bu dərsdə isə şagirdlər "hekayə xəritəsi" anlayışı, onun mahiyyəti və bu çalışma modelinin əhəmiyyəti ilə bağlı informasiya alırlar. Şagirdlərin diqqəti hekayə xəritəsinə yönəldilir və hekayə xəritəsinin ünsürləri bir-bir izah edilir. Yaxşı olardı ki, müəllim dərslikdə verilmiş hekayə xəritəsi nümunəsini A4 kağızda yazsın və bu nümunə üzərində şagirdlərə əyani şəkildə izah etsin.

**Müəllimin nəzərinə!** Dərslikdə hekayə xəritəsinin ən çox istifadə olunan növünə aid nümunə verilmişdir. Şagirdlərin nəzərinə çatdırmaq lazımdır ki, elə mətnlər var ki, onlara aid hekayə xəritəsi qurulan zaman nümunədə göstərilən ünsürlərdən bir neçəsi olmaya bilər.

**Dinləmə və danışma**
**Dərslik, səh. 14**

**2.** Müəllimin oxuduğu "Əsl dost" mətnini dinləyin. Suallara cavab verməklə mətnin qısa məzmununu danışın.

Müəllim şagirdlərin diqqətini tapşırıqda verilmiş suallara yönəldir. Şagirdlər dinləmə mətnindən cavab tapacaqları suallarla tanış olurlar. Bu üsul mətni diqqətlə dinləmələrinə və tapşırığın asanlıqla yerinə yetirilməsinə kömək edir. Daha sonra müəllim "Əsl dost" mətnini oxuyur.

**Əsl dost**

*Əziz və Ziya üçüncü sinifdə oxuyurdular. Onlar həm də qonşu idilər. Elə ilk gündən məktəbə birlikdə gedib-gəlirdilər. İkisi də dərslərini çox yaxşı oxuyurdu. Lakin son vaxtlar Ziya qəribə hərəkətlər edirdi. Dərsə hazırlıqsız gəlir, ev tapşırıqlarını sinifdə Əzizdən köçürürdü. Bu, Əzizi çox narahat edirdi.*

*Bir gün yenə də Ziya Əzizdən dəftərini istədi:*

*– Əziz, tez ol, riyaziyyat dəftərini mənə ver. Hələ vaxta var. Müəllim gəlməmiş köçürə bilərəm.*

*Əziz dedi:*

*– Ziya, xeyr, dəftərimi verə bilmərəm.*

*Əziz dostundan belə cavab gözləmirdi. Odur ki təəccübləndi:*

*– Niyə? Sən də yazmamısan?*

*– Yazmışam. Amma belə olmaz. Sən getdikcə tənbəlləşirsən.*

*Həmin gün Ziya riyaziyyatdan iki aldı. Tənəffüsdə Əzizə acıqla dedi:*

*– Yaxşı dost yaman gündə tanınar. Deməli, sən yaxşı dost deyilsən.*

*O axşam Əziz evə kefsiz gəldi. Atası ondan soruşdu:*

*– Oğlum, məktəbdə nə isə baş verib?*

*Əziz olanları atasına danışdı. Atası ona dedi:*

*– Sən düzgün hərəkət etmisən. Ev tapşırığını köçürməyə icazə vermək kömək etmək deyil. Yaxşı olar ki, ev tapşırıqlarını həll etməyə Ziyaya kömək edəsən. Bəlkə, nədəsə çətinliyi var? Sən bildiklərini ona izah edərsən.*

*Əziz atası dediyi kimi etdi. Doğrudan da, bir neçə həftəyə Ziyanın qiymətləri düzəldi. Hətta üçüncü siniflər üzrə riyaziyyat fənnindən keçirilən yarışmada ikinci yeri tutdu. Artıq dostluq haqqında da fikirləri dəyişmişdi.*

Şagirdlər mətni dinlədikdən sonra suallara cavab verməklə mətnin qısa məzmununu danışırlar.

LAYİHƏ

**Dərslik, səh. 14**

**3. Diferensial təlim.** Dinlədiyiniz "Əsl dost" mətni üzrə hekayə xəritəsi tərtib edin.

Müəllim planlaşdırılmış bölgü apararaq dilbilmə səviyyələri müxtəlif olan şagirdləri qruplara ayırır:

***I qrupda*** dilbilmə səviyyəsi yüksək şagirdlər iştirak edirlər. Bu qrupdakı şagirdlər dinlədikləri "Əsl dost" mətninə əsasən hekayə xəritəsini müstəqil şəkildə tərtib edirlər.

***II qrupda*** dilbilmə səviyyəsi nisbətən zəif şagirdlər iştirak edirlər. Müəllim tapşırığı yerinə yetirmək üçün bu şagirdlərə kömək edir. Bu məqsədlə hekayə xəritəsinin bölmələrinə aid məlumatlar şagirdlərə təqdim edilir. Şagirdlər həmin məlumatları uyğun bölmələrə qeyd edirlər.

"Əsl dost" mətnindən hekayə xəritəsinin bölmələrinə yazılacaq məlumatlar:

- Əziz ev tapşırıqlarını özü yerinə yetirmir. Ziyadan köçürür. Bir dəfə Ziya dostuna dəftərini vermir. Əziz inciyir. Atası Ziyaya məsləhət verir. Ziya Əzizə çətinlik çəkdiyi məqamları izah edir.
- Əziz və Ziya.
- Məktəb, ev.
- Yaxşı dost dar gündə tanınar.

**Yazı**

**İş dəftəri, səh. 8**

**1.** "Əsl dost" mətnindən şəklə uyğun gələn hissəni öz sözlərinlə yaz.

Tapşırıqda "Əsl dost" mətninin məzmununa uyğun illüstrasiya verilmişdir. Şagirdlər mətnin illüstrasiyaya uyğun hissəsini öz sözləri ilə yazırlar. Tapşırıq yerinə yetirilərkən şagirdlərin rabitəli mətn qurmalarına və cümlələrdə söz sırasına riayət etmələrinə diqqət yetirilməsi tövsiyə olunur.

**Dərslik, səh. 14**

**4.** Oxuduğunuz "Yaxşı yoldaş" və dinlədiyiniz "Əsl dost" mətnlərini müqayisə edin.

Bu tapşırığın kollektiv şəkildə yerinə yetirilməsi məqsədəuyğundur. Kollektivlə yerinə yetirilən bu tapşırıq iş dəftərində verilmiş ikinci tapşırığın asanlıqla müstəqil şəkildə yerinə yetirilməsinə zəmin yaradacaq.

**İş dəftəri, səh. 8**

**2.** Verilmiş fikirlərin hansı mətnə aid olduğunu qeyd et.

**Düzgün cavab:**

1. Baş qəhrəmanlar qonşudurlar – C.
2. Obrazlardan biri tənbəllik edir – B.
3. Dostlar arasında inciklik yaranır – C.
4. Obrazlardan biri sinif qaydalarını pozur – A.
5. Əsl dostluq haqqında danışılır – C.
6. Böyüklərin məsləhəti ilə problem həll olunur – B.
7. Dostlardan biri digərinə kömək edir – C.

Bu tapşırıqlar şagirdlərin müqayisə etmək bacarığının inkişafına yönəlib. Şagirdlər oxuduqları və dinlədikləri mətnləri mövzusuna, məzmununa və ideyasına görə müqayisə edirlər. Dərslikdə verilmiş 4-cü tapşırıq kollektiv şəkildə yerinə yetirilir. İş dəftərində verilmiş eyni məqsədi daşıyan 2-ci tapşırıq isə şagirdlər tərəfindən müstəqil yerinə yetirilir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətnə əsasən hekayə xəritəsi tərtib edir. | Tap. 1, 3 (D.) |
| Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir. | Tap. 2 (D.) |
| Dinlədiyi və bildiyi məlumatları müqayisə edib nəticə çıxarır. | Tap. 4 (D.), tap. 2 (İ.D.) |
| Verilmiş şəklə uyğun söz və cümlələr yazır. | Tap. 1 (İ.D.) |

LAYİHƏ

# 4-cü DƏRS
## Qalın və incə saitlər. Dodaqlanan və dodaqlanmayan saitlər

**Təlim nəticələri:**

**Danışma:**

• Verilmiş söz, söz birləşməsi və nitq etiketlərini düzgün tələffüz edir (st. 2.1.1).

• Sualı cavablandırarkən fikrini əsaslandırır (st. 2.2.3).

**Yazı:**

• Buraxılmış hərfləri yerinə qoymaqla sözləri köçürür (st. 4.1.1).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 15**

**1.** "Murad" və "Rüfət" sözlərindəki saitlərə diqqət edin. Hansı sözdəki saitlər qalın səslənir?

Tapşırıq qalın və incə saitlər mövzusuna keçid məqsədi daşıyır. Müəllimin yönəldici sualları ilə tapşırıqda verilmiş "Murad" və "Rüfət" sözlərindəki sait səslərin [u], [a], [ü], [ə] tələffüzü üzərində müşahidə aparılır və həmin səslər müqayisə olunur. Məsələn: [u] və [ü] səslərini tələffüz edin. Hansı fərqi hiss etdiniz? İndi isə [a] və [ə] səsini tələffüz edin. Hansı səslər qalındır? Bəs hansı səslər incədir?

Şagirdlər saitləri tələffüz edərək müqayisə aparmaqla saitlərin qalın və ya incə səslənməsini müşahidə edirlər.

**"Bunları bilməliyik" rubrikası.** Rubrikadakı məlumatlar oxunur. Saitlər fərqləndirilir.

**Müəllimin nəzərinə!** Saitlərin yaranma yerinə (dilönü, dilarxası və dilortası) görə fərqləndirilməsi şagirdlərin yaş səviyyəsinə uyğun olmadığı üçün müəllim şagirdlərə saitlərin qalın və incə tələffüzünü hiss edərək fərqləndirməsini mənimsətməlidir. Bunun üçün o bütün şagirdlərə tək-tək yaxınlaşmalı və onlara səsləri müqayisəli tələffüz etməyi [a] və [ə], [o] və [ö], [u] və [ü], [ı] və [i] tapşırmalıdır.

**Yazı**

**Dərslik, səh. 15**

**2.** Sözləri köçürün. Qalın saitlərin altından xətt çəkin. Qalın saitləri incə saitlərlə əvəz edib yeni sözlər düzəldin.

Tapşırıq şagirdlərin qalın və incə saitlər üzrə biliklərini möhkəmləndirmə məqsədi daşıyır. Şagirdlər sözlərdəki qalın saitləri incə saitlərlə əvəz edib başqa söz yaratmaqla (h<u>a</u>kim – h<u>ə</u>kim) söz ehtiyatlarını da nümayiş etdirirlər.

**Düzgün cavab:** baba – bəbə, at – ət, ot – öt, al – əl, tala – tələ, həyat – həyət, duz – düz, ay – əy, nanə – nənə, şahid – şəhid.

**İş dəftəri, səh. 9**

**1.** Verilmiş sözlərdən <u>incə saitlə</u> başlayıb <u>qalın saitlə</u> bitənləri seç. Krosvordun uyğun xanalarına yaz.

**Düzgün cavab:** estrada, əlaçı, əlifba, ixtira.

Şagirdlər tapşırıqda qalın və incə saitləri fərqləndirmək bacarığı ilə yanaşı söz ehtiyatını nümayiş etdirirlər.

**Müəllimin nəzərinə!** Dilimizdə elə incə saitli adlar var ki, bəzən səhv olaraq həmin adlardakı incə saitləri qalın saitlərlə əvəz edərək yazırlar və tələffüz edirlər. Məsələn: Lalə deyil, Lala, Səbinə deyil, Sabina, Rəşid deyil, Raşid və s. Qalın və incə saitlər haqqında biliklərindən istifadə edərək şagirdlərə bu səhvləri duymaq, düzəltmək bacarığını aşılamaq olar. Müəllim lövhədə nümunə yazır, məsələn, Lalə: a – qalın, ə – incə saitdir. Şagirdlər nümunə əsasında öz adlarındakı saitləri təhlil edirlər. Müəllim lövhədə şagirdlərin adlarını qruplaşdırır:

1. Yalnız qalın saitlər işlənən adlar.
2. Yalnız incə saitlər işlənən adlar.
3. Həm qalın, həm də incə sait işlənən adlar.

**Dərslik, səh. 15**

**3.** Saitləri tələffüz edin. Tələffüz zamanı dodaqlarınızın vəziyyətinə diqqət edin. Hansı fərqi hiss etdiniz?

LAYİHƏ

Tapşırıq dodaqlanan və dodaqlanmayan saitlər mövzusuna keçid məqsədi daşıyır. Tapşırıqda verilmiş sait səslərin [a] və [o], [ı] və [u], [ə] və [ö], [i] və [ü] tələffüzü üzərində müşahidə aparılır və həmin səslər müqayisə olunur. Məsələn: [a] və [o] səslərini tələffüz edin. Tələffüz zamanı diqqətinizi dodaqlarınıza yönəldin. Hansı fərqi hiss etdiniz? Hansı səsləri tələffüz edərkən dodaqlarınız yuvarlaq forma aldı? Bəs hansı səsləri tələffüz edərkən dodaqlarınız yana açıldı?

**“Bunları bilməliyik” rubrikası.** Rubrikadakı məlumat oxunur. Şagirdlər saitləri tələffüz edərək dodaqların vəziyyətinə görə fərqləndirirlər.

**Dərslik, səh. 15**

**4.** Nöqtələrin yerinə dodaqlanan saitlər artırıb sözlər yaradın və köçürün.

**Düzgün cavab:** bol, böl; yol; un, on, ön; boz, buz.

Tapşırıq şagirdlərin dodaqlanan və dodaqlanmayan saitlər üzrə biliklərini möhkəmləndirmə məqsədi daşıyır. Şagirdlər nöqtələrin yerinə dodaqlanan saitlər artırmaqla sözlər yaradırlar. Qeyd edək ki, nöqtələrin yerinə bir neçə sait uyğun gələ bilər. Belə olan təqdirdə bir neçə müxtəlif söz yaratmaq mümkündür. Məsələn: *bol, böl.* Bu tapşırığı yerinə yetirməklə şagirdlər sahib olduqları söz ehtiyatlarını da nümayiş etdirirlər.

**Dərslik, səh. 15**

**5.** Sözləri saitlərin növlərinə görə qruplaşdırın.

**İş dəftəri, səh. 9**

**2.** Hər sıraya üç söz seçib yazaraq cədvəli tamamla.

Tapşırıqda sözləri iştirak etdiyi saitlərin növlərinə görə qruplaşdırmaq tələb olunur. Tapşırığı yerinə yetirməklə şagirdlər saitlərin növləri üzrə biliklərini möhkəmləndirirlər.

Tapşırığı qruplarla iş formasında da yerinə yetirmək mümkündür.

Məsələn:

1-ci qrup qalın, dodaqlanan saitli sözləri;

2-ci qrup qalın, dodaqlanmayan saitli sözləri;

3-cü qrup incə, dodaqlanan saitli sözləri;

4-cü qrup incə, dodaqlanmayan saitli sözləri qruplaşdırır.

Tapşırığın qruplarla iş formasında aparılması şagirdlərin əməkdaşlıq şəraitində biliklərini tətbiq etmək, analiz etmək kimi mühüm bacarıqlarının inkişafına təkan verir.

**Yazı və danışma**

**İş dəftəri, səh. 9**

**3.** Saitlərin növlərinə görə hər sırada dörd sözdən biri fərqlidir.

**Düzgün cavab:**

1-ci sırada “kələm” sözü fərqlidir. Çünki bu sözdə incə saitlər iştirak edir, digər sözlərdə isə qalın saitlər.

2-ci sırada “canavar” sözü fərqlidir. Çünki bu sözdə qalın saitlər iştirak edir, digər sözlərdə isə incə saitlər.

3-cü sırada “doqquz” sözü fərqlidir. Çünki bu sözdə qalın saitlər iştirak edir, digər sözlərdə isə incə saitlər.

4-cü sırada “döyüş” sözü fərqlidir. Çünki bu sözdə incə saitlər iştirak edir, digər sözlərdə isə qalın saitlər.

Tapşırıq şagirdlərin saitlərin növləri haqqında biliklərini tətbiq etməyə, eyni zamanda məntiqi təfəkkürünün də inkişafına şərait yaradır. Şagirdlər hər sırada fərqli olan sözü müəyyən edir və seçimlərini əsaslandırırlar. Bu zaman fikrini düzgün çatdırma, əsaslandırma kimi bacarıqlar da formalaşır.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verilmiş söz, söz birləşməsi və nitq etiketlərini düzgün tələffüz edir. | Tap. 1, 3 (D.) |
| Buraxılmış hərfləri yerinə qoymaqla sözləri köçürür. | Tap. 2, 4 (D.), tap. 1 (İ.D.) |
| Sualı cavablandırarkən fikrini əsaslandırır. | Tap. 5 (D.), tap. 2, 3 (İ.D.) |

LAYİHƏ

# 3-cü fəsil
# SİNFİMİZİN UŞAQLARI

## 1-ci DƏRS
## Ananın məsləhəti

**Təlim nəticələri:**

**Oxu:**
• Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.2).
• Cümlədə buraxılmış sözü müəyyən edir (st. 3.1.3).
• Mətndəki hadisələrin ardıcıllığını müəyyən edir (st. 3.1.2).
• Mətnlə illüstrasiya arasında uyğun(suz)luğu müəyyən edir (st. 3.1.2).

**Danışma:**
• Müzakirə zamanı mövzuya uyğun fikir yürüdür (st. 2.2.3).
• Verilmiş mövzu ilə bağlı şifahi təqdimat hazırlayır (st. 2.2.2).
• Qrafik işarələri (yol nişanları və s.) cümlə şəklində ifadə edir (st. 2.2.1).

**Yazı:**
• Mövzuya, situasiyaya uyğun kiçikhəcmli mətn (açıqca, təəssürat) yazır (st. 4.1.4).

**Mövzuya yönəltmə. Danışma**

**Dərslik, səh. 16**

**1.** Çətin anlarda kimdən məsləhət alırsınız?

Müəllim tapşırıqda təqdim edilmiş sual vasitəsilə şagirdlərin diqqətini mövzuya yönəldir.

Şagirdlər suala mövzunu öz şəxsi həyatları ilə əlaqələndirərək cavab verirlər.

**Oxu. Söz ehtiyatı**

**Mətnlə iş.** Mətni oxumaq üçün müəllim müxtəlif oxu strategiyaları tətbiq edə bilər. “Ananın məsləhəti” süjetli mətn olduğundan oxunması üçün **rollu oxu** üsulunu tətbiq etmək tövsiyə olunur. Müəllim rol bölgüsü aparır: Ana, Kərim və müəllif. “Aktyor”lara məşq etmək üçün müəyyən vaxt verilir. Daha sonra mətni rollar üzrə oxuyaraq təqdim edirlər.

**Dərslik, səh. 16. “Söz mücrüsü” rubrikası**

**Söz mücrüsü**

dəvət etmək • dərnək
bölüşmək • təqdim etmək
bacarıq • nümayiş etdirmək
istedadlı • təşkil etmək

“Söz mücrüsü”ndəki və oxu prosesində rast gəlinən tanış olmayan sözlərin mənası üzərində iş aparılır. Müəllim şagirdlərə yeni sözlərin mənasını izah edir *(dəvət etmək, dərnək, bölüşmək, təqdim etmək, bacarıq, nümayiş etdirmək, istedadlı, təşkil etmək).*

**Oxuyub-qavrama**

**Dərslik, səh. 17**

**2.** Mətndə hansı suala cavab yoxdur.

**“Nə anladın?”** rubrikasında verilmiş tapşırıq oxuyub-qavrama, ümumiləşdirmə bacarığının inkişafına yönəlmişdir.

**Dərslik, səh. 17**

**3.** Nöqtələrin yerinə “söz mücrüsü”ndən uyğun gələn sözləri yazmaqla cümlələri tamamlayın.

Tapşırıq söz ehtiyatının möhkəmləndirilməsinə xidmət edir. Şagirdlər “söz mücrüsü”ndən uyğun sözləri seçərək cümlələri tamamlayırlar. Bununla da yeni sözlərin mənasını anladıqlarını nümayiş etdirirlər.

**İş dəftəri, səh. 10**

**1.** Hadisələri “Ananın məsləhəti” mətnindəki ardıcıllığa uyğun olaraq sırala.

Tapşırıq mətndəki hadisələrin ardıcıllığını şagirdlərin diqqətinə çatdırmaq üçündür. Bu isə, öz növbəsində, şagirdlərdə plan qurmaq bacarığını inkişaf etdirir.

**İş dəftəri, səh. 10**

**2.** Mətnin məzmununa əsasən şəkillərdəki obrazların adlarını müəyyən edib yaz.

Şagirdlər tapşırıqda verilmiş illüstrasiyalara baxır, illüstrasiyalarda təsvir edilmiş obrazların

LAYİHƏ

adını müəyyənləşdirirlər. Bununla da mətni diqqətlə oxuduqlarını, məzmununu anladıqlarını nümayiş etdirirlər.

**Danışma**

**Dərslik, səh. 17**

**4. Müzakirə.** Sizcə, bacarıqlarını nümayiş etdirmək lovğalıqdırmı? Fikrinizi əsaslandırın.

**Müzakirə.** Şagirdlər tapşırıqda qoyulmuş sual ətrafında müzakirə aparır, əsaslandırma gətirərək fikirlər yürüdürlər. Müəllim yönəldici sual vasitəsilə şagirdləri istiqamətləndirə bilər:

*– Sizcə, bacarıqlarını nümayiş etdirmək lovğalıqdırmı?*

Müzakirə zamanı şagirdlər mövzu ilə bağlı zidd fikirlər söyləyə bilərlər. Bəzi şagirdlər bacarıqların nümayiş etdirilməsini lovğalıq saydığı halda digərləri cəsarət, özünəgüvənə sahib olma kimi qiymətləndirə bilərlər. İlkin fikirlər alındıqdan sonra eyni fikirdə olan şagirdlər bir qrupda toplaşırlar. Onlara fikirlərini əsaslandırmaq üçün hazırlaşmağa vaxt verilir. Hər bir qrupun nümayəndələri növbə ilə fikirlərini izah edir, əsaslandırırlar. Bu tapşırıq debat aparmaq, müzakirə etmək, fikir söyləmək, fikrini əsaslandırmaq kimi önəmli bacarıqların inkişafına yönəlib.

**Dərslik, səh. 17**

**5.** Sualları cavablandırmaqla öz bacarıqlarınız haqqında danışın.

Tapşırıq rabitəli nitq söyləmək və təqdimetmə bacarığının inkişafına yönəlib. Şagirdlər tapşırıqda verilmiş sualları da cavablandırmaqla öz bacarıqları haqqında şifahi təqdimat hazırlayırlar. Hazırlaşmaq üçün şagirdlərə müəyyən vaxt verilir. Sinfin bütün şagirdlərinin təqdimat etməsini təmin etmək məqsədilə hər bir şagirdə vaxt ayrılır.

**Danışma. Yazı**

**Dərslik, səh. 18**

**6.** Diaqrama baxın. Sualları cavablandırın.

**7.** Diaqramdakı məlumatları əks etdirən bir neçə cümlə yazın.

Tapşırıqlar şagirdlərin qrafik informasiyanı cümlələrlə ifadə etmək bacarığının inkişafına yönəlib. Şagirdlər təsvir olunmuş diaqrama diqqət edərək yönəldici sualları cavablandırırlar. Kollektiv müzakirədən sonra şagirdlər müstəqil şəkildə diaqramı bir neçə cümlə ilə yazılı təsvir edirlər.

**İş dəftəri, səh. 10**

**3.** Özünü Kərimin yerində təsəvvür et. Səncə, Kərim həmin günlə bağlı gündəliyində nə yazardı?

Tapşırığın əsas məqsədi şagirdlərə gündəliyin tərtibi qaydalarını mənimsətməkdir. Şagirdlər özlərini Kərimin yerində təsəvvür edərək onun keçirdiyi günü təsvir edirlər. Bu tapşırıq məntiqi təfəkkürün, eyni zamanda yazı bacarığının da inkişafına xidmət edir.

**Diferensial təlim.** Fikirlərini rabitəli cümlələrlə təsvir etməkdə çətinlik çəkən şagirdlərə müəllim yardım etməlidir. Bu məqsədlə həmin şagirdlərə yönəldici suallar təqdim edilə bilər. Şagirdlər suallara cavab yazmaqla Kərimin keçirdiyi gün haqqında qeydlər apara bilərlər.

**Yönəldici suallar:**
- Kərim hara getmişdi?
- Kimin ad günü idi?
- Ad günü necə keçdi?
- Uşaqlar ad günündə necə əyləndilər?
- Kərim hansı hissləri keçirdi?

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tap. 2 (D.) |
| Cümlədə buraxılmış sözü müəyyən edir. | Tap. 3 (D.) |
| Mətndəki hadisələrin ardıcıllığını müəyyən edir. | Tap. 1 (İ.D.) |

LAYİHƏ

| | |
|---|---|
| Mətnlə illüstrasiya arasında uyğunluğu müəyyən edir. | Tap. 2 (İ.D.) |
| Müzakirə zamanı mövzuya uyğun fikir yürüdür. | Tap. 4 (D.) |
| Verilmiş mövzu ilə bağlı şifahi təqdimat hazırlayır. | Tap. 5 (D.) |
| Qrafik işarələri (yol nişanları və s.) cümlə şəklində ifadə edir. | Tap. 6, 7 (D.) |
| Gündəlik üçün qeydlər yazır. | Tap. 3 (İ.D.) |

# 2-ci DƏRS
# Ahəng qanunu

**Təlim nəticələri:**

**Danışma:**

• Sualı cavablandırarkən fikrini əsaslandırır (st. 2.2.3).

**Yazı:**

• Ahəng qanunundan asılı olaraq çoxvariantlı şəkilçilərdən uyğun olanını seçir (st. 4.1.1).

• Söz birləşmələri və cümlələrdə qrammatik baxımdan zəruri düzəlişlər edir (st. 4.1.2).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 18**

**1.** Nöqtələrin yerinə uyğun şəkilçiləri artırın.

Tapşırığın əsas məqsədi şagirdlərə saitlər haqqında bilikləri xatırlatmaqla onların diqqətini ahəng qanunu haqqında yeni biliklərə yönəltməkdir. Şagirdlər sözlər və onlara artırılacaq şəkilçiləri müəyyənləşdirirlər. Müəllim suallar vasitəsilə onların diqqətini ahəng qanununa yönəldir.

– Nə üçün “bax” sözünə *-dı* şəkilçisini əlavə etdiniz? Məgər “baxdu” və yaxud “baxdi” yazmaq olmazdımı?

**“Bunları bilməliyik” rubrikası.** Müəllim ahəng qanununu şagirdlərə izah edir. Lövhədə əlavə sözlər yazıb şagirdlərin köməyi ilə sözlərdəki saitlərin qalın və ya incə olduğunu sxemlər şəklində göstərməklə ahəng qanununu izah edir.

**Dərslik, səh. 19**

**2.** Ahəng qanununa görə dördündən biri fərqlidir.

Tapşırıq şagirdlərin ahəng qanunu haqqında biliklərini tətbiq etməsinə, eyni zamanda məntiqi təfəkkürünün də inkişafına şərait yaradır. Şagirdlər hər sırada fərqli olan sözü müəyyən edir və seçimlərini əsaslandırırlar. Bu zaman fikrini düzgün çatdırma, əsaslandırma kimi bacarıqlar da formalaşır.

**Düzgün cavab:**

1-ci sırada “sincab” sözü fərqlidir. Çünki bu sözdə həm incə, həm də qalın saitlər iştirak edib. Deməli, bu söz ahəng qanununa tabe deyil.

2-ci sırada “gecə” sözü fərqlidir. Çünki bu sözdə bütün saitlər incədir, yəni ahəng qanununa tabedir. Digər sözlərdə isə həm incə, həm də qalın saitlər iştirak edib. Deməli, bu sözlər ahəng qanununa tabe deyil.

3-cü sırada “gəmi” sözü fərqlidir. Çünki bu sözdə bütün saitlər incədir. Digər sözlərdə isə qalın saitlərin ahəngi var.

**Dərslik, səh. 19**

**3 və 4.** Nöqtələrin yerinə uyğun şəkilçilər əlavə edib cümlələri yazın.

Tapşırıqların məqsədi şagirdlərdə ahəng qanunu haqqında biliklərindən istifadə edərək çoxvariantlı şəkilçilərin işlənmə yerini düzgün müəyyənləşdirmə bacarığını formalaşdırmaqdır.

**Diferensial təlim.** Ana dili qeyri Azərbaycan dili olan şagirdlərin bəzisi çoxvariantlı şəkilçilərdən düzgün istifadə edə bilmir. Ahəng qanunu haqqında biliklər bu problemin həllinə kömək edəcək. Əlavə tapşırıqlar verməklə belə uşaqların çoxvariantlı şəkilçilərdən düzgün istifadəetmə bacarığını formalaşdırmaq, inkişaf etdirmək tövsiyə olunur.

**Yazı. Danışma**

**Dərslik, səh. 19**

**5.** Şeiri oxuyun. Səhvləri düzəldərək köçürün.

LAYİHƏ

Tapşırıq şagirdlərin ahəng qanunu haqqında biliklərini tətbiq etməyə, eyni zamanda özünün və başqasının yazısını dəyərləndirmək bacarığını inkişaf etdirir. Şagirdlər tapşırıqda verilmiş şeiri oxuyur, səhvləri düzəldərək köçürürlər.

**İş dəftəri, səh. 11**

**1.** Hər sütuna uyğun sözlər yazmaqla cədvəli tamamla.

**Diferensial təlim.** Müəllim kifayət qədər söz ehtiyatına sahib olmayan şagirdlərə istifadə üçün sözlər təqdim edə bilər. Şagirdlər həmin sözləri cədvəl üzrə qruplaşdırmaqla tapşırığı yerinə yetirə bilərlər.

**2.** Nöqtələrin yerinə uyğun şəkilçilər əlavə edərək cümlələri tamamla.
**3.** Ahəng qanununa görə hər sıradakı dörd sözdən biri fərqlidir.

**Düzgün cavab:**

1-ci sırada "yasəmən" sözü fərqlidir. Çünki bu sözdə ahəng qanunu pozulub. Digər sözlər isə ahəng qanununa tabedir.

2-ci sırada "cəsur" sözü fərqlidir. Çünki bu sözdə ahəng qanunu pozulub. Digər sözlər isə ahəng qanununa tabedir.

3-cü sırada "çanta" sözü fərqlidir. Çünki bu sözdə bütün saitlər qalındır. Digər sözlərdə isə incə saitlərin ahəngi var.

4-cü sırada "vətən" sözü fərqlidir. Çünki bu sözdə bütün saitlər incədir. Digər sözlərdə isə qalın saitlərin ahəngi var.

**4.** Məntiqi ardıcıllığı davam etdir.

**Düzgün cavab:**

1-ci sırada qalın saitlərin ahəngi olan sözlər verilmişdir. Deməli, şagirdlər bu sıraya qalın saitlərin ahəngi olan sözlər əlavə etməlidirlər.

2-ci sırada incə saitlərin ahəngi olan sözlər verilmişdir. Deməli, şagirdlər bu sıraya incə saitlərin ahəngi olan sözlər əlavə etməlidirlər.

3-cü sırada ahəng qanununa tabe olmayan sözlər verilmişdir. Deməli, şagirdlər ahəng qanunu pozulmuş sözlərlə bu sıranı davam etdirməlidirlər.

İş dəftərində təqdim edilmiş tapşırıqlar şagirdlərin ahəng qanunu haqqında öyrəndikləri bilikləri tətbiq etməyə, möhkəmləndirməyə xidmət edir. Eyni zamanda bu tapşırıqlar müəllimə şagirdləri qiymətləndirmək imkanı yaradır.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Ahəng qanunundan asılı olaraq çoxvariantlı şəkilçilərdən uyğun olanını seçir. | Tap. 1, 3, 4 (D.), tap. 2 (İ.D.) |
| Sualı cavablandırarkən fikrini əsaslandırır. | Tap. 2 (D.), tap. 3 (İ.D.) |
| Söz birləşmələri və cümlələrdə qrammatik baxımdan zəruri düzəlişlər edir. | Tap. 5 (D.) |

LAYİHƏ

# 4-cü fəsil
# SEVİMLİ DOSTUM

## 1-ci DƏRS
## Dostum Lətif. Qoşasaitli sözlər

**Təlim nəticələri:**

**Oxu:**
• Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.2).
• Cümlədə buraxılmış sözü müəyyən edir (st. 3.1.3).
• Faktlardan istifadə etməklə mətndə birbaşa əks olunmayan məlumat əldə edir (st. 3.1.2).

**Yazı:**
• Səslə hərfi uyğunlaşdıraraq eşitdiyi sözü yazır (st. 4.1.1).
• Mövzuya, situasiyaya uyğun kiçikhəcmli mətn (açıqca, təəssürat) yazır (st. 4.1.4).

**Mövzuya yönəltmə. Danışma**
**Dərslik, səh. 20**

**1.** Sinif yoldaşlarınızdan kimlə dostluq edirsiniz? Bu dostluğun səbəbini izah edin.

Müəllim tapşırıqda təqdim edilmiş sual vasitəsilə şagirdlərin diqqətini mövzuya yönəldir.

Şagirdlər mövzunu öz şəxsi həyatları ilə əlaqələndirərək sualı cavablandırırlar. Müəllim yönəldici suallar vasitəsilə şagirdləri istiqamətləndirə bilər:

• Dostun haqqında hansı məlumatları bilirsən?
• Dostunun ad günü nə vaxtdır?
• Dostunun hobbisi nədir?

**Oxu. Söz ehtiyatı**

**Mətnlə iş.** Mətni oxumaq üçün müəllim müxtəlif oxu strategiyaları tətbiq edə bilər. "Dostum Lətif" mətninin oxunması üçün **növbəli oxu** üsulundan istifadə etmək olar. Mətni oxumaq üçün şagirdlərin sıra ardıcıllığı müəyyən olunur. Müəllim şagirdlərin diqqətinə çatdırır ki, mətndəki cümlələri ardıcıl oxumaq üçün hər bir şagird başqasının oxuduğu cümləni diqqətlə dinləməli və həmin cümlələri kitabdan izləməlidir.

**"Söz mücrüsü" rubrikası**

**Söz mücrüsü**

mühəndis • kitabxanaçı
hörmət • mülayim • şirkət
təsadüf etmək

"Söz mücrüsü"ndəki və oxu prosesində rast gəlinən tanış olmayan sözlərin mənası üzərində iş aparılır. Müəllim şagirdlərə yeni sözlərin mənasını izah edir *(mühəndis, kitabxanaçı, hörmət, mülayim, şirkət, təsadüf etmək).* Bəzi sözlərin mənasını cümlənin kontekstindən, bəzilərini şəkillər vasitəsilə izah etmək mümkündür.

**Oxuyub-qavrama**
**Dərslik, səh. 21**

**2.** Mətnə əsasən suallara cavab verin.

**"Nə anladın?"** rubrikasında verilmiş tapşırıq oxuyub-qavrama, ümumiləşdirmə bacarığının inkişafına yönəlmişdir.

**Dərslik, səh. 21**

**3.** Nöqtələrin yerinə "söz mücrüsü"ndən uyğun gələn sözləri yazmaqla cümlələri tamamlayın.

Tapşırıq söz ehtiyatının möhkəmləndirilməsinə xidmət edir. Şagirdlər "söz mücrüsü"ndən uyğun sözləri seçərək cümlələri tamamlayırlar. Bununla da yeni sözlərin mənasını anladıqlarını nümayiş etdirirlər.

**Dərslik, səh. 21**

**4.** Sizcə, Lətif hansı ayda və gündə anadan olub? Mətndəki hansı cümlə sualın cavabını müəyyənləşdirməyə kömək etdi?

**"Düşün və cavab ver"** rubrikasında verilən bu tapşırıq şagirdlərin həm oxuyub-qavrama, həm də analiz etmə, nəticə çıxarma bacarıqlarının inkişafına yönəlib. Şagirdlər "Respublika Günü"nün hansı tarixdə keçirildiyi

LAYİHƏ

haqqında fakta istinad edərək mətndə birbaşa verilməyən məlumatı, yəni Lətifin ad gününün 28 May tarixinə təsadüf etdiyini müəyyənləşdirirlər. Mətndə istinad etdikləri cümləni (Mənim ad günüm Respublika Gününə təsadüf edir.) oxumaqla fikirlərini əsaslandırırlar.

**Dərslik, səh. 21**

**5.** Anketlə tanış olun. Nümunəyə uyğun olaraq yoldaşınız haqqında anket tərtib edin.

Tapşırıqda şagirdlərə anket nümunəsi təqdim edilib. Şagirdlər anketlə tanış olurlar. Müəllim yönəldici suallar vasitəsilə şagirdləri anketi oxuyub anlamaq üçün istiqamətləndirir.

• *Anketdə kim haqqında məlumat verilib?*
• *Anketdə hansı məlumatlar verilib?*
• *Sizcə anket hazırlamaq üçün nə etmək lazımdır?*
• *Siz dostunuz haqqında anket hazırlasaydınız, ona hansı sualları verərdiniz?*

**Cütlərlə iş.** Şagirdlər cütlərə ayrılıb dərslikdəki nümunə əsasında bir-birinə aid anket hazırlayırlar. Daha sonra anketləri təqdim edirlər.

**Yazı**

Müəllim lövhəyə "radio" və "dairə" sözlərini yazır. Bir neçə şagird bu sözləri ucadan oxuyur. Bu fəaliyyət zamanı şagirdlərin diqqətini sözlərin tələffüzünə yönəltmək lazımdır.

– Bu sözlərin tələffüzü ilə yazılışı arasında hansı fərqi hiss etdiniz?

– Sizcə, hansı tələffüz forması daha rahatdır: [radio], yoxsa [radiyo]?

Daha sonra müəllim tələffüz zamanı bəzi qoşasaitli sözlərdə saitlərin arasına "y" samitinin əlavə edildiyi haqqında məlumat verir.

**Dərslik, səh. 21**

**6.** Nümunəyə əsasən sözlərin düzgün yazılışını müəyyən edib yazın.

Şagirdlər nümunəyə istinad edərək tapşırıqda verilmiş sözlərin düzgün yazılışını müəyyən edirlər. Bu tapşırıq orfoqrafik normalara uyğun yazmaq bacarığını inkişaf etdirir.

**Müəllimin nəzərinə!** Dərslikdəki tapşırıqlar yerinə yetirildikdən sonra əlavə möhkəmləndirmə tapşırıqları yerinə yetirmək tövsiyə edilir. Bu məqsədlə müxtəlif tapşırıq modelləri hazırlamaq mümkündür:

1. Arasına "y" samitinin əlavə edildiyi qoşasaitli sözlərin imla yazısını təşkil etmək olar.
2. Üzərində qoşasaitli sözlərin tələffüz forması yazılmış kartoçkalardan istifadə etmək olar. Şagirdlər masanın üzərinə düzülmüş kartoçkalardan birini seçirlər. Tələffüz formasında yazılmış sözü lövhədə orfoqrafik normalara uyğun yazırlar. Digər şagirdlər isə həmin sözün düzgün və yaxud səhv yazıldığını müəyyənləşdirirlər.

**Oxuyub-qavrama. Yazı**

**İş dəftəri, səh. 12**

**1.** "Dostum Lətif" mətnindən istifadə edərək Lətifin anketini doldur.

Tapşırığın əsas məqsədi şagirdlərə anketin tərtibi qaydalarını mənimsətməkdir. Şagirdlər "Dostum Lətif" mətnindən Lətif haqqında faktları seçərək anketin uyğun xanalarına yazırlar. Bu tapşırıq oxuyub-qavrama, eyni zamanda yazı bacarığının da inkişafına xidmət edir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tap. 2 (D.), tap. 1 (İ.D.) |
| Cümlədə buraxılmış sözü müəyyən edir. | Tap. 3 (D.) |
| Faktlardan istifadə etməklə mətndə birbaşa əks olunmayan məlumat əldə edir. | Tap. 4 (D.) |
| Mövzuya, situasiyaya uyğun anket yazır. | Tap. 5 (D.) |
| Səslə hərfi uyğunlaşdıraraq eşitdiyi sözü yazır. | Tap. 6 (D.) |

LAYİHƏ

# 1-ci bölmə üzrə ümumiləşdirici təkrar

**Təlim nəticələri:**

**Oxu:**
- Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.2).

**Yazı:**
- Yazarkən cümlədə söz sırasına əməl edir (st. 4.1.2).
- Ahəng qanunundan asılı olaraq çoxvariantlı şəkilçilərdən yerli-yerində istifadə edir (st. 4.1.2).
- Sözləri sətirdən sətrə düzgün keçirərək yazır (st. 4.1.2).

Dərslikdə verilmiş "Sən nə yaxşı nənəsən!" şeiri əsasında bir sıra oxu, eləcə də yazı bacarıqları təkrar olunur. Ümumiləşdirici təkrar müəllimə şagirdləri bölmə üzrə keçilmiş mövzular üzrə qiymətləndirmə imkanı da yaradır.

**Oxuyub-qavrama**

**Dərslik, səh. 22**

**1.** Şeiri oxuyun. Suallara cavab verin.

Şagirdlər "Sən nə yaxşı nənəsən!" şeirini oxuyur və faktoloji suallara cavab verirlər. Tapşırıqda verilmiş suallar şagirdlərin aşağı siniflərdə şeir haqqında aldıqları bilikləri (müəllif, bənd, misra, qafiyələnən sözlər) də təkrarlamağa imkan yaradır.

**Oxu. Yazı**

**Dərslik, səh. 22**

**2.** Nəvə nənəsindən nələri öyrənib? Şeirdən həmin misraları oxuyun. Söz sırasını bərpa edib köçürün.

Bu tapşırıqda oxu və yazı bacarıqları inteqrasiya olunur. Şagirdlər tapşırıqda qoyulmuş sualı cavablandırmaq üçün şeirin uyğun misrasını oxuyur və söz sırasını bərpa edərək həmin misranı yazırlar. Bununla da həm oxuyub-qavrama, həm də nəzmi nəsrə çevirmək bacarıqlarını nümayiş etdirirlər.

**Yazı**

**Dərslik, səh. 22**

**3.** Verilmiş əlamətlərə uyğun şeirdən sözlər seçin.

Şagirdlər bu tapşırıqda saitləri növlərinə görə qruplaşdırmaqla saitlərin növləri üzrə biliklərini nümayiş etdirirlər.

**Düzgün cavab:**

1. Qalın, dodaqlanmayan saitlərdən ibarət sözlər: *balam, hamıdan, qarlı, dağlarımızın, tanıtmısan, yaxşı.*
2. İncə, dodaqlanmayan saitlərdən ibarət sözlər: *mənim, qənd, nənə, evimizdə, sən, mənə, mən, səndən, dilini, çiçəyini, nənəsən.*
3. Qalın, dodaqlanan saitlərdən ibarət sözlər: *oğul, noğul.*
4. İncə, dodaqlanan saitlərdən ibarət sözlər: *gülünü.*

**Dərslik, səh. 22**

**4.** Şeirin birinci bəndində ahəng qanununa tabe olmayan sözü seçin.

Bu tapşırıq şagirdlərin ahəng qanunu haqqında aldıqları məlumatı təcrübədə necə tətbiq etmələrini yoxlamağa imkan yaradır.

**Dərslik, səh. 22**

**5.** "Azərbaycan" sözünə şəkilçilərdən uyğun gələnləri əlavə edib yazın.

**Düzgün cavab:** Azərbaycandır, Azərbaycanım, Azərbaycandan, Azərbaycanda.

Bu tapşırıqlar şagirdlərin ahəng qanunu haqqında biliklərini, çoxvariantlı şəkilçilərdən düzgün istifadə etmək bacarığını nümayiş etdirir.

**Dərslik, səh. 22**

**6.** Şeirin 1-ci bəndində fərqləndirilmiş hansı sözləri sətirdən sətrə keçirmək olmaz?

**Düzgün cavab:** oğul, qənd, sən.

Şagirdlər şeirdə fərqləndirilmiş sözlər arasından sətirdən sətrə keçirilməsi mümkün olmayanı tapmaqla sözlərin sətirdən sətrə keçirilməsi haqqında biliklərini nümayiş etdirirlər.

LAYİHƏ

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tap. 1 (D.) |
| Yazarkən cümlədə söz sırasına əməl edir. | Tap. 2 (D.) |
| Ahəng qanunundan asılı olaraq çoxvariantlı şəkilçilərdən yerli-yerində istifadə edir. | Tap. 3, 4, 5 (D.) |
| Sözləri sətirdən sətrə düzgün keçirərək yazır. | Tap. 6 (D.) |

# 1-ci bölmə üzrə kiçik summativ qiymətləndirmə

İş dəftərinin 13-14-cü səhifələrindəki materiallar KSQ-yə hazırlıq məqsədilə verilmişdir. Qiymətləndirmə oxu və yazı məzmun xətlərini əhatə edən aşağıdakı meyarlar üzrə aparılır.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tap. 1, 2, 3 |
| Mətni yazmaqda müəllifin məqsədini müəyyən edir. | Tap. 4 |
| Sözləri sətirdən sətrə düzgün keçirərək yazır. | Tap. 5, 6 |
| Sözləri ahəng qanununa görə fərqləndirir. | Tap. 7, 8, 9 |
| Ahəng qanunundan asılı olaraq çoxvariantlı şəkilçilərdən uyğun olanını seçir. | Tap. 10 |

LAYİHƏ

Bölmə **2** **ANA VƏTƏN**

| Dərs saat | Mövzu (oxu, söz ehtiyatı, şifahi nitq) | Yazı (Dil qaydaları) | Dərslik səh. | İş dəftəri səh. | MV səh. |
|---|---|---|---|---|---|
| 1-ci fəsil. **Mənim vətənim** | | | | | |
| 1 | Azərbaycan (Oxu, söz ehtiyatı) | | 23-25 | 15 | 30-31 |
| 2 | Azərbaycan (Dinləmə, danışma, yazı) | "k" hərfi ilə bitən sözlərin yazılışı | 26 | 16 | 32-33 |
| 2-ci fəsil. **Dövlət atributları** | | | | | |
| 3 | Bayraqlar (Danışma, oxu) | | 27-28 | 17 | 33-34 |
| 4 | Bayraqlar (Oxu, danışma, yazı) | | 28-29 | 18 | 35-36 |
| 5 | Bayraqlar (Yazı) | "q" hərfi ilə bitən sözlərin yazılışı | 29 | 19 | 36-37 |
| 3-cü fəsil. **Abidələr** | | | | | |
| 6 | Yanardağ (Oxu, danışma, dinləmə) | | 30-31 | 20 | 37-39 |
| 7 | Yanardağ (Yazı) | "o" hərfi ilə yazılan sözlər | 32 | 21 | 39-40 |
| 4-cü fəsil. **Qarabağ** | | | | | |
| 8 | Şuşa bizimdir (Oxu, danışma, yazı) | | 33-34 | 22 | 41-43 |
| 9 | Şuşa bizimdir (Danışma, yazı) | "b, c, d, g" samitləri ilə bitən sözlərin yazılışı | 34-35 | 23 | 43-44 |
| 10 | 2-ci bölmə üzrə ümumiləşdirici təkrar | | 36 | | 44-45 |
| | 2-ci bölmə üzrə kiçik summativ qiymətləndirmə | | | 24-25 | 45 |

**Bölmənin icmalı**

**Dinləmə.** İnformativ mətni dinləyərkən açar sözləri müəyyənləşdirmək bacarığı formalaşdırılır.

**Danışma.** Bu bölmənin əsas məqsədi verbal informasiyanı vizual şəkildə ifadə etmək, verilən məlumatlardan istifadə edərək rabitəli mətn qurmaq və şifahi şəkildə təqdim etmək bacarıqlarını inkişaf etdirməkdir.

**Söz ehtiyatı.** Sözlərin mənasını kontekstə görə müəyyənləşdirmək və cümlədə işlətmək bacarıqları inkişaf etdirilir.

**Oxu.** Müxtəlif oxu texnikaları ilə daha çox informativ mətnlər üzərində işləmək bacarığı inkişaf etdirilir.

**Yazı.** Fikri yazılı şəkildə ifadə etmək bacarığı inkişaf etdirilir. Həmçinin orfoqrafik və qrammatik qaydalar öyrədilir: 1. "K", "q" hərfləri ilə bitən sözlərin yazılışı; 2. Tərkibində "o" hərfi olan sözlərin yazılışı; 3. Bəzi cingiltili samitlərlə bitən sözlərin yazılışı.

LAYİHƏ

# 1-ci fəsil
# MƏNİM VƏTƏNİM

## 1-ci DƏRS
### Azərbaycan
### (Oxu, söz ehtiyatı)

**Təlim nəticələri:**

**Danışma:**

• Həyatda gördükləri və təəssüratları haqqında danışır (st. 2.2.1).

**Oxu:**

• Məzmunun açılmasına xidmət edən açar sözləri müəyyənləşdirir (st. 3.1.2).

**Söz ehtiyatı:**

• Kontekstdən çıxış edərək tanış olmadığı söz və ifadələrin mənasını təxmin edir (st. 3.1.3).

**Danışma (Mövzuya yönəltmə)**

Dərsə bölmənin titul səhifəsində verilmiş suallarla başlamaq tövsiyə edilir. Şagirdlərin fikirləri dinlənilir. *(Dərslikdə titul səhifəsi)*

1. Vətən deyəndə nə başa düşürsünüz?

Şagirdlərə fikirlərini ifadə etmək üçün yönəldici suallar vermək tövsiyə olunur.

*– Nə üçün müxtəlif xalqların vətəni də müxtəlifdir?*

*– Nə üçün hamı öz vətənini qoruyur?*

3. Azərbaycan haqqında bildiklərinizi danışın.

Titul vərəqindəki 3-cü suala cavab verərkən şagirdləri öz fikirlərini sistemli şəkildə ifadə etməyə sövq etmək üçün müxtəlif suallar ver–mək olar:

*– Vətəniniz haqqında danışarkən, sizcə, nə haqqında məlumat vermək lazımdır?*

*– Hansı abidələrimizi tanıyırsınız?*

*– Azərbaycan musiqisi haqqında nə bilirsiniz?*

*– Adət-ənənələrimiz haqqında nə bilirsiniz?* və s.

**Oxu ("Azərbaycan" mətni)**

**Dərslik, səh. 24**

**1.** Mətni oxuyun. Tapşırıqları yerinə yetirin.

<u>Oxudan əvvəl</u>

Mətn oxunmağa başlanmazdan əvvəl müəllim şagirdlərə tapşırır ki, mətndə Azərbaycanı təqdim edərkən hansı məsələlərə diqqət yetirildiyinə fikir versinlər. Mətn şagirdlər tərəfindən oxunur.

<u>Oxu zamanı</u>

Hər abzasın bir şagirdə oxudulması tövsiyə edilir. Dərslikdə hər abzasa uyğun şəkil verilmişdir. Mətni oxuyarkən şagirdlərin diqqətini bu şəkillərə yönəltmək üçün hər abzasdan sonra şəkillə bağlı suallar vermək olar:

*– Xəritədə qartalın dimdiyinə bənzəyən hissəni göstərin.*

*– Xəritədə işarə olunmuş yer hansı şəhərdir?*

*– Azərbaycan hansı ölkələrlə həmsərhəddir?*

*– Şəkildə hansı abidə təsvir edilib?*

*– Hansı bayramlarda və ya tədbirlərdə milli geyimdə olan qız və oğlanları görmüsünüz?*

*– Şəkildə hansı nağıl personajları təsvir edilmişdir?* və s.

**Müəllimin nəzərinə!** Şagirdlər həyat bilgisi fənnindən Azərbaycan haqqında məlumatlıdırlar. Azərbaycanın sərhədləri, xəritənin görünüşü, Bakı şəhərinin harada yerləşməsi, sərvətləri və s. haqqında biliyə malikdirlər.

**Söz ehtiyatı**

Mətn oxunduqca şagirdlərlə tanış olmayan sözlər üzərində iş aparılır. Kontekstə görə sözlərin mənası müəyyənləşdirilir.

**Dərslik, səh. 25**

**4.** Mətndə göy hərflərlə verilmiş sözlərə diqqət edin. Cümlələrdə altından xətt çəkilmiş hansı sözlər mətndəki mənalarına uyğun deyil?

Cümlələrdə "hava" və "tarix" sözləri müxtəlif mənalarda işlədilmişdir. Şagirdlər tədris dilindən omonimlər haqqında məlumatlıdırlar. Tapşırığın məqsədi şagirdlərə omonimlik haqqında məlumat verməkdən ibarət deyil, mətn daxilində sözlərin mənasını anlayıb-anlamadıqlarını müəyyənləşdirməkdən ibarətdir.

<u>Oxudan sonra</u> (oxuyub-qavrama, danışma)

Mətn oxunduqdan sonra şagirdlərə mətndən əldə etdikləri məlumatları ümumiləş-

LAYİHƏ

dirmək, oxuduqlarını anladıqlarını yoxlamaq məqsədilə müxtəlif suallar verilə bilər:

– *Azərbaycan haqqında hansı məlumatları əldə etdiniz?*

– *Bu məlumatlardan sizin üçün yeni olanı hansı idi?*

– *Vətəniniz haqqında daha hansı məlumatları vermək istərdiniz?* və s.

**Dərslik, səh. 25**

**2.** Hansı fikir mətndə yoxdur?

Tapşırıq şagirdlərin oxuyub-qavrama bacarığının yoxlanılmasına xidmət edir. Tapşırıqda verilmiş 3-cü, 4-cü və 5-ci fikirlər mətndə öz əksini tapmamışdır. Belə ki, mətndə III abzasda Azərbaycan muğamının dünyada məşhur olduğu haqqında məlumat var, lakin xalqımızın muğamı çox sevdiyi haqqında fikir yoxdur. Bu, təxmin ediləndir, lakin açıq şəkildə mətndən bu məlumatı almaq olmur.

IV abzasda qızların, oğlanların milli geyimdə rəqs etmələri haqqında məlumat verilir, lakin ancaq rəqs zamanı milli geyimdə olmalarını əks etdirən fikir yoxdur.

V abzasda Azərbaycan nağıllarının uşaqlar tərəfindən sevildiyi fikri ifadə olunmuş və nağıl qəhrəmanlarının adı çəkilmişdir. Nənələrin nəvələrinə hər axşam nağıl oxumaları haqqında məlumat isə yoxdur. Bu məlumat da təxmin ediləndir. Lakin mətndə öz əksini tapmamışdır.

**Dərslik, səh. 25**

**3.** Verilmiş açar sözləri mətnin abzasları ilə uyğunlaşdırın.

Mətndə, abzasda əsas fikri müəyyənləşdirmək üçün açar sözlərin qeyd edilməsi mühüm məsələlərdən biridir. Verilmiş mətndəki abzaslarda açar sözləri müəyyənləşdirmək çox asandır. Şagirdlər Azərbaycan dili fənnində bu tip tapşırığı ilk dəfə yerinə yetirdikləri üçün mətnin sadə olması nəzərə alınmışdır. Həmçinin ilk mərhələdə açar sözlərin şagirdlər tərəfindən müəyyənləşdirilməsi yox, təqdim edilmiş açar sözlərin abzaslara uyğunlaşdırılması tapşırılmışdır.

**Müəllimin nəzərinə!** Azərbaycan dili *(dövlət dili kimi)* fənninin predmeti şagirdlərdə nitq bacarıqlarının formalaşdırılmasından ibarətdir. Əsas filoloji biliklər tədris dilində verilməli olduğundan Azərbaycan dili *(dövlət dili kimi)* fənnində bu biliklərə istinad edilir. Buna görə də dərslikdə əlavə filoloji məlumatlar verilməmişdir.

Oxuyub-qavramanı yoxlamaq üçün iş dəftərindəki tapşırıqlar yerinə yetirilir.

**İş dəftəri, səh. 15, tap. 1**

Şagirdlər 2-ci sinifdə qafiyə anlayışı ilə tanış olmuşlar. Köhnə biliklərdən istifadə etməklə tapşırıq yerinə yetirilir. Qafiyəyə uyğun olaraq bəndlər tamamlanır.

1-ci bənddə – Mehriban ana dilim;
2-ci bənddə – Bakının baş tacıdır;
3-cü bənddə – “Cırtdan” aldadır “Div”i;
4-cü bənddə – Böyük, güclü bir ordu.

Daha sonra dərslikdəki mətndə olmayan əlavə məlumatları işarə edirlər. Qeyd olunacaq məlumatlar bunlardır:

1. Azərbaycan dili;
2. Üçrəngli bayraq;
3. Paytaxt Bakı;
4. İslam dini;
5. Güclü ordunun olması.

**İş dəftəri, səh. 15, tap. 2**

Şagirdlər əldə etdikləri məlumatlardan istifadə etməklə “Sən öz Vətənini necə təqdim edərdin?” mövzusunda kiçik mətn yazırlar. Tapşırığın əsas məqsədi şagirdlərdə əldə etdikləri informasiyanı ümumiləşdirmək bacarığını formalaşdırmaqdan ibarətdir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Həyatda gördükləri və təəssüratları haqqında danışır. | Titul səhifəsi |
| Mətnə əsasən açar sözləri müəyyənləşdirir. | Tap. 3 (D.) |
| Kontekstdən çıxış edərək tanış olmadığı sözün mənasını təxmin edir. | Tap. 4 (D.) |

LAYİHƏ

# 2-ci DƏRS
## Azərbaycan
## (Dinləmə, danışma, yazı)

**Təlim nəticələri:**
**Dinləmə:**
• Dinlədiyi informasiyaya əsasən verilmiş suallara adekvat cavab verir (st. 1.1.2).
**Danışma:**
• Aldığı məlumatları rabitəli mətn halına salaraq şifahi təqdim edir (st. 2.2.2).
**Yazı:**
• "K" hərfi ilə bitən sözləri düzgün yazır (st. 4.1.1).

**Dərslik, səh. 26**

**1. Qruplarla iş.** Yeni məlumatlara və oxuduğunuz mətnə əsasən verilmiş mövzular əsasında təqdimat hazırlayın.

Şagirdlər əvvəlki dərsdə Azərbaycan haqqında müəyyən məlumatlar əldə etmişlər. Həmçinin tapşırıqda onlara müxtəlif yeni məlumatlar təqdim edilir. Hər qrup öz mövzusuna uyğun olaraq "Azərbaycan" mətninin abzaslarındakı və tapşırıqda verilmiş informasiyaları ümumiləşdirib şifahi təqdimat hazırlamalıdır. Bu zaman şagirdlər köhnə biliklərindən də istifadə edə bilərlər. Tapşırığın əsas məqsədi informasiyanı ümumiləşdirmək və danışmaq bacarıqlarını formalaşdırmaqdan ibarətdir. Sinif qruplara bölünür. Şagirdlərin iş prosesini asanlaşdırmaq məqsədilə iş vərəqləri təqdim edilir. İş vərəqi nümunəsi:

**I qrup "Azərbaycan musiqisi"**

**Mətndəki informasiyalar (açar sözlərlə)**

Xalq mahnıları | Muğam | Oyun havaları

**Tapşırıqdan əldə olunan məlumatlar**

Görkəmli bəstəkarlar | Ü.Hacıbəyli

**Köhnə biliklər**

"Sarı gəlin" | Muğam festivalı | Himn

*(Verilən iş vərəqi nümunə kimi təqdim edilir. Müəllim müxtəlif şəkildə iş vərəqləri hazırlaya bilər.)*

Qeydlərin açar söz şəklində götürülməsi şagirdlərə kömək edir ki, şifahi təqdimat zamanı fikirlərini unutmadan sistemli şəkildə ifadə edə bilsinlər. Verilmiş nümunəyə əsasən şagirdlər belə bir mətn təqdim edə bilərlər: *"Azərbaycanın musiqisi çox zəngindir və başqa xalqlar tərəfindən də sevilir. Azərbaycanın çoxlu xalq mahnısı var. Bunlardan biri "Sarı gəlin"dir. Bu mahnı bütün dünyada məşhurdur. Həmçinin Azərbaycanın muğamı və oyun havaları da xalqlar tərəfindən sevilir. Azərbaycanda hər il muğam festivalı keçirilir və bura bir çox ölkələrdən qonaqlar dəvət olunur. Azərbaycanın bir çox görkəmli bəstəkarları da vardır. Bunlardan biri Ü.Hacıbəylidir. O, Azərbaycanın himninin müəllifidir".*

*(Verilmiş mətn və köhnə biliklərdən əldə olunan informasiyalar nümunə xarakteri daşıyır. Şagirdlər müxtəlif informasiyalar təqdim edə və fərqli mətn tərtib edə bilərlər.)*

Hər qrup təqdimat edəndən sonra şagirdlərin informasiyanı necə qəbul etdiklərini yoxlamaq məqsədilə müxtəlif sualların verilməsi tövsiyə edilir:

*– Qrupun təqdimatının əsas mövzusu nə idi?*
*– Təqdimatdan hansı məlumatları əldə etdiniz?*
*– Bu mövzu barədə daha nə deyə bilərsiniz?*
və s.

**Yazı**

**Dərslik, səh. 26**

**2.** Sözlərdə nöqtələrin yerinə uyğun gələn hərfləri müəyyən edin.

Tapşırıq motivasiya xarakteri daşıyır. Şagirdlər tapşırığı düzgün yerinə yetirməyə də bilərlər. Məqsəd onları bu barədə düşünməyə yönəltməkdən ibarətdir.

**Dil qaydası ("Bunları bilməliyik")**

Təqdim edilən dil qaydası sonu "k" hərfi ilə bitən bəzi sözlərin düzgün yazılışı haqqındadır və şagirdlərdə Azərbaycan dilinin orfoqrafiyasına uyğun yazı vərdişlərinin yaranmasına xidmət edir.

LAYİHƏ

**“Bunları bilməliyik”** rubrikasında Azərbaycan dilində düzgün orfoqrafiyanın formalaşmasına xidmət edən qayda verilmişdir.

Növbəti tapşırıqlar qazanılmış biliklərin tətbiqi və möhkəmləndirilməsi ilə bağlıdır.

**Dərslik, səh. 26**

**3.** Nöqtələrin yerinə uyğun gələn hərfləri yazmaqla cümlələri köçürün.

Nöqtələrin yerinə qaydaya uyğun olaraq uyğun gələn hərfləri yazmaqla köçürürlər.

**Dərslik, səh. 26**

**4.** Səhvləri düzəldərək mətni dəftərinizə köçürdün.

Mətndə buraxılmış səhvləri düzəltmək tapşırılmışdır.

Hər iki tapşırıqda şagirdlər “k” samiti ilə bitən bəzi sözlərin yazılışı ilə bağlı qaydanı mənimsədiklərini nümayiş etdirirlər.

**İş dəftəri, səh. 16**

**1.** Sözləri tamamla, “k” hərfi ilə bitən sözləri dairəyə al.

**Düzgün cavab:** ürək, beşik, qəpik, kəpənək, böyük.

**İş dəftəri, səh. 16**

**2.** “K”, yoxsa “y”? Nöqtələrin yerinə uyğun gələn hərfləri yaz.

**İş dəftəri, səh. 16**

**3.** Buraxılmış səhvləri düzəltməklə cümləri yenidən yaz.

Verilən tapşırıqlar şagirdlərin qazandığı dil qaydasını möhkəmləndirməyə xidmət edir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verilmiş informasiyanı ümumiləşdirərək təqdimat edir. | Tap. 1 (D.) |
| “K” hərfi ilə bitən sözləri düzgün yazır. | Tap. 2, 3, 4 (D.), tap. 1, 2, 3 (İ.D.) |

# 2-ci fəsil
# DÖVLƏT ATRİBUTLARI

## 1-ci DƏRS
## Bayraqlar
## (Danışma, oxu)

**Təlim nəticələri:**

**Oxu:**

• Mətndəki informasiyaları müəyyənləşdirir (st. 3.1.2).

**Danışma:**

• Fikrini əsaslandırmaqla münasibət bildirir (st. 2.1.2).

**Danışma (Mövzuya yönəltmə)**

Mətnin oxusuna başlamazdan əvvəl şagirdlərin diqqətini fəslin adına yönəltmək, mövzuya maraq oyatmaq və düşündürmək məqsədilə onlara yönəldici suallar vermək tövsiyə edilir:

– *Dövlət atributları dedikdə nə başa düşürsünüz?*

– *Sizcə, nə üçün dövlətlərin himni, gerbi və bayrağı vardır?*

– *Nə üçün müxtəlif binaların üstündə bayraqlar asılır?*

– *Niyə xalqlar öz bayraqlarını qoruyurlar?*

– *Nə üçün bayrağı yerə atmaq olmaz?* və s.

Şagirdlər müxtəlif fikirlər irəli sürə bilərlər.

**Oxu**

**Dərslik, səh. 27**

**1.** Mətni oxuyun və tapşırıqları yerinə yetirin.

“Bayraqlar” mətni oxunur. Mətn oxusu zamanı **istiqamətləndirilmiş oxu** üsulundan istifadə etmək olar. Müəllim əvvəlcədən sinfə suallar təqdim edir. Şagirdlər sualların cavablarını mətndən tapmalıdırlar. Təqdim olunan suallara nümunə olaraq aşağıdakıları göstərmək olar:

*1. Qədim zamanlarda gəmidə bayraqlar nə məqsədlə istifadə olunurdu?*

LAYİHƏ

*2. Döyüşdə bayraq nə məqsədlə istifadə olunurdu?*

*3. Müasir dövrdə bayraq hansı mənanı ifadə edir?*

*4. Azərbaycan bayrağının üzərindəki rənglərin hansı mənası vardır?*

*5. İdman yarışlarında bayraq nə üçün qaldırılır?*

Mətn səssiz oxu ilə oxunur. Oxu bitəndən sonra şagirdlərin cavabları müzakirə olunur. Məqsəd şagirdlərdə oxuyub-qavrama və nəticəçıxarma bacarığının formalaşdırılmasından ibarətdir.

**Nə anladın? rubrikası**

**Dərslik, səh. 28**

**2.** Doğru (D), yoxsa yanlış (Y)?

Tapşırıq oxuyub-anlama bacarığının formalaşmasına xidmət edir. Şagirdlər verilmiş informasiyanın mətnə uyğun olub-olmadığını müəyyənləşdirməlidirlər.

**"Düşün və cavab ver" rubrikası**

**Dərslik, səh. 28**

**3.** Mətnə əsasən bayrağın yaradılmasının müsbət cəhətlərini göstərin.

Tapşırıq şagirdin fikrini ifadə etmək bacarığını və məntiqi təfəkkürünü inkişaf etdirməyə yönəlmişdir. Belə ki, şagirdlər mətndəki məlumatlardan istifadə etməklə bayrağın yaradılmasının müsbət cəhətlərini göstərməlidirlər. Şagirdlər fikirlərini ifadə edərkən onların mətndəki informasiyadan düzgün istifadə etmələrinə diqqət yetirmək tövsiyə edilir. Şagirdlər təxminən belə fikirlər irəli sürə bilərlər: *"Bayraqların olmasının müsbət cəhəti ondan ibarətdir ki, yarışlarda ad çəkmədən idmançının hansı dövlətə məxsus olduğunu müəyyənləşdirmək olar. Bayraq dövlətin simvolu olduğu üçün görüşlərdə onun ucaldılması burda hansı dövlətin iştirak etdiyini göstərir".*

**Dərslik, səh. 28**

**4.** Sizcə, dövlətlərin bayraqları olmasaydı, necə olardı?

Tapşırıq şagirdin şifahi nitqini, tənqidi və yaradıcı təfəkkürünü inkişaf etdirməyə yönəlmişdir. Şagirdlər müxtəlif fərziyyələr irəli sürə bilərlər. Cavablar verilərkən şagirdlərin fikri necə formalaşdırdıqlarına və deyilən fərziyyələrin məntiqli olub-olmadığına diqqət yetirmək tövsiyə edilir.

**İş dəftəri, səh. 17**

**1.** Mətnə əsasən cümlələri tamamla.

**Düzgün cavab:** (nümunə)

1. Əvvəllər bayraq qaldırırdılar ki, **limana yan alan gəmiləri, döyüşdə üz-üzə gələn qoşunları tanısınlar.**

2. Döyüşdə bayraqdarı qoruyurdular, **çünki döyüşdə bayrağın yerə düşməsi ordunun məğlub olması demək idi**.

3. Döyüş zamanı ağ bayraq qaldırırdılar ki, **ordunun təslim olduğu və danışıqlar aparmaq istədiyi bilinsin.**

4. Bayraqlar fərqli olur, ona görə ki **dövlətlərin simvoludur. Dövlətlər fərqli olduğu üçün bayraqlar da fərqli olur.**

5. İdman yarışlarında bayraq qaldırılır ki, **idmançının hansı dövlətə məxsus olduğu bilinsin.**

**İş dəftəri, səh. 17**

**2.** Bayrağımız haqqında əldə etdiyin hansı məlumatlar şeirdə öz əksini tapıb? Həmin misraların altından xətt çək.

**Düzgün cavab:** üçrəngli bayraq, bayrağın üzərində ay-ulduzun olması.

**İş dəftəri, səh. 17**

**3.** "Söz mücrüsü"ndən seçilmiş sözləri cümlələrdə işlət.

Tapşırıq şagirdlərdə cümlə qurmaq bacarığı formalaşdırır. Həmçinin sözlərin öyrənilməsinə xidmət edir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndəki informasiyaları müəyyənləşdirir. | Tap. 2 (D.), tap. 1, 2 (İ.D.) |
| Fikrini əsaslandırmaqla münasibət bildirir. | Tap. 3, 4 (D.) |

LAYİHƏ

# 2-ci DƏRS

## Bayraqlar
## (Oxu, danışma, yazı)

**<u>Təlim nəticələri</u>:**

**Oxu:**

• Mətndəki informasiyanı müəyyənləşdirir (st. 3.1.2).

**Yazı:**

• Verbal informasiyanı qeyri-verbal şəkildə və əksinə ifadə edir (st. 4.1.4).

**Danışma:**

• İnformasiyadan istifadə etməklə təqdimat edir (st. 2.1.2).

**Danışma (Mövzuya yönəltmə)**

Şagirdlərə müxtəlif təşkilatların bayraq şəkillərinin göstərilməsi və mövzuya yönəltmək məqsədilə sualların verilməsi tövsiyə edilir.




Qızıl Aypara Cəmiyyəti (Humanitar təşkilat)




UNİCEF (Uşaqları Müdafiə Fondu)

*– Sizcə, nə üçün Qızıl Aypara Cəmiyyətinin bayrağında qırmızı rəngdən istifadə edilib?*

*– UNİCEF-in bayrağında nə üçün ana və uşaq şəkli çəkilib?*

Şagirdlərin fikri dinlənilir və tapşırıq yerinə yetirilir.

**Dərslik, səh. 28**

**1.** Mətni oxuyun, tapşırıqları yerinə yetirin.

Tapşırıqda mətn təqdim edilmişdir. Tapşırığın məqsədi şagirdlərdə oxuyub-anlama, verbal informasiyanı qeyri-verbal şəkildə və əksinə ifadə edə bilmək bacarıqlarını formalaşdırmaqdır.

**Dərslik, səh. 28**

**2.** Mətnə əsasən bayraqların aid olduğu dövlətləri müəyyən edin.

Mətndə bayraqların sözlə təsviri verilmişdir: *"...Məsələn, Türkiyənin bayrağının üstündə aypara və ulduz, Kanadanın bayrağının üzərində iki tərəfdən qırmızı zolaq, ortada yarpaq şəkli çəkilmişdir. Yaponiya bayrağında isə ağ rəngli düzbucağın mərkəzində ancaq tünd-qırmızı rəngli dairə vardır. Bayraqdakı rənglərin və işarələrin öz mənaları vardır".*

Şagirdlər təsvirə əsasən dərslikdə şəkli verilmiş bayraqların hansı dövlətə aid olduğunu müəyyənləşdirməlidirlər.

**Dərslik, səh. 28**

**3.** Mətndəki məlumatlardan istifadə edərək Livan Respublikasının bayrağı haqqında danışın.

Mətndə bayraqlarda işlənən simvolların və rənglərin mənaları verilmişdir. Verilmiş informasiyadan istifadə etməklə Livan Respublikasının bayrağını sözlə təsvir etmək tapşırılmışdır. Tapşırığın məqsədi qeyri-verbal informasiyanı sözlə ifadə etmək bacarığını inkişaf etdirməkdən ibarətdir. Təsvir təqribən belə olmalıdır: *"Bayraq üç zolaqdan ibarətdir. Bayrağın kənarlarında iki ensiz qırmızı zolaq, ortasında ağ enli zolaq vardır. Ağ zolağın üstündə ağac şəkli çəkilmişdir. Bu, ölkənin sərvətini göstərən ağac ola bilər. Çünki bayraqların üzərində dövlətlərin sərvətinin də şəklini göstərirlər".*

**Danışma**

**Dərslik, səh. 29**

**4.** Verilmiş məlumat vərəqindən istifadə etməklə bayraq haqqında təqdimat hazırlayın.

Şagirdlərə məlumat vərəqində Pakistanın bayrağı haqqında informasiya verilmişdir. Onlar bu informasiyadan istifadə edərək təqdimat hazırlamalıdırlar. Şagirdlərin cümləleri

LAYİHƏ

düzgün qurmalarına, mətni struktur cəhətdən düzgün tərtib etmələrinə diqqət yetirmək tövsiyə edilir.

**İş dəftəri, səh. 18**

**1.** Təlimatı oxu və tapşırıqları yerinə yetir.

Tapşırığın məqsədi verbal şəkildə verilmiş informasiyanı qeyri-verbal informasiyaya və əksinə çevirmək bacarığını formalaşdırmaqdan ibarətdir.

a. Verilmiş təsvirə görə bayraq rənglənməlidir.
b. Verilmiş bayrağa görə təsvir verilməlidir.

**İş dəftəri, səh. 18**

**2.** Sinfinizin bayrağını yarat. Sənə kömək üçün simvollar və rənglər verilmişdir. Öz ideyana uyğun olanını seç. Bayrağın ideya və formasını sözlə təsvir et.

Tapşırıq yaradıcı təfəkkürə yönəlmişdir. Şagirdlər verilmiş simvollardan istifadə edərək bir bayraq yaratmalı və onun təsvirini verməlidirlər. Tapşırığın məqsədi şagirdlərdə fikri düzgün ifadə etmək bacarığının formalaşdırılmasından ibarətdir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndəki informasiyanı müəyyənləşdirir. | Tap. 1, 2 (D.) |
| Verbal informasiyanı qeyri-verbal şəkildə və əksinə ifadə edir. | Tap. 3 (D.), tap 1 (İ.D.) |
| İnformasiyadan istifadə etməklə təqdimat edir. | Tap. 4 (D.), tap. 2 (İ.D.) |

# 3-cü DƏRS
## Bayraqlar (Yazı)

**Təlim nəticələri:**

**Yazı:**

• "Q" hərfi ilə bitən sözləri orfoqrafik qaydaya uyğun yazır (st. 4.1.1).

• Özünün və başqasının yazısında orfoqrafik normalara uyğun düzəlişlər edir (st. 4.1.1).

**Yazı (Mövzuya yönəltmə)**

Müəllim dərsi belə bir hekayə ilə başlaya bilər:

*"Bizim Çingiz tez-tez yazısında səhvlər edir. Çünki qaydaları yadında saxlamır və yazanda onlardan istifadə etmir. Gəlin görək o hansı qaydaları unudur? Bu qaydaları ona xatırladaq və yenilərini öyrədək".*

Lövhədə belə bir mətn yazılır: *"Yayda nənəmgilə kəndə qonağ getmişdim. Nənəm həyatində inəy, qoyun, toyuğ-cücə saxlayır. Nənəm hər gün inəyləri sağır. İnəylər çox böyüydür. Ona görə mən onlara çox yaxınlaşmıram. Mən cücələrlə oynamaqı xoşlayıram. Toyuğlar isə balalarına əl vurulmasını istəmirlər. Cücələrə yaxınlaşanda anaları hirslənir, elə bilir ki, cücələri incidəcəyəm. Bir dəfə cücəni əlimə götürmək istəyəndə anası məni elə bərk dimdiylədi ki..."*

Gəlin Çingizin səhvlərini düzəldək və bu səhvləri bir daha etməməsi üçün ona bəzi qaydaları xatırladaq və izah edək.

Tapşırılır ki, yazıya diqqətlə baxsınlar, buraxılmış səhvləri müəyyənləşdirsinlər. Şagirdlər "k" hərfi ilə bitən sözlərin yazılışı ilə bağlı qaydanı öyrəniblər, ona görə səhv yazılmış sözləri *(inəy, inəyləri, inəylər, böyüydür, dimdiylədi)* müəyyənləşdirəcəklər. Şagirdlərin diqqəti səhv yazılmış "q" hərfi ilə bitən sözlərə yönəldilir və əvvəlki qayda ilə uyğunlaşdıraraq düzəliş etmək təklif edilir.

**Müəllimin nəzərinə!** Verilmiş mətn nümunə xarakteri daşıyır. Müəllim dərsi istədiyi şəkildə qurmaqda sərbəstdir.

**Dərslik, səh. 29**

**1.** "Bayraqlar" mətnində göy hərflərlə verilmiş sözlərə diqqət yetirin. Şəkilçidən asılı olaraq sözün kökündəki dəyişikliyi izah etməyə çalışın.

Tapşırıq motivasiya xarakteri daşıyır. "Bayraqlar" mətnində "q" hərfi ilə bitən sözlərin yazılışında baş verən dəyişiklikləri nəzərə çarpdırmaq üçün həmin sözlər göy hərflərlə verilmişdir. Məqsəd şagirdlərin diqqətini bu sözlərə yönəltməklə özlərinin qayda formalaşdırmalarına çalışmaqdan ibarətdir.

LAYİHƏ

**Dil qaydaları**

**"Bunları bilməliyik"** rubrikasında "q" hərfi ilə bitən sözlərə şəkilçi artırılarkən baş verən dəyişikliklə bağlı qrammatik qayda verilmişdir.

**Tətbiqetmə və nəticəçıxarma**

**Dərslik, səh. 29**

**2.** Nöqtələrin yerinə uyğun gələn hərfləri yazın.

Tapşırıq qaydanı möhkəmlətmək xarakteri daşıyır.

**İş dəftəri, səh. 19**

**1.** Hansı şəkillərdəki varlıqların adları "q" hərfi ilə bitir? Həmin şəkilləri dairəyə al.

Müxtəlif şəkillər verilmişdir. Şagirdlər "q" hərfi ilə bitən sözləri müəyyənləşdirməli və düzgün şəkildə yazmalıdırlar. Tapşırıq həm söz ehtiyatının təkrarlanmasına, həm də yazı bacarığının möhkəmləndirilməsinə xidmət edir.

**İş dəftəri, səh. 19**

**2.** Şeiri oxu, tapşırıqları yerinə yetir.

**a.** *Nöqtələrin yerinə uyğun gələn hərfləri yaz.*

Bu tapşırıq da eyni məqsədlə verilmişdir. Şagirdlərin eyni qaydanı dəfələrlə tətbiq etmələri onlarda vərdiş formalaşdırır.

**b.** *Şeirə əsasən qızı maraqlandıran sualları seç və işarələ.*

Tapşırığın məqsədi oxuyub-anlama bacarığını inkişaf etdirməkdir.

**Düzgün cavab:** 1, 3, 5, 6.

**Müəllimin nəzərinə!** Əgər şagirdlər "oraq" sözü ilə tanış deyillərsə, çox güman ki, 5-ci sualı seçməyəcəklər. Bu zaman müəllim "oraq" şəkli çəkməklə yarımçıq görünən ayın orağa bənzədiyini göstərə bilər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| "Q" hərfi ilə bitən sözləri orfoqrafik qaydaya uyğun yazır. | Tap. 2 (D.), tap. 1, 2 (İ.D.) |

# 3-cü fəsil
# ABİDƏLƏR

## 1-ci DƏRS
## Yanardağ
## (Oxu, danışma, dinləmə)

**Təlim nəticələri:**

**Oxu:**
• Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.2).

**Danışma:**
• Verbal və qrafik materialları (*şəkil, sxem, xəritə* və s.) şərh etməklə mövzu üzrə danışır (st. 2.2.2).

**Dinləmə:**
• Mətni dinləyərkən mühüm məlumatları qeyd edir (st. 1.1.2).

**Yazı:**
• Verilmiş informasiyadan istifadə etməklə rabitəli mətn yazır (st. 4.1.4).

**Danışma (Mövzuya yönəltmə)**

Şagirdləri mövzuya yönəltmək üçün tarixi abidələrlə bağlı suallar verməк tövsiyə edilir:

– *Hansı tarixi abidələri tanıyırsınız?*
– *Yanardağ haqqında eşitmisinizmi?*
– *Sizcə, nə üçün bu dağ belə adlanır?*

| BİLİRƏM | BİLMƏK İSTƏYİRƏM | ÖYRƏNDİM |
|---|---|---|
| | | |
| | | |

Şagirdlərin cavabları və onları maraqlandıran suallar cədvəlin müvafiq sütunlarına qeyd edilir.

**Oxu**

**Dərslik, səh. 30**

**1.** Mətni oxuyun və sualları cavablandırın.

**Dərslik, səh. 30**

**2.** Sualları mətnə əsasən cavablandırın.

LAYİHƏ

Mətn **istiqamətləndirilmiş oxu** üsulu ilə oxunur. Oxumağa başlamazdan əvvəl şagirdlərin diqqəti 2-ci tapşırıqdakı suallara yönəldilir. Müəllim əlavə suallar da təqdim edə bilər:

*– Əhmədi nə maraqlandırdı?*

*– Nə üçün qədim insanlar bu dağa möcüzə kimi baxırdılar?*

*– Sizcə, dövlət Yanardağı nə üçün qoruq elan etmişdir?*

*– Hansı xüsusiyyətinə görə Azərbaycandakı Yanardağ digərlərindən fərqlənir?*

Suallar cavablandırılandan sonra BİBÖ cədvəlinin üçüncü sütunu doldurulur.

**Danışma**

**Dərslik, səh. 31**

**3.** Sizcə, Yanardağı nə üçün qorumaq lazımdır?

Tapşırıq şifahi nitqin və tənqidi təfəkkürün inkişafına yönəlmişdir. Şagirdlər mətndən əldə etdikləri və köhnə biliklərindən istifadə edərək fikir bildirirlər.

**Dərslik, səh. 31**

**4.** Verilən məlumatları hansı abzaslara əlavə etmək olar?

Tapşırığın məqsədi informasiyaları uyğunlaşdırmaqla şagirdin oxuyub-anlama fəaliyyətini yoxlamaqdan ibarətdir. Şagirdlər Yanardağ haqqında tanış olduqları əlavə məlumatları mətndə uyğun gələn abzasa əlavə etməlidirlər:

1-ci cümlə III abzas; 2-ci cümlə II abzas; 3-cü cümlə II abzas; 4-cü cümlə III abzas; 5-ci cümlə I abzas.

**Dinləmə**

Şagirdlərə mətn oxunur. Tapşırılır ki, iş dəftərində olan ***(iş dəftəri, səh. 20, tap. 1)*** yaddaş xəritəsinə müvafiq qeydlər etsinlər.

"Azərbaycandakı Yanardağ haqqında ilk məlumat eramızdan əvvəl V əsrdə bizanslı Paniyalı Prisk tərəfindən verilmişdir. Ümumiyyətlə, o dövrdə Albaniya haqqında danışarkən tarixçilər burada yanan torpağın, hətta yanan suyun olduğunu qeyd edirlər. Qədim mənbələrə əsasən demək olar ki, dünyanın müxtəlif ölkələrində yanan dağlara rast gəlinir. Azərbaycandakı Yanardağ onlardan fərqlənir. Çünki bu dağın alovu heç vaxt sönmür. Azərbaycana gələn turistlər Yanardağa – bu möcüzəyə baxmağa gəlirlər".

**Diferensial təlim!** Bu tapşırıq diferensial təlimi təmin etməyə şərait yaradır. Azərbaycan dilini yaxşı bilən şagirdlər dərslikdəki mətndən, tapşırıqdan və dinləmə mətnindən əldə olunan məlumatlardan istifadə etməklə təqdimat hazırlaya bilərlər.

**Söz ehtiyatı**

**Dərslik, səh. 31**

**5.** Nöqtələrin yerinə "dövlət", "abidə" sözlərindən uyğun gələnini artırın.

"Söz mücrüsü"ndə verilən sözlərdən istifadə etməklə kontekstə görə cümlələri tamamlamaq tapşırılmışdır. Tapşırığın məqsədi sözlərin mənasını yaxşı qavratmaqdan ibarətdir. "Abidə" və "dövlət" sözləri müxtəlif kontekstlərdə işlədilməlidir.

**Dərslik, səh. 31**

**6.** Qız qalası haqqında məlumatlarla tanış olun. Sualları cavablandırmaqla rabitəli mətn hazırlayın.

Tapşırıqdakı məlumat vərəqində Qız qalası haqqında müxtəlif informasiyalar verilmişdir. Şagirdləri yönəltmək məqsədilə müxtəlif suallar təqdim edilmişdir. Suallar qeyri-verbal və cədvəl şəklində verilmiş informasiyanı anlamağa yönəlmişdir.




LAYİHƏ

1. *Qız qalası hansı şəhərdə yerləşir?* – Məlumat vərəqində xəritədə Bakı şəhəri göstərilmişdir.

2. *Məsud Davud kimdir?* – Cədvəldə Məsud Davudun Qız qalasının memarı olduğu qeyd edilmişdir.

3. *Qız qalası nə məqsədlə tikilmişdir?* – Məlumat vərəqində müdafiə məqsədilə tikildiyi qeyd olunmuşdur.

**Müəllimin nəzərinə!** Məlumat vərəqində informasiyalar həm verbal, həm də qeyri-verbal şəkildə verilir. Qız qalasının Bakı şəhərində yerləşməsi haqqında məlumat xəritənin köməyi ilə nəzərə çatdırılmışdır. Digər məlumatlar isə cədvəldə qeyd edilmişdir. Şagirdləri əvvəlcə məlumat vərəqindən necə istifadə edəcəkləri barədə təlimatlandırmaq tövsiyə edilir.

Müəllim **rollu oyun** üsulundan istifadə edərək təqdimatı dinləyə bilər. Şagirdlərdən biri şəhərə gələn qonaq, digəri isə bələdçi rolunda çıxış edə bilər. Təqdimat zamanı digər şagirdlərə tapşırılır ki, dinləyərkən qeydlər götürsünlər və təqdimatın sonunda deyilməyən və əlavə etmək istədikləri məlumatlarla bağlı qeydlərini bildirsinlər. Şagirdləri yönəltmək məqsədilə aşağıdakı sualların verilməsi tövsiyə edilir:

*– Hansı məlumatlar qeyd edilmədi?*

*– Sizi daha hansı məlumatlar maraqlandırır?*

Tapşırığın məqsədi şagirdlərdə əldə olan məlumatlardan istifadə etməklə rabitəli mətn hazırlamaq və şifahi nitq bacarıqlarını formalaşdırmaqdan ibarətdir. Şagirdlər təqdimat edərkən cümlə qurmaq bacarıqlarına da diqqət yetirilməsi tövsiyə edilir.

**İş dəftəri, səh. 20**

**1.** Dinlədiyin mətnə əsasən yaddaş xəritəsini doldur.

Tapşırığın məqsədi şagirdlərdə yazılı nitqi inkişaf etdirməkdən ibarətdir. Fikri yazılı şəkildə ifadə etmək daha çətindir. Bu zaman şagirdlərin informasiyanı strukturlaşmış şəkildə ifadə etmələrinə, cümlələri düzgün qurmalarına diqqət yetirmək tövsiyə edilir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tap. 2 (D.) |
| Verilmiş informasiyadan istifadə etməklə mətni genişləndirir. | Tap. 4 (D.) |
| Verbal və qrafik materialları (*şəkil, sxem, xəritə* və s.) şərh etməklə mövzu üzrə danışır. | Tap. 6 (D.) |
| Mətni dinləyərkən mühüm məlumatları qeyd edir. | Tap. 1 (İ.D.) |
| Verilmiş informasiyadan istifadə etməklə rabitəli mətn yazır. | Tap. 2 (İ.D.) |

# 2-ci DƏRS

## Yanardağ (Yazı)

**Təlim nəticələri:**

**Yazı:**

• Tərkibində "o" hərfi olan alınma sözləri düzgün yazır (st. 4.1.1).

• Özünün və başqasının yazısında orfoqrafik normalara uyğun düzəlişlər edir (st. 4.1.1).

**Dərslik, səh. 32**

**1.** Nöqtələrin yerinə uyğun gələn hərfi müəyyən edin. Deyiliş və yazılış arasındakı fərqi izah etməyə çalışın.

Tapşırıq motivasiya xarakteri daşıyır. Məqsəd şagirdlərin diqqətini mövzuya yönəltməkdən ibarətdir.

**Dil qaydaları**

**"Bunları bilməliyik" rubrikası.** Mövzu daha çox alınma sözlərlə bağlı olduğu üçün izah edilərkən tədris dilinə istinad etmək mümkündür. Tədris dili rus dili olan şagirdlər bu qayda ilə tanışdırlar.

LAYİHƏ

**Dərslik, səh. 32**

> **2.** Nöqtələrin yerinə uyğun gələn hərfi yazın.

Tapşırığın məqsədi şagirdlərin orfoqrafik yazı bacarıqlarını yoxlamaqdan ibarətdir.

**Dərslik, səh. 32**

> **3.** Dördündən birində "o" hərfi digər sözlərdən fərqli tələffüz olunur.

"Dördündən biri fərqlidir" modeli şagirdlərə artıq tanış tapşırıq modelidir. Şagirdlər hər sırada verilmiş sözlərdən tərkibindəki "o" hərfinin fərqli tələffüz olunanını seçməlidirlər. Tapşırıq şagirdlərin düzgün yazı və tələffüz bacarıqlarını yoxlayır.

**Düzgün cavab:**

1. A – opera; 3. D – kosmonavt;
2. C – kollaj; 4. C – kompaniya.

**Dərslik, səh. 32**

> **4.** Tərkibində "o" hərfi fərqli tələffüz olunan sözləri seçin.

Bu tapşırıq da şagirdlərin düzgün tələffüz və yazı bacarıqlarını yoxlamağa xidmət edir.

**Dərslik, səh. 32**

> **5.** Səhvləri düzəltməklə cümlələri dəftərinizə köçürün.

Tapşırıq şagirdlərdə yazı vərdişləri formalaşdırmağa xidmət edir. Belə ki, tapşırıqda şagirdlər bu gün tanış olduqları qaydanı tətbiq etməklə cümlələri köçürməlidirlər. Müəllimə tövsiyə edilir ki, yalnız qaydaya uyğun olan sözlərin deyil, digər sözlərin də yazılışına diqqət yetirsin. Tapşırığın yoxlanılması üçün qarşılıqlı yoxlamadan *(yoldaş yoxlaması)* istifadə etmək məqsədəuyğundur.

**Müəllimin nəzərinə!** Dərsdə yoldaş qiymətləndirilməsindən və özünüqiymətləndirmədən istifadə etmək üçün şagirdlərə müəyyən meyarların verilməsi lazımdır. Şagirdlər bilməlidirlər ki, tapşırığı yoxlayarkən hansı meyarlara, hansı məsələlərə diqqət yetirməlidirlər. Bu onlarda həm rəyvermə, həm də meyar üzrə qiymətləndirmə bacarığını inkişaf etdirməyə kömək göstərəcək.

**İş dəftəri, səh. 21**

> **1.** Düzgün yazılış variantını işarələ.

**İş dəftəri, səh. 21**

> **2.** Buraxılmış səhvləri düzəltməklə mətni köçür.

Mövzu daha çox şagirdlərdə orfoqrafik cəhətdən düzgün yazı bacarığı formalaşdırmağa xidmət etdiyi üçün iş dəftərində verilən tapşırıqlar da bu məqsədi daşıyır.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Tərkibində "o" hərfi fərqli tələffüz olunan alınma sözləri düzgün yazır. | Tap. 2, 4 (D.) |
| Tərkibində "o" hərfi fərqli tələffüz olunan alınma sözləri müəyyən edir. | Tap. 3 (D.), tap. 1 (İ.D.) |
| Özünün və başqasının yazısında orfoqrafik normalara uyğun düzəlişlər edir. | Tap 5 (D.), tap. 2 (İ.D.) |

LAYİHƏ

# 4-cü fəsil
# QARABAĞ

## 1-ci DƏRS
### Şuşa bizimdir
### (Oxu, danışma, yazı)

**Təlim nəticələri:**

**Oxu:**
- Mətndəki səbəb-nəticə əlaqələrini müəyyənləşdirir (st. 3.1.2).
- Məzmunun açılmasına xidmət edən açar sözləri müəyyənləşdirir (st. 3.1.2).

**Danışma:**
- Yeni öyrəndiyi söz və ifadələri cümlələrdə kontekstə uyğun işlədir (st. 2.1.2).

**Yazı:**
- Verilmiş informasiyadan istifadə etməklə rabitəli mətn yazır (st. 4.1.4).

**Danışma (Mövzuya yönəltmə)**

Mətni oxumağa başlamazdan əvvəl şagirdlərlə I və II Qarabağ müharibələri haqqında söhbət aparmaq tövsiyə edilir.

*– Qarabağ müharibələri haqqında nə bilirsiniz?*

*– Zəfər günü nə vaxtdır?*

*– Qarabağda işğaldan azad edilmiş hansı rayonların adlarını çəkə bilərsiniz?*

**Dərslik, səh. 33**

**1.** Mətni oxuyun və sualları cavablandırın.

**Dərslik, səh. 34**

**2.** Mətnə əsasən suallara cavab verin.

Mətni **istiqamətləndirilmiş oxu** üsulundan istifadə edərək oxumaq məqsədəuyğundur. Şagirdlərə əvvəlcədən tapşırıqdakı suallar təqdim edilir. Əlavə olaraq aşağıdakı suallardan istifadə etmək olar:

*– Qarabağın cins atları nə rəngdə idi?*

*– Mətndə hansı Qarabağ müharibəsindən danışılır?*

*– Dayça nə üçün ayaqlarını yerə döyürdü?*

*– Balaca qəhrəman dayçanı görüb niyə ağladı?*

Şagirdlər sualları cavablandırarkən mətndən əsaslandırmalar gətirməlidirlər. Bununla da şagirdin mətndəki informasiyadan düzgün istifadə edib-etməməsi yoxlanıla bilər.

**Dərslik, səh. 34**

**3.** Mətnə əsasən hadisələr arasında səbəb-nəticə əlaqəsini müəyyənləşdirin.

Tapşırığın məqsədi mətndəki səbəb-nəticə əlaqəsini müəyyənləşdirməkdən ibarətdir. Ümumiyyətlə, mətnin oxunub-anlanılmasında səbəb-nəticə əlaqəsinin müəyyənləşdirilməsi əsas məsələlərdən biridir. Şagirdlərə iki sütunda hadisələr və onların nəticəsi təqdim edilmişdir.

**Düzgün cavab:** 1 – Ç; 2 – D; 3 – A; 4 – C; 5 – B.

Tapşırıq yerinə yetirilərkən şagirdlərin mətnə istinad etməsi vacibdir. Bu, oxuyub-anlamanı yoxlamağa xidmət edəcək.

**Dərslik, səh. 34**

**4.** Oxuduğunuz mətnin hər abzasına aid bir açar söz müəyyənləşdirin.

Bu bölmədə formalaşdırılan bacarıqlardan biri mətndəki əsas fikri müəyyənləşdirmək üçün açar sözlərin tapılmasıdır. Əvvəlki dərslərdə açar sözlər hazır şəkildə verilmiş və abzaslara uyğunlaşdırmaq tapşırılmışdı. Bacarığı inkişaf etdirmək üçün bu dərsdə şagirdlərə açar sözləri özlərinin müəyyənləşdirməsi tapşırılmışdır.

Tapşırığı yerinə yetirmək üçün mətndəki abzaslar nömrələnmişdir. Şagirdlər nömrələnmiş abzaslara açar sözlər müəyyənləşdirməlidirlər. Müəllimlərə kömək məqsədilə açar sözlərin nümunəsi təqdim edilir. Xatırladaq ki, verilənlər nümunə xarakteri daşıyır, şagirdlər fərqli sözlər deyə bilərlər. Əsas məqsəd şagirdlərin müəyyənləşdirdiyi açar sözlərin məqsədə və əsas fikrə uyğun olmasıdır.

**Düzgün cavab:**

II abzas – hücum; qarışıqlıq;

III abzas – yalnızlıq; yad məkan;

IV abzas – qələbə; sevinc göz yaşları; qayıdış.

LAYİHƏ

**Dərslik, səh. 34**

> **5.** Sizcə, Şuşa azad olunana qədər qəhrəmanın həyatı necə keçib? Bu barədə təxəyyülünüzə uyğun hekayə qurub danışın.

Tapşırıq şagirdlərin şifahi nitq bacarıqlarını, tənqidi və yaradıcı təfəkkürünü inkişaf etdirir. Hekayə danışarkən şagirdləri yeni öyrəndikləri sözlərdən istifadə etməyə yönəltmək tövsiyə edilir. Şagirdlərə əvvəlcədən tapşırılır ki, qurduqları hekayədə kontekstə uyğun olaraq yeni sözlərdən istifadə etsinlər.

**Diferensial təlim.** Mövzu geniş leksik baza tələb etdiyi üçün dili daha yaxşı bilən şagirdlərin fikrini ifadə edərkən söz bazasını zənginləşdirməsinə və inkişaf etdirməsinə də şərait yaranır.

**Dərslik, səh. 34**

> **6.** Hansı cümlədə “cins” sözü nümunədəki məna ilə eyni işlənmişdir?

Şagirdlər bu dərsdə kifayət qədər yeni sözlərlə tanış olmuşlar. Mətn daxilində mənasını bilmədikləri sözlərin birbaşa tərcüməsini vermək məqsədəuyğun deyil. Şagirdləri yönəltmək lazımdır ki, mənasını bildikləri digər sözlərdən istifadə etməklə kontekstə uyğun olaraq sözün mənasını təxmin etməyə çalışsınlar. Tapşırıqda sözün omonimlik xüsusiyyəti daşıdığını göstərən cümlələr verilmişdir. Şagirdlər müəyyənləşdirirlər ki, Azərbaycan dilində bir neçə məna daşıyan sözlər var və kontekst daxilində onların işlənməsi ilə tanış olurlar.

**Dərslik, səh. 34**

> **7. Araşdırma.** I və II Qarabağ müharibələri, Şuşa və xarıbülbül haqqında araşdırma aparın və məlumat toplayın.

Növbəti dərsdə təqdimat etmək üçün məlumat toplamaq məqsədilə bu tapşırığın ev tapşırığı kimi verilməsi nəzərdə tutulmuşdur. Məsləhət görülür ki, əvvəlcədən şagirdlər qruplara bölünsün və hər qrupa öz mövzusuna uyğun tapşırıq verilsin. Çünki bütün mövzular əsasında şagirdlərin informasiya toplamaları çətinlik yarada bilər. Şagirdlər topladıqları informasiya əsasında məlumat vərəqləri hazırlayacaqları üçün onları yönəltmək lazımdır ki, qeyri-verbal şəkildə veriləcək informasiyaya da diqqət yetirsinlər.

**İş dəftəri, səh. 22**

> **1.** “Şuşa bizimdir” mətnindəki təsvirə əsasən Qarabağ atını müəyyənləşdir.

Mətndə Qarabağ atının təsviri verilmişdir: *“Hamısı cins Qarabağ atları idi: qızılı-kəhər rəngdə, alın və ayaqlarında isə böyük ağ xallar var idi”.* Şagirdlər bu təsvirə əsasən müəyyənləşdirirlər ki, axırıncı şəkildəki at Qarabağ atıdır.

**İş dəftəri, səh. 22**

> **2.** Doğru, yoxsa yanlış?

**“Doğru, yoxsa yanlış?”** tapşırıq modeli şagirdlərə tanış modeldir. Mətndəki informasiyaları müəyyənləşdirməklə oxuyub-anlamanı yoxlayan tapşırıqdır.

1 – Yanlış;
2 – Doğru *(Mətndə qeyd edilmişdir ki, 2020-ci ildə artıq 28 il idi ki, Şuşa işğal olunmuşdu)*;
3 – Yanlış;
4 – Doğru;
5 – Yanlış *(Mətndəki məlumatlardan istifadə etməklə müəyyənləşdirmək mümkündür ki, qəhrəman Şuşaya qayıdanda təqribən 40-41 yaşında idi).*

**İş dəftəri, səh. 22**

> **3.** Məlumatlardan istifadə etməklə II Qarabağ müharibəsi haqqında rabitəli mətn yaz.

Şagirdlər məlumat vərəqində verilmiş informasiyadan istifadə etməklə rabitəli mətn qurmalıdırlar. Tapşırığın məqsədi təqdim olunmuş informasiyadan düzgün istifadə etməklə rabitəli mətn qurmaq bacarığını formalaşdırmaqdan ibarətdir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

LAYİHƏ

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndəki səbəb-nəticə əlaqələrini müəyyənləşdirir. | Tap. 3 (D.) |
| Məzmunun açılmasına xidmət edən açar sözləri müəyyənləşdirir. | Tap. 4 (D.) |
| Yeni öyrəndiyi söz və ifadələri cümlələrdə kontekstə uyğun işlədir. | Tap. 6 (D.) |
| Verilmiş informasiyadan istifadə etməklə rabitəli mətn yazır. | Tap. 5 (D.), tap 3 (İ.D.) |

# 2-ci DƏRS

## Şuşa bizimdir

## (Danışma, yazı)

<u>**Təlim nəticələri**</u>**:**

**Danışma:**

• Verbal və qrafik materialları (*şəkil, sxem, xəritə* və s.) şərh etməklə mövzu üzrə danışır (st. 2.2.2).

**Yazı:**

• Sözlərin sonundakı orfoqramları düzgün yazır (st. 4.1.1).

• Özünün və başqasının yazısında orfoqrafik normalara uyğun düzəlişlər edir (st. 4.1.1).

**Dərslik, səh. 35**

**1. Qruplarla iş.** Əldə etdiyiniz məlumatlardan istifadə etməklə verilmiş mövzularda məlumat vərəqi hazırlayın və təqdimat edin.

Tapşırığın məqsədi şagirdlərdə informasiyanı qruplaşdırmaq, verbal və qeyri-verbal şəkildə təqdim etmək bacarıqlarını formalaşdırmaqdan ibarətdir. Əvvəlki dərsdə şagirdlərə ev tapşırığı kimi verilmiş mövzular üzrə toplanmış məlumatlardan istifadə edərək məlumat vərəqi hazırlamaq və təqdimat etmək tapşırılmışdır.

**Müəllimin nəzərinə!** Şagirdlər təqdimat hazırlayarkən diqqət yetirmək lazımdır ki, məlumat vərəqində verilən informasiyalarda əsas məqamlara diqqət yetirsinlər. Məkan, zaman, tarix, məqsəd, nəticə, səbəb açar sözlərdir. Bu sözlərdən hər şagird mövzusuna və məqsədinə uyğun şəkildə istifadə etməlidir. Məsələn: *I və II Qarabağ müharibələri haqqında məlumat vərəqi hazırlayan şagirdlər müharibənin tarixi, məkanı, məqsədi, səbəbi, nəticəsi haqqında informasiyanı, xarıbülbül haqqında məlumat vərəqi hazırlayanlar isə gülün görünüşü, bitdiyi yer haqqında informasiyanı mütləq şəkildə qeyd etməlidirlər.*

Şagirdlər məlumat vərəqlərini hazırlayandan sonra şifahi təqdimat edirlər. Təqdimat zamanı şagirdlərin cümlələri düzgün qurmalarına və fikirlərini rabitəli şəkildə ötürmələrinə diqqət yetirmək tövsiyə edilir.

**Yazı. “Bunları bilməliyik” rubrikası**

**Dərslik, səh. 35**

**2.** Mətndə altından xətt çəkilmiş sözləri tələffüz edin. Yazılışla tələffüz arasında fərqin olub-olmadığını müəyyənləşdirməyə çalışın.

Tapşırıq motivasiya xarakteri daşıdığından şagirdlər sualı düzgün cavablandırmaya da bilərlər. Məqsəd şagirdlərdə mövzuya maraq oyatmaqdan ibarətdir.

**Dərslik, səh. 35**

**3.** Nöqtələrin yerinə uyğun gələn hərfləri yazmaqla sözləri köçürün.

Qaydanın tətbiqinə və möhkəmləndirilməsinə xidmət edir. Şagirdlər şifahi şəkildə sözdən sonra sait artıraraq uyğun gələn samiti müəyyənləşdirməli, sonra sözləri yazmalıdırlar.

**Dərslik, səh. 35**

**4.** Altından xətt çəkilmiş sözləri düzgün yazmaqla cümlələri köçürün.

**Dərslik, səh. 35**

**5.** Səhv yazılmış sözü müəyyənləşdirin.

LAYİHƏ

Keçilən mövzu daha çox praktik orfoqrafik bacarıq və vərdiş tələb etdiyindən tapşırıqlar buna xidmət edir. Verilmiş tapşırıqlarda şagirdlər öyrəndikləri qaydaya əsasən buraxılmış səhvləri müəyyənləşdirməlidirlər.

**İş dəftəri, səh. 23**

**1.** Səhvləri düzəldərək cümlələri yenidən yaz.

Tapşırığın məqsədi keçilmiş qrammatik qaydanı tətbiq etməklə orfoqrafik cəhətdən düzgün yazı bacarığının formalaşdırılmasından ibarətdir.

**İş dəftəri, səh. 23**

**2.** Hərflərin sırasını düzəlt. Yaranmış sözləri yaz və şəkillərlə uyğunlaşdır.

Şagirdlərin həm də leksik bazasının yoxlanmasına xidmət edir.

**Düzgün cavab:** 1. çərpələng; 2. dəniz; 3. armud; 4. pələng.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verbal və qrafik materialları (*şəkil, sxem, xəritə* və s.) şərh etməklə mövzu üzrə danışır. | Tap. 1 (D.) |
| Sözlərin sonundakı orfoqramları düzgün yazır. | Tap. 3, 5 (D.) |
| Özünün və başqasının yazısında orfoqrafik normalara uyğun düzəlişlər edir. | Tap. 4 (D.), tap. 1 (İ.D.) |

# 2-ci bölmə üzrə ümumiləşdirici təkrar

**Təlim nəticələri:**

**Oxu:**
- Məzmunun açılmasına xidmət edən açar sözləri müəyyənləşdirir (st. 3.1.2).
- Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.2).
- Mətnin məzmununa uyğun gələn fikirləri müəyyən edir (st. 3.1.2).

**Yazı:**
- Sözlərin sonundakı orfoqramları düzgün yazır (st. 4.1.1).

Bu bölmənin məqsədi şagirdlərdə oxuyub-anlama bacarığının inkişaf etdirilməsi, mətndəki əsas fikri və buna əsasən açar sözlərin müəyyənləşdirilməsi olmuşdur ***(bax: D. səh. 25, 34)***. Ona görə də bu dərsdə həmin bacarıqların nə dərəcədə formalaşdığı və inkişaf etdiyini yoxlamaq məqsədilə mətn verilmişdir.

**Dərslik, səh. 36**

**3.** Uyğunluğu müəyyən edin.

Tapşırıq mətndəki faktoloji informasiyanı müəyyənləşdirməyə xidmət edir. Mətnə əsasən obrazların fəaliyyətini müəyyənləşdirmək tapşırılmışdır. Şagirdlərə izah etmək lazımdır ki, ümumiyyətlə, mətni oxumağa başlamazdan əvvəl suallarla tanış olsunlar. Oxuduqca sual və tapşırıqlarda verilən məqamlarla bağlı daha diqqətli olsunlar. Tapşırıqda mətnə əsasən faktoloji məlumatları müəyyənləşdirmək tapşırılıbsa, bu cür tapşırıqları yerinə yetirmək üçün ehtiyac yarandıqca mətni bir daha nəzərdən keçirmək lazımdır.

**Dərslik, səh. 36**

**4.** Hansı cümlə mətnin məzmununa uyğun deyil?

Tapşırıq mətnin məzmununa uyğun fikirlərin müəyyənləşdirilməsinə xidmət edir.

**Dərslik, səh. 36**

**5.** Mətnə uyğun açar sözü müəyyənləşdirin.

LAYİHƏ

Tapşırığın məqsədi şagirdlərdə mətndəki əsas fikrə əsasən açar sözün müəyyənləşdirilməsi bacarığının yoxlanılmasıdır.

**Dərslik, səh. 36**

**2.** Nöqtələrin yerinə uyğun gələn hərfləri müəyyənləşdirin.

Bölmədə keçilən dil qaydaları daha çox orfoqrafik cəhətdən düzgün yazı bacarığının formalaşdırılmasına xidmət edir. Mətn daxilində bu qaydalara uyğun sözlərdə boşluqlar buraxılmış və şagirdlərə uyğun gələn hərfləri yazmaq tapşırılmışdır.

**Müəllimin nəzərinə!** Şagirdlər bu cür tapşırıqları yerinə yetirərkən tövsiyə edilir ki, qaydalar müəllim tərəfindən xatırladılmasın. Şagirdlərin özlərinin uyğun gələn qaydanı yada salmaqla tapşırığı yerinə yetirmələri daha səmərəlidir. Şagirdlər elə yönəldilməlidir ki, özləri tapşırığa uyğun qaydanı xatırlasınlar. Tapşırığı işlədikcə şagirdlərdən hansı qaydaya əsaslandıqlarını soruşmaq tövsiyə edilir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözlərin sonundakı orfoqramları düzgün yazır. | Tap. 1 (D.) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tap. 3, 4 (D.) |
| Məzmunun açılmasına xidmət edən açar sözləri müəyyənləşdirir. | Tap. 5 (D.) |

## 2-ci bölmə üzrə kiçik summativ qiymətləndirmə

İş dəftərinin 24-25-ci səhifələrindəki materiallar KSQ-yə hazırlıq məqsədilə verilmişdir. Qiymətləndirmə oxu və yazı məzmun xətlərini əhatə edən aşağıdakı meyarlar üzrə aparılır.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətnin əsas fikrini müəyyənləşdirir. | Tap. 1 |
| Mətnin məzmununa uyğun gələn fikirləri müəyyən edir. | Tap. 2 |
| Məzmunun açılmasına xidmət edən açar sözləri müəyyənləşdirir. | Tap. 3 |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tap. 4 |
| Sözlərin sonundakı orfoqramları düzgün yazır. | Tap. 5-8 |

LAYİHƏ

## Bölmə 3 SEVİMLİ QƏHRƏMANLARIM

| Dərs saat | Mövzu (oxu, söz ehtiyatı, şifahi nitq) | Yazı (Dil qaydaları) | Dərslik səh. | İş dəftəri səh. | MV səh. |
|---|---|---|---|---|---|
| 1-ci fəsil. **Yenilməz qəhrəmanlar** | | | | | |
| 1 | Məlikməmməd (Oxu, söz ehtiyatı) | | 38-41 | 26 | 47-48 |
| 2 | Danışma | | 41-42 | 27 | 49-50 |
| 3 | Yazı | Nəqli və sual cümlələri | 42 | 28 | 50-51 |
| 2-ci fəsil. **Kələkbazlar** | | | | | |
| 4 | Çəkməli Pişik (Oxu, söz ehtiyatı) | | 43-47 | 29 | 52-54 |
| 5 | Danışma, yazı | Əmr cümləsi, nida cümləsi | 47-48 | 30-31 | 54-56 |
| 3-cü fəsil. **Sehrli qüvvələr** | | | | | |
| 6 | Ələddinin sehrli çırağı (Oxu, söz ehtiyatı) | | 49-52 | 32 | 57-58 |
| 7 | Danışma, dinləmə | Mürəkkəb cümlə | 52 | 33 | 58-60 |
| 8 | Yazı | | 53 | 34 | 60-62 |
| 9 | 3-cü bölmə üzrə ümumiləşdirici təkrar | | 54 | | 62 |
| | 3-cü bölmə üzrə kiçik summativ qiymətləndirmə | | | 35-36 | 62 |

**Bölmənin icmalı**

**Dinləmə.** Bədii mətni dinləyərkən qeyd götürmək bacarığı formalaşdırılır.

**Danışma.** Bu bölmənin əsas məqsədi vizual şəkildə verilmiş informasiyanı şərh etmək, genişləndirmək, verilən məlumatlardan istifadə edərək rabitəli mətn qurmaq və şifahi şəkildə təqdimat etmək bacarıqlarını inkişaf etdirməkdir.

**Söz ehtiyatı.** Sözlərin mənasını kontekstə görə müəyyənləşdirmək və cümlədə işlətmək bacarıqlarını inkişaf etdirməkdir.

**Oxu.** Müxtəlif oxu texnikaları ilə daha çox bədii mətnlər üzərində işləmək, mətni tərkib hissələrinə ayırmaq və uyğun gələn hissələrə əlavələr etmək bacarıqları inkişaf etdirilir.

**Yazı.** Fikri yazılı şəkildə ifadə etmək bacarığını inkişaf etdirməyə xidmət edir. Həmçinin aşağıdakı dil qaydaları öyrədilir:

1. Nəqli və sual cümlələri;
2. Əmr cümləsi, nida cümləsi;
3. Mürəkkəb cümlə.

LAYİHƏ

# 1-ci fəsil
# YENİLMƏZ QƏHRƏMANLAR

## 1-ci DƏRS
### Məlikməmməd
### (Oxu, söz ehtiyatı)

**<u>Təlim nəticələri</u>:**
**Danışma:**
• Süjetli şəkil kompozisiyası üzrə mətn qurub danışır (st. 2.2.1).
**Oxu:**
• Mətndə problem-qərar əlaqələrini müəyyənləşdirir (st. 3.1.2).
• Mətnin məzmununa uyğun gələn fikirləri müəyyən edir (st. 3.1.2).
**Söz ehtiyatı:**
• Yeni sözləri kontekstə uyğun cümlədə işlədir (st. 3.1.3).

**Danışma (Mövzuya yönəltmə)**

Bölmənin titul səhifəsində verilmiş suallarla şagirdlərin diqqəti bölmənin mövzusuna yönəldilir. Şagirdlərin cavabları dinlənilir. *(Dərslikdə titul səhifəsi)*

**1. Hansı nağılları oxumusunuz?**

**2. Ən çox sevdiyiniz nağıl qəhrəmanı hansıdır? Nə üçün?**

Şagirdlər danışarkən onların fikirlərini əsaslandırmalarına diqqət yetirmək tövsiyə edilir. Əsaslandırma sadə olsa da, mütləqdir. Şagirdin cavabı belə ola bilər: "Sevdiyim nağıl qəhrəmanı Zoluşkadır. Onun zəhmətkeş olması, hamıya kömək etməsi çox xoşuma gəlir".

**3. Nağıllarda hansı sehrli qüvvələrə rast gəlmisiniz?**

Titul səhifəsindəki 3-cü sualı cavablandırarkən şagirdləri əlavə fikirlərə yönəltmək üçün müxtəlif suallar vermək olar:

– *Sehrli qüvvə deyəndə nə başa düşürsünüz?*

– *Hansı sehrli əşyaların adlarını çəkə bilərsiniz?* və s.

**Oxu ("Məlikməmməd" nağılı)**

**Dərslik, səh. 38**

**1.** Mətni oxuyun. Tapşırıqları yerinə yetirin.

**Dərslik, səh. 40**

**2.** Mətni şəkillər üzrə davam etdirin.

Mətni oxuyarkən **istiqamətləndirilmiş oxu** üsulundan istifadə etmək tövsiyə edilir. Şagirdlərə suallar təqdim edilir:

**I hissə:**

– Bağdakı almanın sehri nədə idi?
– Padşah oğlanlarına nə dedi?
– Məlikməmməd yatmaması üçün nə etdi?
– Məlikməmməd nə üçün Divin dalınca getmək qərarına gəldi?

**II hissə:**

– Qardaşlar Divin quyuya düşdüyünü nədən başa düşdülər?
– Nə üçün böyük və ortancıl qardaşlar quyuya düşə bilmədilər?
– Məlikməmməd quyunun dibinə düşmək üçün nə etdi?
– Divin yanındakı qız nə üçün narahat oldu?

**III hissə:**

– Məlikməmməd Divlə nə qədər döyüşdü?
– Məlikməmməd və qız nə üçün quyudan çıxa bilmədilər?
– Məlikməmməd Əjdahanı nə üçün öldürdü?
– Zümrüd quşu Məlikməmmədə və qıza nə üçün kömək etdi?
– Nağıl necə bitdi?

**Müəllimin nəzərinə!** Mətnin 3-cü hissəsi komikslərlə verilmişdir. Şagirdlər şəkillərə və onları müşayiət edən yazılara əsasən suallara cavab verməlidirlər. Ona görə suallar elə olmalıdır ki, şagirdlər ya mətndən, ya da şəkillərdən çıxış edərək onları cavablandıra bilsinlər. Bundan əlavə, şagirdlər şəkillərə əsasən nağılı genişləndirə də bilərlər.

**Dərslik, səh. 41**

**3.** Doğru, yoxsa yanlış?

LAYİHƏ

Qrupların cavabları dinlənildən sonra dərslikdəki tapşırıq yerinə yetirilir. Doğru, yoxsa yanlış modeli şagirdlərə tanış modeldir. Verilən fikirlər daha çox faktoloji məlumatları müəyyənləşdirməyə xidmət edir.

**Düzgün cavab:** 1 – Y; 2 – Y; 3 – D; 4 – Y; 5 – D; 6 – D.

Daha sonra nağılın təhlili ilə bağlı suallar verilməsi tövsiyə edilir. Növbəti dərsdə nağılın təhlili üzərində iş gedəcək və buna görə şagirdlər bu məsələyə yönəldilir.

Həmçinin iş dəftərindəki tapşırıq yerinə yetirilir.

**Söz ehtiyatı**

Şagirdlərə tapşırılır ki, nağılı oxuduqca tanış olmadığı sözləri qeyd etsinlər. Kontekstə görə sözlərin mənasının müəyyənləşdirilməsi üzərində iş aparılır. Həmçinin mətnin oxusu bitəndən sonra dərslikdə 4-cü tapşırıq yerinə yetirilir.

**Dərslik, səh. 41**

**4.** Nöqtələrin yerinə uyğun gələn sözləri yazın.

Şagirdlər "söz mücrüsü"ndə verilmiş sözləri kontekstə uyğun olaraq cümlələrdə işlətməlidirlər.

**İş dəftəri, səh. 26**

**1.** Mətnin 1-ci hissəsi üçün verilmiş nümunəyə əsasən 2-ci hissəsinin problem-qərar cədvəlini tamamla.

**Müəllimin nəzərinə!** Oxuyub-anlamada əsas məqamlardan biri problemi və onun necə həll edildiyini müəyyənləşdirməkdir. Şagirdlərə ilk dəfə olaraq problem-qərar cədvəli təqdim edilir. Cədvəl nağılın 1-ci hissəsinə əsasən nümunə olaraq doldurulmuş və şagirdlərə təqdim edilmişdir. Səbəb-nəticə cədvəlindən fərqli olaraq mətndə hadisələrin gedişi zamanı yaranmış problemlər və həlli yolları müəyyənləşdirilir. Bu, problem-qərar cədvəlinin sadə formasıdır. Şagirdlər mətndə yaranmış bir problemi və həll edilməsi üçün verilmiş qərarı müəyyənləşdirməlidirlər.

**Düzgün cavab:** II hissə ilə bağlı problem-qərar cədvəli.

| | |
|---|---|
| Divi tapmaq lazım idi. | Qardaşlar onu tapmaq üçün qan izi ilə getdilər. |
| Qan izi ilə gedən qardaşlar Divin quyuya düşdüyünü görürlər. | Qardaşlar quyuya düşmək qərarına gəldilər. |
| Quyu isti olduğundan heç kəs düşə bilmirdi. | Məlikməmməd təklif etdi ki, nə qədər qışqırsa da, ona fikir verməsinlər və quyuya sallasınlar. |

**İş dəftəri, səh. 26**

**2.** Nağıldan nə öyrəndiyini yaz.

Şagirdin özünüifadə və fikirlərini əsaslandırma bacarıqlarını inkişaf etdirməyə yönəlmişdir. Belə ki, şagird nağıldan öyrəndiklərini qeyd etməlidir. Müəllimin qiymətləndirəcəyi məqam fikirlərin əsaslandırılmasıdır. Paralel olaraq cümlələrin düzgün qurulmasına, orfoqrafiyaya da diqqət yetirilməsi tövsiyə edilir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Süjetli şəkil kompozisiyası üzrə mətn qurub danışır. | Tap. 2 (D.) |
| Mətndə problem-qərar əlaqələrini müəyyənləşdirir. | Tap. 1 (İ.D.) |
| Mətnin məzmununa uyğun gələn fikirləri müəyyən edir. | Tap. 3 (D.) |
| Yeni sözləri kontekstə uyğun cümlədə işlədir. | Tap. 4 (D.) |

LAYİHƏ

# 2-ci DƏRS
## Məlikməmməd
## (Danışma)

**Təlim nəticələri:**
**Oxu:**
• İnformasiyanı mətnin tərkib hissələrinə uyğun qruplaşdırır (st. 3.1.2).
**Danışma:**
• Müzakirə zamanı mövzuya uyğun fikir yürüdür (st. 2.2.3).
**Dinləmə:**
• Dinlədiyi informasiyaya əsasən verilmiş suallara adekvat cavab verir (st. 1.1.2).

**Oxu**

**Dərslik, səh. 41**

**1.** Mətni tərkib hissələrinə ayırın. Verilən hadisələrin hansı hissəyə aid olduğunu müəyyənləşdirin.

Mətnin tərkib hissələri haqqında məlumatı şagirdlər tədris dilindən əldə etmişlər. Azərbaycan dili (dövlət dili) fənninin məqsədi bu bilik və bacarıqlardan istifadə etməklə müxtəlif nitq bacarıqlarının inkişaf etdirilməsindən ibarətdir. Buna görə tapşırıqda şagirdlərdən verilən informasiyanı mətnin tərkib hissələrinə görə qruplaşdırmaq tələb olunur. Bu, şagirddən oxuyub-anlama bacarığı ilə yanaşı informasiyanı qruplaşdırmaq bacarığı da tələb edir. Tapşırığın yerinə yetirilməsi ayrı-ayrı hissələr üzərində yox, bütün nağıl üzərində aparılır. Mətnin giriş hissəsi I hissənin ilk abzası, sonluğu III hissənin sonuncu şəklidir. Digərləri əsas hissə hesab edilir. Bu müəyyənləşdiriləndən sonra tapşırıq yerinə yetirilir.

**Düzgün cavab:**

Giriş – A; əsas hissə – B, Ç, E; sonluq – C, D.

**Dərslik, səh. 41**

**2.** Məlikməmmədin qardaşlarına münasibətinizi bildirin.

Tapşırıq şagirdin şifahi nitqini, tənqidi təfəkkürünü və münasibət bildirmək bacarıqlarını inkişaf etdirməyə xidmət edir. Məsələn, şagirdin cavabı belə ola bilər: *"Mənim qardaşlara münasibətim pisdir. Çünki onlar kiçik qardaşlarını çətinlikdə qoyub getməli deyildilər. Mən onların yerində olsaydım, qardaşımdan 40 gün xəbər çıxmasaydı, çətinliklə də olsa, quyuya düşər və onu axtarardım. Çünki Məlikməmmədin gəlməməyi onun çətinlikdə olduğunu göstərirdi".*

Şagirdlərin qardaşlara olan münasibəti fərqli ola bilər. Əsas məsələ şagirdlərin fikir bildirəndən sonra onları əsaslandırmasıdır. Bunu müzakirə şəklində keçirmək tövsiyə edilir. Beləliklə, şagirdlərin dinləyib-anlama bacarığı da inkişaf edir.

Tapşırıq **diferensial təlimin** təşkil olunmasına şərait yaradır.

**Dərslik, səh. 41**

**3.** Sizcə, Məlikməmməd Divi öldürə bilməsəydi, nə baş verərdi?

Tapşırıq şagirdin şifahi nitq bacarığını, tənqidi və yaradıcı təfəkkürünü inkişaf etdirməyə xidmət edir.

**Dərslik, səh. 41**

**4.** Nağılda hansı epizod xoşunuza gəldi?

Tapşırığın məqsədi şagirdin şifahi nitqini və fikrini əsaslandırma bacarığını inkişaf etdirməkdən ibarətdir. Belə ki, burda da şagirdlər, sadəcə, hansı epizodu bəyəndiklərini deyil, nə üçün məhz bu epizodu bəyəndiklərini deməlidirlər. Bu tapşırığı cütlərlə iş şəklində də aparmaq mümkündür. Şagirdlərə tapşırıla bilər ki, yoldaşına müəyyən suallar verməklə fikirlərini öyrənsinlər.

**Dərslik, səh. 42**

**5.** Məlikməmməd obrazı haqqında fikirlərinizi ifadə edin.

Şagirdlərin fikrini əsaslandırma və təhliletmə bacarıqlarını inkişaf etdirməyə xidmət edir. Obrazlar xəritəsinin əsas xüsusiyyəti obrazın verilən xüsusiyyətlərini və ya müəyyənləşdirilən xüsusiyyətlərinin mətnə əsasən əsaslandırılmasıdır. Bunun üçün şagirdlər mətndən nümunələr gətirməlidirlər. Bu tapşırığın da cütlərlə iş formasında keçirilməsi tövsiyə edilir. Cavablar təqribən bu şəkildə ola bilər:

LAYİHƏ

*“Məlikməmməd ağıllıdır, çünki bağda yuxuya getməmək, quyuya düşə bilmək üçün yol tapdı.*

*Cəsurdur, çünki Divdən qorxmadı, onunla döyüşdü.*

*Dözümlüdür, çünki yatmamaq üçün barmağını yaraladı və ağrılara dözdü, Divlə döyüşdü, çətinliyə dözdü, quyuya düşərkən istiyə dözdü”.*

Burda əsas məqsəd şagirdləri mətnlə bağlı fikirlər söyləməklə yanaşı onları əsaslandırmağa sövq etməkdir.

**İş dəftəri, səh. 27**

**1.** Verilmiş hadisələri nağıldakı ardıcıllığa görə sırala.

**İş dəftəri, səh. 27**

**2.** Doğru, yoxsa yanlış?

Verilən tapşırıqlar mətni oxuyub-anlama bacarığının yoxlanılmasına xidmət edir.

1-ci tapşırıqda hadisələrin ardıcıllığının müəyyənləşdirilməsi tapşırılmışdır.

**Düzgün cavab:** 1 – b; 2 – a; 3 – c; 4 – e; 5 – d; 6 – ç; 7 – ə; 8 – f.

2-ci tapşırığın cavabı: 1 – doğru; 2 – yanlış; 3 – doğru; 4 – doğru; 5 – yanlış; 6 – yanlış; 7 – doğru.

**İş dəftəri, səh. 27**

**3.** Verilmiş situasiyalarda Məlikməmmədin yerində olsaydın, nə edərdin?

Tapşırıq şagirdin münasibət bildirmək bacarığını və yaradıcı təfəkkürünü inkişaf etdirməyə xidmət edir. Şagirdlər müxtəlif fikirlər bildirə bilərlər. Əsas məqsəd şagirdlərin fikirlərini əsaslandırmalarıdır.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| İnformasiyanı mətnin tərkib hissələrinə uyğun qruplaşdırır. | Tap. 1 (D.), tap. 1 (İ.D.) |
| Müzakirə zamanı mövzuya uyğun fikir yürüdür. | Tap. 2, 3, 4 (D.), tap. 3 (İ.D.) |
| Dinlədiyi informasiyaya əsasən verilmiş suallara adekvat cavab verir. | Tap. 5 (D.) |

# 3-cü DƏRS

## Məlikməmməd (Yazı)

**<u>Təlim nəticələri</u>:**

**Yazı:**

- Nəqli və sual cümlələrini fərqləndirir (st. 4.1.2).
- Məqsədə uyğun olaraq sual cümləsi qurur (st. 4.1.2).
- Sual cümlələrində sual əvəzliklərindən yerli-yerində istifadə edir (st. 4.1.2).

**Yazı**

**Dərslik, səh. 42**

**1.** Altından xətt çəkilmiş cümlələrə diqqət yetirin. Sonunda qoyulan durğu işarəsinə görə düzgün intonasiya ilə oxumağa çalışın.

Tapşırıq şagirdlərin diqqətini mövzuya yönəltmək məqsədilə verilmişdir.

Mətndə altından xətt çəkilmiş cümlələr sual və nəqli cümlələrdir. Şagirdlər tədris dilindən əldə etdikləri biliklər əsasında durğu işarələrinin tələbinə uyğun olaraq düzgün intonasiya ilə oxuya bilərlər.

– *“Ey cavan, kimsən? Niyə gəlmisən?*

– *Mən elə bu Divlə vuruşmağa gəlmişəm”.*

**Bunları bilməliyik!**

Bu rubrikada verilən məlumatlarla şagirdlər tədris dilindən tanışdırlar. Ona görə şagirdlərin biliklərinə istinad etmək tövsiyə edilir.

**Müəllimin nəzərinə!** Dərsdə sual cümlələrinin yalnız sual əvəzliyi ilə düzələn forması təqdim edilmişdir. Lakin sinfin səviyyəsinə görə intonasiya və sual ədatlarının *(köməkçi sözlərin)* vasitəsilə yaranan sual cümlələrini də nümunə göstərmək olar. Bunu empirik yolla etmək tövsiyə olunur. Məqsəd şagirdlərə akademik biliklərin verilməsi yox, onların şifahi nitqlərində sual cümlələrini düzgün intonasiya ilə tə-

LAYİHƏ

ləffüz etmələridir. Tədris qeyri-dildə olan məktəbdə təhsil alan şagirdlər, adətən, Azərbaycan dilində məhz düzgün intonasiyadan istifadə etməkdə çətinlik çəkirlər.

**Dərslik, səh. 42**

> **2.** Buraxılmış durğu işarələrini yerinə yazmaqla dialoqu köçürün.

Tapşırığın məqsədi keçilən qaydanın möhkəmləndirilməsidir. Dialoqda verilmiş sual cümlələrindən ikisi sual ədatlarının köməyi ilə düzəlmişdir. Şagirdlər empirik yolla bu cümlələrin sual cümləsi olduğunu müəyyənləşdirirlər.

**Dərslik, səh. 42**

> **3.** Verilmiş cavablara əsasən sual cümlələri qurun.

Dərsin məqsədlərindən biri şagirdlərə mətndəki və ya cümlədəki informasiyanı əldə etmək üçün sual cümlələrinin qurulmasından ibarətdir. 3-cü tapşırıq bu məqsədin reallaşdırılmasına xidmət edir. Verilən cavaba əsasən şagirdlər sual cümləsi qurmalıdırlar. Bununla da şagirdlər məqsədəuyğun şəkildə sual cümlələri qurmaq öyrənirlər.

– Oxuduğun məktəb harada yerləşir?
– ...
– Sən neçənci sinifdə oxuyursan?
– ...
– Ən çox sevdiyin fənn hansıdır?
– ...

**İş dəftəri, səh. 28**

> **1.** Cümlələri uyğun durğu işarəsi ilə tamamla. Sual cümləsini müəyyən et.

Tapşırığın məqsədi informasiyanın qəbul edilməsini müəyyənləşdirməyi öyrətməkdən ibarətdir. Belə ki, verilən nümunələrdə elə sözlər var ki, şagirdlər ilk baxışda sual əvəzliyi hesab edə bilərlər. (*Paltarın necə də qəşəngdir.)* Lakin cümləni oxuyarkən şagirdlər empirik şəkildə bu cümlənin sual cümləsi olmadığını anlamalıdırlar.

**İş dəftəri, səh. 28**

> **2.** Nümunəyə əsasən cümlədəki informasiyanı müəyyənləşdirmək üçün suallar tərtib et.

Tapşırığın məqsədi həm şagirdlərdə sual cümləsi qurmaq, həm də cümlədəki informasiyanı müəyyənləşdirmək bacarıqlarını formalaşdırmaqdan ibarətdir. Şagirdlərə kömək məqsədilə birinci cümlədə sual əvəzliklərini *(kim? nə vaxt? hara?)* təqdim etmək olar.

**Düzgün cavab:**

Səbinə sabah İstanbula gedəcək.
1. Kim sabah İstanbula gedəcək?
2. Səbinə nə vaxt İstanbula gedəcək?
3. Səbinə sabah hara gedəcək?

Məktəbin həyətində şagirdlər ağac əkdilər.
1. Kim ağac əkdi?
2. Şagirdlər nə etdilər?
3. Şagirdlər harada ağac əkdilər?

**İş dəftəri, səh. 28**

> **3.** Altından xətt çəkilmiş ifadələrə aid sual cümləsi qur.

Şagirdlərə izah etmək lazımdır ki, sual cümləsi informasiyanı müəyyənləşdirmək üçün qurulur. Cümlədə informasiyanın sayı sözlərin sayı ilə müəyyənləşdirilmir. Bəzən bir neçə sözdən ibarət söz birləşməsi bir informasiyanı əks etdirə bilir.

**Düzgün cavab:**

Nənəmgil <u>şəhərdən kənarda</u> yaşayırlar.
Nənəmgil harada yaşayırlar?
Samir <u>dostları ilə görüşdüyü üçün</u> çox sevinirdi.
Samir nə üçün çox sevinirdi?

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Nəqli və sual cümlələrini fərqləndirir. | Tap. 2 (D), tap. 1 (İ.D.) |
| Məqsədə uyğun olaraq sual cümləsi qurur. | Tap. 3 (D.), tap. 2, 3 (İ.D.) |

LAYİHƏ

# 2-ci fəsil
# KƏLƏKBAZLAR

## 1-ci DƏRS
## Çəkməli Pişik
## (Oxu, söz ehtiyatı)

**Təlim nəticələri:**

**Oxu:**

• Oxuduğu cümlədə ifadə olunan fikri müəyyən edir və ona münasibət bildirir (st. 3.1.2).

• Verilmiş məlumatlara uyğun olaraq mətni genişləndirir (st. 3.1.2).

• Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.2).

• Mətndə problem-qərar əlaqələrini müəyyənləşdirir (st. 3.1.2).

**Oxu**

**Dərslik, səh. 43**

**1.** Mətni oxuyun və sualları cavablandırın.

**Dərslik, səh. 45**

**2.** Mətni şəkillər üzrə davam etdirin.

Mətni problem-qərar cədvəlini doldurmaqla oxutmaq tövsiyə edilir. Şagirdlər "Məlikməmməd" nağılından bu cədvəllə tanışdırlar. Məqsəd onlarda problemi müəyyənləşdirmək bacarığını formalaşdırmaq və inkişaf etdirməkdir. Şagirdlər **səssiz oxu** ilə nağılı oxuyur və cədvəli doldururlar. Bu cədvəl bütün mətn əsasında doldurulur. Həmçinin şagirdlərə tapşırılır ki, anlamaqda çətinlik çəkdikləri sözlərin kontekstə görə mənalarını müəyyənləşdirməyə çalışsınlar. Şagirdlərin tərtib etdikləri cədvəl təxminən belə ola bilər:

| Problem | Qərar |
|---|---|
| Kiçik qardaş ona qalan mirasdan narazı idi. | Pişik ona kömək etmək qərarına gəlir. |
| Pişik heç kasə demədən plan qurur: sahibini kralın qızı ilə evləndirmək. | Planı həyata keçirmək üçün krala hədiyyələr aparmaqla başlayır. |
| Kiçik qardaşı kralla tanış etmək lazım idi. Lakin onun qarşısına çıxmaq üçün geyimi belə yox idi. | Sahibinə çaya girməyi tapşırır və elə bir vəziyyət yaradır ki, kral özü ona geyim verir. |
| Krala göstərmək lazım idi ki, markiz Karabas varlıdır. | Otçalanlara tapşırır ki, bu ərazilərin markizə aid olduğunu desinlər. |
| Kralı qarşılamaq üçün imarət lazım idi. | Ən varlı Adamyeyənin imarətini ələ keçirmək qərarına gəldi. |
| Adamyeyən çox güclü idi və ona qalib gəlmək lazım idi. | Adamyeyəni bicliklə məhv etdi və onun qəsrini markizin qəsri kimi təqdim etdi. |
| Planındakı son addımı həll etmək lazım idi: gəncləri evləndirmək. | Kralı bu fikrə yönəltmək üçün sakitcə ona təklif edir ki, gəncləri evləndirsin. |

Şagirdlər mətni oxuyandan sonra cədvəl müzakirə edilir. Gözləniləndir ki, tapşırıq modeli yeni olduğu üçün şagirdlər problemi düzgün müəyyənləşdirə bilməsinlər. Şagirdlərə kömək etmək üçün onların diqqətini açar məqamlara və burdakı informasiyaları ümumiləşdirməyə yönəltmək tövsiyə edilir. Şəkillər üzrə mətn davam etdirilərkən şagirdlər verilmiş və özlərinin əlavə etdikləri cümlələrdən istifadə etməklə mətni genişləndirməlidirlər.

**Dərslik, səh. 46**

**3.** Mətnə əsasən sualları cavablandırın.

Tapşırığın məqsədi şagirdlərin oxuyub-qavramasını yoxlamaqdan ibarətdir. Təqdim edilən suallar daha çox faktoloji informasiyanı yoxlayır. Yalnız bir sual şagirdlərdən informasiyanı ümumiləşdirmə bacarığı tələb edir: *"Sizcə, kral gənclərin evlənməsinə nə üçün razı oldu?"* Mətndə bu sualın cavabı vardır. Belə ki, gös-

LAYİHƏ

tərilir ki, krala əvvəlcə markizin diqqəti – ona hədiyyələr göndərməsi, daha sonra yaraşığı, mədəniyyəti və nəhayət, var-dövləti xoş gəlir. Bu səbəbdən də gənclərin evlənməsinə razılıq verir. Şagirdi mətnin ayrı-ayrı hissələrində verilmiş bu informasiyaları qruplaşdırmağa yönəltmək lazımdır.

**Dərslik, səh. 46**

**4.** Verilmiş cümlələrlə nağılın nömrələnmiş hansı epizodlarını genişləndirmək olar?

Tapşırığın məqsədi qeyri-verbal informasiya ilə verbal informasiyanı uyğunlaşdırmaq bacarığını inkişaf etdirməkdən ibarətdir. Bu tapşırığın yerinə yetirilməsini sinfin səviyyəsindən asılı olaraq oxu zamanı da aparmaq mümkündür.

**Müəllimin nəzərinə!** Şagirdlər III hissəni oxuyarkən onlara xatırlatmaq lazımdır ki, şəkillərlə verilmiş hissəni genişləndirmək, şəklə uyğun olaraq müxtəlif yeni cümlələr əlavə etmək yolveriləndir. Əsas yanaşma odur ki, əlavə edilən fikirlər şəkildəki informasiyaya uyğun olsun.

**Düzgün cavab:**

| Cümlə | Şəkil |
|---|---|
| 1 | 1 |
| 2 | 2 |
| 3 | 3 |
| 4 | 5 |
| 5 | 2 |
| 6 | 4 |

**Dərslik, səh. 46**

**5.** Nağıla əsasən hadisələrin düzgün ardıcıllığını müəyyənləşdirin.

Mətni oxuyub-anlamağı yoxlamağın əsas üsullarından biri mətndəki informasiyanın ardıcıllığını müəyyənləşdirməkdən ibarətdir. Şagirdlərə xatırlatmaq lazımdır ki, tapşırığı yerinə yetirərkən yaddaşa əsaslanmasınlar. Ardıcıllığı düzgün müəyyənləşdirmək üçün mətni özlərinə uyğun qədər gözdən keçirə bilərlər.

**Düzgün cavab:** A; C; B; Ç; E; D.

**Dərslik, səh. 46**

**6.** Verilmiş xüsusiyyətlərdən Pişiyə aid olanlarını seçin.

Obraz xəritəsinin qurulmasının birinci addımıdır. Şagirdlər Pişiyin hərəkətlərinə əsasən onun xüsusiyyətlərini müəyyənləşdirirlər. İş dəftərində bu informasiyanı mətndən çıxış edərək genişləndirməlidirlər.

**Düzgün cavab:** A; C; E.

**Dərslik, səh. 47**

**7.** Göy hərflərlə verilmiş sözlərə diqqət yetirin. Hansı cümlədə fərqləndirilmiş sözün mənası bu sözlərlə uyğun deyil?

Tapşırıq söz ehtiyatının inkişafına yönəlmişdir. Verilən sözlər omonim sözlərdir, mənalarının müxtəlifliyi açıq şəkildə cümlələrin kontekstindən görünür. Bu model tapşırıqla şagirdlər əvvəlki dərslərdən tanışdırlar.

**İş dəftəri, səh. 29**

**1.** Çəkməli Pişik obrazı haqqında düşündüklərini yaz.

Tapşırığın məqsədi şagirdin təhliletmə, münasibət bildirmə bacarığını formalaşdırmaqdan ibarətdir. Şagirdlər Pişik obrazının mənfi və müsbət xüsusiyyətlərini müəyyənləşdirirlər. Şifahi şəkildə fikirlərini əsaslandırmalarını tapşırmaq tövsiyə edilir. Şagirdlərin yanaşmaları və cavabları müxtəlif ola bilər.

**Müəllimin nəzərinə!** Tapşırığı yerinə yetirərkən həmçinin diqqət yetirmək lazımdır ki, şagirdlər mənfi keyfiyyəti müsbət kimi götürməsinlər. Bəzən olur ki, şagirdlər Pişiyin kələkbazlığını müsbət xüsusiyyət kimi dəyərləndirirlər. Nəzərə almaq lazımdır ki, bizim məqsədlərimizdən biri də şagirdlərdə dəyər və keyfiyyət anlayışlarını formalaşdırmaqdan ibarətdir. Sadəcə, bunu empatiya ilə reallaşdırmaq daha məqsədəuyğundur. Şagirdə: *"Sən yanlış düşünürsən"* demək yox, onun fikirlərini düzgün istiqamətə yönəltmək tövsiyə edilir. Məsələn: *"Sənə qarşı belə rəftar olunsa, xoşuna gələrmi?"* və s. bu kimi

LAYİHƏ

sualların verilməsi ilə şagirdləri yönəltmək mümkündür.

**İş dəftəri, səh. 29**

**2.** Doğru, yoxsa yanlış?

Tapşırığın məqsədi şagirdin oxuyub-anlama, nəticə çıxarmaq bacarığını formalaşdırmaqdan ibarətdir.

**Düzgün cavab:**
1 – Y; 2 – D; 3 – Y; 4 – Y; 5 – D; 6 – D.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndə problem-qərar əlaqələrini müəyyənləşdirir. | Tap. 2 (D.) |
| Verilmiş məlumatlara uyğun olaraq mətni genişləndirir. | Tap. 4 (D.) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tap. 3 (D.) |
| Oxuduğu cümlədə ifadə olunan fikri müəyyən edir və ona münasibət bildirir. | Tap. 6 (D.), tap. 1, 2 (İ.D.) |

# 2-ci DƏRS
## Çəkməli Pişik
## (Danışma, yazı)

**Təlim nəticələri:**

**Danışma:**
• Müzakirə zamanı mövzuya uyğun fikir yürüdür (st. 2.2.3).

**Oxu:**
• İnformasiyanı mətnin tərkib hissələrinə uyğun qruplaşdırır (st. 3.1.2).
• Mətnə və ya abzasa uyğun başlıq müəyyənləşdirir (st. 3.1.2).

**Yazı:**
• Əmr və nida cümlələrini fərqləndirir (st. 4.1.2).

**Mövzuya yönəltmə**

**İş dəftəri, səh. 30**

**1.** "Çəkməli Pişik" nağılına əsasən hekayə xəritəsini tamamla.

Dərsi iş dəftərində verilmiş hekayə xəritəsinin doldurulması ilə başlamaq tövsiyə edilir. Şagirdlər hekayə xəritəsini qurarkən nağılı təkrarlayırlar. Bu, sonrakı müzakirə prosesinə kömək edəcək.

**Düzgün cavab:**

**Baş qəhrəmanlar:**
Çəkməli Pişik, dəyirmançının kiçik oğlu, kral.

**Köməkçi obrazlar:**
Kralın qızı, otçalanlar, Adamyeyən.

**Mövzu:**
Bir kələkbaz Pişik öz ağlı ilə sahibinin həyatını yaxşılaşdırmağa çalışır.

**İdeya:**
İnsan heç vaxt taleyindən şikayət edib əlini-qolunu yanına sallayıb oturmamalıdır. Özü öz taleyini yaxşılaşdırmaq üçün çalışmalıdır.

Daha sonra müzakirə şəklində dərslikdə verilmiş tapşırıqlar yerinə yetirilir.

**Dərslik, səh. 47**

**1.** Sizcə, Pişik krala qarşı doğru hərəkət etdimi? Fikrinizi əsaslandırın.

Tapşırığın məqsədi şagirdlərdə şifahi nitq bacarığını inkişaf etdirməklə yanaşı tənqidi təfəkkürü, müzakirə mədəniyyəti və əxlaqi-mənəvi keyfiyyətlər formalaşdırmaqdan ibarətdir. Şagirdlərə elan etmək lazımdır ki, onların nitqində yürütdükləri fikri əsaslandırmaq, eyni zamanda cümlə qurarkən şəkilçilərdən düzgün istifadə etmək qiymətləndiriləcək.

**Müəllimin nəzərinə!** Şagirdlərin bu məsələyə yanaşması müxtəlif ola bilər. Diqqət yetirmək lazımdır ki, şagirdlər fikir yürüdərkən əsaslandırmanı düzgün aparsınlar. Lakin eyni zamanda əxlaqi-mənəvi cəhətdən məsələyə necə yanaşacaqlarına diqqət yetirmək tövsiyə edilir. Təcrübə göstərir ki, bəzən şagirdlər nağılın finalı yaxşı olduğu üçün yalan danışmaq, insanı aldatmaq kimi xüsusiyyətləri dəstəkləyirlər. Belə olan-

LAYİHƏ

da şagirdin fikirləri dinlənilməli, lakin müəyyən məsələlərə konstruktiv fikir bildirilməlidir. Şagirdləri o fikrə yönəltmək lazımdır ki, insan qarşıya qoyulan məqsədə zəhmət və düzgünlüklə çatmalıdır. Bunun şagirdlərdə mənəvi keyfiyyətlərin formalaşması üçün əhəmiyyəti vardır.

**Dərslik, səh. 47**

> **2.** Sizcə, Pişik siçana çevrilmiş Adamyeyəni tuta bilməsəydi, nə baş verərdi?

Tapşırıq şagirdlərin şifahi nitq bacarığı ilə yanaşı yaradıcı təfəkkürünü, proqnozlaşdırma bacarığını inkişaf etdirməyə xidmət edir. Müəllimlərə tövsiyə edilir ki, şagirdlərin nağılın sonunu dəyişərkən də məntiqi əlaqəyə riayət etmələrinə diqqət yetirsinlər. Belə ki, məqsəd fantastik sonluq verməkdən ibarət deyil. Hadisələrin davamı müəyyən bir məntiqlə baş verməlidir. Yəni yaradıcılıqda da məntiqi əlaqəyə diqqət yetirməyə ehtiyac vardır.

**Dərslik, səh. 47**

> **3.** Verilmiş başlıqları mətnin hansı hissələrinə uyğunlaşdırmaq mümkündür?

Şagirdlərdə açar sözlərin müəyyənləşdirilməsi ilə bağlı bacarıqların formalaşdırılması prosesi başlanmışdır. Açar sözlərin tapılması, başlıqların verilməsi bacarıqları mətndəki əsas fikri müəyyənləşdirməyə xidmət edir. Şagirdlərə izah etmək lazımdır ki, bir hissəyə bir neçə başlıq vermək olar. Sadəcə, verilən başlıq həmin hissədəki əsas fikri ümumiləşdirməlidir. Ona görə tapşırığın məqsədini daha da inkişaf etdirmək üçün verilən hissələrə başqa başlıqların müəyyənləşdirilməsi tapşırıla bilər.

**Düzgün cavab:**

I hissə – "Kralın hədiyyələri";
II hissə – "Markiz Karabasın dövləti";
III hissə – "Pişiyin qələbəsi".

**Dərslik, səh. 47**

> **4.** Mətnin giriş hissəsinə aid olan epizodu müəyyənləşdirin.

Mətnin tərkib hissələrini müəyyənləşdirməyə xidmət edən tapşırıqdır. Şagirdlərə izah etmək lazımdır ki, bu tapşırığı yerinə yetirmək üçün nağıla tam bir mətn kimi baxsınlar və mətnin tərkib hissələrini müəyyənləşdirsinlər. Tövsiyə edilir ki, bu tapşırığı yerinə yetirməmişdən əvvəl iş dəftərindəki tapşırıq ***(səh. 30, tap. 2)*** işlənilsin. Bu tapşırığın icrasından sonra dərslikdəki tapşırığı yerinə yetirmək daha asan olacaq.

**İş dəftəri, səh. 30**

> **2.** Verilmiş hadisələri mətnin tərkib hissələrinə görə qruplaşdır.

Tapşırıq verilmiş informasiyanı mətnin tərkib hissələrinə görə qruplaşdırmağı tələb edir. Bu tapşırığı yerinə yetirmək üçün şagirdlər nağıla tam mətn kimi baxmalıdırlar.

**Düzgün cavab:**

Giriş – 1, 6; əsas hissə – 2, 3, 4, 7, 8, 9; sonluq – 5.

Şagirdlərə izah etmək lazımdır ki, mətndəki hadisələr, əsasən, mətnin əsas hissəsində baş verdiyi üçün bu hissəyə aid olan informasiya həmişə çoxluq təşkil edir.

**Dərslik, səh. 48**

> **5.** Mətndə altından xətt çəkilmiş cümlələrin sonundakı durğu işarələrinə diqqət yetirin. Sizcə, hansı cümlə yüksək intonasiya ilə oxunmalıdır? Nə üçün?

Tapşırıq motivasiya xarakteri daşıyır. Mətndə iki cümlənin altından xətt çəkilmişdir. Şagirdlər tədris dilindən əldə etdikləri biliklər əsasında nida işarəsinin cümlənin yüksək intonasiya ilə deyilməsi haqqında məlumata malikdirlər.

Mətndə altından xətt çəkilmiş cümlələr bunlardır: *"Bu gün mənim göstərdiyim yerdə çaya çimməyə get. Başqa heç nə ilə işin olmasın!"* Göründüyü kimi, cümlələrdən biri əmr, biri isə nida cümləsidir.

**Bunları bilməliyik!**

Verilmiş cümlələrdən istifadə etməklə əmr cümləsinin necə yarandığını izah etmək tövsiyə edilir.

LAYİHƏ

**Müəllimin nəzərinə!** Mövzunu izah edərkən cümlələrin yaranmasını qrammatik cəhətdən deyil, empirik yolla izah etmək tövsiyə edilir. Əmr cümləsinin arzu, xahiş, məsləhət və s. bildirmək üçün istifadə olunan cümlə olduğunu izah etmək lazımdır. Həmçinin izah etmək lazımdır ki, nidanın cümlənin sonunda qoyulması cümlənin yüksək hiss-həyəcanla deyildiyini bildirir. Bu halda nida işarəsi cümlənin məqsədini yox, daha çox emosionallığını bildirir.

**Dərslik, səh. 48**

**6.** Əmr cümləsini müəyyənləşdirin.

Şagirdlər əmr cümləsini məqsədə görə müəyyənləşdirməlidirlər. Belə ki, B variantında verilən *"İşlərini vaxtında bitir"* cümləsi xahiş, arzu bildirdiyindən əmr cümləsi hesab edilir.

Şagirdlərə nidalar haqqında danışarkən akademik dillə deyil, daha sadə dildə izah edilməsi tövsiyə olunur: *"İnsanlar fikirlərində emosionallığı artırmaq üçün müəyyən sözlərdən istifadə edirlər. Bu sözlər müxtəlif cümlələrdə fərqli emosiyalar ötürə bilər. Məsələn: "Ah, nə gözəl havadır"* cümləsində "ah" sevinc, *"Ah, mən bu işi necə həll edəcəyəm"* cümləsində "ah" narahatlıq ifadə edir.

**Dərslik, səh. 48**

**7.** Cümlələrin kontekstinə uyğun olaraq nöqtələrin yerinə uyğun gələn nidaları əlavə edin.

Verilmiş tapşırıq kontekstə uyğun olaraq nidaların işlənməsinə xidmət edir.

**Düzgün cavab:** 1 – ah; 2 – vay; 3 – oy; 4 – ura; 5 – bəh-bəh; 6 – ay; 7 – ay aman.

**İş dəftəri, səh. 31**

**3.** Hərəkət bildirən sözlərdən istifadə etməklə şəkillərə uyğun əmr cümlələri qur.

Tapşırığın məqsədi şagirdlərə əmr cümlələrinin semantikasını anlatmaqdan ibarətdir.

1 – Kömək edin.
2 – Məni dinlə.
3 – Hazır olun.
4 – Sağa gedin.

**İş dəftəri, səh. 31**

**4.** Nəqli və əmr cümlələrini qruplaşdır.

Tapşırığın məqsədi nəqli və əmr cümlələrini fərqləndirmək bacarığını inkişaf etdirməkdən ibarətdir.

**Düzgün cavab:**
Nəqli cümlələr – 2, 4, 7, 8.
Əmr cümlələri – 1, 3, 5, 6.

**İş dəftəri, səh. 31**

**5.** Verilmiş nidalarla cümlələr qur.

Şagirdlərdə cümlə qurmaq bacarığını inkişaf etdirir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Müzakirə zamanı mövzuya uyğun fikir yürüdür. | Tap. 1, 2 (D.) |
| İnformasiyanı mətnin tərkib hissələrinə uyğun qruplaşdırır. | Tap. 4 (D.), tap. 2 (İ.D.) |
| Mətnə və ya abzasa uyğun başlıq müəyyənləşdirir. | Tap. 3 (D.) |
| Əmr və nida cümlələrini fərqləndirir. | Tap. 5, 6 (D.), tap. 3, 4 (İ.D.) |

LAYİHƏ

# 3-cü fəsil
# SEHRLİ QÜVVƏLƏR

## 1-ci DƏRS
### Əladdinin sehrli çırağı
### (Oxu, söz ehtiyatı)

**Təlim nəticələri:**
**Oxu:**
• Mətndə problem-qərar əlaqələrini müəyyənləşdirir (st. 3.1.2).
• Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.2).
**Danışma:**
• Sualı cavablandırarkən fikrini əsaslandırır (st. 2.2.3).
**Söz ehtiyatı:**
• Yeni sözləri kontekstə uyğun cümlədə işlədir (st. 3.1.3).

**Dərslik, səh. 49**

**1.** Mətni oxuyun və sualları cavablandırın.

**Dərslik, səh. 51**

**2.** Mətni şəkillər üzrə davam etdirin.

Mətnin **istiqamətləndirilmiş oxu** üsulu ilə oxunması tövsiyə edilir. Sinif üç qrupa bölünür və şagirdlərə suallar təqdim edilir:

***I qrup:***
– Əladdinin atası kim idi?
– Dərzi Mustafa nə üçün Əladdinə görə narahat idi?
– Səlim Əladdinlə harada rastlaşdı?
– Nə üçün Əladdin və anası Səlimi gördüklərinə təəccübləndilər?
– Səlim Əladdini özü ilə aparmaq üçün nə bəhanə gətirdi?

***II qrup:***
– Əslində, nə üçün Səlim Əladdini özü ilə aparmışdı?
– Əladdin Səlimə niyə etibar eləmirdi?
– Cadugər Səlim nə üçün hirsləndi?

***III qrup:***
– Əladdin çırağın sehrli olduğunu necə anladı?
– Cinlə tanış olandan sonra Əladdinin həyatı necə dəyişdi?
– Əladdin anasını nə üçün padşahın yanına göndərdi?
– Padşah Əladdindən nə istədi?
– Padşah nə üçün qızı ilə Əladdinin evlənməsinə icazə verdi?

Şagirdlər müəyyən vaxt çərçivəsində mətni oxuyur və sualları cavablandırırlar. Suallar cavablandırılarkən şagirdlərdən mətnə istinad etmələri və nəyə əsasən bu nəticəyə gəldiklərini soruşmaq tövsiyə edilir. Cavablar dinlənilir. Beləliklə, bütün sinif nağılın məzmunu ilə tanış olur.

**Dərslik, səh. 52**

**3.** Mətndə hansı suala cavab yoxdur?

Tapşırıq şagirdin oxuyub-anlama və informasiyanı müəyyənləşdirmə bacarıqlarını yoxlamağa xidmət edir. Sualların çoxu faktoloji olduğu üçün cavabını tapmaq çətin deyil. Suallardan 2-ci *(Əladdin atası öləndən sonra nə işlə məşğul olurdu?)* və 6-cı suala *(Padşahın qızı ilə evlənməyi Əladdinə kim məsləhət gördü?)* cavab yoxdur. Belə ki, mətndən məlum olur ki, atası öləndən sonra Əladdin yenə də boş-boş gəzir və padşahın qızı ilə evlənməyi ona heç kim təklif etmir, özü belə istəyir.

**Dərslik, səh. 52**

**4.** Cümlələrin birində “ağız” və “qurşaq” sözləri mətndəki mənada işlənməmişdir.

Mətnə aid suallar cavablandırıldıqca söz ehtiyatı üzərində iş paralel olaraq aparılır. Bu mətnin “söz mücrüsü”ndə bir neçə frazeoloji birləşmə verilmişdir. Bu birləşmələr dildə aktiv olan birləşmələrdir. Tövsiyə edilir ki, dili daha yaxşı bilən şagirdlərə situasiyaya uyğun cümlələrin qurulması təklif edilsin.

Daha sonra dərslikdəki tapşırıq yerinə yetirilir. Cümlələrdə çoxmənalı sözlərdən istifadə olunmuşdur.

**İş dəftəri, səh. 32**

**1.** Mətnin 1-2-ci hissələrinə əsasən problem-qərar cədvəlini tamamla.

LAYİHƏ

| Problem | Qərar |
|---|---|
| Ələddinin atası rəhmətə getdi, ailə çətinliyə düşdü. | Ələddinin anası işləməyə və birtəhər ailəni dolandırmağa başladı. |
| Səlim Ələddini özü ilə aparmağı təklif etdi. | Ələddinin anası razı oldu. |
| Çırağı yeraltı bağdan çıxartmaq lazım idi. | Səlim Ələddini sehrlə yeraltı bağa düşürtdü. |
| Ələddin quyudan çıxmamış çırağı cadugərə vermədi. | Səlim Ələddini quyuda saxlayıb quyunun ağzını bağladı. |
| Ələddin quyudan çıxmalı idi. | Çırağın sehrli olduğunu biləndən sonra cinə tapşırdı ki, onu burdan çıxartsın. |

Şagirdlər bu tapşırıq modeli ilə bu bölmədə tanış olmuşlar. Diqqət yetirmək lazımdır ki, səbəb-nəticə deyil, yaranmış problem və onun həlli üçün istifadə olunan qərar müəyyənləşdirilsin.

**İş dəftəri, səh. 32**

**2.** Nağıla əsasən sualları cavablandır.

Tapşırığın məqsədi şagirdlərdə fikirlərini yazılı şəkildə ifadə etmək bacarığını inkişaf etdirməkdən ibarətdir. Belə ki, şagirdlər artıq nağılın məzmunu ilə bağlı sualları şifahi şəkildə cavablandırmışlar. Müəllimlərə tövsiyə edilir ki, bu tapşırıq yerinə yetirilən zaman cümlələrin düzgün qurulmasına *(strukturuna, şəkilçilərin istifadəsinə, sözlərin orfoqrafiyasına)* diqqət yetirsinlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tap. 3 (D.) |
| Sualı cavablandırarkən fikrini əsaslandırır. | Tap. 3 (D.), tap. 2 (İ.D.) |
| Yeni sözləri kontekstə uyğun cümlədə işlədir. | Tap. 4 (D.) |
| Mətndə problem-qərar əlaqələrini müəyyənləşdirir. | Tap. 1 (İ.D.) |

# 2-ci DƏRS
## Ələddinin sehrli çırağı (Danışma, dinləmə)

**Təlim nəticələri:**

**Danışma:**

• Aldığı məlumatları rabitəli mətn halına salaraq şifahi təqdim edir (st. 2.2.2).

• Müzakirə zamanı mövzuya uyğun fikir yürüdür (st. 2.2.3).

**Dinləmə:**

• Mətni dinləyərkən mühüm məlumatları qeyd edir (st. 1.1.2).

**Danışma (Mövzuya yönəltmə)**

“Ələddinin sehrli çırağı” nağılını xatırlatmaq üçün sual-cavab edilir:

*– Ələddin kim idi?*

*– Ələddinin həyatının dəyişməsinə nə səbəb oldu?*

**Dərslik, səh. 52**

**1.** Ələddinə aid olan xüsusiyyətləri seçin.

Şagirdlər Ələddin obrazına aid olan xüsusiyyətləri müəyyənləşdirəndən sonra mətnə istinad edərək fikirlərini əsaslandırmalarını tapşırmaq olar.

**Düzgün cavab:** Ələddin ağıllı və tənbəldir.

Mətndə Ələddin obrazının tənbəl olması haqqında ilk məlumat atası vasitəsilə alınır. Göstərilir ki, dərzi Mustafa oğlunun tənbəlliyinin dərdini çəkirdi. İkinci məlumat atası öləndən sonra ailənin vəziyyətinin çətinləşməsinə baxmayaraq Ələddinin yenə də işləməməsi ilə müəyyənləşir. Ağıllı olması haqqında məlumat mətndə bir neçə yerdə əks olunmuşdur. Belə ki, Ələddin Səlimin onun əmisi olmadığını davranışlarından anlayır. Başa düşür ki, quyudan çıxmamış çırağı versə, ona kömək etməyəcək. Çırağın sehrli olduğunu biləndən sonra ondan istifadə edir.

**Dərslik, səh. 52**

**2.** Ələddin obrazına münasibət bildirin.

Tapşırığın məqsədi şagirdlərdə şifahi nitq bacarığını inkişaf etdirməklə yanaşı təhlil etmək, münasibət bildirmək, fikirlərini əsaslandırmaq bacarıqlarını formalaşdırmaqdan ibarətdir. Şa-

LAYİHƏ

girdlərin cavabı müxtəlif ola bilər. Diqqət yetirmək lazımdır ki, deyilən fikirlər əsaslandırılsın.

**Dərslik, səh. 52**

**3.** Verilmiş epizodlarda Ələddinin yerində olsaydınız, necə davranardınız? Fikirlərinizi əsaslandırın.

Şagirdlərdə tənqidi və yaradıcı təfəkkürü, həmçinin fikirlərini əsaslandırmaq bacarıqlarının inkişaf etdirilməsinə yönəldilmişdir.

**Balaca Muk**

*Muk atası ilə Nikeydə yaşayırdı. Atası çox hörmətli adam idi. Evdən bayıra çıxmağı çox xoşlamırdı və çox kasıb adam idi. Muk nadinc idi, ona görə atası onu həmişə danlayırdı:*

*– Sənin uşaqlıq vaxtın çoxdan keçib, niyə hələ də nadinclik edirsən?*

*Günlərin bir günü Mukun atası öldü və o, tək qaldı. Tək və pulsuz... Heç kəs onu yanında saxlamaq istəmirdi. Ona görə Muk atasının paltarlarını birtəhər əyninə düzəldib geyindi, evdən çıxdı.*

*Az getdi, üz getdi, dərə-təpə düz getdi, düz iki gün yol getdi. Bərk acmışdı. Yeməyə bir şey tapmır, ancaq çöl otları ilə dolanırdı.*

*Üçüncü gün də yol gedəndən sonra qarşısına bir şəhər çıxdı. Şəhər çox qəşəng idi, gözəl evləri var idi. Amma adamları o qədər də yaxşı deyildilər. Muka heç kəs bir tikə də yemək vermək istəmirdi. Muk gəzirdi, birdən gördü ki, qarşısına qəşəng bir ev çıxdı. Evin pəncərələrindən görünürdü ki, evdə çoxlu pişiklər var və onlar yemək yeyirlər. Muk çox ac idi, bir az fikirləşdi və o da içəri girdi. İçəridə bir qarı gördü. Qarı Muku görüb acıqlı-acıqlı qışqırdı:*

*– Sən burda neyləyirsən? Məgər bilmirsən ki, mən yeməyi ancaq itlərimə və pişiklərimə verirəm?*

*Muk hər şeyi ona danışıb əlavə etdi:*

*– Mən bu şəhərə təzə gəlmişəm, heç kəsi tanımıram, acından da ölürəm. İcazə ver, bir az yemək yeyim. Sonra tez gedərəm.*

*Qarı bir az düşünüb dedi:*

*– Yaxşı, qal mənim yanımda, xidmətçim olarsan. Narahat olma, işin yüngül olacaq.*

*Muk razılaşdı. Qarının çoxlu pişikləri var idi. Muk onlara baxırdı, qarşılığında da qarı ona yemək-içmək verirdi. Əvvəl hər şey yaxşı idi. Sonra birdən hər şey dəyişdi. Qarının pişikləri elə bil dəli oldular, qarı gedəndən sonra evi dağıdır, qarı gələn kimi özlərini çox sakit göstərirdilər. Qarı da evi dağınıq görüb Muku danlayır, arada da döyürdü. Muk bezmişdi və qaçmağı düşünürdü. Amma hara gedəcəyini bilmirdi.*

*Qarının evində bir otaq var idi. Ora daxil olmağa qarı icazə vermirdi. Bir gün Muk ora girdi, burda çoxlu qəribə köhnə əşyalar var idi. Mukun başmaqları cırılmışdı, ona görə burdan bir cüt ayaqqabı və bir əsa götürüb evdən getdi.*

*Muk şəhərdən çıxmaq üçün qaçırdı. Bir xeyli gedəndən sonra gördü ki, yorulub. Dayanmaq istədi, amma bacarmadı. Başa düşdü ki, ayaqqabılar sehrlidir. Onun belə sürətlə qaçmasına kömək edən də onlardır. Amma Muk yorulmuşdu, hirslənib qışqırdı:*

*– Bəsdirin, dayanın, yoruldum.*

*Bunu deyən kimi ayaqqabılar dayandı. Muk elə yorğun idi ki, həmin dəqiqə yerə yıxıldı və yatdı. Bir yuxu gördü. Yuxuda ona dedilər:*

*– Muk, sənin ayaqqabıların və əsan sehrlidir. Ayaqqabılarını geyin, dabanının üzərində üç dəfə fırlansan, istədiyin yerə səni bir saniyəyə aparar. Əsa isə yerin altında gizlənmiş qızıl və gümüşün yerini göstərə bilir. Qızıl xəzinəsi tapanda üç, gümüş xəzinəsi tapanda yeri iki dəfə döyəcləyir.*

*Muk yuxudan oyandı. Çox sevindi. Ayaqqabılarını geyindi, üç dəfə dabanı üstündə fırlanan kimi uzaqda görünən bir şəhərə bir göz qırpımında çatdı.*

*Şəhərə çatan kimi əvvəlcə Muk əsasını işə saldı. Əsa şəhərin kənarında bir yerdə yeri üç dəfə döyəclədi. Muk həmin yeri qazdı və ordan qızıl pullar tapdı. Tez özünə səliqəli pal-paltar aldı və padşahın sarayına getdi. Sarayda bildirdi ki, qasid olmaq istəyir. Çünki bütün qasidlərdən daha tez qaçır. Əlbəttə ki, bu cırtdanın sözünə heç kəs inanmadı.*

*Padşah yarış keçirmək üçün qasidləri yığdı. Muk ayaqqabılarını geyindi və hamını ötdü. Padşah Muku yanına qasid götürdü. Ona yaşamağa yer, qəşəng geyim verdi və maaş kəsdi. İndi Mukun həyatı rahat olmuşdu. Sarayda yaşayır və heç nəyin dərdini çəkmirdi...*

LAYİHƏ

**İş dəftəri, səh. 33**

**1.** Dinlədiyin “Balaca Muk” nağılında əsas məqamları qeyd elə.

Mətni oxumağa başlamazdan əvvəl şagirdlərə tapşırılır ki, iş dəftərindəki cədvələ diqqət yetirsinlər. Tələb olunan məqamları dinlədikcə qeyd götürsünlər. Mətn üç dəfə oxunur. Mətnin birinci oxusu zamanı şagirdlər informasiyalarla tanış olurlar. İkinci dəfə oxuyarkən qeydlər götürürlər, üçüncü dəfə qeydlərini yoxlayırlar.

Şagirdlər oxu mətni ilə əlaqədar problem-qərar modeli üzərində çalışmışlar. Dinləmə mətni üzərində bu cədvəlin doldurulması ilk dəfə olduğu üçün şagirdlər çətinlik çəkə bilərlər. Ona görə tövsiyə edilir ki, müəllim şagirdləri yönəltsin. Mətnin ikinci oxusu bitəndən sonra problemləri xatırlatmaq üçün suallar verilə bilər. Bu, üçüncü dəfə mətni oxuyarkən şagirdlərin diqqətinin həmin məqamlara yönəlməsinə kömək edəcək.

**İş dəftəri, səh. 33**

**2.** “Ələddinin sehrli çırağı” və “Balaca Muk” nağıllarında əsas obrazların oxşar və fərqli xüsusiyyətlərini müəyyənləşdir.

Tapşırıq obrazları müqayisə etmək bacarığını formalaşdırmağa xidmət edir.

**Düzgün cavab:**

Ələddin – 1, 5, 7.

Balaca Muk – 2, 6.

Hər ikisi – 3, 4.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Aldığı məlumatları rabitəli mətn halına salaraq şifahi təqdim edir. | Tap. 1, 2 (D.) |
| Müzakirə zamanı mövzuya uyğun fikir yürüdür. | Tap. 2, 3 (D.) |
| Mətni dinləyərkən mühüm məlumatları qeyd edir. | Tap. 1, 2 (İ.D.) |

# 3-cü DƏRS

## Ələddinin sehrli çırağı (Yazı)

**Təlim nəticələri:**

**Yazı:**

• Fikrini yazılı şəkildə ifadə edərkən cümləni düzgün qurur (st. 4.1.2).

• Mürəkkəb cümlə qurur (st. 4.1.2).

• Cümlələri quruluşuna görə fərqləndirir (st. 4.1.2).

• Mürəkkəb cümlənin tərkib hissələri arasında durğu işarələrindən düzgün istifadə edir (st. 4.1.3).

**Dərslik, səh. 53**

**1.** Mətndən nümunələr gətirməklə fikirləri tamamlayın.

Tapşırığın məqsədi şagirdlərdə təhlil etmək və fikrini yazılı şəkildə ifadə etmək bacarıqlarını formalaşdırmaqdan ibarətdir. Əvvəlki dərslərdə nağılın təhlili üzərində iş aparılmışdır. Ona görə bu tapşırığın icrası zamanı daha çox şagirdlərin yazılı şəkildə fikirlərini düzgün ifadə etmələrinə diqqət yetirmək tövsiyə edilir.

**Müəllimin nəzərinə!** Yazılı nitqin təşkili daha çətin olduğundan şagirdlərdə bu bacarığın formalaşdırılıb inkişaf etdirilməsi mühüm məsələlərdən biridir. Tapşırığın icrası zamanı şagirdlərin cümləni düzgün qurmalarına, sözlərdən düzgün istifadə etmələrinə diqqət yetirmək tövsiyə edilir. Şagirdlər cümləleri yazandan sonra yoldaş qiymətləndirməsindən istifadə etmək məqsədəuyğundur. Bu, şagirdlərdə həm də başqasının yazısını redaktə etmək bacarığının formalaşdırılmasına zəmin yaradacaqdır.

**Düzgün cavab:**

Ələddin ağıllıdır, çünki *Səlimin onun əmisi olmadığını davranışlarından və danışığından anlamışdı.*

Ələddin ağıllıdır, çünki *çırağı quyudan çıxmamış Səlimə vermədi. Anlamışdı ki, çırağı quyudan çıxmamış versə, Səlim ona kömək etməyəcək.*

LAYİHƏ

Ələddin ağıllıdır, çünki *çırağın ona verdiyi imkanlardan istifadə etdi.*

Səlim hiyləgərdir, çünki *Ələddingilin evinə onları aldadaraq gəldi.*

Səlim hiyləgərdir, çünki *Ələddinin ona kömək edə biləcək yeganə adam olduğunu bilirdi, lakin ona demirdi.*

Səlim hiyləgərdir, çünki *Ələddin çırağı gətirəndən sonra onu quyuda saxlamağı əvvəlcədən planlaşdırmışdı.*

**Dərslik, səh. 53**

**2.** Mətndə altından xətt çəkilmiş cümlələrə diqqət yetirin. Hər cümlədə verilmiş fikirləri müəyyənləşdirməyə çalışın.

Tapşırıq mürəkkəb cümlə mövzusuna keçid məqsədi daşıyır. Mətndə verilmiş cümlələr bunlardır: *"Çıraq sehrlidir, o bizi dünyanın ən varlı adamı eləyəcək. Cadugər bilirdi ki, çırağı quyudan yalnız dərzi Mustafanın oğlu Ələddin çıxara bilər"*. Şagirdlər tədris dilindən mürəkkəb cümlə haqqında məlumatlıdırlar. Şagirdlərin diqqətini ona yönəltmək lazımdır ki, mürəkkəb cümlədə verilmiş informasiya, baş verən hadisələr bir-biri ilə bu və ya digər şəkildə bağlı olur. Həmçinin nitqdə fikirlərin mürəkkəb cümlə şəklində ifadə olunması dil bacarığının yüksək olduğunun göstəricisidir.

**"Bunları bilməliyik" rubrikası.** Şagirdlərin diqqətini mürəkkəb cümlə qurularkən cümlələr arasında məna əlaqəsinin vacib olmasına cəlb etmək lazımdır. Şagirdlər bilməlidirlər ki, bir-biri ilə bağlı olmayan informasiyalar mürəkkəb cümlə əmələ gətirə bilməz. Həmçinin mürəkkəb cümlədə informasiyanı bir-birinə bağlayan vasitələrə diqqət yetirilməsi tövsiyə olunur.

**Dərslik, səh. 53**

**3.** Verilmiş cümlələrdə buraxılmış vergül işarəsinin yerini müəyyənləşdirin.

Tapşırıq mürəkkəb cümlələrdə durğu işarələrinin yerinin müəyyənləşdirilməsinə xidmət edir. Şagirdlər əvvəlcə cümlədə verilən informasiyanı müəyyənləşdirməli, daha sonra uyğun gələn vasitədən istifadə etməlidirlər.

**Dərslik, səh. 53**

**4.** Sağ və sol sütunda verilmiş cümlələri uyğunlaşdırın, mürəkkəb cümlə düzəldib köçürün.

Tapşırıq şagirdlərdə semantik cəhətdən cümlələri bir-biri ilə bağlayaraq mürəkkəb cümlə qurmaq bacarığı formalaşdırır.

**Düzgün cavab:** 1 – D; 2 – A; 3 – Ç; 4 – C; 5 – B.

**İş dəftəri, səh. 34**

**1.** Mürəkkəb cümlələri işarə et.

Tapşırığın məqsədi öyrənilmiş qrammatik qaydanı möhkəmlətməkdən ibarətdir.

**Düzgün cavab:** 1, 3, 4.

**İş dəftəri, səh. 34**

**2.** Qarşı sütunlarda verilmiş cümlələri uyğunlaşdıraraq mürəkkəb cümlə qur və yaz.

Verilmiş informasiyanı uyğunlaşdıraraq mürəkkəb cümlə qurmaq bacarığının inkişafına xidmət edən tapşırıqdır.

1 – B; 2 – Ç; 3 – D; 4 – C; 5 – A.

**İş dəftəri, səh. 34**

**3.** Verilmiş sözlərdən istifadə etməklə sadə cümlə qur və onu genişləndirib mürəkkəb cümləyə çevir.

Şagirdlərdə mürəkkəb cümlə qurmaq bacarığı formalaşdırır. Şagirdlər verilmiş sözlərdən sadə cümlə qurmalı və bu informasiyaya uyğun yeni bir fikir formalaşdırıb mürəkkəb cümlə yaratmalıdırlar. Şagirdlərin qurduqları cümlələr müxtəlif olacaq. Ən əsas diqqət yetirilməli məsələ qurulan mürəkkəb cümlələr arasında semantik əlaqənin olmasından ibarətdir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Fikrini yazılı şəkildə ifadə edərkən cümləni düzgün qurur. | Tap. 1 (D.) |
| Mürəkkəb cümlə qurur. | Tap. 4 (D), tap. 2, 3 (İ.D.) |

LAYİHƏ

| | |
|---|---|
| Mürəkkəb cümlənin tərkib hissələri arasında durğu işarələrindən düzgün istifadə edir. | Tap. 3 (D.) |
| Cümləni quruluşuna görə fərqləndirir. | Tap. 1 (İ.D.) |

# 3-cü bölmə üzrə ümumiləşdirici təkrar

**Təlim nəticələri:**

**Oxu:**

• Mətnə və ya abzasa uyğun başlıq müəyyənləşdirir (st. 3.1.2).

**Yazı:**

• Nəqli və sual cümlələrini fərqləndirir (st. 4.1.2).
• Əmr və nida cümlələrini fərqləndirir (st. 4.1.2).
• Mürəkkəb cümlə qurur (st. 4.1.2).
• Cümlələri quruluşuna görə fərqləndirir (st. 4.1.2).

Bu bölmənin məqsədi şagirdlərdə mətnin tərkib hissələrinin müəyyənləşdirilməsi, mətnə və ya abzasa başlığın verilməsi bacarıqlarının formalaşdırılmasından ibarətdir *(bax: D. səh. 41, 47)*. Mətnə başlığın seçilməsi mətndəki əsas fikrin müəyyənləşdirilməsinə xidmət edir. Ona görə də bu dərsdə həmin bacarığın nə dərəcədə formalaşdığını yoxlamaq məqsədilə mətn verilmişdir. Həmçinin əldə edilmiş dil qaydalarına aid müxtəlif tapşırıqlar verilmişdir.

**Dərslik, səh. 54**

**1.** Mətni oxuyun, uyğun gələn başlığı müəyyənləşdirin.

Verilmiş mətndə bir oxucu kimi hansı kitabın yaxşı olduğunu necə müəyyənləşdirmək lazım olduğu barədə danışılır. Ona görə seçilən başlıq “Maraqlı kitab” olacaq.

**Dərslik, səh. 54**

**2.** Verilmiş cümlələri qruplaşdırın.

Tapşırıq cümlənin məqsəd və intonasiyaya uyğun növlərini qruplaşdırmağa xidmət edir.

**Dərslik, səh. 54**

**3.** Uyğun durğu işarələrindən istifadə etməklə cümlələri köçürün.

Tapşırıq məqsəd və intonasiyaya görə cümlələrdə durğu işarələrinin işlədilməsinə xidmət edir.

**Dərslik, səh. 54**

**4.** Mürəkkəb cümlələri müəyyənləşdirin.

Mürəkkəb cümlə ilə bağlı qaydanın möhkəmləndirilməsinə xidmət edir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətnə və ya abzasa uyğun başlıq müəyyənləşdirir. | Tap. 1 (D.) |
| Nəqli və sual cümlələrini fərqləndirir. | Tap. 2, 3 (D.) |
| Əmr və nida cümlələrini fərqləndirir. | Tap. 2, 3 (D.) |
| Cümlələri quruluşuna görə fərqləndirir. | Tap. 4 (D.) |

# 3-cü bölmə üzrə kiçik summativ qiymətləndirmə

İş dəftərinin 35-36-cı səhifələrindəki materiallar KSQ-yə hazırlıq məqsədilə verilmişdir. Qiymətləndirmə oxu və yazı məzmun xətlərini əhatə edən aşağıdakı meyarlar üzrə aparılır.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətnin əsas fikrini müəyyənləşdirir. | Tap. 1, 3, 4 |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tap. 2 |
| Cümlənin sonunda məqsədə uyğun olaraq durğu işarəsini müəyyənləşdirir. | Tap. 5 |
| Əmr və nəqli cümləni fərqləndirir. | Tap. 6, 7 |
| Cümlələri quruluşuna görə fərqləndirir. | Tap. 8 |

LAYİHƏ

Bölmə **4** 

# YAXŞI NƏDİR, PİS NƏDİR?

| Dərs saat | Mövzu (oxu, söz ehtiyatı, şifahi nitq) | Yazı (Dil qaydaları) | Dərslik səh. | İş dəftəri səh. | MV səh. |
|---|---|---|---|---|---|
| 1-ci fəsil. **Zəhmətkeşlik** | | | | | |
| 1 | Bağban və oğulları | | 55-58 | 37 | 64-66 |
| 2 | | Kəmiyyət şəkilçisi | 58 | 38 | 66-67 |
| 2-ci fəsil. **Dürüstlük** | | | | | |
| 3 | Üç oğlan | | 59-61 | 39 | 68-69 |
| 4 | Məktub | | 61 | 40 | 69-71 |
| 5 | Sınmış fincan | | 62 | 41 | 71-72 |
| 6 | | Xüsusi isimlərin böyük hərflə yazılması | 63 | 42 | 73 |
| 3-cü fəsil. **Dostluq** | | | | | |
| 7 | Dilarə | | 64-65 | 43 | 74-76 |
| 8 | | Əlamət bildirən sözlər | 66 | 44 | 76-77 |
| 4-cü fəsil. **Nizam-intizam** | | | | | |
| 9 | Ballı və Vız-vız | | 67-68 | 45 | 77-79 |
| 10 | | Hərəkətin təsdiqi və inkarı | 69 | 46 | 80-81 |
| 11 | 4-cü bölmə üzrə ümumiləşdirici təkrar | | 70 | | 81-82 |
| | 4-cü bölmə üzrə kiçik summativ qiymətləndirmə | | | 47-48 | 82 |

**Bölmənin icmalı**

Zəhmətkeşlik, dürüstlük, nizam-intizam, qayğıkeşlik, dostluq kimi müsbət keyfiyyətlərin təbliği bu bölmənin əsas kompetensiyasını təşkil edir. Bölmədə təqdim olunan mətnlər ətrafdakılara sevgi, mərhəmət, qayğının, dostluq münasibətlərinin, bir-birinə dəstək olmağın müsbət nəticələrini əks etdirir.

**Dinləmə və danışma.** Şagirdlərin şifahi nitqi, əsasən, 1) dinləmə və oxu mətnləri üzrə faktoloji sualların cavablandırılması; 2) şəkillər üzrə danışma; 3) şəkillərin köməyi ilə dinləmə və oxu mətnlərinin genişləndirilməsi və şərh edilməsi; 4) situasiyaya uyğun nitq etiketlərindən istifadə, rollu oyun zamanı obrazın xarakterinə uyğun intonasiya, mimika və jestlərdən istifadə; 5) danışarkən cümlədə söz sırasına əməl edilməsi; 6) mətndəki obrazların sadə formada təhlil edilməsi və onlara münasibət bildirilməsi; 7) dialoq zamanı mövzuya uyğun fikir yürüdülməsi; 8) rabitəli cümlə qurma; 9) oxuduqları və ya dinlədikləri mətni təxəyyülünə uyğun dəyişdirmə və yaxud davam etdirmək bacarıqlarının təkmilləşdirilməsi istiqamətində inkişaf etdirilir.

**Söz ehtiyatı.** Şagirdlər mövzu ilə bağlı söz ehtiyatı ilə tanış olur, şifahi nitqində yeni öyrəndiyi sözlərdən istifadə edirlər.

**Oxu.** Şagirdlərə mətnləri səsləndirərkən obrazların nitqini fərqli səs tonu ilə oxumaq, bədii mətnlərdə mövzu, məzmun və ideya anlayışlarını fərqləndirmək bacarıqları aşılanır.

**Yazı.** Şagirdlər Azərbaycan dilinin qrammatik və orfoqrafik normalarına uyğun yazı bacarığına yiyələnirlər: 1) Cəm şəkilçisini orfoqrafik normalara uyğun yazırlar; 2) Xüsusi isimlərin böyük hərflə yazılış qaydalarına əməl edirlər; 3) Şəkil və ya plan əsasında təsviri xarakterli mətn yazırlar; 4) Əməli yazı nümunələrindən məktubun tərkib hissələri ilə tanış olurlar; 5) Özünün və başqasının yazısında qrammatik baxımdan düzəlişlər edirlər.

LAYİHƏ

# 1-ci fəsil
# ZƏHMƏTKEŞLİK

## 1-ci DƏRS
### Bağban və oğulları

**Təlim nəticələri:**

**Danışma:**
• Sualı cavablandırarkən fikrini əsaslandırır (st. 2.2.3).

**Oxu:**
• Cümlədə buraxılmış sözü müəyyən edir (st. 3.1.3).
• Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.2).
• Götürdüyü qeydlər və ya plan əsasında mətni nəql edir (st. 3.1.2).
• Bədii və informativ mətnlərdə mövzu, məzmun və ideya anlayışlarını fərqləndirir (st. 3.1.2).
• Mətndəki hadisələrin məntiqi ardıcıllığını (səbəb-nəticə əlaqəsini) müəyyən edir (st. 3.1.2).

**Dərslik, səh. 55**

**1.** Şəkillərə baxın və gördükləriniz haqqında danışın.
**2.** Hansı obrazların hərəkətindən xoşunuz gəldi? Uyğun illüstrasiyanı şərh edərək fikrinizi əsaslandırın.
**3.** Hansı obrazı bəyənmədiniz? Səbəbini izah edin.

Danışma fəaliyyəti bölmənin titul səhifəsində verilmiş şəkillər və suallar əsasında yerinə yetirilir. Şagirdlər titul səhifəsindəki hər bir şəklin məzmununu danışır, obrazların hərəkətinə münasibət bildirirlər. Müəllim şagirdlərin diqqətini bölmənin adına yönəldir. Şagirdlər "Yaxşı nədir, pis nədir?" sualına aid fikirlərini söyləyirlər, həyatda gördüklərindən nümunələr gətirir, bölmə titulundakı şəkillərə nəzər salaraq bölmənin mövzusunu təxmin edirlər.

**Dərslik, səh. 56**

**1.** Zəhmətkeş olmağın insan üçün hansı faydaları var?

Şagirdlər oxuduqları mətnlərdən və həyatdan nümunələr gətirməklə "zəhmətkeşlik", "əməksevərlik" kimi müsbət xüsusiyyətlər haqqında bildiklərini danışırlar.

**Söz ehtiyatı**
**Dərslik, səh. 56. "Söz mücrüsü" rubrikası**

**Söz mücrüsü**
- əkib-becərmək
- dəfinə
- bel
- belləmək
- kor-peşman
- var-dövlət

**Mətnlə iş.** Mətni oxumaq üçün müəllim müxtəlif oxu strategiyaları tətbiq edə bilər. "Bağban və oğulları" süjetli mətn olduğundan oxunması üçün **proqnozlaşdırma** üsulunu tətbiq etmək tövsiyə olunur. Mətnin düyün və ya kulminasiya nöqtəsində oxu prosesi dayandırılır və müəllim soruşur:

– *Sizcə, bundan sonra hadisələr necə davam edəcək?*

Şagirdlərin cavabı dinlənildikdən sonra oxu davam etdirilir və şagirdlərin versiyaları mətnlə müqayisə edilir.

**Söz mücrüsü.** Daha sonra müəllim yaxınmənalı sözlərdən istifadə etməklə "söz mücrüsü"ndə verilmiş sözlərin mənasını şagirdlərə izah edir. Bundan əlavə, müəllim oxu prosesində rast gəldikləri tanış olmayan sözləri şagirdlərə izah edir.

Şagirdlər yeni sözləri cümlələrdə işlətməklə onların mənasını anladıqlarını nümayiş etdirirlər.

**Söz ehtiyatı**
**Dərslik, səh. 57**

**2.** Nöqtələrin yerinə "söz mücrüsü"ndən uyğun gələn ifadələri seçərək cümlələri tamamlayın.

Tapşırıq şagirdlərin öyrəndikləri yeni sözlərin möhkəmləndirilməsinə yönəlib. Şagirdlər "söz mücrüsü"ndən uyğun sözləri seçməklə cümlələri tamamlayırlar.

LAYİHƏ

**Oxuyub-qavrama**

**Dərslik, səh. 57**

**3.** Mətnin məzmununa əsasən suallara cavab verin.

Şagirdlər mətnə aid faktoloji sualları cavablandırırlar. Bununla da mətni nə qədər diqqətlə oxuduqlarını nümayiş etdirirlər. Müəllim şagirdləri müzakirəyə cəlb edir:

*– Siz mətndə mənfi xüsusiyyətləri olan obrazlara hansı məsləhətləri verərdiniz? Onlara necə kömək edərdiniz?*

**Dərslik, səh. 57**

**4.** Sizcə, doğrudanmı bağban bağda dəfinə basdırmışdı? Bağban "dəfinə" deyərkən nəyi nəzərdə tuturdu?

Şagirdlər "Düşün və cavab ver" rubrikasında verilmiş sualı cavablandırmaqla "dəfinə" sözünün həqiqi və ya məcazi mənada işlənməsi haqqında fikirlərini bildirirlər. Şagirdlərin fikirlərini sadə konstruksiyalı cümlələrlə ifadə etmələri normaldır. Danışarkən cümlədə söz sırasına düzgün əməl etmələri isə vacibdir. Müəllimə şagirdlərin nitqinə diqqət yetirmək, qeydlər aparmaq tövsiyə edilir. Müəllim bu qeydlərə əsasən şagirdlərə səhvlərini izah edir, tövsiyələr verir.

**Diferensial təlim.** Azərbaycan dilində kifayət qədər sərbəst danışan şagirdlər fikirlərini ətraflı izah etmək üçün geniş cümlələrdən istifadə edə bilərlər. Azərbaycan dilində söz ehtiyatı zəif olan şagirdlər isə sualları qısa və lakonik cavablandırmaqla kifayətlənə bilərlər.

**Dərslik, səh. 57**

**5.** "Bağban və oğulları" mətnini plan əsasında nəql edin.

Şagirdlər tapşırıqda verilmiş plana əsasən "Bağban və oğulları" mətnini nəql edirlər. "Bağban və oğulları" bədii-süjetli mətn olduğundan bu tapşırıqla şagirdlər mətndəki hadisələrin ardıcıllığını xatırladıqlarını nümayiş etdirirlər.

**Dərslik, səh. 57**

**6.** "Bağban və oğulları" mətni ilə bağlı aşağıdakı suallara cavab verin.
1. Mətn nə haqdadır?
2. Mətndə hansı hadisələr baş verir?
3. Mətn oxucuya hansı fikri çatdırır?

Tapşırıq müəllimə "mövzu", "məzmun" və "ideya" anlayışlarını izah etməyə imkan yaradır. Şagirdlər tapşırıqda verilmiş sualları öz təxminlərinə əsasən cavablandırırlar. Daha sonra müəllim şagirdlərin diqqətini cədvələ yönəldir. Şagirdlər öz cavablarını cədvəl ilə müqayisə edirlər.

**İş dəftəri, səh. 37**

**1.** Cümlələri "Bağban və oğulları" mətninin məzmununa əsasən tamamla.

İş dəftərində verilmiş tapşırıqlar formativ qiymətləndirmə üçün istifadə edilə bilər. Şagirdlər 1-ci tapşırıqda verilmiş cümlələri mətnə əsasən tamamlamaqla həm mətnin məzmununu, həm də mətndə əks olunan hadisələrin səbəbini anladıqlarını nümayiş etdirirlər.

**Oxuyub-qavrama. Yazı**

**İş dəftəri, səh. 37**

**2.** "Bağban və oğulları" mətninə əsasən verilmiş fikirlərin doğru, yoxsa yanlış olduğunu qeyd et.

Tapşırıq şagirdlərin keçən dərsdə keçilmiş mətnin məzmununu necə mənimsədiklərini yoxlamağa imkan yaradır.

**Düzgün cavab:**

| | |
|---|---|
| 1. Doğru; | 4. Doğru; |
| 2. Yanlış; | 5. Yanlış; |
| 3. Yanlış; | 6. Doğru. |

**İş dəftəri, səh. 37**

**3.** "Bağban və oğulları" mətninə əsasən verilmiş cümlələrin nömrələrini uyğun xanalarda yaz.

Müəllim lövhədə "mövzu", "məzmun" və "ideya" sözlərini yazır. Aşağıdakı köməkçi suallar vasitəsilə keçən dərs xatırlanır.

*1. Mətn nə haqdadır?*
*2. Mətndə hansı hadisələr baş verir?*
*3. Mətn oxucuya hansı fikri çatdırır?*

LAYİHƏ

Şagirdlər tapşırıqda verilmiş cümlələri cədvəlin uyğun xanalarına yazmaqla "mövzu", "məzmun" və "ideya" anlayışları arasındakı fərqi anladıqlarını nümayiş etdirirlər.

**Dərslik, səh. 58**

**7.** Şəkillərə baxın. "Çil toyuq və siçan balaları" nağılını xatırlayın. Uyğunluğu müəyyən edin.

Möhkəmləndirmə xarakterli bu tapşırıq şagirdlərin mövzu, məzmun, ideya anlayışları haqqında aldıqları bilikləri inkişaf etdirir. Müəllim şagirdlərin diqqətini tapşırıqda verilmiş illüstrasiyalara yönəldir. Şagirdlərə "Çil toyuq və siçan balaları" nağılını xatırladır. Qeyd edək ki, şagirdlər "Çil toyuq və siçan balaları" nağılı ilə II sinifdə tanış olmuşlar. İndi mövzu, məzmun və ideya anlayışları tanış mətnə istinad edərək möhkəmləndirilir.

**Müəllimin nəzərinə!** Əgər müəllim ehtiyac duyarsa, "Çil toyuq və siçan balaları" mətnini şagirdlər üçün səsləndirə bilər.

**Çil toyuq və siçan balaları**

*Çil toyuq bir gün çörək bişirməyə hazırlaşırdı. Həyətdə siçan balaları, Sincab və Qurbağa var idi. Çil toyuq sünbülü götürüb soruşdu:*

*– Sünbülü dəyirmana kim aparacaq? Siçan balaları dedilər:*

*– Biz yox, biz yox, – və top oynamağa getdilər. Qurbağa və Sincab Toyuqla birlikdə sünbülü dəyirmana apardılar. Xəmir yoğruldu və ocağı qalamaq üçün odun gətirildi. Kökələr bişdi. Çil toyuq süfrə açdı, kökələri süfrəyə qoydu. Siçan balaları da süfrənin başına gəldilər.*

*Toyuq dedi:*

*– Yox, belə olmaz, kim işləyibsə, kökələri də o yeyəcək.*

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sualı cavablandırarkən fikrini əsaslandırır. | Tap. 1, 4 (D.) |
| Cümlədə buraxılmış sözü müəyyən edir. | Tap. 2 (D.) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tap. 3 (D.), tap. 2 (İ.D.) |
| Götürdüyü qeydlər və ya plan əsasında mətni nəql edir. | Tap. 5 (D.) |
| Bədii və informativ mətnlərdə mövzu, məzmun və ideya anlayışlarını fərqləndirir. | Tap. 6, 7 (D.), tap. 3 (İ.D.) |
| Mətndəki hadisələrin səbəbini müəyyən edir. | Tap. 1 (İ.D.) |

# 2-ci DƏRS

## Kəmiyyət şəkilçisi

**Təlim nəticələri:**

**Yazı:**

• Sözlərə çoxvariantlı şəkilçilər artırarkən ahəng qanununa riayət edir (st. 4.1.1).

• Cəm şəkilçisini orfoqrafik normalara uyğun yazır (st. 4.1.2).

**Mövzuya yönəltmə.** Müəllim bir dəftəri şagirdlərə göstərir və soruşur: "Bu nədir?" Şagirdlər: "Dəftər" söyləyirlər. Sonra müəllim 5-6 dəftəri göstərib yenidən şagirdlərə müraciət edir. Şagirdlər "çoxlu dəftər", "dəftərlər" və s. söyləyirlər.

**Yazı**

**Dərslik, səh. 58**

**1.** "Kitab" və "kitablar" sözləri arasında fərqi izah edin.

Bu tapşırıqda "kitab" və "kitablar" sözləri arasındakı fərqin izahı tələb olunur. Şagirdlər kitab deyəndə bir, kitablar deyəndə isə bir neçə əşyanın nəzərdə tutulduğunu deyirlər. Müəllim bu fərqin necə yarandığını soruşur. Bu fərqi *-lar* şəkilçisinin yaratdığı vurğulanır. Şagirdlər tərəfindən *-lar* şəkilçisinin köməyi ilə yaranmış başqa söz cütlükləri sadalanır: *kitab – kitablar, söz – sözlər, qız – qızlar* və s.

**"Bunları bilməliyik" rubrikası.** *-lar, -lər* çoxluq bildirən şəkilçi kimi izah edilir. *-lar* şəkilçisi

LAYİHƏ

ahəng qanununa uyğun olaraq sözlərin sonuna artırılaraq varlığın çox olduğunu bildirir; məsələn: *alma – almalar, əlcək – əlcəklər* və s.

**Dərslik, səh. 58**

**2.** Sözləri cəmdə yazın.

Şagirdlər təkdə verilmiş sözlərə müvafiq olaraq *-lar, -lər* şəkilçisi artırmaqla sözləri cəmdə işlədirlər. Bu zaman cəm şəkilçisinin sözün son hecasından asılı olaraq dəyişməsini mənimsəyirlər.

**İş dəftəri, səh. 38**

**1.** Verilmiş sözləri cədvəl üzrə qruplaşdırıb yaz.

Şagirdlərdən tək və cəmdə verilmiş sözləri cədvəl üzrə qruplaşdırmaq tələb olunur. Tapşırığın məqsədi şagirdlərin "tək" və "cəm" anlayışları üzrə biliklərinin möhkəmləndirilməsidir.

**Dərslik, səh. 58**

**3.** Cədvəldəki nümunəyə əsasən sözlərin düzgün yazılışını müəyyən edin.

Tapşırıqda *"yanlış"* və *"doğru"* başlığı ilə cədvəl təqdim edilmişdir. Cədvəldə *-lar, -lər* cəm şəkilçisinin yazılışı və tələffüzü verilmişdir. Müəllim şagirdlərin diqqətini bu cədvələ yönəldir və *-lar, -lər* şəkilçisinin tələffüz formalarını izah edir: *-lar, -lər* şəkilçisi özündən əvvəl gələn samitlərdən asılı olaraq müxtəlif cür tələffüz edilə bilir. Məsələn, əgər özündən əvvəl *"n"* samiti gələrsə, *[-nar], [-nər], "r"* samiti gələrsə, *[-rar], [-rər], "d", "z", "ş", "t"* samitləri gələrsə, *[-dar], [-dər]* kimi tələffüz olunur. Bu tapşırıq şagirdlərdə düzgün yazı bacarığını inkişaf etdirir. Şagirdlər tapşırıqda tələffüz formasında verilmiş sözləri orfoqrafik normalara uyğun yazmaqla aldıqları bilikləri möhkəmləndirirlər.

**Dərslik, səh. 58**

**4.** Şəkillərdə təsvir olunmuş varlıq adlarını cəmdə yazın.

Şəkillərdə sayca çox olan varlıqlar təsvir olunub. Şagirdlərdən həmin varlıqları düzgün ifadə etmək tələb olunur. Bu tapşırıq şagirdlərə cəm şəkilçisinin yazılışı haqqında aldıqları bilikləri möhkəmləndirməyə imkan yaradır.

**Düzgün cavab:** quşlar, dəftərlər, oğlanlar, fincanlar.

**İş dəftəri, səh. 38**

**2.** Nöqtələrin yerinə uyğun sözləri yaz.

Şagirdlər cümlələrdə nöqtələrin yerinə yazılacaq sözün təkdə, yoxsa cəmdə olacağını müəyyənləşdirməklə bu mövzuda qazandıqları bilikləri tətbiq edirlər.

**Düzgün cavab:**

1. Qırmızı, sarı ***almalar*** çox dadlı idi.
2. Səfurə ağacdan bir ***alma*** dərdi.
3. ***Dostlar*** birlikdə teatra getdilər.
4. Yaxşı ***dost*** pis gündə tanınar.

**İş dəftəri, səh. 38**

**3.** Sözlərdəki səhvləri düzəlt və onları cümlədə işlət.

Bu tapşırıq şagirdlərdə özünün və başqalarının yazısını təkmilləşdirmək bacarığını inkişaf etdirir. Tapşırıqda tərkibində *-lar, -lər* şəkilçisi tələffüz formasında verilmiş sözlər təqdim edilmişdir. Şagirdlər kəmiyyət şəkilçisi haqqında aldıqları biliklərə əsasən həmin sözlərdə orfoqrafik normalara uyğun düzəlişlər edirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Təkdə və ya cəmdə olan sözləri fərqləndirir. | Tap. 1 (D.), tap. 1 (İ.D.) |
| Sözləri cəmdə işlədir. | Tap. 2 (D.), tap. 2 (İ.D.) |
| Cəm şəkilçisini orfoqrafik normalara uyğun yazır. | Tap. 3, 4 (D.), tap. 3 (İ.D.) |

LAYİHƏ

# 2-ci fəsil DÜRÜSTLÜK

## 1-ci DƏRS

## Üç oğlan

**Təlim nəticələri:**

**Oxu:**

• Obrazların nitqini müəllif nitqindən fərqli intonasiya ilə oxuyur (st. 3.1.1).
• Cümlədə buraxılmış sözü müəyyən edir (st. 3.1.3).
• Mətnlə illüstrasiya arasındakı uyğun(suz)luğu müəyyən edir (st. 3.1.2).
• Məzmunun açılmasına xidmət edən açar sözləri müəyyən edir (st. 3.1.2).
• Mətndəki hadisələrin məntiqi ardıcıllığını (səbəb-nəticə əlaqəsini) müəyyən edir (st. 3.1.2).

**Mövzuya yönəltmə.** Müəllim yönəldici suallar vasitəsilə şagirdləri mövzu ətrafında müzakirəyə cəlb edir:

*– Sizə yalan danışıblarmı? Bu sizə necə təsir edib?*

**Dərslik, səh. 59**

**1.** Mətni oxuyun, obrazların xarakterinə diqqət edin.

Müəllim istiqamətləndirici tapşırıq vasitəsilə şagirdləri oxu zamanı diqqət edəcəkləri məqamlara yönəldir.

**Oxu**

**Mətnlə iş. Rollu oxu.** "Üç oğlan" mətni dialoji mətn olduğu üçün rollu oxu üsulunu tətbiq etmək tövsiyə olunur. Əvvəlcə müəllim mətni bir dəfə oxuyur. Şagirdlər mətni izləyirlər. Daha sonra müəllim obrazların *(müəllif, Cəlal, Əli, Ömər, Əlinin atası)* nitqinə aid cümlələri şagirdlər arasında bölüşdürür. Müəllim şagirdlərin nitqinə diqqət edir, obrazların hiss və həyəcanını ifadə etmək üçün onlara məsləhətlər verir.

**Söz ehtiyatı**

**Dərslik, səh. 59. "Söz mücrüsü" rubrikası**

Söz mücrüsü

• dürüstlük
• gizlənpaç
• danlamaq
• gecikmək
• sağ-salamat
• rastlaşmaq
• məsuliyyət

Müəllim "söz mücrüsü"ndə verilmiş sözlərin mənasını izah edir. Bundan əlavə, müəllim oxu prosesində rast gəldikləri tanış olmayan sözləri şagirdlərə izah edir.

Şagirdlər yeni sözləri cümlələrdə işlətməklə onların mənasını anladıqlarını nümayiş etdirirlər.

**Dərslik, səh. 60**

**2.** Nöqtələrin yerinə "söz mücrüsü"ndən uyğun gələn sözləri seçərək cümlələri tamamlayın.

Tapşırıq şagirdlərin öyrəndikləri yeni sözlərin möhkəmləndirilməsinə yönəlib. Şagirdlər "söz mücrüsü"ndən uyğun sözləri seçməklə cümlələri tamamlayırlar.

**Oxuyub-qavrama**

**Dərslik, səh. 60**

**3.** Hansı şəkil mətnin məzmununa uyğun deyil? Digər şəkillərə uyğun gələn hissələri mətndən seçib oxuyun.

Tapşırıqda üç illüstrasiya təqdim edilmişdir. Onlardan biri "Üç oğlan" mətninin məzmununu əks etdirmir. Şagirdlər mətndən illüstrasiyalara uyğun misraları müəyyən edib oxuyurlar. Mətnin məzmununa aid olmayan şəkli seçirlər. Bununla da şagirdlər mətnlə illüstrasiya arasındakı uyğunluğu və yaxud uyğunsuzluğu müəyyən etməklə mətnin məzmununu qavradıqlarını nümayiş etdirirlər.

**İş dəftəri, səh. 39**

**1.** Cümlələr hansı obrazların dilindən deyilir? Dairələrin içərisində uyğun hərfləri qeyd et.

LAYİHƏ

Şagirdlər tapşırıqda verilmiş cümlələrin mətndəki hansı obrazın nitqinə aid olduğunu müəyyənləşdirməklə mətnin məzmununu qavradıqlarını nümayiş etdirirlər.

**İş dəftəri, səh. 39**

**2.** Mətnə əsasən cədvəli tamamla.

Tapşırıq şagirdlərdə analizetmə bacarığını inkişaf etdirir. Şagirdlər mətndə əks olunan hadisələri bir-biri ilə əlaqələndirir, hadisələrin səbəbini və nəticəsini müəyyən edirlər.

**İş dəftəri, səh. 39**

**3.** Bilməcəni həll etsən, "Üç oğlan" mətninin ideyasını əks etdirən atalar sözünü oxuyarsan.

Tapşırıq əyləncəli olduğu qədər də diqqət tələb edir. Şagirdlər hərflər, rənglər və fiqurlarla şifrlənmiş sözləri tapır və "Üç oğlan" mətninin ideyasını əks etdirən atalar sözünü oxuyurlar: Doğru yolla gedən yorulmaz.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Obrazların nitqini müəllif nitqindən fərqli intonasiya ilə oxuyur. | "Üç oğlan" mətni |
| Cümlədə buraxılmış sözü müəyyən edir. | Tap. 2 (D.) |
| Mətnlə illüstrasiya arasındakı uyğunsuzluğu müəyyən edir. | Tap. 3 (D.) |
| Məzmunun açılmasına xidmət edən açar sözləri müəyyən edir. | Tap. 1, 3 (İ.D.) |
| Səbəb-nəticə əlaqəli hadisələri müəyyənləşdirir. | Tap. 2 (İ.D.) |

# 2-ci DƏRS

## Məktub

**Təlim nəticələri:**

**Danışma:**
- Sualı cavablandırarkən fikrini əsaslandırır (st. 2.2.3).

**Oxu:**
- Bədii və informativ mətnlərdə mövzu, məzmun və ideya anlayışlarını fərqləndirir (st. 3.1.2).
- Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.2).
- Götürdüyü qeydlər və ya plan əsasında mətni nəql edir (st. 3.1.2).
- Mətnə əsasən hekayə xəritəsi tərtib edir (st. 3.1.2).

**Yazı:**
- Mövzuya, situasiyaya uyğun kiçikhəcmli mətn (açıqça, təəssürat) yazır (st. 4.1.4).

**Motivasiya**

Müəllim sual-cavab üsulu ilə keçən dərsdə keçilmiş "Üç oğlan" mətnini xatırladır.

**Oxuyub-qavrama**

**Dərslik, səh. 60**

**1.** Sizcə, hansı oğlan problemi həll etmək üçün düzgün yol seçdi? Fikrinizi əsaslandırın.

Şagirdlər "Düşün və cavab ver" rubrikasındakı tapşırıqda verilmiş sualı cavablandırmaqla mövzu ilə bağlı öz fikirlərini bildirirlər. Şagirdlərin fikirlərini sadə konstruksiyalı cümlələrlə ifadə etmələri normaldır. Danışarkən cümlədə söz sırasına düzgün əməl etmələri isə vacibdir. Müəllimə şagirdlərin nitqinə diqqət yetirmək, qeydlər aparmaq tövsiyə edilir. Müəllim bu qeydlərə əsasən şagirdlərə səhvlərini izah edir, tövsiyələr verir.

**Dərslik, səh. 60**

**2.** "Üç oğlan" mətninə əsasən cədvəli tamamlayın.

Tapşırıq şagirdlərin "mövzu", "məzmun" və "ideya" anlayışlarını daha dərindən qavramağa imkan verir.

LAYİHƏ

**Yazı**

**Dərslik, səh. 60**

> **3.** "Yalan danışmaq qorxaqlıq əlamətidir" mövzusunda fikirlərinizi yazın. Atalar sözlərindən istifadə edin.

Tapşırıqda şagirdlərin mövzu ilə bağlı mətn yazarkən problemə münasibət bildirmək bacarığı inkişaf etdirilir.

**Diferensial təlim.** Sinifdə bəzi şagirdlər bu tapşırığı yerinə yetirməkdə çətinlik çəkə bilərlər. Bu zaman müəllim həmin şagirdlərə yönəldici suallar təqdim edə bilər. Şagirdlər tapşırığı yalnız bu suallara cavab yazmaqla yerinə yetirə bilərlər.

**Yönəldici suallar:**

1. *İnsanlar nə üçün yalan danışırlar?*
2. *İnsanlar daha hansı hallarda yalan danışırlar?*
3. *Siz sonuncu dəfə nə vaxt və niyə yalan danışmısınız?*
4. *Sizə kim yalan danışıb?*
5. *Bu yalan sizə necə təsir göstərib?*
6. *Problemi həll etmək üçün yalan danışmaq əvəzinə nə etmək olar?*

**Dərslik, səh. 61**

> **4.** Aşağıdakı plana əsasən "Üç oğlan" mətninin qısa məzmununu danışın.

Şagirdlər tapşırıqda verilmiş plana əsasən "Üç oğlan" mətnini nəql edirlər. "Üç oğlan" bədii-süjetli mətn olduğundan bu tapşırıqla şagirdlər mətndəki hadisələrin ardıcıllığını xatırladıqlarını nümayiş etdirirlər.

**Rollu oyun.** Mətn şagirdlər tərəfindən səhnələşdirilə bilər. Bunun üçün müəllim şagirdləri qruplara ayırır. Qrup üzvlərinə hazırlaşmaq üçün vaxt verilir. Qrup üzvləri təhkiyə üsulu ilə verilmiş məlumatlara istinad edərək obrazların nitqini təxmin edirlər. Məsələn, "Əlinin atası oğlu gecikdiyi üçün narahat olmuşdu. İndi də yalan söyləməsi onu çox kədərləndirdi" cümlələrinə əsasən atanın nitqini müəyyən etmək olar:

*– Oğul, gec gəldiyin üçün narahat olmuşdum. Qorxdum ki, başına bir iş gəlib. Yalan danışmağın isə mənə lap pis təsir etdi.*

***I qrup.*** Qrup üzvləri arasında Cəlal, Əli, Ömər rolları paylaşdırılır. Qrup üzvləri "Oğlanların qərarı" səhnəsini səhnələşdirirlər.

***II qrup.*** Qrup üzvləri arasında Əli və atasının rolları paylaşdırılır. Qrup üzvləri "Əlinin atası ilə söhbəti" səhnəsini səhnələşdirirlər.

***III qrup.*** Qrup üzvləri arasında Cəlal və anasının rolları paylaşdırılır. Qrup üzvləri "Cəlalın anası ilə söhbəti" səhnəsini səhnələşdirirlər.

***IV qrup.*** Qrup üzvləri arasında Ömər, atası və anasının rolları paylaşdırılır. Qrup üzvləri "Ömərin valideynləri ilə söhbəti" səhnəsini səhnələşdirirlər.

**İş dəftəri, səh. 40**

> **1.** "Üç oğlan" mətninə əsasən hekayə xəritəsini tamamla.

Şagirdlər "Üç oğlan" mətninə əsasən hekayə xəritəsini tamamlayırlar. Bu tapşırıq müəllimə şagirdlərin həm "Üç oğlan" mətninin məzmununu necə qavradıqlarını, həm də "məzmun", "ideya" anlayışlarını necə fərqləndirdiklərini yoxlamağa imkan yaradır.

**Yazı**

**Dərslik, səh. 61**

> **5.** Məktubu oxuyun. Suallara cavab verin.

Bu tapşırıqda şagirdlər əməli yazı nümunəsi ilə – məktubla tanış olurlar. Məktublar məzmun və formaca bir-birindən fərqlənir. Bu dərsdə "Üç oğlan" mətnindəki obrazlardan birinə – Ömərə yazılmış məktub müzakirə edilir. Şagirdlər təqdim olunmuş məktubun abzaslarını bir-bir oxuyur, tapşırıqda verilmiş yönəldici sualları cavablandırırlar. Suallar şagirdlərə məktubun strukturunu qavramağa kömək edir.

**Dərslik, səh. 61**

> **6.** Plana əsasən "Üç oğlan" mətnindəki obrazlardan birinə məktub yazın.

Şagirdlər onlara təqdim edilmiş plana uyğun "Üç oğlan" mətninin obrazlarından birinə məktub yazırlar. Məktubun beşinci abzasında obraza məsləhətlər verilməlidir.

**Diferensial təlim.** Məktub yazarkən məsləhət verməkdə çətinlik çəkən şa-

LAYİHƏ

girdlər dərslikdə onlara təqdim edilmiş məsləhətlərdən istifadə edə bilərlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sualı cavablandırarkən fikrini əsaslandırır. | Tap. 1 (D.) |
| Bədii və informativ mətnlərdə mövzu, məzmun və ideya anlayışlarını fərqləndirir. | Tap. 2 (D.) |
| Mövzuya, situasiyaya uyğun təəssüratını yazır. | Tap. 3 (D.) |
| Götürdüyü qeydlər və ya plan əsasında mətni nəql edir. | Tap. 4 (D.) |
| Mətnə əsasən hekayə xəritəsi tərtib edir. | Tap. 1 (İ.D.) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tap. 5 (D.) |
| Obrazlardan birinə məktub yazır. | Tap. 6 (D.) |

# 3-cü DƏRS
## Sınmış fincan

**Təlim nəticələri:**

**Danışma:**
• Süjetli şəkil kompozisiyası üzrə mətn qurub danışır (st. 2.2.1).
• Müzakirə zamanı mövzuya uyğun fikir söyləyir (st. 2.2.3).

**Dinləmə:**
• Dinlədiyi və oxuduğu mətnləri mövzu, məzmun, ideya baxımından müqayisə edir (st. 1.1.1).
• Mətndəki hadisələrin məntiqi ardıcıllığını (səbəb-nəticə əlaqəsini) müəyyən edir (st. 3.1.2).

**Yazı:**
• Mövzuya, situasiyaya uyğun kiçikhəcmli mətn (açıqça, təəssürat) yazır (st. 4.1.4).

**Mövzuya yönəltmə.** Müəllim şagirdlərə mövzuya uyğun situasiya təqdim edir:

*– Təsəvvür edin ki, ananızın sevimli əşyalarından birini bilmədən qırmısınız. Bu hadisəni sizdən başqa heç kim bilmir. Ananız sevimli əşyasını sınıq vəziyyətdə tapanda çox kədərlənir. Bu zaman siz nə edərdiniz?*

Fərziyyələr dinlənilir. Diskussiya aparılır. Müəllim sualla sinfə müraciət edir:

*– Sizcə, hansı yaxşıdır: şirin yalan, yoxsa acı həqiqət?*

**Dərslik, səh. 62**

**1.** Şəkillər üzrə mətn qurun.

Tapşırıq şagirdlərin hər hansı bir mövzu üzrə mətn qurmaq bacarığının inkişafına yönəlib. Şagirdlər tapşırıqda təqdim edilmiş süjetli şəkil kompozisiyası üzrə mətn qurub təqdim edirlər. Bu tapşırığı qruplarla yerinə yetirmək daha məqsədəuyğundur. Müəllim şagirdləri məqsədli şəkildə qruplaşdırmalıdır.

***I qrup.*** Azərbaycan dilində söz ehtiyatı zəngin, dilbilmə səviyyəsi yüksək olan şagirdlər toplaşırlar. Bu qrup üzvləri tapşırığı müstəqil şəkildə yardımçı vasitələr olmadan yerinə yetirirlər.

***II qrup.*** Azərbaycan dilində söz ehtiyatı az, dilbilmə səviyyəsi aşağı olan şagirdlər toplaşırlar. Müəllim bu qrup üzvlərinə tapşırığı yerinə yetirmək üçün istiqamətləndirici suallar təqdim edir:

*1. Oğlan (Murad) və pişik (Məstan) haradadırlar? Murad nə edir?*

*2. Muradın əlindəki fincan hara düşdü? Nə baş verdi?*

*3. Anası Muraddan nə soruşdu? Sizcə, Murad nə üçün fincanı özü sındırdığını söyləmədi?*

*4. Məstan haradadır? Sizcə, Məstanı həyata kim çıxarıb? Sizcə, Məstanı nə üçün həyata çıxarıblar?*

*5. Murad Məstandan nə üçün üzr istəyir?*

*6. Anası Murada nə deyir? Sizcə, Murad hansı hissləri keçirir?*

**Dinləmə-danışma**

**Dərslik, səh. 62**

**2.** "Sınmış fincan" mətnini dinləyin. Şəkil üzrə qurduğunuz mətnlə müqayisə edin.

**Dinləmə mətni üzrə iş**

Müəllim "Sınmış fincan" mətnini səsləndirir.

LAYİHƏ

## Sınmış fincan

*Bir dəfə ana evə gələndə gördü ki, onun sevimli yaşıl fincanı sınıb. Evdə isə təkcə Murad, bir də Məstan adlı pişik var idi.*

*Ana soruşdu:*

*– Fincanı kim sındırıb? Murad çiyinlərini çəkdi.*

*– Aha, deməli, Məstan sındırıb, – deyə ana hirslənib Məstanı çölə çıxartdı və qapını örtdü.*

*– Ana, çöl soyuqdur axı, Məstan üşüyər, – Murad dilləndi.*

*– Eybi yoxdur, qoy başa düşsün ki, qabları sındırmaq olmaz.*

*Ana öz işi ilə məşğul oldu, pişiyi də, Muradı da unutdu. Bir azdan gördü ki, pişik evdə gəzir, amma Murad yoxdur. Aydındır ki, pişiyi evə Murad buraxmışdı. Ana onu xeyli axtardı, tapa bilmədi. Axırda qapını açıb çölə çıxdı. Murad bayırda idi. Soyuqdan tir-tir əsirdi.*

*– Sən burada neyləyirsən? – deyə ana həyəcanla Muraddan soruşdu.*

*Murad başını aşağı salıb titrəyə-titrəyə dedi:*

*– Ana, fincanı mən sındırmışam.*

Şagirdlər mətni dinləyir və 1-ci tapşırıqdakı şəkil kompozisiyası üzrə qurduqları mətnlə müqayisə edirlər.

**Dərslik, səh. 62**

**3.** Mətnə əsasən cümlələri tamamlayın.

Şagirdlər tapşırıqda verilmiş cümlələri “Sınmış fincan” dinləmə mətninin məzmununa əsasən tamamlayırlar. Bu tapşırıq şagirdlərin həm mətni dinləyib anladıqlarını, həm də hadisələrin səbəbini necə analiz etdiklərini yoxlamağa imkan yaradır.

**Dərslik, səh. 62**

**4.** Oxuduğunuz “Üç oğlan” və dinlədiyiniz “Sınmış fincan” mətnlərini müqayisə edin.

Təxminən belə ola bilər:

Birinci mətndə Cəlal və Əli, ikinci mətndə Murad qorxduqları üçün yalan danışırlar. Cəlal və Əli yalan danışmaqla özlərini daha da çətin vəziyyətə salırlar. Murad isə səhvini başa düşüb günahını etiraf edir. Hər iki mətndə dürüstlük təbliğ edilir.

**İş dəftəri, səh. 41**

**1.** Verilmiş fikirlərin hansı mətnə aid olduğunu qeyd et.

Şagirdlər bu tapşırıq vasitəsilə “Sınmış fincan” və “Üç oğlan” mətnini mövzu, məzmun və ideya baxımından müqayisə edirlər.

**Danışma**

**Dərslik, səh. 62**

**5.** Murad anasının sualına cavab verməyib susdu. Onun bu hərəkətini yalan hesab etmək olarmı?

**Müzakirə.** Müəllim şagirdlərin diqqətini tapşırıqdakı fikirlərə yönəldir:

Murad anasının sualına cavab verməyib susdu. Onun bu hərəkəti:

a) yalan hesab edilir; b) yalan hesab edilmir.

Şagirdlər razılaşdıqları fikri seçir və arqumentlər gətirərək fikirlərini sübut etməyə çalışırlar.

**İş dəftəri, səh. 41**

**2.** “Sınmış fincan” mətninin qəhrəmanı Murada məktub yaz.

Şagirdlər məktubun strukturu təqdim olunmuş tapşırıqda “Sınmış fincan” mətninin baş qəhrəmanı Murada məktub yazırlar.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Süjetli şəkil kompozisiyası üzrə mətn qurub danışır. | Tap. 1 (D.) |
| Dinlədiyi və oxuduğu mətnləri mövzu, məzmun, ideya baxımından müqayisə edir. | Tap. 2, 4 (D.), tap. 1 (İ.D.) |
| Mətndəki hadisələrin səbəbini müəyyən edir. | Tap. 3 (D.) |
| Müzakirə zamanı mövzuya uyğun fikir yürüdür. | Tap. 5 (D.) |
| Mətnin baş qəhrəmanına məktub yazır. | Tap. 2 (İ.D.) |



LAYİHƏ

# 4-cü DƏRS

## Xüsusi isimlərin böyük hərflə yazılması

**<u>Təlim nəticələri</u>:**

**Yazı:**

• Xüsusi isimlərin böyük hərflə yazılış qaydalarına əməl edir (st. 4.1.1).

• Həm ümumi, həm də xüsusi isim kimi işlənən sözlərin yerindən asılı olaraq böyük, yoxsa kiçik hərflə yazıldığını müəyyənləşdirir (st. 4.1.1).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 63**

**1.** Sözləri oxuyun. Sizcə, nə üçün bəzi sözlər böyük hərflə yazılıb?

Şagirdlər tapşırıqda verilmiş sözlərdən bəzisinin nə üçün böyük hərflə yazıldığını təxmin edirlər. Motivasiya xarakterli bu tapşırıq şagirdlərin diqqətini mövzuya yönəltmək məqsədi daşıyır.

**“Bunları bilməliyik” rubrikası.** Müəllim rubrikada verilmiş məlumatları izah edir. Yer, şəxs və heyvanlara verilən adların ilk hərfi həmişə böyük yazılır.

**Dərslik, səh. 63**

**2.** Uyğunluğu müəyyən edin. Nümunəyə uyğun yazın.

**Düzgün cavab:** ölkə – Azərbaycan; oğlan – Əli; qız – Leyla; dəniz – Xəzər; çay – Kür; planet – Mars; pişik – Məstan; it – Toplan.

**Dərslik, səh. 63**

**3.** Aşağıdakı adları cədvəl üzrə qruplaşdırın.

**Düzgün cavab:**

**Yer adları:** Şuşa, Gədəbəy, Mingəçevir.

**Şəxs adları:** Sənan, Ayşə, Günel.

**Heyvanlara verilən adlar:** Alabaş, Qaraxal, Ağmur.

**İş dəftəri, səh. 42**

**1.** Hər bir sıraya iki söz əlavə et.

Tapşırıq ümumi və xüsusi isimlər haqqında biliyin möhkəmləndirilməsinə yönəlib.

**Dərslik, səh. 63**

**4.** Hansı cümlədə “lalə” sözü böyük hərflə yazılmalıdır?

Şagirdlərin kontekstə görə sözlərin ümumi və yaxud xüsusi isim olduğunu müəyyənləşdirmək bacarığının inkişafına yönəlib. Şagirdlər “lalə” sözünün hansı cümlədə böyük hərflə yazıldığını müəyyənləşdirirlər.

Müəllim “Diqqət et” rubrikasındakı məlumatları şərh edir. Bəzi sözlərin kontekstdən asılı olaraq həm kiçik, həm də böyük hərflə yazıldığını nümunələr əsasında izah edir.

**Dərslik, səh. 63**

**5.** Həm böyük, həm də kiçik hərflə yazıla bilən sözləri seçin. Cümlələrdə işlətməklə fikrinizi əsaslandırın.

Tapşırıqda kontekstdən asılı olaraq həm böyük, həm də kiçik hərflə yazıla bilən sözlər təqdim edilmişdir *(arzu, ulduz, nərgiz, çiçək, sevinc)*. Şagirdlər həmin sözləri cümlədə işlətməklə mövzunu anladıqlarını nümayiş etdirirlər.

**İş dəftəri, səh. 42**

**2.** Mətndə bəzi sözlər səhv yazılıb. Həmin sözlərin böyük və ya kiçik hərflə yazılış qaydasına əməl etməklə mətni köçür.

**İş dəftəri, səh. 42**

**3.** Səhvləri düzəldərək cümlələri yenidən yaz.

Şagirdlər səhvləri tapıb düzəltməklə ümumi və xüsusi isimlər haqqında bilikləri necə qavradıqlarını nümayiş etdirirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Xüsusi isimlərin böyük hərflə yazılış qaydalarına əməl edir. | Tap. 1, 2, 3 (D.), tap. 1, 2 (İ.D.) |
| Həm ümumi, həm də xüsusi isim kimi işlənən sözlərin yerindən asılı olaraq böyük, yoxsa kiçik hərflə yazıldığını müəyyənləşdirir. | Tap. 4, 5 (D.), tap. 3 (İ.D.) |

LAYİHƏ

# 3-cü fəsil DOSTLUQ

## 1-ci DƏRS

### Dilarə

**Təlim nəticələri:**

**Danışma:**
• Sualı cavablandırarkən fikrini əsaslandırır (st. 2.2.3).

**Oxu:**
• Dialoji mətni səsləndirərkən obrazların nitqini fərqli səs tonu ilə oxuyur (st. 3.1.1).
• Cümlədə buraxılmış sözü müəyyən edir (st. 3.1.3).
• Mətndəki hadisələrin ardıcıllığını müəyyən edir (st. 3.1.2).
• Mətnin məzmunundan çıxış edərək hadisələrin davamını təxmin edir (st. 3.1.2).
• Mətnə əsasən hekayə xəritəsi tərtib edir (st. 3.1.2).

**Yazı:**
• Oxuduğu mətnin qısa məzmununu yazır (st. 4.1.4).
• Mövzuya, situasiyaya uyğun kiçikhəcmli mətn (açıqça, təəssürat) yazır (st. 4.1.4).

**Mövzuya yönəltmə**

Müəllim yazı taxtasında dairə çəkir, içərisinə "Dost necə olmalıdır?" cümləsini yazır. Şagirdlər bu sualla bağlı fikirlərini söyləyir, müəllim dairənin kənarlarından şaxələr çəkməklə sözləri qeyd edir.

**Danışma**

**Dərslik, səh. 64**

1. Çətin anlarda kimdən məsləhət alırsınız?

Müəllim əlavə yönəldici sualla şagirdləri danışmağa həvəsləndirir:

*– Köməyə ehtiyacı olanlara necə münasibət göstərmək lazımdır?*

**Danışma**

**Qruplarla iş.** Şagirdlər üç qrupa ayrılır. Müəllim şagirdlərə iş vərəqlərində situasiya tapşırığı təqdim edir.

***I qrup.*** Kəmalə lövhənin qarşısına çıxanda ayağı büdrəyir və yıxılır. Bu mənzərəni görən sinif uşaqları ucadan gülürlər. Kəmalə yoldaşlarının güldüyünü görüb pərt olur, ağlamağa başlayır. Siz bu situasiyada Kəmaləyə necə münasibət göstərərdiniz?

***II qrup.*** Sinfinizə yeni şagird gəlib. Sinif uşaqları ilə ünsiyyət qurmaqda çətinlik çəkir. Tənəffüsdə heç kimlə danışmır, oynamır. Bu situasiyada nə edərdiniz? Yoldaşınıza necə kömək edərdiniz?

***III qrup.*** Sinif yoldaşlarınızdan biri dərslərdən geri qalır. Daim dərsə hazırlıqsız gəlir. Sinifdə ciddi məsələlərin müzakirəsi zamanı sinif uşaqları onu dinləmək istəmir, onun fikirlərini ciddiyə almırlar. Siz bu situasiyada yoldaşınıza necə yardım edərdiniz?

Qrup üzvləri situasiya ilə tanış olur, öz fikirlərini işçi vərəqində qeyd edirlər.

**Oxu və söz ehtiyatı**

**Mətnlə iş.** "Dilarə" şeiri müvafiq jest və mimikalardan istifadə edilməklə müxtəlif şagirdlər tərəfindən oxunur. Müəllim şagirdlərin nitqinə diqqət edir, obrazların hiss və həyəcanını ifadə etmək üçün onlara məsləhətlər verir.

**Dərslik, səh. 64. "Söz mücrüsü" rubrikası**

Söz mücrüsü

bulaşmaq • xəbərsiz
yaylıq • görkəm • silmək

**Söz mücrüsü.** Müəllim "söz mücrüsü"ndə verilmiş və oxu prosesində rast gəldikləri tanış olmayan sözlərin mənasını şagirdlərə izah edir.

**Dərslik, səh. 64**

2. Nöqtələrin yerinə "söz mücrüsü"ndən uyğun gələn sözləri seçərək cümlələri tamamlayın.

LAYİHƏ

Tapşırıq şagirdlərin öyrəndikləri yeni sözlərin möhkəmləndirilməsinə yönəlib. Şagirdlər "söz mücrüsü"ndən uyğun sözləri seçməklə cümlələri tamamlayırlar.

**Dərslik, səh. 65**

**3.** Mətnə əsasən hadisələrin ardıcıllığını müəyyənləşdirin.

Şagirdlər tapşırıqda verilmiş cümlələri "Dilarə" mətnindəki hadisələrin ardıcıllığına uyğun sıralayırlar.

**Düzgün cavab:** 1 – C; 2 – Ç; 3 – B; 4 – A.

**Dərslik, səh. 65**

**4.** Sinif yoldaşlarının Dilarəyə qarşı etdiyi hərəkətlərə münasibət bildirin. Nümunələr söyləməklə fikrinizi əsaslandırın.

Şagirdlər "Düşün və cavab ver" rubrikasındakı tapşırıqda təqdim edilmiş sualı cavablandırırlar. "Dilarə" şeirinin baş qəhrəmanının düşdüyü situasiyada sinif yoldaşlarının ona münasibətini müzakirə edirlər. Arqumentlər gətirməklə fikirlərini əsaslandırırlar.

**Dərslik, səh. 65**

**5.** Sizcə, bu hadisədən sonra Dilarənin yoldaşlarına qarşı münasibəti dəyişəcəkmi? Hadisələrin davamını təxmin edin.

Tapşırıq şagirdlərin təxminetmə bacarığının inkişafına yönəlib. Bu cür tapşırıqlar şagirdlərdə həm danışma, həm də yazı bacarıqlarının inkişafında əsaslı rol oynayır.

**Yazı**

**Dərslik, səh. 65**

**6.** Plan əsasında "Dilarə" şeirinin qısa məzmununu yazın.

Tapşırıq oxu və yazı məzmun xətlərinin inteqrasiyasına imkan yaradır. Şagirdlər tapşırıqda təqdim edilmiş plan əsasında "Dilarə" şeirinin məzmununu öz sözləri ilə yazırlar. Bununla da şeirin məzmununu qavradıqlarını göstərirlər. Eyni zamanda tanış olduqları qrammatik konstruksiyaları necə mənimsədiklərini nümayiş etdirirlər.

**Dərslik, səh. 65**

**7.** Aşağıda verilmiş davranış qaydaları ilə tanış olun. Uyğunluğu müəyyən edin. Əlavələr etməklə sinfiniz üçün davranış qaydaları hazırlayın.

Bu tapşırıq Həyat bilgisi fənni ilə inteqrasiyaya imkan yaradır. Şagirdlər Həyat bilgisi fənnində davranış qaydaları ilə tanış olublar. Tapşırıqda təqdim olunmuş illüstrasiyalara aid davranış qaydalarını müəyyən etməklə oxuduqlarını anladıqlarını nümayiş etdirirlər.

**Düzgün cavab:** 1 – C; 2 – Ç; 3 – A; 4 – B.

Daha sonra şagirdlər əlavələr etməklə davranış qaydaları hazırlayırlar. Bununla da yiyələndikləri söz ehtiyatı və yazı bacarıqlarını nümayiş etdirirlər.

**İş dəftəri, səh. 43**

**1.** "Dilarə" mətninə əsasən hekayə xəritəsini tamamla.

Şagirdlər "Dilarə" şeirinin məzmununa əsasən hekayə xəritəsini tərtib edirlər. Bu tapşırıq müəllimə şagirdlərin həm "Dilarə" şeirinin məzmununu necə qavradıqlarını, həm də "məzmun", "ideya" anlayışlarını necə fərqləndirdiklərini yoxlamağa imkan yaradır.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sualı cavablandırarkən fikrini əsaslandırır. | Tap. (MV), tap. 1, 4 (D.) |
| Dialoji mətni səsləndirərkən obrazların nitqini fərqli səs tonu ilə oxuyur. | "Dilarə" şeiri |
| Cümlədə buraxılmış sözü müəyyən edir. | Tap. 2 (D.) |
| Mətndəki hadisələrin ardıcıllığını müəyyən edir. | Tap. 3 (D.) |
| Mətnin məzmunundan çıxış edərək hadisələrin davamını təxmin edir. | Tap. 5 (D.) |

LAYİHƏ

| | |
|---|---|
| Oxuduğu mətnin qısa məzmununu yazır. | Tap. 6 (D.) |
| Mövzuya, situasiyaya uyğun davranış qaydaları tərtib edir. | Tap. 7 (D.) |
| Mətnə əsasən hekayə xəritəsi tərtib edir. | Tap. 1 (İ.D.) |

# 2-ci DƏRS
# Əlamət bildirən sözlər

## Təlim nəticələri:

**Danışma:**
• Anlayışın əsas əlamətlərinə görə sözü müəyyən edir (st. 3.1.3).
• Sözləri ümumi mənalarına görə qruplaşdırır (st. 3.1.3).
• Cümlədə buraxılmış sözü müəyyən edir (st. 3.1.3).
**Yazı:**
• Şəkil və ya plan əsasında təsviri xarakterli mətn yazır (st. 4.1.4).

**Mövzuya yönəltmə**
**Dərslik, səh. 66**

**1.** Şəkillərə baxın. Nöqtələrin yerinə uyğun sözləri əlavə edin.

Şagirdlər tapşırıqda verilmiş şəkillərə əsasən nöqtələrin yerinə uyğun əlamət bildirən söz əlavə edərək söz birləşmələri yaradırlar. Tapşırıq şagirdlərin diqqətini əlamət bildirən sözlərə cəlb etmək məqsədi daşıyır.

**"Bunları bilməliyik" rubrikası.** Müəllim rubrikada verilmiş məlumatları izah edir. Şagirdlərə əlamət bildirən sözlərin məna növləri haqqında məlumat verir. Təsvir zamanı forma, dad, rəng, həcm bildirən sözlərin rolunu vurğulayır.

**Dərslik, səh. 66**

**2.** Əlamət bildirən sözlərə əsasən varlığın adını tapın.

Şagirdlər əlamət bildirən sözlərin hansı varlığa aid olduğunu müəyyənləşdirməklə sözün izahı ilə bağlı bilik və bacarıqlarını inkişaf etdirirlər.

**Düzgün cavab:**
1. qırmızı, tikanlı, ətirli – qızılgül.
2. balaca, dördkünc, ağ, şirin – qənd.
3. yaşıl, yumru, kiçik, turş – alça.
4. qırmızı, dənəli, turş – nar.

**İş dəftəri, səh. 44**

**1.** Hər sütuna uyğun sözlər yazmaqla cədvəli tamamla.

Şagirdlər tapşırıqda təqdim edilmiş cədvəlin müvafiq sütunlarına uyğun əlamət bildirən sözlər yazır və bununla da əlamət bildirən sözləri məna növlərinə görə qruplaşdırdıqlarını nümayiş etdirirlər.

**Əlavə tapşırıq. Oyun.** Üzərində müxtəlif varlıq şəkilləri olan kartlar şagirdlərə paylanır. Şagirdlər kartları gizli saxlamalıdırlar ki, yoldaşları onu görməsinlər. Hər bir şagird öz kartındakı varlığı təsvir edir, digərləri isə onu tapır. Bu tapşırıqla əlamət bildirən sözlərin hansı varlığa aid olduğunu müəyyənləşdirməklə yanaşı sözün izahını vermək bacarığı da inkişaf etdirilir.

**Dərslik, səh. 66**

**3.** Əlamət bildirən sözləri aid olduğu sözlə birlikdə seçib yazın.

Şagirdlər tapşırıqda təqdim olunmuş kiçik mətni oxuyur, əlamət bildirən sözləri aid olduğu sözlə birlikdə seçib yazırlar. Bununla da əlamət bildirən sözlər haqqında aldıqları məlumatları qavradıqlarını nümayiş etdirirlər.

**Düzgün cavab:** mavi səma, sapsarı günəş, yamyaşıl rəng, yaşıl ot, qırmızı lalə, sarı nərgiz, rəngli xalı, xallı kəpənəklər, rəngbərəng çiçəklər, çəhrayı moruqlar, qara böyürtkənlər.

**İş dəftəri, səh. 44**

**2.** Nöqtələrin yerinə uyğun əlamət bildirən söz seçərək cümlələri tamamla.

Şagirdlər uyğun əlamət bildirən söz seçməklə cümlələri tamamlayırlar. Bununla da həm əlamət bildirən sözlər haqqında bilikləri necə

LAYİHƏ

qavradıqlarını, həm də yiyələndikləri söz ehtiyatlarını nümayiş etdirirlər.

**Yazı**
**İş dəftəri, səh. 44**

**3.** Əlamət bildirən sözlərdən istifadə edərək şəkli təsvir edin.

Şagirdlər əlamət bildirən sözlərdən istifadə edərək şəkli təsvir edirlər. Bununla da təsviri mətnin yazılmasında əlamət bildirən sözlərin rolunu dərk edirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Cümlədə buraxılmış sözü müəyyən edir. | Tap. 1 (D.), tap. 2 (İ.D.) |
| Anlayışın əsas əlamətlərinə görə sözü müəyyən edir. | Tap. 2 (D.), əlavə tap. (MV) |
| Əlamət bildirən sözləri məna qruplarına görə (rəng, dad və s.) fərqləndirir. | Tap. 1 (İ.D.), tap. 3 (D.) |
| Əlamət bildirən sözlərdən istifadə etməklə təsviri mətn yazır. | Tap. 3 (İ.D.) |

# 4-cü fəsil
# NİZAM-İNTİZAM

## 1-ci DƏRS

### Ballı və Vız-vız

**Təlim nəticələri:**

**Danışma:**
- Sualı cavablandırarkən fikrini əsaslandırır (st. 2.2.3).

**Oxu:**
- Cümlədə buraxılmış sözü müəyyən edir (st. 3.1.3).
- Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.2).
- Mətndəki hadisələrin məntiqi ardıcıllığını (səbəb-nəticə əlaqəsini) müəyyən edir (st. 3.1.2).
- Mətndən əsas fikri müəyyənləşdirməyə kömək edən məqamları seçir (st. 3.1.2).
- Kontekstdən çıxış edərək tanış olmadığı söz və ifadələrin mənasını təxmin edir (st. 3.1.3).

**Yazı:**
- Verilmiş şəklə uyğun söz və cümlələr yazır (st. 4.1.4).
- Mövzuya, situasiyaya uyğun kiçikhəcmli mətn (açıqça, təəssürat) yazır (st. 4.1.4).

**Mövzuya yönəltmə**
**Dərslik, səh. 67**

**1.** Sizcə, qaydalar nə üçün yaradılır?

Müəllim əlavə yönəldici suallarla şagirdləri danışmağa həvəsləndirir:

*– Əgər qaydalar olmazsa, nə baş verər? Məsələn, düşünün ki, yol hərəkəti qaydaları yoxdur. Belə olarsa, hansı çətinliklər yaranar?*

**Oxu və söz ehtiyatı**
**Dərslik, səh. 67. “Söz mücrüsü” rubrikası**




**Mətnlə iş.** Mətni oxumaq üçün müəllim müxtəlif oxu strategiyaları tətbiq edə bilər.



LAYİHƏ

"Ballı və Vız-vız" süjetli mətn olduğundan oxunması üçün **proqnozlaşdırma** üsulunu tətbiq etmək tövsiyə olunur. Mətnin "Bir neçə gün sonra Ballı Vız-vızı öz evlərinə qonaq apardı" cümləsindən sonra oxu prosesi dayandırılır və müəllim soruşur:

*– Sizcə, Ballının evi necədir? Vız-vız Ballının evində nələrlə qarşılaşacaq?*

Mətnə çəkilmiş illüstrasiya da Ballının evini təsvir etmək üçün şagirdləri istiqamətləndirəcək. Şagirdlərin cavabı dinlənildikdən sonra oxu davam etdirilir və şagirdlərin versiyaları mətnlə müqayisə edilir.

**Söz mücrüsü**. Müəllim "söz mücrüsü"ndə verilmiş və oxu prosesində rast gəldikləri tanış olmayan sözlərin mənasını şagirdlərə izah edir.

**Söz ehtiyatı**

**Dərslik, səh. 68**

**2.** Nöqtələrin yerinə "söz mücrüsü"ndən uyğun gələn sözləri yazmaqla cümləläri tamamlayın.

Tapşırıq şagirdlərin öyrəndikləri yeni sözlərin möhkəmləndirilməsinə yönəlib. Şagirdlər "söz mücrüsü"ndən uyğun sözləri seçməklə cümlələri tamamlayırlar.

**Dərslik, səh. 68**

**3.** Mətnlə bağlı suallara cavab verin.

Tapşırıq şagirdlərin mətni nə qədər diqqətlə oxuduqlarını yoxlamağa imkan yaradır.

**Dərslik, səh. 68**

**4.** Cümlələri mətnin məzmununa əsasən tamamlayın.

Şagirdlər "Düşün və cavab ver" rubrikasındakı tapşırıqda təqdim edilmiş cümlələri mətnin məzmununa əsasən tamamlayırlar. Mətndə əks olunan hadisələrin səbəbini açıqlamaqla hadisələrin məntiqi ardıcıllığını anladıqlarını və mətni analizetmə bacarıqlarını da göstərmiş olurlar.

**Dərslik, səh. 68**

**5.** Ballının ailəsinə aid xüsusiyyətləri müəyyənləşdirin. Mətndən uyğun epizodları danışmaqla fikrinizi əsaslandırın.

Şagirdlər Ballının ailəsinə məxsus xüsusiyyətləri müəyyənləşdirir və mətndən uyğun epizodları danışmaqla fikirlərini əsaslandırırlar. Bu tapşırıq həm danışma, həm də oxuyub-qavrama məzmun xətləri üzrə bacarıqların inkişafına xidmət edir.

**Düzgün cavab:**

*Zəhmətkeş* – Arılar dayanmadan çalışırdılar.

*İntizamlı* – Arılar Ana arını dinləyir, qaydalara əməl edirdilər.

*Ədalətli* – Ana arı hamı ilə ədalətlə davranırdı.

*Şən* – İşçi arılar həvəslə pətək hörürdülər. Bütün arılar çox xoşbəxt görünürdülər.

**Dərslik, səh. 68**

**6.** "Ballı və Vız-vız" mətninin ideyasını əks etdirən fikri hansı obraz söyləyir? Həmin cümlələri mətndən seçib oxuyun.

Şagirdlər mətndən Ballının dilindən söylənən "Ədalət, nizam-intizam olan yerdə hamı xoşbəxt olur və işləməkdən həzz alır" cümləsini seçib oxumaqla mətnin ideyasını anladıqlarını bildirirlər.

**Yazı**

**İş dəftəri, səh. 45**

**1.** Şəkillərdə arı ailəsinin hansı üzvlərini görürsən? "Ballı və Vız-vız" mətninə əsasən məlumatları uyğun sətirlərdə yaz.

Tapşırıq oxu və yazı məzmun xətlərinin inteqrasiyasına imkan yaradır. Şagirdlər oxuduqları "Ballı və Vız-vız" mətninin məzmununa əsasən iş dəftərindəki bu tapşırığı yerinə yetirirlər. Ana, keşikçi və işçi arıların hər birinin vəzifələrini şəkillərin qarşısında qeyd edirlər.

**İş dəftəri, səh. 45**

**2.** "Kəşfiyyat" sözünün izahını oxu. İzaha əsasən arı ailəsinin bu üzvünü adlandır. Onun vəzifəsini təxmin et.

Tapşırıq oxuyub-qavrama və söz ehtiyatının inkişafına yönəldilib. Şagirdlər "kəşfiyyat" sözünün izahına əsasən bal arısının daha bir üzvünün adını və vəzifəsini təxmin edirlər.

LAYİHƏ

**Düzgün cavab:**

Adı: Kəşfiyyatçı arı.

Vəzifəsi: Güllərin, çiçəklərin yerini tapmaq, kəşf etməkdir.

İş dəftərində verilmiş 1-ci və 2-ci tapşırıqlar dərslikdəki 7-ci tapşırığın uğurla yerinə yetirilməsinə zəmin yaradır. Şagirdlər bu tapşırıqlardakı məlumatlardan bal arısı haqqında məlumat vərəqi hazırlayarkən istifadə edəcəklər.

**Dərslik, səh. 68**

**7.** “Ballı və Vız-vız” mətnində verilmiş məlumatlara əsasən bal arısı haqqında məlumat vərəqi hazırlayın.

Tapşırıq şagirdlərdə təqdimat hazırlamaq və təqdimat etmək kimi vacib bacarıqların inkişafına yönəlib. Şagirdlər artıq keçən dərslərdə “Məlumat vərəqi” haqqında biliklərə yiyələniblər. Bu tapşırıqla məlumat vərəqinin hazırlanması bacarığı möhkəmləndirilir. Şagirdlər “Ballı və Vız-vız” mətnindən və iş dəftərində təqdim edilmiş tapşırıqdakı informasiyaya əsasən bal arıları haqqında məlumat vərəqi hazırlayırlar.

**Diferensial təlim**. Müəllim şagirdləri iki qrupa ayırır.

***I qrup.*** Bu qrup üzvləri şifahi və yazılı nitq bacarıqlarına kifayət qədər yiyələnmiş şagirdlərdir. Bu şagirdlər tapşırığı müstəqil şəkildə yerinə yetirirlər.

***II qrup.*** Bu qrup üzvləri söz ehtiyatı nisbətən zəif olan şagirdlərdir. Müəllim tapşırığı yerinə yetirmək üçün həmin şagirdləri istiqamətləndirə bilər. Bu məqsədlə şagirdlərə yönəldici suallar verilə bilər:

*1. Arı necə həşəratdır?*

*2. Arının xarici görünüşü necədir?*

*3. Arı hansı xüsusiyyətinə görə digər həşəratlardan fərqlənir?*

*4. Arı ailəsində hansı üzvlər olur?*

*5. Hər bir ailə üzvünün (kəşfiyyatçı, işçi, keşikçi) vəzifəsi nədir?*

**Müəllimin nəzərinə!** Şagirdlər hazırladıqları məlumat vərəqinə mövzuya uyğun şəkillər əlavə edə bilərlər. Müəllim imkan daxilində iş dəftərində verilmiş şəkillərin surətini çıxarıb şagirdlərə təqdim edə bilər. Şəkillərin surətini çıxarmaq imkanı olmadığı təqdirdə şagirdlər arı ailəsinin bəzi üzvlərinin rəsmlərini çəkə bilərlər.

Sonunda qrup üzvləri bal arısı haqqında hazırladıqları məlumat vərəqini təqdim edirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sualı cavablandırarkən fikrini əsaslandırır. | Tap. 1, 5 (D.) |
| Cümlədə buraxılmış sözü müəyyən edir. | Tap. 2 (D.) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tap. 3 (D.) |
| Mətndəki hadisələrin səbəbini müəyyən edir. | Tap. 4 (D.) |
| Mətndən əsas fikri müəyyənləşdirməyə kömək edən məqamları seçir. | Tap. 6 (D.) |
| Verilmiş şəklə uyğun söz və cümlələr yazır. | Tap. 1 (İ.D.) |
| Kontekstdən çıxış edərək tanış olmadığı sözü müəyyən edir. | Tap. 2 (İ.D.) |
| Əldə etdiyi məlumatlar əsasında məlumat vərəqi hazırlayır. | Tap. 7 (D.) |

LAYİHƏ

# 2-ci DƏRS
## Hərəkətin təsdiqi və inkarı

**Təlim nəticələri:**

**Oxu:**
- Cümlədə buraxılmış sözü müəyyən edir (st. 3.1.3).

**Yazı:**
- Feilin inkar şəkilçisindən düzgün istifadə edir (st. 4.1.2).

**Mövzuya yönəltmə**

Müəllim lövhədə ikisütunlu cədvəl çəkir. Cədvəlin birində "edirəm", digərində "etmirəm" sözlərini yazır. Əvvəlcədən hazırladığı üzərində təsdiq və inkarda işlənən sözlər yazılmış kartları masanın üzərinə düzür. Şagirdlər növbə ilə masaya yaxınlaşır, kartların birini qaldırıb üzərində yazılmış sözü oxuyur və kartı lövhədə çəkilmiş cədvəlin uyğun sütununa yapışdırırlar. Beləliklə, masadakı bütün kartlar üzərində eyni fəaliyyət davam etdirilir. Daha sonra müəllim yönəldici suallar vasitəsilə şagirdlərin diqqətini mövzuya cəlb edir:

– *Hansı sütundakı sözlər hərəkətin yerinə yetirildiyini, icra olunduğunu bildirir?*

– *Hansı sütundakı sözlər hərəkətin icra olunmadığını bildirir?*

**Dərslik, səh. 69**

**1.** Hansı sözlər hərəkətin *icra olunmadığını* bildirir?

Şagirdlər tapşırıqda verilmiş sözlər arasından hərəkətin icra olunmadığını bildirən sözləri seçirlər. Bununla da mövzunun dərk edilməsində açar rolu oynayan "icra olunmaq", "icra olunmamaq" kimi sözlərin mənasını anladıqlarını nümayiş etdirirlər.

**"Bunları bilməliyik" rubrikası.** Müəllim rubrikada təsdiqdə və inkarda işlənən hərəkət bildirən sözlər haqqında verilmiş məlumatları şərh edir.

**Dərslik, səh. 69**

**2.** Sözləri inkar formada işlədin.

Şagirdlər tapşırıqda təsdiq formasında verilmiş hərəkət bildirən sözləri inkarda işlədirlər. Bununla da hərəkətin təsdiqi və inkarı haqqında aldıqları bilikləri təcrübədə tətbiq edir, möhkəmləndirirlər.

**İş dəftəri, səh. 46**

**1.** Hər sütuna uyğun sözlər yazmaqla cədvəli tamamla.

Tapşırıq şagirdlərin təsdiq və inkarda işlənən hərəkət bildirən sözləri necə fərqləndirdiklərini yoxlamağa imkan yaradır. Bu cür yoxlama tapşırıqları müəllimə şagirdlərin mövzunu anlayıb-anlamamasını müəyyənləşdirməyə imkan yaradır, bu da müəllimə dərsin sonrakı mərhələlərində hansı məqamlara xüsusi diqqət ayıracağını planlaşdırmağa kömək edir. Bu isə, öz növbəsində, keyfiyyətli təlim prosesinə zəmin yaradır.

**Dərslik, səh. 69**

**3.** Cümlələri uyğun gələn sözlə tamamlayın.

Şagirdlər boşluqlara uyğun gələn təsdiq və ya inkar feilləri yazmaqla verilmiş cümlələri köçürürlər. Bu zaman onlar kontekstdən – cümlənin ifadə etdiyi fikirdən və bəzi sözlərdən *(həmişə, heç kim)* çıxış edirlər.

**Düzgün cavab:**
1. Rəşad həmişə tezdən oyanır.
2. Zəhra düzgün cavab verdiyi üçün sevindi.
3. Əsl dost çətin gündə tanınar.
4. Səməd incisə də, bir söz demədi.
5. Bu mahnını heç kim dinləmədi.

**İş dəftəri, səh. 46**

**2.** Uyğun gələn hərəkət bildirən sözü artırmaqla cümlələri tamamla.

**Düzgün cavab:**
1. Müharibə hansı ölkələr arasında gedirdi?
2. Torpağı qoruya bilmiriksə, əkib-becərməyə dəyməz.
3. Dost dar gündə tanınar.
4. Nəhayət, internet əsri gəldi.
5. Tək əldən səs çıxmaz.

**Dərslik, səh. 69**

**4.** Hərəkət bildirən sözləri müxtəlif zamanlarda inkar formasında yazın.

LAYİHƏ

Tapşırıq şagirdlərin aşağı siniflərdə zaman anlayışı haqqında aldıqları biliklərin də təkrar edilməsinə imkan yaradır. Şagirdlər verilmiş sözləri uyğun zamanlarda inkar formada yazırlar.

**İş dəftəri, səh. 46**

**3.** Hərəkət bildirən sözləri inkarda yazmaqla cümlələri köçür.

Şagirdlər cümlələrdə təsdiq formasında verilmiş hərəkət bildirən sözləri inkar forması ilə əvəz edirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Təsdiq formasında verilən feilləri inkarda işlədir. | Tap. 1, 2, 4 (D.), tap. 1, 3 (İ.D.) |
| Cümlədə buraxılmış sözü müəyyən edir. | Tap. 3 ( D.), tap. 2 (İ.D.) |

# 4-cü bölmə üzrə ümumiləşdirici təkrar

**Təlim nəticələri:**

**Oxu:**

• Bədii və informativ mətnlərdə mövzu, məzmun və ideya anlayışlarını fərqləndirir (st. 3.1.2).
• Sözləri ümumi mənalarına görə qruplaşdırır (st. 3.1.3).

**Yazı:**

• Cəm şəkilçisini orfoqrafik normalara uyğun yazır (st. 4.1.2).
• Həm ümumi, həm də xüsusi isim kimi işlənən sözlərin yerindən asılı olaraq böyük, yoxsa kiçik hərflə yazıldığını müəyyənləşdirir (st. 4.1.1).
• Feilin inkar şəkilçisindən düzgün istifadə edir (st. 4.1.2).

**Mövzuya yönəltmə**

Şagirdlər dördüncü bölmənin səhifələrini vərəqləyərək fəsillərin adlarını xatırlayırlar. Onlar bölmə üzrə öyrəndikləri mövzular haqqında öz təəssüratlarını bölüşürlər.

**Oxu**

**Dərslik, səh. 70**

**1.** Bu bölmədə oxuduğunuz mətnləri xatırlayın. Uyğunluğu müəyyən edin.

Şagirdlər bölmə üzrə oxuduqları mətnlərin adı, mövzusu və ideyası haqqında verilmiş məlumatları uyğunlaşdırmaqla mövzu və ideya anlayışlarını mənimsədiklərini nümayiş etdirirlər.

**Düzgün cavab:**
"Üç oğlan" mətni: 1 – Ç;
"Ballı və Vız-vız" mətni: 2 – A;
"Bağban və oğulları" mətni: 3 – B;
"Dilarə" mətni: 4 – C.

**Dərslik, səh. 70**

**2.** Fərqləndirilmiş sözlərdəki səhvləri düzəldərək cümlələri köçürün.

**Düzgün cavab:** günnər – günlər; dəftərrəri – dəftərləri; şagirddəri – şagirdləri; maşınnar – maşınlar.

Tapşırıq vasitəsilə şagirdlər özünün və başqalarının yazısını təkmilləşdirmək bacarığını nümayiş etdirirlər. Tapşırıqda tərkibində *-lar, -lər* şəkilçisi tələffüz formasında verilmiş sözlər təqdim edilmişdir. Şagirdlər kəmiyyət şəkilçisi haqqında aldıqları biliklərə əsasən həmin sözlərdə orfoqrafik normalara uyğun düzəlişlər edirlər.

**Dərslik, səh. 70**

**3.** Hansı sözlər həm böyük, həm də kiçik hərflə yazıla bilər? Həmin sözləri cümlələrdə işlətməklə fikrinizi əsaslandırın.

Tapşırıq şagirdlərin kontekstə görə sözlərin ümumi və yaxud xüsusi isim olduğunu müəyyənləşdirmək bacarığını yoxlamağa imkan yaradır. Tapşırıqda təqdim edilmiş sözlər arasında kontekstdən asılı olaraq həm böyük, həm də kiçik hərflə yazıla bilən sözlər var. Şagirdlər həmin sözləri seçib cümlədə işlətməklə mövzunu anladıqlarını nümayiş etdirirlər.

**Düzgün cavab:**
Sevinc, Aslan, Yasəmən, Bənövşə.
1) a. Onun üzündə *sevinc* hissi var idi.
b. *Sevinc* birinci sinfə gedir.

LAYİHƏ

2) a. Zooparkda *aslanlar* da var idi.
b. Rəsul və *Aslan* şahmat dərnəyinə gedirlər.
3) a. Babam həyətimizdə *yasəmən* ağacı əkdi.
b. Nənəm *Yasəmənə* şirin çay hazırladı.
4) a. Yaz gələndə *bənövşələr* bitir.
b. Müəllim *Bənövşəni* lövhəyə çağırdı.

**Dərslik, səh. 70**

**4.** Əlamət bildirən sözləri cədvəl üzrə qruplaşdırın.

Tapşırıq şagirdlərin sözləri ümumi mənalarına görə fərqləndirmək bacarığını yoxlamağa imkan yaradır.

**Dərslik, səh. 70**

**5.** Aşağıdakı sözləri müxtəlif zamanlarda inkar formasında işlədin.

Şagirdlər tapşırıqda təsdiq formasında verilmiş hərəkət bildirən sözləri inkarda işlədirlər. Bununla da hərəkətin təsdiqi və inkarı haqqında aldıqları bilikləri təcrübədə tətbiq edirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bədii və informativ mətnlərdə mövzu, məzmun və ideya anlayışlarını fərqləndirir. | Tap. 1 (D.) |
| Cəm şəkilçisini orfoqrafik normalara uyğun yazır. | Tap. 2 (D.) |
| Həm ümumi, həm də xüsusi isim kimi işlənən sözlərin yerindən asılı olaraq böyük, yoxsa kiçik hərflə yazıldığını müəyyənləşdirir. | Tap. 3 (D.) |
| Sözləri ümumi mənalarına görə qruplaşdırır. | Tap. 4 (D.) |
| Təsdiq formasında verilən feilləri inkarda işlədir. | Tap. 5 (D.) |

## 4-cü bölmə üzrə kiçik summativ qiymətləndirmə

İş dəftərinin 47-48-ci səhifələrindəki materiallar KSQ-yə hazırlıq məqsədilə verilmişdir. Qiymətləndirmə oxu və yazı məzmun xətlərini əhatə edən aşağıdakı meyarlar üzrə aparılır.

| Meyarlar | Materiallar |
|---|---|
| Kontekstdən çıxış edərək tanış olmadığı söz və ifadələrin mənasını təxmin edir. | Tap. 1 |
| Mətndəki hadisələrin məntiqi ardıcıllığını (səbəb-nəticə əlaqəsini) müəyyən edir. | Tap. 2 |
| Mövzuya aid yeni məlumatları mətnin uyğun hissəsinə əlavə edir. | Tap. 3 |
| Xüsusi isimlərin böyük hərflə yazılış qaydalarına əməl edir. | Tap. 4 |
| Cəm şəkilçisini orfoqrafik normalara uyğun yazır. | Tap. 5 |
| Sözləri ümumi mənalarına görə qruplaşdırır. | Tap. 6 |
| Feilin zaman şəkilçilərindən düzgün istifadə edir. | Tap. 7 |
| Həm ümumi, həm də xüsusi isim kimi işlənən sözlərin yerindən asılı olaraq böyük, yoxsa kiçik hərflə yazıldığını müəyyənləşdirir. | Tap. 8 |

LAYİHƏ

Bölmə **5** 

# QƏRİBƏ CANLILAR

| Dərs saat | Mövzu (oxu, söz ehtiyatı, şifahi nitq) | Yazı (Dil qaydaları) | Dərslik səh. | İş dəftəri səh. | MV səh. |
|---|---|---|---|---|---|
| 1-ci fəsil. **İnsanın dostları** | | | | | |
| 1 | İtlər və pişiklər (Oxuyub-qavrama) | | 71-75 | 49 | 84-85 |
| 2 | İtlər və pişiklər (Təqdimat) | | 76 | 50 | 85-87 |
| 3 | | Miqdar və sıra sayları | 77 | 51 | 88-89 |
| 2-ci fəsil. **Sincab** | | | | | |
| 4 | Bağban Sincab (Oxu, söz ehtiyatı) | | 78-80 | 52 | 89-91 |
| 5 | Bağban Sincab (Oxuyub-qavrama, dinləmə) | | 81 | 53 | 91-92 |
| 6 | | Bağlayıcılar | 82 | 54 | 93 |
| 3-cü fəsil. **Yarasalar** | | | | | |
| 7 | Yarasa nə üçün gecələr uçur? (Oxuyub-qavrama) | | 83-85 | 55 | 94-95 |
| 8 | Gecəquşu (Oxuyub-qavrama) | | 85-86 | 56 | 96-97 |
| 9 | | Mürəkkəb sözlər | 87 | 57 | 98-99 |
| 10 | 5-ci bölmə üzrə ümumiləşdirici təkrar | | 88 | | 99-100 |
| | 5-ci bölmə üzrə kiçik summativ qiymətləndirmə | | | 58-59 | 100 |

## Bölmənin icmalı

**Dinləmə.** İnformativ mətni dinləyərkən açar sözlər və qısa cümlələr şəklində qeyd götürmək bacarığı formalaşdırılır.

**Danışma.** Bu bölmədə danışma bacarığı üzrə əsas məqsədlərdən biri verbal-vizual materialı rabitəli mətn şəklində şifahi təqdim etmək bacarığını inkişaf etdirməkdir.

**Söz ehtiyatı**. Bölmədə təqdim olunan söz ehtiyatı, əsasən, canlılarla bağlıdır. Heyvan səslərini ifadə edən feillərə (*hürmək, miyoldamaq* və s.) və təqlidi sözlərə (*guppultu, taqqıltı* və s.) xüsusi diqqət yetirilir.

**Oxu**. Bölmədə müxtəlif oxu texnikaları tətbiq olunur, eyni mövzuda olan bədii və informativ mətnlərin faktoloji müqayisəsinə xüsusi diqqət yetirilir.

**Yazı**. Müxtəlif tipli mətnlərin *(məktub, esse)* yazılması ilə yanaşı aşağıdakı orfoqrafik və qrammatik normalar mənimsədilir:

1. Miqdar və sıra saylarının söz və rəqəmlə yazılışı;
2. Bağlayıcılardan kontekstə uyğun istifadə olunması;
3. Mürəkkəb sözlərin bitişik və defislə yazılışı.

LAYİHƏ

# 1-ci fəsil
# İNSANIN DOSTLARI

## 1-ci DƏRS
## İtlər və pişiklər
## (Oxuyub-qavrama)

**Təlim nəticələri:**

**Danışma:**
• Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır (st. 2.2.1).

**Oxu:**
• Götürdüyü qeydlər və ya plan əsasında mətni nəql edir (st. 3.1.2).
• Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.2).
• Kontekstdən çıxış edərək tanış olmadığı söz və ifadələrin mənasını təxmin edir (st. 3.1.3).

**Dinləmə:**
• Dinlədiyi mətnin məzmunu ilə bağlı suallar tərtib edir (st. 1.1.3).

**Danışma (Mövzuya yönəltmə)**

Dərsə bölmənin titul səhifəsində verilmiş suallarla başlamaq tövsiyə olunur.

**Dərslik, səh. 71**

**1.** Evdə heyvan – it, pişik və s. saxlayırsınızmı? Onlar haqqında nə deyə bilərsiniz?

Şagirdlər arasında evdə it, pişikdən başqa tutuquşu və ya akvariumda balıq saxlayan ola bilər. Onları da danışmağa həvəsləndirmək üçün əlavə suallar verilə bilər:

*– Nəyə görə məhz bu heyvanı saxlayırsınız?*

*– Saxladığınız heyvanın qayğısına necə qalırsınız?*

**Dərslik, səh. 71**

**2.** Tanıdığınız canlıların hansı xüsusiyyətləri sizə təəccüblü gəlir?

Bu sualla bölmənin mövzusuna keçid edilir. Şagirdlər bu cür xüsusiyyətləri yada salmaqda çətinlik çəkərlərsə, yönəldici suallar vermək olar.

*– Sizcə, fil xortumu ilə nə edir?*

*– Arı pətəyi görmüsünüzmü? O bunu necə qurur?*

*– Sizcə, ən sürətli qaçan heyvan hansıdır?*

*– İlanın ayaqları yoxdur. Bəs o necə hərəkət edir?*

Müəllim bu mövzularda uşaqlara ümumi məlumatlar verməklə onları canlı aləm haqqında daha çox bilik əldə etməyə həvəsləndirir.

**Oxu ("İtlər və pişiklər" mətni üzrə iş)**

<u>Oxudan əvvəl</u>

**Dərslik, səh. 72**

**1.** Mətnin yarımbaşlıqlarını oxuyun. Bildiklərinizə əsasən suallara cavab verməyə çalışın.

Mətndə yarımbaşlıqlar sual şəklində təqdim olunub:

• İt və pişik necə əhliləşdirildi?
• Hansının daha çox növü var?
• Hansı daha ağıllıdır?
• Onlar necə "danışırlar"?
• Hansı daha yaxşı eşidir?
• Hansı daha yaxşı iy bilir?
• Hansı daha faydalıdır?

Şagirdlər biliklərinə, müşahidələrinə əsasən sualları cavablandırırlar.

**Dərslik, səh. 72**

**2. Qruplarla iş.** Mətnin hissələrini oxuduqca aldığınız məlumatları əvvəl bildiklərinizlə müqayisə edin. Rast gəldiyiniz yeni sözləri izah edin.

Şagirdlər mətndəki yarımbaşlıqların sayına uyğun olaraq qruplara ayrılırlar və mətnin qruplarla oxusu başlanır.

<u>Oxu zamanı</u>

Mətnin yarımbaşlıqlarla ayrılmış hissələri təxminən eyni həcmdədir. Ona görə də qruplara öz hissələrini oxuyub 2-ci tapşırığı yerinə yetirmək üçün eyni vaxt *(8-10 dəq.)* verilə bilər.

**Müəllimin nəzərinə!** Mətnin hissələri eyni mövzunun *(itlərlə pişiklərin müqayisəsi)* müxtəlif aspektlərinə həsr olunub və məzmunca bitkin xarakter daşıyır. Buna görə də qrupların verilmiş

LAYİHƏ

məzmunu mənimsəməsində bir-birindən asılılıq yaranmır.

Oxuya başlamazdan əvvəl müəllim lövhədə belə bir cədvəl çəkir:

| İtlər və pişiklər haqqında | |
|---|---|
| Bilirəm | Öyrəndim |
| | |

Müəllim qruplara tapşırır:

*1. Vərəqdə belə bir cədvəl çəkin.*

*2. Oxudan əvvəl mövzu üzrə bildiklərinizi cədvəlin 1-ci sütununda qeyd edin.*

*3. Mətni oxuduqca mövzu üzrə yeni öyrəndiklərinizi cədvəlin 2-ci sütununda qeyd edin.*

Şagirdlər həmçinin oxuduqları hissədə tanış olmayan sözləri qeyd edir, kontekstdən çıxış edərək onların izahını özləri üçün aydınlaşdırırlar.

Oxudan sonra (**Dinləmə, danışma**)

Qruplar oxuduqları hissənin məzmununu təqdim edirlər. Bunun üçün onlar tərtib etdikləri "Bilirəm – Öyrəndim" cədvəlindəki qeydlərdən istifadə edə bilərlər.

Müəllim şagirdlərə bildirir ki, onlar yalnız oxuduqlarını deyil, bütövlükdə mətni dərindən mənimsəməli və iş dəftərində bu mətnlə bağlı tapşırıqları yerinə yetirməlidirlər. Buna görə də hər bir üzv digər qrupların təqdimatlarını diqqətlə dinləməli, suallar verməklə başa düşmədikləri məqamlara aydınlıq gətirməlidirlər.

Təqdimat zamanı söz ehtiyatı üzərində də iş gedir.

**Müəllimin nəzərinə!** Bu mətndə heyvan səslərini və hərəkətlərini ifadə edən sözlərə rast gəlinir: *ulamaq, zingildəmək, fısıldamaq* və s. Müəllim digər heyvanlara xas olan analoji sözləri də xatırlada bilər: *nərildəmək, banlamaq, kişnəmək, qaqqıldamaq* və s.

Oxuyub-qavramanı yoxlamaq üçün iş dəftərindəki tapşırıqlar yerinə yetirilir.

**İş dəftəri, səh. 49, tap. 1**

**Düzgün cavab:**

| | |
|---|---|
| 1 – yanlış; | 4 – doğru; |
| 2 – doğru; | 5 – yanlış; |
| 3 – yanlış; | 6 – doğru. |

**İş dəftəri, səh. 49, tap. 2**

**Düzgün cavab:**

İt hürür, mırıldayır, zingildəyir.
Pişik mırıldayır, fısıldayır, miyoldayır.

**İş dəftəri, səh. 49, tap. 3**

**Düzgün cavab:**

C) İt və pişiklərin görmə qabiliyyəti.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Həyatda gördükləri və təəssüratları haqqında danışır. | Tap. 1, 2 (D.) |
| Götürdüyü qeydlər əsasında mətni nəql edir. | Tap. 2 (D.) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tap. 1, 2, 3 (İ.D.) |
| Kontekstdən çıxış edərək tanış olmadığı söz və ifadələrin mənasını təxmin edir. | Tap. 2 (D.) |
| Dinlədiyi mətnin məzmunu ilə bağlı suallar tərtib edir. | MV |

# 2-ci DƏRS

## İtlər və pişiklər (Təqdimat)

**Təlim nəticələri:**

**Oxu:**

• Mövzuya aid yeni məlumatları mətnin uyğun hissələri ilə əlaqələndirir (st. 3.1.2).

• Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.2).

**Danışma:**

• Verbal və qrafik materialları (şəkil, sxem, xəritə və s.) şərh etməklə mövzu üzrə danışır (st. 2.2.2).

**Yazı:**

• Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı (məlumat vərəqi, cədvəl, diaqram, sxem və s.) hazırlayır (st. 4.1.4).

**Oxu (Keçən dərsin təkrarı)**

Müəllim keçən dərsdə oxunmuş mətni xatırlatmaq üçün suallar verir.

LAYİHƏ

*– Keçən dərsdə hansı heyvanlar haqqında mətn oxuduq?*

*– Bu heyvanların hansı xüsusiyyətləri haqqında məlumat aldıq?*

*– İtlərin daha ağıllı olduğunu necə əsaslandırmaq olar?*

*– Hansı heyvanın eşitmə qabiliyyəti daha güclüdür?*

*– Bəs hansı heyvan qoxunu daha yaxşı hiss edir?*

Daha sonra şagirdlərin oxuyub-qavrama bacarıqlarını dərinləşdirmək üçün növbəti tapşırıqlar yerinə yetirilir.

**Dərslik, səh. 76**

**1. Aşağıdakı cümlələri mətnin hansı yarımbaşlıqlarına əlavə etmək olar?**
1. İtlərin iy hiss etməsi üçün burunları nəm olmalıdır.
2. Bir adamın evində pişik durmadan divarı cırmaqlayırmış. Sonradan məlum oldu ki, divarda səsyazma qurğusu gizlədiblər.
3. Bəzi itlər beşə qədər saya bilirlər. Məsələn, onlara üç barmaq göstərəndə üç dəfə hürürlər.
4. Şimalda yaşayan bəzi xalqlar itləri xizəyə qoşaraq nəqliyyat vasitəsi kimi də istifadə edirlər.

**Düzgün cavab:**

| Məlumat | Yarımbaşlıq |
|---|---|
| 1 | Hansı daha yaxşı iy bilir? |
| 2 | Hansı daha yaxşı eşidir? |
| 3 | Hansı daha ağıllıdır? |
| 4 | Hansı daha faydalıdır? |

**Məqsəd:** mətnin məzmununu strukturlaşdırmaq bacarığını inkişaf etdirmək.

**Dərslik, səh. 76**

**2.** Hansı şəkildə qorxan it təsvir olunmuşdur?

**Düzgün cavab**: 3-cü şəkil.



**Şərh:** Mətndə deyilir ki, itlər qorxanda "quyruqlarını arxa ayaqları arasında gizlədirlər".

**Məqsəd:** mətndəki faktoloji materialın mənimsədilməsi (beyində canlandırılması).

**Danışma (Şifahi təqdimat)**

Bu dərsin əsas məqsədi verbal-qrafik informasiya ilə işin təşkilidir:

1. Qrafik informasiyanın mənimsənilməsi və rabitəli mətn şəklində təqdim olunması;

2. Rabitəli mətndəki məlumatların qrafik informasiya şəklində təqdimatı.

**Dərslik, səh. 76**

**3.** Cədvələ əsasən Siam və İran pişiklərini müqayisə edərək təqdimat hazırlayın.

Tapşırığın şərtinə əlavə olaraq müəllim şagirdləri təlimatlandıra bilər:

• *Əvvəlcə cədvəldəki məlumatları mənimsəməyə çalışın.*

• *Pişiklərin şəkillərini diqqətlə nəzərdən keçirin; mətn qurarkən şəklin verdiyi informasiyadan da istifadə edin.*

• *Çalışın mətninizi giriş, əsas, sonluq hissələrinə ayırasınız.*

• *Pişiklər haqqında müqayisəli şəkildə danışın; belə olduqda mətniniz daha çox maraq doğurar.*

• *Bildiyiniz məlumatlardan istifadə etməklə mətni genişləndirə bilərsiniz.*

Bir neçə şagirdin təqdimatı dinlənib müzakirə oluna bilər.

**Diferensial təlim.** Müəllim çətinlik çəkən şagirdlər üçün mətnin planını qurmağı təklif edə bilər:
1. Giriş: Pişiklər haqqında ümumi məlumat.
2. Əsas hissə: Siam və İran pişiklərinin oxşar cəhətləri; Siam və İran pişiklərinin fərqli cəhətləri.
3. Sonluq: məlumatların ümumiləşdirilməsi və nəticə.

Sonda müəllim nümunə olaraq aşağıdakı mətni səsləndirə bilər. Mətn oxunduqca giriş, əsas və sonluq hissələri şagirdlərin nəzərinə çatdırmaq tövsiyə olunur.

LAYİHƏ

## Siam və İran pişiyi

Giriş:

Pişiklər bir-birinə çox bənzəyirlər. Lakin müxtəlif cinslərdən olan pişiklər arasında bəzi fərqlər olur. Bu fərq onların rəngində, tükündə, ölçüsündə, həyat tərzində hiss olunur.

Keçid cümləsi:

Gəlin nümunə üçün Siam və İran pişiklərini müqayisə edək.

Əsas hissə:

Əvvəla, onu qeyd edək ki, Siam pişiyinin vətəni əvvəllər Siam adlanan Tailanddır. İran pişiyininki isə, adından göründüyü kimi, İrandır.

Bu pişiklərin çəkisi, demək olar, eynidir: 5 kiloqramdan 7 kiloqrama qədər dəyişir. Onlar rənginə görə də bir-birinə oxşayırlar. Lakin İran pişiyinin tükləri daha uzun və yumşaqdır.

Siam pişiyinin boyu İran pişiyindən bir az hündürdür: 31 sm-ə çatır. Ona görə də İran pişiyi bir qədər kök görünür. Siam pişiyi isə daha qıvraq və atletik görünür.

Bədən quruluşundakı fərq həyat tərzinə də təsir göstərir: Siam pişiyi daha fəal və hərəkətlidir. İran pişiyi isə tənbəldir, daim divanda yatmağı və əzizlənməyi sevir.

Sonluq:

Beləliklə, demək olar ki, Siam və İran pişikləri bir-birindən həm xarici görünüşlərinə, həm də həyat tərzlərinə görə müəyyən qədər fərqlənirlər. Bununla belə, bütün pişiklərə xas olan cəhətlər – qidalanma, insanlara münasibət və s. bu iki pişik cinsinə də aiddir.

Mətn oxunduqdan sonra müəllim suallarla müraciət edə bilər:

• *Bu mətndəki hansı məlumatlar dərslikdəki şəkillərə əsaslanır? (İran pişiyinin tükünün uzunluğu və köklüyü)*

• *Hansı faktlar dərslikdəki məlumat vərəqində əks olunmayıb? (İran pişiyinin divanda yatmağı və əzizlənməyi sevməsi, pişiklərin eyni cür qidalanması və insanlara eyni münasibəti)*

**Yazı (Qrafik informasiyanın tərtibi)**

Qrafik informasiyanın mənimsənilməsi və təqdim olunması üzrə iş aparıldıqdan sonra şagirdlərdə məlumatların qrafik şəkildə təqdim olunması bacarığının formalaşdırılması üzrə iş aparıla bilər.

**İş dəftəri, səh. 50**

**1.** Mətni oxu və əldə etdiyin məlumatlara əsasən cədvəli tamamla.

İş dəftərində verilmiş "Alabay" mətni oxunduqdan sonra şagirdlər mətndəki məlumatlar əsasında cədvəli tamamlayırlar:

| | |
|---|---|
| Cinsin adı | *Alabay* |
| Vətəni | *Asiya* |
| Boyu | *80 santimetr* |
| Çəkisi | *75 kq* |
| Əsas bacarıqları | *cəsur keşikçi, mehriban dost* |
| Ömrü | *10-12 il* |
| Rəngi | *ağ, qara, kürən* |
| Əlavə məlumatlar | *Etibar edilmiş sürünü və ya evi qorumaq üçün özündən böyük düşmənlə döyüşə çıxmaqdan çəkinmir.* |

Sonda müəllim şagirdlərə informasiyanın qrafik şəkildə təqdim olunmasının əhəmiyyəti barədə məlumat verir (əyanilik və lakoniklik).

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mövzuya aid yeni məlumatları mətnin uyğun hissələri ilə əlaqələndirir. | Tap. 1 (D.) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tap. 2 (D.) |
| Verbal və qrafik materialları (şəkil, sxem, xəritə və s.) şərh etməklə mövzu üzrə danışır. | Tap. 3 (D.) |
| Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı (məlumat vərəqi, cədvəl, diaqram, sxem və s.) hazırlayır. | Tap. 1 (İ.D.) |

LAYİHƏ

# 3-cü DƏRS
## Miqdar və sıra sayları (Yazı)

**Təlim nəticələri:**
**Yazı:**
• Sayların söz və rəqəmlə yazılışında uyğun qaydalara riayət edir (st. 4.1.1).
• Sözlərə çoxvariantlı şəkilçilər artırarkən ahəng qanununa riayət edir (st. 4.1.1).

**Diaqnostik qiymətləndirmə**

Müəllim Azərbaycan dilində sayların işlənməsi ilə bağlı şagirdlərin empirik bacarıqlarını yoxlamaq üçün suallar verir:

– *Sinfimizdə neçə şagird var?*
– *Əhməd və Günay neçənci sırada oturublar?*
– *Azərbaycan əlifbasında neçə hərf var?*
– *"B" neçənci hərfdir?*
– *Bəs "D"?*

**Dərslik, səh. 77**

**1.** Cümlələrdə hansı sözlər *neçə?* və *neçənci?* suallarına cavab verir?

Bu tapşırıq şagirdlərin miqdar və sıra saylarını fərqləndirmək bacarığını yoxlamağa yönəlib.

**Dil qaydası (Bunları bilməliyik)**

Adətən, şagirdlər bu dövrdə tədris dili fənnində miqdar və sıra sayları ilə bağlı müəyyən qrammatik biliklərə malik olurlar. Rubrikada verilmiş nəzəri material mənimsədilərkən tədris dilinə müraciət etmək, müəyyən analogiyalar aparmaq olar.

**Müəllimin nəzərinə!** Azərbaycan dilində milyona qədər say bildirən sözlər türk mənşəli, yəni əsl Azərbaycan sözləridir. Şagirdlər aşağı siniflərdə 10-a qədər sözləri mənimsəyiblər. Bu dərsdə qalan türk mənşəli sayların da mənimsədilməsi tövsiyə olunur: 20 – iyirmi; 30 – otuz; 40 – qırx; 50 – əlli; 60 – altmış; 70 – yetmiş; 80 – səksən; 90 – doxsan; 100 – yüz; 1000 – min.

Bu dərsdə əsas məqsəd Azərbaycan dilində sıra saylarının necə yarandığını şagirdlərə başa salmaq və sıra sayı düzəldən şəkilçilərin yazılış qaydalarını mənimsətməkdir.

Nəzərə almaq lazımdır ki, bir sıra dillərdə bəzi sıra saylarını *(xüsusilə "birinci", "ikinci")* ifadə etmək üçün miqdar saylarına standart şəkilçi artırılmır, tamamilə fərqli sözlərdən istifadə olunur. Məsələn:

| Azərbaycan | | İngilis | | Rus | |
|---|---|---|---|---|---|
| miqdar | sıra | miqdar | sıra | miqdar | sıra |
| bir | birinci | one | first | один | первый |
| iki | ikinci | two | second | два | второй |

Bu dərsdə əsas məqsəd sıra saylarının yazılışı ilə bağlı bir neçə vacib məqamı şagirdlərin nəzərinə çatdırmaqdır:

1. Sıra sayları müvafiq miqdar saylarına *-ıncı*$^4$ şəkilçisi artırmaqla düzəlir.
2. Bu şəkilçi sözlərə ahəng qanununa uyğun artırılır: beşinci, altıncı, onuncu, üçüncü.
3. Sıra sayı rəqəmlə ifadə olunarkən *-ıncı*$^4$ şəkilçisi yazıda ixtisar olunur: 5-ci, 6-cı, 10-cu, 3-cü.

**Dərslik, səh. 77**

**2.** Cədvələ əsasən sayların yazılışını müqayisə edin və suallara cavab verin.

Bu tapşırıq həm öyrədici, həm də möhkəmləndirici xarakter daşıyır, belə ki, cədvəl *-ıncı*$^4$ şəkilçisinin sözlərə və rəqəmlərə necə artırıldığını nümayiş etdirir. Suallar vasitəsilə şagirdlərin diqqəti cədvəldəki nümunələrə yönəldilir:

• *Sıra sayları miqdar saylarına hansı şəkilçi artırmaqla düzəlir?*

**Düzgün cavab:** *-ıncı*$^4$ şəkilçisi

• *Bu şəkilçinin dörd cür yazılmasının səbəbi nədir?*

**Düzgün cavab:** Ahəng qanununa uyğunluq gözlənilir.

• *Söz və rəqəmlə yazılan saylarda həmin şəkilçinin yazılışı necə fərqlənir?*

**Düzgün cavab:** Rəqəmlə yazıldıqda şəkilçinin ilk hecası *(-ın)* ixtisar olunur.

Növbəti tapşırıqlar tətbiqi xarakter daşıyır: şagirdlər əldə etdikləri bilikləri yazıda tətbiq edirlər.

LAYİHƏ

**Dərslik, səh. 77**

**3.** Verilmiş sayları sözlə ifadə edib yazın: *55, 6-cı, 23-cü, 115, 50-ci, 200*

**Dərslik, səh. 77**

**4.** Sözlə verilmiş sayları rəqəmlə ifadə edib yazın: *iyirminci, altı yüz otuz iki, yetmiş səkkizinci, yeddi yüz yeddi*

İş dəftərindəki sual və tapşırıqlar vasitəsilə mənimsədilmiş bilik və bacarıqlar möhkəmləndirilir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Miqdar və sıra saylarını fərqləndirir. | Tap. 1, 2 (D.), tap. 1, 2 (İ.D.) |
| Tərkibi sayların və sıra saylarının söz və rəqəmlə yazılışında morfoloji və orfoqrafik qaydalara riayət edir. | Tap. 3, 4 (D.), tap. 3, 4 (İ.D.) |

# 2-ci fəsil
# SİNCAB

## 1-ci DƏRS
## Bağban Sincab
## (Oxu, söz ehtiyatı)

**Təlim nəticələri:**

**Danışma:**
- Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır (st. 2.2.1).

**Oxu:**
- Sərlövhədən və illüstrasiyalardan çıxış edərək mətnin məzmununu təxmin edir (st. 3.1.2).
- Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.2).
- Kontekstdən çıxış edərək tanış olmadığı söz və ifadələrin mənasını təxmin edir (st. 3.1.3).
- Çoxmənalı söz və ya omonimin kontekstə uyğun mənasını təxmin edir (st. 3.1.3).
- Təqlidi sözün səslənməsinə görə mənasını təxmin edir (st. 3.1.3).

**Danışma (Mövzuya yönəltmə)**

Müəllim şagirdlərin diqqətini dərsliyə – 5-ci bölmənin titul səhifəsindəki sincab şəklinə yönəldir:

– *Sizcə, sincab uça bilirmi?*

**Düzgün cavab:** Sincab ağacdan ağaca tullanarkən havada çox qalmaq üçün bədənini geniş açır və quyruğundan pər kimi istifadə edir.

Daha sonra BİBÖ üsulu tətbiq edilir:

| SİNCAB haqqında | | |
|---|---|---|
| BİLİRƏM | BİLMƏK İSTƏYİRƏM | ÖYRƏNDİM |
| | | |

**Oxu ("Bağban Sincab" mətni üzrə iş)**

Oxudan əvvəl

**Dərslik, səh. 78**

**1.** Mətnin başlığını oxuyun və şəkillərə baxın. Sizcə, mətndə nədən danışılır?

LAYİHƏ

Əlavə suallar:

– *Bağban, adətən, nə işlə məşğul olur?*

– *1-ci şəkildə Sincab nə edir? (**Düzgün cavab:** şam qozasını torpağa basdırır.)*

– *2-ci şəkildə Sincabın jestinə diqqət yetirin. Bu jest nəyi ifadə edir? (**Düzgün cavab:** təəccüb, çarəsizlik.)*

Şagirdlər mətnin məzmunu ilə bağlı öz mülahizələrini söyləyirlər. Bu təxminetmə məzmuna uyğun gəlməyə də bilər. Əsas məsələ şagirdlərdə mətnin məzmununa maraq oyatmaqdır.

**Müəllimin nəzərinə!** Bu dərsdə mətn oxunduqdan sonra, əsasən, söz ehtiyatı üzrə iş gedəcək. Lakin "söz mücrüsü"ndə verilmiş "qoza" sözü açar sözlərdən biridir. Onun mənasını bilmədən mətni başa düşmək çətin olar. Ona görə də müəllim bu sözü izah edə, şam qozasının şəklini nümayiş etdirə bilər.

<u>Oxu zamanı</u>

"Bağban Sincab" mətni **növbəli oxu** üsulu ilə ucadan oxunur. Şagirdlərə tapşırılır ki, obrazların nitqini səsləndirərkən onların həmin situasiyada emosiyasını *(sevinc, qorxu, təəccüb)* nəzərə alsınlar. Buna görə də hər bir şagirdin oxuması üçün ayrılmış hissədə müəllif nitqi ilə yanaşı obraz nitqinin də olması tövsiyə olunur. Məsələn:

**1-ci şagird:**

*"Bir payız səhəri Sincab ağacda, yuvasında oturub ətrafa baxırdı. Birdən gözü yerə düşmüş şam qozasına sataşdı.*

*– Nə yaxşı oldu, tez onu götürüm, yeyim, – deyərək Sincab cəld ağacdan aşağı düşdü".*

**2-ci şagird:**

*"Bu, içi tumla dolu gözəl bir şam qozası idi. Sincab qozanı götürdü. Çevrilib ətrafına nəzər saldı ki, görsün ona baxan var, ya yox. Heç kəs yox idi. O, qozanı rahat yemək üçün bir qədər kənara qaçdı. Öz-özünə dedi:*

*– Hə, indi heç kəs qozanı məndən ala bilməz. Oturum, yeyim".*

<u>Oxudan sonra</u>

Söz ehtiyatı üzrə iş gedir; şagirdlər kontekstdən çıxış edərək mətndə istifadə olunmuş bir sıra frazeoloji birləşmələrin mənalarını müəyyən edirlər.

**Dərslik, səh. 80**

**2.** Uyğunluğu müəyyən edin.

**Düzgün cavab:** 1 – Ç; 2 – D; 3 – B; 4 – A; 5 – C.

**Dərslik, səh. 80**

**3.** Mətndə "şam" sözü hansı mənada işlənmişdir? Həmin mənaya uyğun izahı və şəkli seçin.

Şagirdlər kontekstə görə "şam" sözünün mətndəki mənasını müəyyənləşdirirlər *(iynəyarpaqlı həmişəyaşıl ağac)*.

**Qeyd:** Bu tapşırıq vasitəsilə şagirdlər həmçinin "şam" sözünün digər mənalarını mənimsəmiş olurlar.

**Dərslik, səh. 80**

**4.** Mətndə göy rənglə verilmiş "xışıltı" sözünə diqqət yetirin. Aşağıdakı səs bildirən sözləri izahlarla uyğunlaşdırın.

Tapşırıqda *xışıltı, şırıltı, tıqqıltı, taqqıltı, çıqqıltı* sözlərini izahları ilə uyğunlaşdırmaq tələb olunur.

**Düzgün cavab:** 1 – Ç; 2 – D; 3 – C; 4 – B; 5 – A.

**Məqsəd:** Bu tapşırıq təqlidi sözlərin mənimsədilməsinə xidmət edir.

İş dəftərindəki 1-ci tapşırıq vasitəsilə şagirdlər əldə edilmiş bilik və bacarıqları yazıda tətbiq edirlər.

**İş dəftəri, səh. 52**

**1.** Verilmiş sözləri uyğun boşluqlarda yaz.

**Düzgün cavab:**

*1. Pulemyot ara vermədən atəş açırdı. Şaqqıltı səsindən qulaq tutulurdu.*

*2. Oqtay taqqıltı səsini eşidib qapını açmağa getdi.*

*3. Birdən boşqab əlimdən yerə düşdü. Cingilti səsinə qardaşım yuxudan oyandı.*

*4. Gecənin qaranlığında ildırım işıq saçdı. Bir azdan gurultu səsi hər tərəfi bürüdü.*

*5. Şəlalə böyük olmasa da, şırıltısı uzaqlara yayılırdı.*

İş dəftərindəki növbəti tapşırıqlar "Bağban Sincab" mətninin qavranılmasına xidmət edir.

LAYİHƏ

**İş dəftəri, səh. 52**

> **2.** Mətndə belə bir obraz yoxdur. Uyğun şəkli dairəyə al.

**Düzgün cavab:** Mətndə tısbağa obrazı yoxdur.

**İş dəftəri, səh. 52**

> **3.** Doğru, yoxsa yanlış?

**Düzgün cavab:** 1, 3, 5 – yanlış; 2, 4 – doğru.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sərlövhədən, yarımbaşlıqlardan və illüstrasiyalardan çıxış edərək mətnin məzmununu təxmin edir. | Tap. 1 (D.) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tap. 2, 3 (İ.D.) |
| Kontekstdən çıxış edərək tanış olmadığı söz və ifadələrin mənasını təxmin edir. | Tap. 2 (D.) |
| Çoxmənalı söz və ya omonimin kontekstə uyğun mənasını təxmin edir. | Tap. 3 (D.) |
| Təqlidi sözün səslənməsinə görə mənasını təxmin edir. | Tap. 4 (D.), tap. 1 (İ.D.) |

# 2-ci DƏRS

## Bağban Sincab
## (Oxuyub-qavrama, dinləmə)

**Təlim nəticələri:**

**Oxu:**

• Mətndəki hadisələrin ardıcıllığını müəyyən edir (st. 3.1.2).

• Mətndəki hadisələr arasındakı səbəb-nəticə əlaqəsini müəyyən edir (st. 3.1.2).

• Əsərdəki obrazları, zaman və məkanı müəyyənləşdirir (st. 3.1.2).

**Dinləmə:**

• Dinlədiyi və oxuduğu mətnlərdəki məlumatları müqayisə edir (st. 1.1.1).

**Oxuyub-qavrama (Mövzuya yönəltmə)**

“Bağban Sincab” mətnini xatırlatmaq üçün dərslikdəki 1-ci tapşırıq yerinə yetirilir: mətnin süjet xətti – hadisələrin ardıcıllığı müəyyən olunur.

**Dərslik, səh. 81**

> **1.** Mətnə əsasən cümlələrin ardıcıllığını müəyyən edin.

**Düzgün cavab:**

*C. Sincab yerə düşmüş qoza tapdı.*
*B. Xışıltı səsindən qorxub qozanı gizlətdi.*
*D. Sincab qaranlıqda qozanı tapa bilmədi.*
*Ç. Heyvanlar şam ağacının bitməyinə təəccübləndilər.*
*A. Qar yağdığına görə Sincab qozanı tapa bilmədi.*

Daha sonra şagirdlərin sətiraltı informasiyanı anlama, nəticəçıxarma bacarıqlarını inkişaf etdirən tapşırıqlar üzərində iş aparılır.

**Dərslik, səh. 81**

> **2.** Mətnin sonunda Sincab deyir: *Görəsən, qoza necə oldu?!*
> Siz bu suala necə cavab verərdiniz?

Bu sual şagirdlərdən müəyyən intellektual bacarıqlar tələb edir. Onlar bilməlidirlər ki, torpağa basdırılmış şam qozası cücərdikdə şam ağacı əmələ gəlir. Kirpi ilə Dovşanın haqqında danışdığı şam ağacı məhz Sincabın torpağa basdırdığı qozadan əmələ gəlmişdir.

Dərslikdəki 3-cü tapşırıqda mətndəki hadisələr arasında səbəb-nəticə əlaqəsini müəyyənləşdirmək tələb olunur:

1. Sincab tapdığı qozanı birinci dəfə yeyə bilmədi, çünki xışıltıdan qorxdu.
2. Sincab qozanı ikinci dəfə də yeyə bilmədi, çünki hava qaralmış, qaranlıq düşmüşdü.
3. Sincab qozanı üçüncü dəfə də yeyə bilmədi, çünki hər yer qar idi.
4. Sincab qozanı dördüncü dəfə də yeyə bilmədi, çünki qozanın yerində şam ağacı bitmişdi.

**Dərslik, səh. 81**

> **4.** Mətnin müxtəlif hissələrində fərqli olan nədir? Fərqlənənləri seçin və fərqi izah edin.

LAYİHƏ

**Düzgün cavab:**

B. Hadisələrin baş verdiyi zaman.

Ç. Digər obrazlar.

Məkan (meşə) və baş qəhrəman (Sincab) mətnin bütün hissələrində eyni olaraq qalır.

**Məqsəd:** Bu tapşırıq şagirdlərdə mətni məzmun-struktur baxımından təhlil etmək bacarığını formalaşdırır.

Daha sonra şagirdlər iş dəftərində verilmiş hekayə xəritəsini tamamlayırlar. Beləliklə, mətnin məzmun, struktur, obrazlar sistemi baxımından təhlili başa çatır.

**Dinləmə**

Müəllim keçən dərsin əvvəlində şagirdlərlə birgə tərtib edilmiş BİBÖ cədvəlini xatırladır. "Bağban Sincab" mətni oxunduqdan sonra şagirdlərin əldə etdikləri məlumatlar "Öyrəndim" sütununda qeyd olunur. Şagirdlər bir daha "Bilmək istəyirəm" sütunundakı qeydlərinə nəzər salırlar.

Daha sonra müəllim aşağıdakı mətni səsləndirir. Şagirdlərə tapşırılır ki, Sincabın xüsusiyyətləri haqqında məlumatları açar sözlər və ya qısa cümlələr (tezislər) şəklində vərəqdə qeyd etsinlər. (Bunu nəzərə alaraq müəllim hər bir əhəmiyyətli informasiyadan sonra pauza verməlidir.)

**Sincab**

*Sincab çox maraqlı heyvandır. Qorxaqlıqda onu dovşanla müqayisə etmək olar. Bir təhlükə hiss edən kimi ayaqları üstə qalxıb əllərini sallayır və ətrafı nəzərdən keçirir. Düşmənini görən kimi qulaqbatırıcı səslə qışqırıb qaçır. Lakin o, insandan qorxmur. Bir çox şəhərlərin parklarında sincablara rast gəlmək olar. Onlar rahatca ora-bura qaçır, budaqdan-budağa tullanır, bəzən gəzişən adamlara lap yaxın gəlir, onların əlindən qoz, fındıq alıb yeyirlər. Balaca uşaqlar sincabları günəbaxan tumuna qonaq edirlər.*

*Sincab gəmirici heyvandır. O, demək olar ki, hər şey yeyir: meyvə, göbələk, həşərat, toxum, quş yumurtası və s. Lakin onun ən sevimli yeməyi qoz, fındıq, şam qozasıdır. Sincabın maraqlı xüsusiyyətlərindən biri qış üçün qoza ehtiyatı görməsidir. Bunun üçün o, payızın əvvəlində tapdığı qozaların bir hissəsini torpağa basdırır. Lakin bu qozaların heç də hamısı sincaba nəsib olmur. Çünki sincab çox huşsuzdur, qış vaxtı qozanı harada basdırdığını unudur. Alimlərin fikrincə, sincabın bu xüsusiyyəti şam meşələrinin yaranmasına və genişlənməsinə səbəb olur.*

Dinləmə mətni bitdikdən sonra şagirdlər qeydlərini səsləndirirlər.

**Qeydgötürmə nümunəsi:**

– Qorxaqdır.
– Ayaqları üstündə dura bilir.
– İnsandan qorxmur.
– Meşə və parklarda yaşayır.
– Qoz, fındıq, qoza, meyvə, göbələk, həşərat yeyir.
– Qış üçün qoza ehtiyatı görür.
– Huşsuzdur.

Qeydlər müzakirə olunduqdan sonra "Bağban Sincab" və "Sincab" mətnləri müqayisə olunur.

**Dərslik, səh. 81**

**5.** "Sincab" mətnini dinləyin. Bu heyvan haqqında öyrəndiyiniz hansı məlumatlar "Bağban Sincab" mətnində də öz əksini tapır?

**Düzgün cavab:**

B, C, D bəndlərindəki məlumatlar hər iki mətndə öz əksini tapır.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndəki hadisələrin ardıcıllığını müəyyən edir. | Tap. 1 (D.) |
| Mətndəki hadisələr arasındakı səbəb-nəticə əlaqəsini müəyyən edir. | Tap. 2, 3 (D.) |
| Əsərdəki obrazları, zaman və məkanı müəyyənləşdirir. | Tap. 4 (D.), tap. 1 (İ.D.) |
| Dinlədiyi və oxuduğu mətnlərdəki məlumatları müqayisə edir. | Tap. 5 (D.) |

LAYİHƏ

# 3-cü DƏRS
## Bağlayıcılar (Yazı)

**Təlim nəticələri:**
**Yazı:**
• Sözlər və cümlənin tərkib hissələri arasında uyğun bağlayıcılardan istifadə edir (st. 4.1.2).
• Bağlayıcılarda durğu işarələrindən yerli-yerində istifadə edir (st. 4.1.3).

**Diaqnostik qiymətləndirmə**

Cümlədə bağlayıcılardan düzgün istifadə etmək vacib nitq bacarıqlarından biridir. Bunun üçün cümlənin komponentləri arasındakı məna əlaqəsinə (birləşdirmə, qarşılaşdırma, səbəb-nəticə) uyğun bağlayıcı seçmək lazım gəlir.

Şagirdlərin empirik olaraq bağlayıcılardan düzgün istifadə etmək bacarığını yoxlamaq üçün dərslikdəki 1-ci tapşırıqdan istifadə etmək tövsiyə olunur.

**Dərslik, səh. 82**

1. Cümlələrin hissələrini uyğunlaşdırın.

**Cavab:**

1. Sincab qoza tapdı, **amma** onu yeyə bilmədi.

2. Sincab qoza tapdı **və** onu torpağa basdırdı.

3. Sincab qozanı yemədi, **çünki** xışıltı səsi onu qorxutdu.

Daha sonra **“Bunları bilməliyik”** rubrikasındakı nəzəri material mənimsədilir.

Bu dərsdə bağlayıcılarla əlaqədar bir neçə məqama diqqət yetirmək tövsiyə olunur:

1. Bağlayıcı anlayışı ilə ilk tanışlıq olduğuna görə Azərbaycan dilində ən çox işlənən bağlayıcılar *(və, amma, ancaq, lakin, çünki, ona görə də)* öyrədilir.

2. Bağlayıcılardan düzgün istifadə etmək üçün sözlər və cümlələr arasındakı məna əlaqəsi diqqətə çatdırılır.

3. Yazıda bağlayıcılardan istifadə zamanı vergül işarəsinə diqqət yetirilir.

**Dərslik, səh. 82**

2. Hansı cümlədə “və” bağlayıcısı cümlələri bir-birinə bağlayır?

**Düzgün cavab:**

2. Birdən göy guruldadı və yağış yağmağa başladı.

**Dərslik, səh. 82**

3. Nöqtələrin yerinə uyğun bağlayıcılar əlavə etməklə cümlələri köçürün. Uyğun yerlərə vergül işarəsi qoyun.

**Şərh:** Bu tapşırıq mürəkkəb cümlənin tərkib hissələri arasında məna əlaqəsini müəyyənləşdirməyə xidmət edir. Tapşırıq yerinə yetirildikdən sonra müəllim 1-ci cümləyə diqqət yetirir.

1. Dərsə zəng çalındı, ancaq müəllim hələ gəlməmişdi.

Müəllim: *Gəlin bu cümlənin 2-ci hissəsini dəyişək: “Dərsə zəng çalındı ... müəllim sinfə daxil oldu”. Bəs bu halda nöqtələrin yerinə hansı bağlayıcı uyğun gəlir?*

Şagirdlər məna əlaqəsinin dəyişdiyini əsas gətirərək “və” bağlayıcısından istifadə edirlər.

Dərslikdəki 4-cü tapşırıq *amma, ancaq, lakin* bağlayıcılarının eyni semantikaya malik olduğunu və cümlədə bir-birini əvəz etdiyini göstərir.

İş dəftərində verilmiş tapşırıqlar vasitəsilə əldə edilmiş bilik və bacarıqlar möhkəmləndirilir:

**1-ci tapşırıq.** Şagirdlər cümlələrdə işlənmiş bağlayıcıları müəyyən edirlər.

**2-ci tapşırıq.** Şagirdlər mürəkkəb cümlənin tərkib hissələri arasındakı məna əlaqəsindən çıxış edərək uyğun bağlayıcılar əlavə edirlər.

**3-cü tapşırıq.** Yaradıcı tapşırıqdır. Şagirdlər mürəkkəb cümlənin 1-ci hissəsindən və bağlayıcıdan asılı olaraq cümləni tamamlayırlar.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözlər və cümlənin tərkib hissələri arasında uyğun bağlayıcılardan istifadə edir. | Tap. 1, 2, 3, 4 (D.), tap. 1, 3 (İ.D.) |
| Bağlayıcılarda durğu işarələrindən yerli-yerində istifadə edir. | Tap. 3 (D.), tap. 2 (İ.D.) |

LAYİHƏ

# 3-cü fəsil
# YARASALAR

## 1-ci DƏRS
### Yarasa nə üçün gecələr uçur?
### (Oxuyub-qavrama)

**Təlim nəticələri:**
**Danışma:**
• Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır (st. 2.2.1).
**Oxu:**
• Sərlövhədən və illüstrasiyalardan çıxış edərək mətnin məzmununu təxmin edir (st. 3.1.2).
• Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.2).
• Əsas epizodları müəyyənləşdirməklə mətnin planını qurur (st. 3.1.2).
• Dialoji mətni səsləndirərkən obrazların nitqini fərqli səs tonu ilə oxuyur (st. 3.1.1).
**Yazı:**
• Verilmiş situasiyaya, məqsədə uyğun məktub yazır (st. 4.1.4).

**Danışma (Mövzuya yönəltmə)**
Müəllim şagirdlərə suallarla müraciət edir:
*– Yarasa görmüsünüzmü? Yarasaları günün hansı vaxtı görmək olar? Sizcə, yarasa quşdur, yoxsa heyvan?*
Şagirdlər yarasalar haqqında bildiklərini danışırlar. Sonuncu sual açıq qala bilər. Şagirdlərin bu sualla bağlı arqumentləri dinlənildikdən sonra dərslikdəki 1-ci tapşırıq yerinə yetirilir:

**Müəllimin nəzərinə!** Şagirdlərin yarasalar haqqında ətraflı məlumat alması bu dərsin məqsədi deyil. Bu heyvan haqqında elmi məlumatlar növbəti dərsdə “Gecəquşu” informativ mətnində veriləcək. Nəzərə almaq lazımdır ki, bu dərsdə oxunacaq mətn bədii (alleqorik) mətndir.

**Oxu (“Yarasa nə üçün gecələr uçur?” mətni üzrə iş)**
Oxudan əvvəl
**Dərslik, səh. 83**

**1.** Mətnin başlığını oxuyun və şəkillərə baxın. Sizcə, mətndə nədən danışılır?

Şagirdləri danışmağa həvəsləndirmək üçün əlavə suallar verilə bilər:
*– Sizcə, nə üçün Yarasa budaqdan başıaşağı sallanır?*
*– Nəyə görə Yarasa ilə danışan heyvanlar əsgəri geyimdədir?*

Oxu zamanı
Mətni səssiz oxumaq tapşırılır və bunun üçün müəyyən vaxt verilir *(6-8 dəq.)*.

Oxudan sonra
Oxu üçün ayrılmış vaxt bitdikdən sonra şagirdlərin mətni oxuyub anladıqları dərslikdəki 2-ci, 5-ci və iş dəftərindəki 1-ci, 2-ci tapşırıqlar vasitəsilə yoxlanılır.

**Rollu oyun**
Daha sonra müəllimin köməyi ilə əsas epizodlardan ibarət plan tutulur:
1. Heyvanlar şahının əmri
2. Heyvanlarla Yarasanın söhbəti
3. Heyvanlar şahının quşlar şahına məktubu
4. Quşlar şahının əmri
5. Quşlarla Yarasanın söhbəti
6. Quşlar şahının heyvanlar şahına məktubu
7. Yarasanın qərarı

**Qeyd***:* 3-cü və 6-cı epizodları hazırlayan qruplar dərslikdəki 6-cı tapşırığı yerinə yetirmiş olurlar.
Şagirdlər epizodların sayına uyğun qruplara ayrılırlar. Hər qrup bir epizodu səhnələşdirmək üçün hazırlığa başlayır: aktyorlar seçilir, ssenari hazırlanır. Müəllim bildirir ki, şagirdlər mətni elə səhnələşdirməlidirlər ki, onun məzmunu dialoqlar vasitəsilə əks olunsun. Müəllim bu işdə şagirdlərə kömək edə bilər:

**SSENARİ**
1-ci səhnə:
***Heyvanların şahı*** *(əsgərlərə): Mən heyvanların şahıyam. Amma Yarasa mənə öz yeməyindən pay vermir. Gedin, ondan yemək payımı alın!*

LAYİHƏ

*Bütün heyvanlar kimi Yarasa da mənə tabe olmalıdır.*

***Əsgərlər**: Baş üstə, şahım.*

2-ci səhnə:

***Əsgərlər**: Ey Yarasa, biz səndən hökmdarımıza yemək payı almağa gəlmişik.*

***Yarasa**: Pay? Nə pay? Gedin, şahınıza deyin ki, mən heyvan deyiləm və yeməyimdən ona pay verməyəcəyəm. Harada görünüb ki, mənim kimi qanadlı, havada uçan bir canlı yerdə gəzən heyvanların şahına pay versin?! Mən heyvan deyiləm, quşam.*

3-cü səhnə:

***Əsgərlər** (heyvanların şahına): Ey şahım, Yarasa deyir ki, mən heyvan deyiləm, quşam. Ona görə də heyvanlar şahına pay verməyəcəyəm.*

***Heyvanların şahı** (əsgərlərə): Deməк belə! Mən ona göstərərəm! İndi mən quşlar şahına məktub yazaram (Oturub yazır. Sonra ayağa durub məktubu oxuyur): "Ey quşlar şahı, Yarasa deyir ki, heyvan deyil, quşdur. Ona görə də mənə pay vermir. Əsgərlərini göndər, ondan özün üçün pay tələb elə". (Əsgərlərə) Tez bu məktubu quşların şahına çatdırın.*

4-cü səhnə:

***Quşların şahı** (əsgərlərə): Heyvanların şahından məktub almışam. Yarasa deyib ki, quşdur. Quş olduğu üçün mənə yemək payı verməlidir. Gedin, ondan payımı alın.*

***Əsgərlər**: Baş üstə, şahım.*

5-ci səhnə:

***Əsgərlər**: Ey Yarasa, biz səndən hökmdarımıza yemək payı almağa gəlmişik.*

***Yarasa**: Siz elə bir quş görmüsünüz ki, onun dişləri olsun? Mən quş deyiləm. Harada görünüb ki, heyvan quşların şahına tabe olsun. Gedin, şahınıza deyin ki, mən ona heç bir pay verməyəcəyəm.*

6-cı səhnə:

***Əsgərlər** (quşların şahına): Ey şahım, Yarasa deyir ki, mən quş deyiləm, heyvanam. Ona görə də quşlar şahına pay verməyəcəyəm.*

***Quşların şahı** (əsgərlərə): Ay yaramaz! İndi ki belə oldu, mən heyvanlar şahına məktub yazaram (Oturub yazır. Sonra ayağa durub məktubu oxuyur): "Ey heyvanlar şahı, Yarasa bizi ələ salır. Gəl birləşək, onu tutub cəzalandıraq.*

7-ci səhnə:

***Yarasa** (öz-özünə): İşlər çətinə düşdü. İndi heyvanlar şahı ilə quşlar şahı birləşib məni tutmaq istəyəcəklər. Gərək gündüzlər gizlənim, gecələr qaranlıq düşəndə özümə yem axtarım.*

**Diferensial təlim!** Sinif şagirdlərinin nitq bacarıqları ssenari yazmağa və mətni səhnələşdirməyə imkan verməzsə, müəllim ssenarinin mətnini çoxaldıb qruplara paylaya bilər. Beləliklə, **rollu oxu** üsulundan istifadə etmək olar.

Sonda müəllim şagirdlərin yarasa haqqında biliklərini və bu mətndən aldıqları məlumatları iş dəftərindəki 3-cü tapşırıq vasitəsilə yoxlayır.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sərlövhədən və illüstrasiyalardan çıxış edərək mətnin məzmununu təxmin edir. | Tap. 1 (D.) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tap. 2, 3, 4, 5 (D.) tap. 1, 2 (İ.D.) |
| Əsas epizodları müəyyənləşdirməklə mətnin planını qurur. | MV |
| Dialoji mətni səsləndirərkən obrazların nitqini fərqli səs tonu ilə oxuyur. | MV |
| Verilmiş situasiyaya, məqsədə uyğun məktub yazır. | Tap. 6 (D.) |

LAYİHƏ

# 2-ci DƏRS

## Gecəquşu

## (Oxuyub-qavrama)

**Təlim nəticələri:**

**Danışma:**

- Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır (st. 2.2.1).
- Yeni öyrəndiyi söz və ifadələri cümlələrdə kontekstə uyğun işlədir (st. 2.1.2).
- Verbal və qrafik materialları (şəkil, sxem, xəritə və s.) şərh etməklə mövzu üzrə danışır (st. 2.2.2).

**Dinləmə:**

- Mətni dinləyərkən mühüm məlumatları qeyd edir (st. 1.1.2).

**Danışma (Mövzuya yönəltmə)**

Keçən dərsdə oxunmuş mətn xatırladılır. Müəllim şagirdlərə suallarla müraciət edir:

– *Yarasa quş olduğunu sübut etmək üçün nə dedi? Bəs heyvan olduğunu necə sübut etməyə çalışdı? Sizcə, hansı halda o, haqlı idi?*

**Dərslik, səh. 85**

**1.** Quşlar məməli heyvanlardan nə ilə fərqlənir? Sizcə, yarasa quşdur, yoxsa məməli heyvan?

Adətən, bu yaşda şagirdlər quşları məməlilərdən fərqləndirmək üçün onların uça bilməsini əsas gətirirlər. *(Keçən dərsdə oxuduqları mətndə də Yarasa bu arqumentdən istifadə edirdi.)* Belə olduqda onları daha dərindən düşünməyə sövq etmək üçün müəllim əlavə suallar verə bilər:

– *Dəvəquşu uça bilirmi? Bəs pinqvin? Nəyə görə onları quş hesab edirik?*

**Dinləmə ("Gecəquşu" mətni üzrə iş)**

Müəllim lövhədə cədvəl çəkir və şagirdlərə tapşırır ki, həmin cədvəli öz dəftərlərində *(iş vərəqində)* çəksinlər.

| YARASALAR | |
|---|---|
| Başlıqlar | Qeydlər |
| Necə çoxalır? | |
| Harada yaşayır? | |
| Xarici görkəmi necədir? | |
| Qaranlıqda necə görür? | |
| Başqa məlumatlar | |

Müəllim bildirir ki, o, mətni oxuduqca şagirdlər kitabdan izləməli və cədvəldə qoyulmuş suallarla bağlı cədvəlin sağ sütununda müvafiq qeydlər etməlidirlər.

**Müəllimin nəzərinə!** Dinləmə mətninin dərslikdə verilməsinin səbəbi şagirdlərdə qeyd götürmək bacarığının hələ tam formalaşmamasıdır. Dinlədikləri mətni kitabdan izləmək qeyd götürməni asanlaşdıra bilər.

Təklif olunan üsul "dinləyərək qeydgötürmə" və "istiqamətləndirilmiş oxu" üsullarının sintezidir; şagirdlərdə faktoloji materialı dərindən qavrama bacarığını inkişaf etdirir.

Nəzərə almaq lazımdır ki, şagirdlərin yazmaq və qeyd götürmək bacarıqları kifayət qədər inkişaf etməyib, ona görə də müəllim mətni oxuyarkən vacib məlumatlardan sonra fasilə verməli, lazım gələrsə, həmin hissəni təkrar oxumalı, şagirdlərə qeyd götürmək üçün imkan yaratmalıdır.

Mətn oxunduqdan sonra şagirdlərin qeydləri dinlənilir, müəllim öz tövsiyələrini verir:

- Əvvəlcə cədvəldəki sualları diqqətlə oxuyun, hansı məlumatları qeyd edəcəyinizi təxmin edin.
- Vaxt az olduğuna görə qeydlərinizi qısa yazın. Bu zaman söz, söz birləşməsi, qısa cümlələrdən istifadə edə bilərsiniz.
- Çalışın diqqətiniz yayınmasın. Əgər yayınarsa, həmin hissəni təkrar etməyi xahiş edin.

Nümunə üçün müəllim lövhədə çəkilmiş cədvəli şagirdlərlə birgə tamamlayır:

LAYİHƏ

| YARASALAR | |
|---|---|
| Başlıqlar | Qeydlər |
| Necə çoxalır? | *Yumurta qoyur.* |
| Harada yaşayır? | *meşə, mağara, evlərin damı* |
| Xarici görkəmi necədir? | *tüklü, yekəqulaq, itidırnaq* |
| Qaranlıqda necə görür? | *səs dalğaları* |
| Başqa məlumatlar | *Başıaşağı sallanır.* |

**Dərslik, səh. 86**

**2.** Uyğunluğu müəyyən edin və ifadələri cümlədə işlədin.

**Düzgün cavab:** *pusqu qurmaq, əmr etmək, tabe olmaq, pay vermək, maneə yaratmaq.*

**Məqsəd:** sözlər arasında semantik əlaqəni müəyyənləşdirməklə söz birləşmələri və tərkibi sözlər yaratmaq və həmin ifadələri cümlələrdə işlətmək.

**Dərslik, səh. 86**

**3.** Mətndə hansı suala cavab yoxdur?

**Düzgün cavab:** *Yarasa nə ilə qidalanır?*

Müəllim bu haqda şagirdlərə məlumat verə bilər: *Yarasa, əsasən, həşəratlarla qidalanır.*

İş dəftərindəki 1-ci tapşırıq yerinə yetirilir.

**Dərslik, səh. 86**

**4.** Sizcə, yarasanın qulaqları nə üçün böyük olur?

**Düzgün cavab:** *Uçarkən geri qayıdan səs dalğalarını eşitmək üçün.*

**Şərh:** "Gecəquşu" mətnində bu sualın birbaşa cavabı yoxdur. Şagirdlər bu suala mətndə verilmiş məlumatlardan nəticə çıxarmaqla cavab verə bilərlər.

**Danışma (Təqdimat)**

Müəllim "Gecəquşu" mətninin son abzasını xatırladır, "vampir" sözü ilə bağlı şagirdlərin biliklərini yoxlayır.

**Qeyd:** "Vampir" sözünə müxtəlif kontekstlərdə rast gəlmək olar. Çox zaman bu söz "qan-içən" mənasında işlənir. İnsan-vampirlər haqqında bir çox qorxulu filmlər var. Müəllim bildirir ki, filmlərdəki vampirlər həyatda mövcud deyil, insanın vampirə çevrilməsinin heç bir elmi əsası yoxdur, bu, yazıçı təxəyyülüdür.

**Dərslik, səh. 86**

**5.** Vampir yarasa haqqında verilmiş məlumatları oxuyun. "Gecəquşu" mətnindən də istifadə etməklə yarasalar haqqında mətn qurub danışın.

Vampir-yarasalar haqqında məlumat vərəqindəki informasiyanı mənimsəmək üçün şagirdlərə vaxt verilir. Daha sonra onlar iş dəftərindəki 2-ci tapşırığı yerinə yetirirlər.

Hər iki mənbədən ("Gecəquşu" mətni və "Vampir yarasa" məlumat vərəqi) əldə edilmiş informasiya tam mənimsədildikdən sonra şagirdlər məlumat vərəqindən və bundan əvvəl tərtib etdikləri qeyd cədvəlindən istifadə etməklə rabitəli mətn qurub danışırlar.

Şagirdlər danışarkən müəllim onların istifadə etdiyi cümlələrin sintaktik qaydalara uyğunluğunu nəzarətdə saxlayır, bununla bağlı qeydlər edir və sonda şagirdlərin nəzərinə çatdırır.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduqları və həyatda gördükləri haqqında danışır. | Tap. 1 (D.) |
| Mətni dinləyərkən mühüm məlumatları qeyd edir. | "Gecəquşu" mətni (D.) |
| Yeni öyrəndiyi söz və ifadələri cümlələrdə kontekstə uyğun işlədir. | Tap. 2, 3, 4 (D.) |
| Verbal və qrafik materialları (şəkil, sxem, xəritə və s.) şərh etməklə mövzu üzrə danışır. | Tap. 5 (D.), tap. 1, 2 (İ.D.) |

LAYİHƏ

# 3-cü DƏRS

## Mürəkkəb sözlər (Yazı)

**Təlim nəticələri:**

**Yazı:**

• Mürəkkəb sözlərin yazılış qaydalarına riayət edir (st. 4.1.1).

**Diaqnostik qiymətləndirmə**

Mürəkkəb sözlərin yazılış qaydalarına riayət etmək üçün əvvəlcə bu sözlərin tərkibini müəyyənləşdirmək bacarığı formalaşmalıdır. Dərslikdəki 1-ci tapşırıq mürəkkəb sözlərlə bağlı şagirdlərin dil duyumunu müəyyənləşdirməyə xidmət edir.

**Dərslik, səh. 87**

**1.** Verilmiş cümlədə hansı sözün tərkibində iki söz var?

*Yarasa gecələr ov etdiyinə görə ona gecəquşu da deyirlər.*

"Gecəquşu" sözünün iki sözdən ibarət olduğu müəyyən edildikdən sonra həmin sözlərin (*gecə, quş*) mənaları izah olunur.

**Öyrənmə**

**"Bunları bilməliyik"** rubrikasında mürəkkəb sözlərə nümunələr verilib və onlardan bəzilərinin bitişik, bəzilərinin isə defislə yazıldığı qeyd olunub. Müəllim hər iki yazılış qaydasına aid əlavə nümunələr də verə bilər.

**Müəllimin nəzərinə!** Dilçilikdə qəbul olunmuş qaydalara əsasən ayrı yazılan mürəkkəb sözlər də var. Onlara tərkibi və ya mürəkkəb-tərkibi sözlər də deyilir. Bu baxımdan 1-ci tapşırıqdakı nümunədə "ov etmək" ifadəsi tərkibi feil sayılır. Bu cür sözlərə nümunə olaraq "bir az", "on iki" kimi sayları, "hər gün", "bir dəfə" kimi zərfləri misal gətirmək olar.

Lakin nəzərdə tutulan yaş qrupu üçün ayrı yazılan mürəkkəb sözləri söz birləşmələrindən fərqləndirmək çətindir. Ona görə də bu mərhələdə yalnız bitişik və defislə yazılan mürəkkəb sözlər öyrədilir.

**Möhkəmləndirmə**

**Dərslik, səh. 87**

**2.** Verilmiş cümlələrdə mürəkkəb sözləri tapın və onların tərkib hissələrini müəyyən edin.

Bu tapşırıq da mürəkkəb sözləri müəyyənləşdirmək bacarığını inkişaf etdirir.

Növbəti, 3-cü tapşırıqda isə şagirdlər mürəkkəb sözləri tərkib hissələri arasındakı məna əlaqəsinə görə qruplaşdırmalıdırlar.

**Müəllimin nəzərinə!** Mürəkkəb sözlərin yazılış qaydalarını mənimsəmək üçün onların tərkib hissələri arasındakı əlaqəni müəyyənləşdirmək vacib bacarıqdır. "Bunları bilməliyik" rubrikasında bu məsələyə toxunulmasa da, həmin bacarıq tapşırıqlar vasitəsilə empirik şəkildə formalaşdırılır.

Növbəti tapşırıq da eyni məqsədə xidmət edir:

**Dərslik, səh. 87**

**4.** Hansı mürəkkəb sözün tərkibindəki sözlərdən birinin ayrılıqda mənası yoxdur?
A. ev-eşik B. kağız-kuğuz C. adət-ənənə

**Tətbiqetmə və nəticəçıxarma**

Nəhayət, dərslikdəki sonuncu tapşırıq vasitəsilə şagirdlər mənimsədikləri bilik və bacarıqları tətbiq edirlər:

**Dərslik, səh. 87**

**5.** Uyğun sözləri birləşdirməklə mürəkkəb sözlər düzəldib yazın.

Şagirdlər sözlər arasındakı məna əlaqəsindən çıxış edərək *(yaxınmənalı, əksmənalı, müxtəlifmənalı)* yaratdıqları mürəkkəb sözlərin yazılışında orfoqrafiya qaydalarına *(bitişik, yoxsa defislə)* riayət edirlər.

İş dəftərindəki tapşırıqlar da qazanılmış bilik və bacarıqların tətbiqinə xidmət edir.

**İş dəftəri, səh. 57, tap. 1.** Şagirdlər mürəkkəb sözlərin tərkibini müəyyən edib yazırlar.

**İş dəftəri, səh. 57, tap. 2.** Verilmiş mürəkkəb sözlər tərkib hissələri arasındakı məna əla-

LAYİHƏ

qəsinə və yazılış qaydasına görə sxem üzrə qruplaşdırılır.

**İş dəftəri, səh. 57, tap. 3.** Şagirdlər empirik yolla əldə etdikləri bilik və bacarıqlardan çıxış edərək verilmiş qaydaları tamamlayırlar:

*1. Yaxınmənalı sözlərdən yaranan mürəkkəb sözlər **defislə** yazılır.*

*2. Əksmənalı sözlərdən yaranan mürəkkəb sözlər **defislə** yazılır.*

*3. Müxtəlifmənalı sözlərdən yaranan mürəkkəb sözlər **bitişik** yazılır.*

*4. Eyni sözün təkrarından yaranan mürəkkəb sözlər həm **defislə**, həm də **bitişik** yazıla bilər.*

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mürəkkəb sözü müəyyən edir və onu tərkib hissələrinə ayırır. | Tap. 1, 2 (D.), tap. 1 (İ.D.) |
| Sözlər arasındakı məna əlaqəsini müəyyən edir. | Tap. 3, 4 (D.), tap. 2 (İ.D.) |
| Mürəkkəb sözün bitişik, yoxsa defislə yazıldığını müəyyənləşdirir. | Tap. 5 (D.), tap. 3 (İ.D.) |

# 5-ci bölmə üzrə ümumiləşdirici təkrar

**Təlim nəticələri:**

**Danışma:**

- Verbal və qrafik materialları (şəkil, sxem, xəritə və s.) şərh etməklə mövzu üzrə danışır (st. 2.2.2).

**Yazı:**

- Sayların söz və rəqəmlə yazılışında uyğun qaydalara riayət edir (st. 4.1.1).
- Sözlər və cümlənin tərkib hissələri arasında uyğun bağlayıcılardan istifadə edir (st. 4.1.2).
- Mürəkkəb sözlərin yazılış qaydalarına riayət edir (st. 4.1.1).

**Danışma**

Bu bölmədə şagirdlərdə inkişaf etdirilən əsas bacarıqlardan biri verbal-qrafik materialla iş olub *(bax: D. səh. 76, 86)*. Ona görə də bu dərsdə həmin bacarığı nümayiş etdirmək üçün şagirdlərə fil haqqında məlumat vərəqi təqdim olunur. Onlar əlavə biliklərindən də istifadə etməklə fil haqqında rabitəli mətn qurub danışmalıdırlar.

Məlumat vərəqindəki informasiyanın tam mənimsənilməsi üçün müəllim əlavə suallar verə bilər:

*1. Yuxarıdakı xəritəyə baxın. Burada hansı materiklər əks olunub? (Asiya və Afrika)*

*2. Xəritədəki ağ sahələr nəyi göstərir? (Filin yayıldığı ərazini)*

*3. Üç fil şəkli var. Bunlardan hansı dişidir? (Sağ tərəfdəki)*

*4. Bəs hansı şəkildə Afrika fili təsvir olunub? (Yuxarıdakı şəkildə)*

Daha sonra məlumat vərəqindəki şərti işarələr izah olunur:


Nida işarəsi “diqqət”, “təhlükə” mənasını verir.


Ürək işarəsi canlının nə qədər yaşadığını bildirir.


Bu işarə heyvanın tək, yoxsa sürü ilə yaşamasını göstərir.


Uzunluğu, hündürlüyü bildirir.

LAYİHƏ

Heyvanın nə ilə qidalandığını bildirir.

Şagirdlərə bildirilir ki, rabitəli mətn qurmaq üçün əvvəlcə onun planını qurmaq, hər bir maddənin qarşısında açar sözlər qeyd etmək lazımdır. Bu, fikirləri ardıcıl ifadə etməyə imkan verir.

Məlumat vərəqi üzrə iş bitdikdən sonra dil qaydaları təkrar olunur.

**Dərslik, səh. 88**

**2.** Nöqtələrin yerinə uyğun bağlayıcıdan istifadə etməklə cümlələri oxuyun.

Bu tapşırıqda verilmiş cümlələr məlumat vərəqinin mövzusu ilə bağlıdır. **Tapşırığın məqsədi** cümlələrdə kontekstə uyğun bağlayıcılardan istifadə etmək bacarığını inkişaf etdirməkdir.

**Dərslik, səh. 88**

**3.** Verilmiş sayları sözlə ifadə edib yazın: *32, 3-cü, 832, 28-ci, 112, 218-ci, 2021-ci*

**Məqsəd:** sıra saylarının və tərkibi sayların yazılış qaydalarına əməl etmək.

**Dərslik, səh. 88**

**4.** Səhvləri düzəltməklə mürəkkəb sözləri köçürün.

**Məqsəd:** mürəkkəb sözlərin yazılış qaydalarına əməl etmək.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verbal və qrafik materialları (şəkil, sxem, xəritə və s.) şərh etməklə mövzu üzrə danışır. | Tap. 1 (D.) |
| Sözlər və cümlənin tərkib hissələri arasında uyğun bağlayıcılardan istifadə edir. | Tap. 2 (D.) |
| Sayların söz və rəqəmlə yazılışında uyğun qaydalara riayət edir. | Tap. 3 (D.) |
| Mürəkkəb sözlərin yazılış qaydalarına riayət edir. | Tap. 4 (D.) |

## 5-ci bölmə üzrə kiçik summativ qiymətləndirmə

İş dəftərinin 58-59-cu səhifələrindəki materiallar KSQ-yə hazırlıq məqsədilə verilmişdir. Qiymətləndirmə oxu və yazı məzmun xətlərini əhatə edən aşağıdakı meyarlar üzrə aparılır.

| Meyarlar | Materiallar |
|---|---|
| Kontekstdən çıxış edərək tanış olmadığı söz və ifadələrin mənasını təxmin edir. | Tap. 1, 2 |
| Mətndəki hadisələr arasındakı səbəb-nəticə əlaqəsini müəyyən edir. | Tap. 3 |
| Verbal və vizual materiallara uyğun olaraq təsviri xarakterli mətn yazır. | Tap. 4 |
| Sayların söz və rəqəmlə yazılışında uyğun qaydalara riayət edir. | Tap. 5, 6 |
| Sözlər və cümlənin tərkib hissələri arasında uyğun bağlayıcılardan istifadə edir. | Tap. 7 |
| Mürəkkəb sözləri müəyyən edir. | Tap. 8 |

LAYİHƏ

Bölmə **6** # DÜNYANI KƏŞF EDİRƏM

| Dərs saat | Mövzu (oxu, söz ehtiyatı, şifahi nitq) | Yazı (Dil qaydaları) | Dərslik səh. | İş dəftəri səh. | MV səh. |
|---|---|---|---|---|---|
| 1-ci fəsil. **Yağış** | | | | | |
| 1 | Çayın gileyi | | 90-91 | 60 | 102-103 |
| 2 | Yağışın yaranması | | 91-92 | 61 | 103-106 |
| 3 | | Heca. Ahəng qanunu. Qoşasaitli sözlər. Samitlərin tələffüzü | 93 | 62 | 106-107 |
| 2-ci fəsil. **Uçmaq arzusu** | | | | | |
| 4 | Təyyarənin ixtirası I | | 94-96 | 63 | 107-109 |
| 5 | Təyyarənin ixtirası II | | 96 | 64 | 109-110 |
| 6 | Odun kəşfi | | 97 | 65 | 110-111 |
| 7 | | Cümlənin məqsədə və intonasiyaya görə növləri. Kəmiyyət kateqoriyası. Ümumi və xüsusi isimlər. Əlamət bildirən sözlər. Hərəkət bildirən sözlərin inkarda işlənməsi | 98 | 66 | 111-113 |
| 3-cü fəsil. **Ay** | | | | | |
| 8 | Ayın itməsi | | 99-100 | 67 | 113-114 |
| 9 | Ayın ilk qonağı | | 101 | 68 | 115-116 |
| 10 | | Əşyanın miqdarını bildirən sözlər. Mürəkkəb cümlələrin tərkib hissələri arasında vergüldən istifadə. Bağlayıcılar. Mürəkkəb sözlər | 102 | 69 | 116-118 |
| 11 | 6-cı bölmə üzrə ümumiləşdirici təkrar | | 103 | | 118-119 |
| | 6-cı bölmə üzrə kiçik summativ qiymətləndirmə | | | 70-71 | 119 |

**Bölmənin icmalı**

Bölmədə müxtəlif ixtiralarla bağlı bədii və informativ mətnlər vasitəsilə şagirdlərin dinləmə, danışma, oxu və yazı bacarıqları inkişaf etdirilir, söz ehtiyatı zənginləşdirilir.

**Dinləmə və danışma.** Şagirdlərin şifahi nitqi, əsasən, 1) şəkillər üzrə danışma; 2) rollu oyun zamanı obrazın xarakterinə uyğun intonasiya, mimika və jestlərdən istifadə etmə; 3) danışarkən cümlədə söz sırasına əməl etmə; 4) dialoq zamanı mövzuya uyğun fikir yürütmə; 5) rabitəli cümlə qurma bacarıqlarının təkmilləşdirilməsi istiqamətində inkişaf etdirilir.

**Söz ehtiyatı.** Şagirdlər şifahi nitqlərində yeni öyrəndikləri sözlərdən istifadə edirlər.

**Oxu.** Müxtəlif oxu texnikalarının tətbiqi ilə bədii və informativ mətnlər üzərində işləmək bacarığı inkişaf etdirilir.

**Yazı.** Şagirdlər Azərbaycan dilinin qrammatik və orfoqrafik normalarına uyğun yazı bacarığına yiyələnirlər.

LAYİHƏ

# 1-ci fəsil
# YAĞIŞ

## 1-ci DƏRS
## Çayın gileyi

**Təlim nəticələri:**

**Danışma:**
• Bildiyi məlumatlardan istifadə etməklə şəkillər üzrə danışır (st. 2.2.2).
**Oxu:**
• Yaxınmənalı sözləri müəyyənləşdirir (st. 3.1.3).
• Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.2).
• Mətnlə illüstrasiya arasındakı uyğun(suz)luğu müəyyən edir (st. 3.1.2).
• Mətndəki hadisələrin məntiqi ardıcıllığını (səbəb-nəticə əlaqəsini) müəyyən edir (st. 3.1.2).

**Danışma**
**Dərslik, səh. 89**

**1.** Sizcə, bu bölmədə nə haqda danışılacaq?
**2.** Şəkillərdə diqqətinizi nə cəlb etdi? Hər bir şəklə aid açar söz müəyyənləşdirin.
**3.** Bu barədə nə öyrənmək istərdiniz?

Danışma fəaliyyəti bölmənin titul səhifəsində verilmiş şəkillər və suallar əsasında yerinə yetirilir. Şagirdlər titul səhifəsindəki hər bir şəklə aid açar söz və ifadələri müəyyənləşdirir və onların köməyi ilə şəkillər üzrə danışırlar. Müəllim şagirdlərin diqqətini bölmənin adına yönəldərək “kəşf” sözünün mənasını izah edir: bu sözü *yeni bir şey yaratmaq, tapmaq* anlayışları ilə əlaqələndirir.

**Dərslik, səh. 90**

**1.** Şəkildə gördüyünüz təbiət hadisələri haqqında danışın.

Şagirdlər oxuduqları mətnlərdən və həyatdan nümunələr gətirməklə “yağış” və “qar” kimi təbiət hadisələri haqqında bildiklərini danışırlar.

**Oxu. Söz ehtiyatı**
**Dərslik, səh. 90. “Söz mücrüsü” rubrikası**

**Söz mücrüsü**
- acgöz
- udmaq
- pay vermək
- arzusu ürəyində qalmaq
- buxarlandırmaq
- buxar

**Mətnlə iş. Rollu oxu.** “Çayın gileyi” mətni dialoji mətn olduğu üçün **rollu oxu** üsulunu tətbiq etmək tövsiyə olunur. Əvvəlcə müəllim mətni bir dəfə oxuyur. Şagirdlər mətni izləyirlər. Daha sonra müəllim obrazların *(müəllif, Çay, Göl)* nitqinə aid cümlələri şagirdlər arasında bölüşdürür. Müəllim şagirdlərin nitqinə diqqət edir, obrazların hiss və həyacanını ifadə etmək üçün onlara məsləhətlər verir.

**Söz mücrüsü.** Müəllim “söz mücrüsü”ndə verilmiş söz və ifadələrin mənasını izah edir. Bundan əlavə, müəllim oxu prosesində rast gəldikləri tanış olmayan sözləri şagirdlərə izah edir.

Şagirdlər yeni sözləri cümlələrdə işlətməklə onların mənasını anladıqlarını nümayiş etdirirlər.

**Söz ehtiyatı**
**Dərslik, səh. 91**

**2.** Cümlələrdəki hərəkət bildirən sözləri tapın. Həmin sözləri mətndə altından xətt çəkilmiş ifadələrlə əvəz edin.

Tapşırıq şagirdlərin söz ehtiyatının zənginləşdirilməsinə yönəldilib. Şagirdlər ilk növbədə tapşırıqda verilmiş hərəkət bildirən sözləri müəyyənləşdirirlər. Bununla hərəkət bildirən sözləri *(düşünmək, anlamaq)* fərqləndirdiklərini nümayiş etdirirlər. Daha sonra həmin sözləri mətndə altından xətt çəkilmiş “fikrə getmək” və “başa düşmək” frazeoloji birləşmələri ilə əvəz edərək bu sözlərin mənasını anladıqlarını göstərirlər.

LAYİHƏ

**Oxuyub-qavrama**

**Dərslik, səh. 91**

**3.** Mətnlə bağlı suallara cavab verin.

Şagirdlər mətn əsasında sualları cavablandırırlar, bununla da mətni diqqətlə oxuduqlarını nümayiş etdirirlər. Tapşırıq şagirdlərin mətni necə qavradıqlarını müəyyən etmək məqsədi daşıyır.

**Dərslik, səh. 91**

**4.** Mətndə göy rənglə verilmiş abzas hansı şəklə uyğun gəlir?

Tapşırıq şagirdlərin qrafik informasiyanı anlamaq bacarığını inkişaf etdirir. Şagirdlər mətndə mavi rənglə fərqləndirilmiş abzası oxuyur, aldıqları informasiyanı əks etdirən şəkli *(sxemi)* müəyyən edirlər.

**Düzgün cavab:** B variantı *(yağışın yaranması).*

**İş dəftəri, səh. 60**

**1.** "Çayın gileyi" mətninə əsasən verilmiş fikirlərin doğru, yoxsa yanlış olduğunu qeyd et.

İş dəftərindəki tapşırıqlar şagirdlərin bilik və bacarıqlarını yoxlamağa imkan yaradır. 1-ci tapşırıq faktoloji məlumatın qəbul edilməsini, yəni şagirdlərin mətni nə qədər diqqətlə oxuduqlarını yoxlamağa imkan yaradır. Şagirdlər tapşırıqda verilmiş cümlələri oxuyur və "Çayın gileyi" mətninin məzmununa əsasən fikirlərin doğru, yoxsa yanlış olduğunu müəyyən edirlər. Yaxşı olardı ki, şagirdlər yanlış fikirləri müəyyənləşdirdikdən sonra onları mətnin məzmununa əsasən düzəltsinlər.

**Düzgün cavab:** 1 – yanlış; 2 – doğru; 3 – doğru; 4 – doğru; 5 – yanlış; 6 – doğru.

**İş dəftəri, səh. 60**

**2.** Mətnə əsasən cədvəli tamamla.

Tapşırıq şagirdlərdə analizetmə bacarığını inkişaf etdirir. Şagirdlər mətndə əks olunan hadisələri bir-biri ilə əlaqələndirir, hadisələrin səbəbini və nəticəsini müəyyən edirlər.

**Düzgün cavab:**

*Çay uzaqlara axıb getmək istəyirdi, amma Göl onun sularını acgözlüklə udurdu, ona görə də* Çay hirslənmişdi.

Günəş Gölün suyunu buxarlandırırdı, *ona görə də Gölün suyu azalırdı.*

Göl yağışın yaranmasını Çaya izah etdi, *ona görə də Çay sakitləşdi.*

**İş dəftəri, səh. 60**

**3.** Bilməcəni həll et və yeni sözlər öyrən.

Tapşırıq şagirdlərin həm məntiqi düşüncə bacarığını, həm də söz ehtiyatının inkişafına yönəldilib. Şagirdlər rənglər, fiqurlar və hərflərin köməyi ilə şifrlənmiş sözləri tapırlar. Beləliklə, söz ehtiyatlarına "leysan" və "çiskin" sözlərini əlavə edirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bildiyi məlumatlardan istifadə etməklə şəkillər üzrə danışır. | Tap. 1 (D.) |
| Yaxınmənalı sözləri müəyyənləşdirir. | Tap. 2 (D.) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tap. 3 (D.), tap. 1 (İ.D.) |
| İllüstrasiya ilə mətnin müvafiq hissəsini uyğunlaşdırır. | Tap. 4 (D.) |
| Mətndəki hadisələrin səbəb və nəticəsini müəyyən edir. | Tap. 2 (İ.D.) |

# 2-ci DƏRS

## Yağışın yaranması

**Təlim nəticələri:**

**Oxu:**

• Bədii və informativ mətnlərdə mövzu, məzmun və ideya anlayışlarını fərqləndirir (st. 3.1.2).

• Mətndəki hadisələrin məntiqi ardıcıllığını (səbəb-nəticə əlaqəsini) müəyyən edir (st. 3.1.2).

• Mətnin tərkib hissələrini müəyyən edir (st. 3.1.2).

**Yazı:**

• Əldə etdiyi məlumatlar əsasında kiçikhəcmli informativ mətn yazır (st. 4.1.4).

**Motivasiya**

Müəllim sual-cavab üsulu ilə keçən dərsdə keçilmiş "Çayın gileyi" mətnini xatırladır.

LAYİHƏ

**Oxuyub-qavrama**

**Dərslik, səh. 91**

**1.** Mətndəki məlumatları "Çayın gileyi" mətni ilə müqayisə edin.

**İstiqamətləndirici oxu.** Müəllim şagirdlərin diqqətini tapşırıqda qoyulmuş suala yönəldir. İstiqamətləndirmək məqsədi daşıyan bu sual diqqətli oxu prosesini tənzimləyir.

**Dərslik, səh. 91. "Söz mücrüsü" rubrikası**

**Söz mücrüsü**

qovuşmaq • dövran

**Mətn üzrə iş. Söz mücrüsü.** Şagirdlər "Yağışın yaranması" mətnini oxuyurlar. Müəllim "söz mücrüsü"ndəki və oxu zamanı rast gəldikləri anlaşılmayan sözlərin mənasını izah edir.

**Müəllimin nəzərinə!** Müəllimə oxudan əvvəl BİBÖ üsulundan istifadə etmək tövsiyə edilir. BİBÖ *(bilirik, istəyirik bilək, öyrəndik)* metodu şagirdlərə mövzuları əlaqələndirmə imkanı yaradır.

Oxudan əvvəl müəllim lövhədə üç sütundan ibarət cədvəl qurur və başlıqlar yazır:

**I sütun:** Yağışın yaranması haqqında nə bilirik?

**II sütun:** Yağışın yaranması haqqında nə bilmək istəyirəm?

**III sütun:** Biz yağışın yaranması haqqında yeni nə öyrəndik?

Şagirdlər bədii mətndən, yəni "Çayın gileyi" mətnindən yağışın yaranması haqqında aldıqları məlumatları cədvəlin birinci bölməsinə qeyd edirlər. Daha sonra yağışın yaranması haqqında yeni və əlavə məlumatlar almaq üçün suallar tərtib edirlər. Cədvəlin III sütunu "Yağışın yaranması" informativ mətninin oxusundan sonra işlənir. Şagirdlər III sütuna yeni öyrəndikləri məlumatları qeyd edirlər.

**Dərslik, səh. 92**

**2.** Mətnə əsasən cümlələri davam etdirin.

Tapşırıq şagirdlərin mətni nə qədər diqqətlə oxuduqlarını yoxlamağa imkan yaradır. Eyni zamanda analizetmə bacarığını inkişaf etdirir. Şagirdlər mətndə əks olunan hadisələri bir-biri ilə əlaqələndirir, hadisələrin səbəbini və nəticəsini müəyyən edirlər.

**Düzgün cavab:**

1. Çayların, göllərin, okeanların suyu buxarlanır, çünki *günəş suyu qızdırır.*

2. Buxar su damcılarına çevrilir, çünki *soyuq hava su damcılarına təsir edir.*

3. Su damlaları bir yerə toplaşır, ona görə də *buludlar yaranır.*

4. Kiçik su damcıları birləşərək iri damlalara çevrilir, ona görə də *havada qala bilmir, yağışa çevrilib yerə düşür.*

**Dərslik, səh. 92**

**3.** Cümlələrin hansı mətnə aid olduğunu müəyyən edin.

Tapşırıq bədii və informativ mətnləri mövzu, məzmun baxımından müqayisə etmək imkanı yaradır.

**Düzgün cavab:**

1-ci, 3-cü və 4-cü fikirlər "Çayın gileyi" bədii mətninə aiddir.

2-ci fikir isə "Yağışın yaranması" informativ mətninə aiddir.

Bu məlumatlar şagirdləri növbəti tapşırığı asanlıqla yerinə yetirməyə yönəldir.

**Dərslik, səh. 92**

**4.** Mətndən nümunələr gətirməklə verilmiş fikirləri əsaslandırın.

Şagirdlər 3-cü tapşırığı yerinə yetirərkən aldıqları məlumatlardan istifadə edərək "Çayın gileyi" mətninin bədii, "Yağışın yaranması" mətninin isə informativ olduğunu əsaslandırırlar. Şagirdlər təxminən aşağıdakı kimi cavab verə bilərlər:

– "Çayın gileyi" bədii mətndir, çünki bu mətndə yağış və göl kimi cansız varlıqlar dil açıb danışırlar. Bu mətndə dialoq var.

– "Yağışın yaranması" informativ mətndir, çünki burada yağışın yaranması haqqında dəqiq məlumatlar verilib.

**Dərslik, səh. 92**

**5.** Sxemə uyğun olaraq "Yağışın yaranması" mətnini tərkib hissələrinə ayırın.

LAYİHƏ

Tapşırıq şagirdlərin diqqətini informativ mətnin tərkib hissələrinə yönəldir. Şagirdlər tapşırıqda verilmiş sxemə uyğun olaraq “Yağışın yaranması” mətninin giriş, əsas və sonluq hissələrini yenidən oxuyurlar.

**Müəllimin nəzərinə!** Tapşırığın kollektiv formada yerinə yetirilməsi məqsədəuyğundur. Müəllim şagirdlərə mətnin tərkib hissələri haqqında məlumat verir. Tapşırıqda verilmiş sxemi şərh edir. Vaxtaşırı yönəldici suallar vasitəsilə şagirdləri fəaliyyətə cəlb edir:

– *İnformativ mətnin giriş hissəsində mövzu haqqında ümumi məlumat verilir. Gəlin birlikdə “Yağışın yaranması” mətninin giriş hissəsini müəyyən edək.*

Şagirdlərin fikirləri dinlənildikdən sonra müəllim mətnin giriş hissəsini oxuyur.

**Düzgün cavab:** Yağış təbiət hadisələrindən biridir. Bu, uzun bir prosesin nəticəsidir.

**Əsaslandırma:** Mətnin giriş hissəsində yağış haqqında ümumi məlumat verilib.

Müəllim yenə də şagirdlərin diqqətini sxemə yönəldərək oxuyur:

– *İnformativ mətnin əsas hissəsində mövzuya uyğun məlumatlar və faktlar verilir. Gəlin birlikdə mətnin əsas hissəsini müəyyən edək.*

Şagirdlərin cavabından sonra müəllim mətnin əsas hissəsini oxuyur.

**Düzgün cavab:** Günəşin istisi çayların, göllərin, okeanların suyunu buxarlandırır. Su buxarı yuxarı qalxır. Buxar soyuq havanın təsirindən su damcılarına çevrilir. Bu damcılar bir yerə toplaşaraq buludları yaradır. Kiçik su damcıları bir-biri ilə birləşərək iri damlalara çevrilir. Damlalar ağırlaşdıqca havada qala bilmir. Yağışa çevrilib yerə düşür.

Yerə düşən yağış suları çaylara qovuşur. Çaylar axaraq okeana tökülür. Sonra su yenidən buxara çevrilir.

**Əsaslandırma:** Mətnin əsas hissəsində yağışın yaranması prosesi dəqiqliklə izah edilir.

Müəllim yenə də şagirdlərin diqqətini sxemə yönəldərək oxuyur:

– *İnformativ mətnin sonluq hissəsində məlumatlar ümumiləşdirilir, nəticə çıxarılır. Gəlin birlikdə mətnin sonluq hissəsini müəyyən edək.*

Şagirdlərin cavabından sonra müəllim mətnin sonluq hissəsini oxuyur.

**Düzgün cavab:** Beləliklə, suyun təbiətdə dövranı daim təkrar olunur.

**Əsaslandırma:** Mövzu haqqında ümumiləşdirici fikir söylənilir. Müəllimə “deməli”, “nəticədə”, “beləliklə” kimi ümumiləşdirici sözlərin izahını vermək tövsiyə edilir. Şagirdlər mətnin sonluq hissəsinin, əsasən, belə sözlərlə başladığını bilməlidirlər.

**Dərslik, səh. 92**

**6.** Cümlələri “Yağışın yaranması” mətninin uyğun hissələrinə əlavə edin.

Tapşırığın məqsədi informativ mətnin tərkib hissələri haqqında alınan biliklərin möhkəmləndirilməsidir. Şagirdlər tapşırıqdakı cümlələri “Yağışın yaranması” mətninin uyğun hissələrinə əlavə etməklə mövzu üzrə öyrəndiklərini nümayiş etdirirlər.

**Düzgün cavab:**

Mətnin giriş hissəsinə – C;
Mətnin əsas hissəsinə – B;
Mətnin sonluğuna – A.

**Yazı**

**İş dəftəri, səh. 61**

**1.** Suallara cavab verməklə şəklə və oxuduğun mətnlərə əsasən yağış haqqında informativ mətn yaz.

Tapşırığın məqsədi informativ mətnin tərkib hissələri haqqında alınan biliklərin tətbiq edilməsidir. Şagirdlər suallara cavab verməklə yağış haqqında informativ mətn yazırlar. Bu zaman oxuduqları mətnlərdəki məlumatlardan istifadə edirlər.

**Diferensial təlim.** Söz ehtiyatı zəngin olan şagirdlər tapşırığı müstəqil yerinə yetirdiyi halda söz ehtiyatı zəif şagirdlərə yardım etmək lazımdır. Belə şagirdlər tapşırığı yerinə yetirərkən “Yağışın yaranması” mətnindən istifadə edə bilərlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

LAYİHƏ

| Meyarlar | Materiallar |
|---|---|
| Bədii və informativ mətnlərdə mövzu, məzmun və ideya anlayışlarını fərqləndirir. | Tap. 1, 3, 4 (D.) |
| Mətndəki hadisələrin səbəbini müəyyən edir. | Tap. 2 (D.) |
| Mətnin tərkib hissələrini müəyyən edir. | Tap. 5, 6 (D.) |
| Əldə etdiyi məlumatlar əsasında kiçikhəcmli informativ mətn yazır. | Tap. 1 (İ.D.) |

# 3-cü DƏRS

## Heca. Ahəng qanunu. Qoşasaitli sözlər. Samitlərin tələffüzü

**Təlim nəticələri:**

**Yazı:**

- Sözləri sətirdən sətrə düzgün keçirir (st. 4.1.1).
- Sözlərə çoxvariantlı şəkilçilər artırarkən ahəng qanununa riayət edir (st. 4.1.1).
- Özünün və başqasının yazısında orfoqrafik normalara uyğun düzəlişlər edir (st. 4.1.1).

**Mövzuya yönəltmə**

Şagirdlər heca, qoşasaitli sözlər, ahəng qanunu, söz sonunda və söz ortasında bəzi samitlərin düzgün yazılış qaydaları, həmçinin *k-y* və *q-ğ* əvəzlənməsi üzrə qrammatik qayda ilə tanışdırlar. Bu dərsdə şagirdlərin həmin mövzular üzrə bilik və bacarıqları təkrar olunur. Müəllim öyrədilən qaydaları yada salmaq üçün lövhədə bir neçə sözü səhv yazaraq şagirdlərə səhvi müəyyənləşdirməyi tapşırır.

**Yazı**

**Dərslik, səh. 93**

**1.** Sətirdən sətrə keçirilməsi mümkün olmayan sözləri müəyyən edin.

**Kollektiv iş.** Şagirdlər sətirdən sətrə keçirilməsi mümkün olmayan sözləri müəyyən edirlər. Yaxşı olardı ki, şagirdlər qalan sözlərin sətirdən sətrə düzgün keçirilmə qaydasını müəyyən etsinlər. Bu tapşırıq sözlərin sətirdən sətrə keçirilməsi haqqında biliklərin möhkəmləndirilməsinə yönəldilib.

**Düzgün cavab:** elan, adət, ipək, ütü, inək, uzun, uca.

**Dərslik, səh. 93**

**2.** Nöqtələrin yerinə buraxılmış şəkilçiləri artırıb cümlələri köçürün.

Tapşırığın məqsədi ahəng qanunu haqqında biliklərdən istifadə edərək çoxvariantlı şəkilçilərin işlənmə yerini düzgün müəyyənetmə bacarığını möhkəmləndirməkdir.

**Diferensial təlim.** Ana dili qeyri Azərbaycan dili olan şagirdlərin bəzisi çoxvariantlı şəkilçilərdən düzgün istifadə edə bilmir. Ahəng qanunu haqqında biliklər bu problemin həllinə kömək edəcək. Əlavə tapşırıqlar verməklə belə uşaqların çoxvariantlı şəkilçilərdən düzgün istifadəetmə bacarığını formalaşdırmaq, inkişaf etdirmək tövsiyə olunur.

**İş dəftəri, səh. 62**

**1.** Aşağıdakı mətndə sətirdən sətrə səhv keçirilmiş sözlərin altından xətt çək və düzgün keçirilmə qaydasını göstər.

Tapşırıq şagirdləri sözlərin sətirdən sətrə keçirilməsi haqqında aldıqları bilikləri təcrübədə tətbiqinə sövq edir.

**İş dəftəri, səh. 62**

**2.** Səhvləri düzəldərək cümlələri köçür.

Tapşırıq qoşasaitli sözlərin yazılışı üzrə biliklərin möhkəmləndirilməsinə yönəlib. Şagirdlər tapşırıqda tələffüz formasında verilmiş sözləri orfoqrafik normalara uyğun yazaraq düzgün yazı bacarığına yiyələndiklərini nümayiş etdirirlər.

**Düzgün cavab:**

1. Fayiq – Faiq; stadiyon – stadion.
2. Nayilə – Nailə; ayilə – ailə; teyatra – teatra.
3. Zəyifləyirdi – zəifləyirdi.

**Dərslik, səh. 93**

**4.** Dörd sözdən biri səhv yazılıb.

Tapşırıqda şagirdlər hər sırada səhv yazılmış sözü tapıb düzgün yazılışını müəyyən edirlər. Bu zaman fikrini düzgün çatdırma, əsaslandırma kimi bacarıqlar da formalaşır.

**Düzgün cavab:**

1-ci sırada *"bulut"* sözü səhvdir. Bu söz "bulud" kimi yazılmalıdır.

2-ci sırada *"yastığ"* sözü səhvdir. Bu söz "yastıq" kimi yazılmalıdır.

LAYİHƏ

3-cü sırada *“ürəy”* sözü səhvdir. Bu söz “ürək” kimi yazılmalıdır.

4-cü sırada *“kallektiv”* sözü səhvdir. Bu söz “kollektiv” kimi yazılmalıdır.

**Dərslik, səh. 93**

**5.** “Torpaq” və “köynək” sözlərini uyğun şəkildə dəyişərək nöqtələrin yerinə yazıb cümləni köçürün.

Tapşırıq “q” və “k” samiti ilə bitən sözlərin yazılış qaydaları haqqında biliklərin tətbiqinə imkan yaradır.

İş dəftərindəki tapşırıqlar şagirdlərin bəzi samitlərin yazılışı haqqında aldıqları bilikləri tətbiq etməyə şərait yaradır.

**İş dəftəri, səh. 62**

**3.** Nöqtələrin yerinə uyğun hərfləri əlavə et.

**Düzgün cavab:** ahəng, kobud, gülünc, şagird, məktub, gənc.

**İş dəftəri, səh. 62**

**4.** “Çörək” sözünü uyğun şəkildə dəyişərək nöqtələrin yerinə yaz.

**Düzgün cavab:**

1. Stolun üstündə bir parça ***çörək*** var idi.
2. ***Çörəyin*** ətri otağa yayılmışdı.
3. Anam ***çörəyi*** süfrəyə qoydu.
4. Nənə ***çörəyə*** yağ və bal çəkib nəvəsinə verdi.
5. Səlim əlindəki ***çörəkdən*** qoparıb toyuqları yemlədi.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözləri sətirdən sətrə düzgün keçirir. | Tap. 1 (D.), tap. 1 (İ.D.) |
| Ahəng qanunundan asılı olaraq çoxvariantlı şəkilçilərdən uyğun olanını seçir. | Tap. 2 (D.) |
| Qoşasaitli sözləri düzgün yazır. | Tap. 3 (D.), tap. 2 (İ.D.) |
| Sait və samitlərin düzgün yazılışını müəyyən edir. | Tap. 4, 5 (D.), tap. 3, 4 (İ.D.) |

# 2-ci fəsil
# UÇMAQ ARZUSU

## 1-ci DƏRS

### Təyyarənin ixtirası I

**Təlim nəticələri:**

**Danışma:**

• Şəkildə gördüklərini təsvir edir və onları şəxsi həyatı ilə əlaqələndirir (st. 2.2.1).

• Tərtib etdiyi suallar əsasında müsahibi ilə dialoq qurur (st. 2.2.3).

**Oxu:**

• Kontekstdən çıxış edərək tanış olmadığı söz və ifadələrin mənasını təxmin edir (st. 3.1.3).

• Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.2).

• Oxuduğu cümlədə ifadə olunan fikri müəyyən edir və ona münasibət bildirir (st. 3.1.2).

**Yazı:**

• Verilmiş şəklə uyğun söz və cümlələr yazır (st. 4.1.4).

**Mövzuya yönəltmə. Danışma**

**Dərslik, səh. 94**

**1.** Sizcə, aşağıdakı şəkillər insanların hansı arzularını əks etdirir?

Şagirdlər dərslikdə verilmiş şəkillərə baxaraq tapşırıqda verilmiş yönəldici sualı cavablandırırlar.

**Oxu**

**Mətnlə iş. İstiqamətləndirici oxu.** Müəllim “Təyyarənin ixtirası” mətninin oxu prosesindən əvvəl lövhədə suallar yazır. Şagirdlərə tapşırır ki, mətni oxuyarkən bu suallara cavab axtarsınlar.

Lövhəyə yazılacaq suallar:

*1. Uilber və Orvil kim idi?*

*2. Mister Rayt kim idi?*

*3. Orvilin uşaqlıq arzusu nə idi?*

*4. Uilber və Orvil böyüdükdən sonra nə ilə məşğul oldular?*

*5. Uilber və Orvili daha çox hansı mövzu maraqlandırırdı?*

*6. Qardaşların ilk təyyarəsi hansı materialdan hazırlanmışdı?*

LAYİHƏ

**Dərslik, səh. 94. “Söz mücrüsü” rubrikası**

**Söz mücrüsü**

- planer
- araşdırma
- mühəndis
- cəlb etmək
- sınaq
- mühərrik
- püşk atmaq

Müəllim “söz mücrüsü”ndə verilmiş sözlərin mənasını izah edir. Bundan əlavə, müəllim oxu prosesində rast gəldikləri tanış olmayan sözləri şagirdlərə izah edir.

Şagirdlər yeni sözləri cümlələrdə işlətməklə onların mənasını anladıqlarını nümayiş etdirirlər.

**Söz ehtiyatı**

**Dərslik, səh. 95**

**2.** Hansı cümlələrdə fərqləndirilmiş sözlər mətndəki mənasında işlənib?

Tapşırıq şagirdlərin söz ehtiyatının zənginləşdirilməsinə yönəlib. Şagirdlər “işə salmaq”, “idarə etmək” və “yetişmək” sözlərinin mətndəki mənasında işləndiyi cümlələri seçirlər. Bununla da kontekstə əsasən sözlərin mənasını izah etmək bacarığını nümayiş etdirirlər.

**Düzgün cavab:**

b) Anam paltaryuyan maşını işə saldı.

b) Maşinist qatarı ustalıqla idarə edirdi.

a) Heyif ki, ayrılıq zamanı yetişdi.

**Oxuyub-qavrama**

**Dərslik, səh. 96**

**3.** Mətnlə bağlı suallara cavab verin.

Tapşırıq şagirdlərin mətni nə qədər diqqətlə oxuduqlarını yoxlamağa imkan yaradır.

**İş dəftəri, səh. 63**

**1.** “Təyyarənin ixtirası” mətnindən hansı suallara cavab tapmaq olar?

Şagirdlər cavabını müəyyənləşdirə bilmədikləri sualları seçməklə mətni nə qədər diqqətlə oxuduqlarını nümayiş etdirirlər.

**Düzgün cavab:**

• Rayt qardaşları neçənci ildə velosiped istehsalına başladılar?

• İlk mühərrikli təyyarə neçənci ildə hazırlanıb?

**Danışma**

**Dərslik, səh. 96**

**4.** Mətndə altından xətt çəkilmiş cümlələri izah edin. Nə üçün qardaşlar təyyarəni yalnız bir nəfərin sınaqdan keçirməsinə qərar verdilər?

Tapşırıq mətndə ifadə olunan fikri müəyyən etmək və ona münasibət bildirmək bacarıqlarını inkişaf etdirir.

**Yazı**

**İş dəftəri, səh. 63**

**2.** Təsəvvür et ki, Rayt qardaşlarından müsahibə alırsan. Onlara verəcəyin sualları tərtib et.

Tapşırıq şagirdlərdə müəyyən mövzu ilə bağlı məlumat almaq üçün sual tərtib etmək və bu suallar əsasında dialoq qurmaq bacarığını inkişaf etdirir. Tapşırıq eyni zamanda müxbir, jurnalist peşələri haqqında təsəvvür yaratmağa kömək edir.

**Müəllimin nəzərinə!** Şagirdlər Rayt qardaşlarına verəcəkləri sualları tərtib etdikdən sonra rollu oyun keçirmək olar. Şagirdlərdən bəziləri Uilber və Orvil qardaşlarının, bəziləri isə müxbir rolunda çıxış edə bilərlər. Müxbirlər suallarını təqdim edir, Rayt qardaşları isə sualları cavablandırırlar. Bu fəaliyyət zamanı müəyyən mövzu ətrafında danışmaq, ünsiyyət qurmaq bacarığı inkişaf etdirilir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Şəkildə gördüklərini təsvir edir və onları şəxsi həyatı ilə əlaqələndirir. | Tap. 1 (D.) |
| Kontekstdən çıxış edərək tanış olmadığı söz və ifadələrin mənasını təxmin edir. | Tap. 2 (D.) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tap. 3 (D.), tap. 1 (İ.D.) |

LAYİHƏ

| | |
|---|---|
| Oxuduğu cümlədə ifadə olunan fikri müəyyən edir və ona münasibət bildirir. | Tap. 4 (D.) |
| Tərtib etdiyi suallar əsasında müsahibi ilə dialoq qurur. | Tap. 2 (İ.D.) |

# 2-ci DƏRS

## Təyyarənin ixtirası II

**Təlim nəticələri:**

**Danışma:**

• Aldığı məlumatları rabitəli mətn halına salaraq şifahi təqdim edir (st. 2.2.2).

**Oxu:**

• Mətnə əsasən hekayə xəritəsi tərtib edir (st. 3.1.2).

**Yazı:**

• Əldə etdiyi məlumatlar əsasında kiçikhəcmli informativ mətn yazır (st. 4.1.4).

**Motivasiya**

Müəllim sual-cavab üsulu ilə keçən dərsdə keçilmiş “Təyyarənin ixtirası” mətnini xatırladır.

**Oxuyub-qavrama**

**Dərslik, səh. 96**

**1.** “Təyyarənin ixtirası” mətninə və aşağıdakı məlumatlara əsasən təyyarənin ixtirası haqqında danışın.

Tapşırıq qeydlər əsasında rabitəli mətn qurmaq bacarığının mənimsənilməsinə xidmət edir. Bu fəaliyyət şifahi nitq bacarığının inkişafına kömək edir. Şagirdlər dərslikdə verilmiş “Təyyarənin ixtirası” mətninə və əlavə qeydlərə əsasən rabitəli mətn qururlar. Praktiki olaraq biliklərini möhkəmləndirirlər. Tapşırığın icrası iki mərhələdə təşkil edilir:

1. **Sxem üzərində iş aparılır.** Bu sxemdə şagirdlər mövzu ilə bağlı qeydlərin müxtəlif başlıqlar altında qruplaşmasını görürlər. Bu cür qruplaşma mövzuya aid məlumatları ardıcıllıqla təqdim etməyə imkan verir. Burada mövzudan asılı olaraq qeydlər üzrə qruplaşmaların sayı dəyişə bilər.

2. **Sxemdə verilmiş məlumatların məzmunu üzərində iş aparılır.** Şagirdlər cütlərlə işləyirlər. Şagirdlər qeydlərlə tanış olur və təyyarənin ixtirası haqqında şifahi təqdimat edirlər.

**Müəllimin nəzərinə!** Müəyyən mövzu ilə bağlı qeydgötürmə və məlumatların qruplaşdırılması şagirdin araşdırma zamanı əldə etdiyi məlumatları həm məntiqi, həm də məzmun ardıcıllığı ilə təqdim etməsinə kömək edir. Bu bacarıq şagirdə yazılı nitqində də lazım olur. Belə ki, esse, informativ və ya bədii mətn yazarkən məlumatları mətnin giriş, əsas və sonluq hissələrinə uyğun qruplaşdırmasına imkan yaradır.

**Yazı**

**Dərslik, səh. 96**

**2.** Sxemə uyğun olaraq “Təyyarənin ixtirası” adlı informativ mətn yazın.

Tapşırığın məqsədi informativ mətnin tərkib hissələri haqqında alınan biliklərin tətbiq edilməsidir. Şagirdlər suallara cavab verməklə təyyarənin ixtirası haqqında informativ mətn yazırlar. Bu zaman oxuduqları mətnlərdəki məlumatlardan istifadə edirlər.

**Diferensial təlim.** Söz ehtiyatı zəngin olan şagirdlər tapşırığı müstəqil yerinə yetirdiyi halda söz ehtiyatı zəif şagirdlərə yardım etmək lazımdır. Belə şagirdlər tapşırığı yerinə yetirərkən “Təyyarənin ixtirası” mətnindən istifadə edə bilərlər.

**Oxuyub-qavrama**

**İş dəftəri, səh. 64**

**1.** “Təyyarənin ixtirası” mətninə əsasən hekayə xəritəsini tamamla.

Şagirdlər “Təyyarənin ixtirası” mətninə əsasən hekayə xəritəsini tərtib edirlər. Bu tapşırıq müəllimə şagirdlərin həm mətnin məzmununu necə qavradıqlarını, həm də “məzmun”, “ideya” anlayışlarını necə fərqləndirdiklərini yoxlamağa imkan yaradır.

**Araşdırma tapşırığı**

**Dərslik, səh. 96**

**3.** İxtiralar haqqında araşdırma aparın.

Dərslikdə təqdim edilmiş araşdırma tapşırığı evdə yerinə yetirmək üçün nəzərdə tutu-



LAYİHƏ

lub. Müəllim şagirdləri qruplara ayırır. Bu zaman qruplaşdırma prosesi məqsədyönlü şəkildə aparılır. Hər qrupda dilbilmə səviyyəsi yüksək və dilbilmə səviyyəsi nisbətən zəif olan şagirdlər qruplaşdırılır. Qrup üzvləri mövzu üzrə araşdırma aparır, məlumat toplayırlar.

***I qrup.*** İşıqfor.

***II qrup.*** Velosiped.

***III qrup.*** Tozsoran.

***IV qrup.*** Avtomobil.

Şagirdlər növbəti dərsdə bu məlumatlardan istifadə edərək müvafiq mövzular üzrə məlumat vərəqi hazırlayacaqlar. Tapşırıq araşdırma aparmaq, eyni zamanda əməkdaşlıq etmək kimi vacib bacarıqların inkişafına yönəlib.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Aldığı məlumatları rabitəli mətn halına salaraq şifahi təqdim edir. | Tap. 1 (D.) |
| Əldə etdiyi məlumatlar əsasında kiçikhəcmli informativ mətn yazır. | Tap. 2 (D.) |
| Mətnə əsasən hekayə xəritəsi tərtib edir. | Tap. 1 (İ.D.) |

# 3-cü DƏRS

## Odun kəşfi

**Təlim nəticələri:**

**Danışma:**

• Verilmiş mövzu ilə bağlı şifahi təqdimat hazırlayır (st. 2.2.2).

**Yazı:**

• Əldə etdiyi məlumatlar əsasında kiçikhəcmli informativ mətn yazır (st. 4.1.4).

• Mövzuya, situasiyaya uyğun kiçikhəcmli mətn (açıqça, təəssürat) yazır (st. 4.1.4).

**Mövzuya yönəltmə**

Şagirdlər öyrəndikləri ixtira və kəşfləri yada salırlar. Şagirdlər təyyarənin ixtirası barədə bu bölmədə tanış olduqları mətni xatırlaya bilərlər. Və yaxud bu mövzuda əlavə biliklərinə istinad edə bilərlər. Müəllim yönəldici suallarla şagirdləri danışma fəaliyyətinə cəlb edir:

*– Sizcə, təyyarə nə üçün yaradılmışdır?*

*– Təyyarənin kəşfi hansı problemləri aradan qaldırdı?*

*– Sizcə, ixtira və kəşflərin həyatımızda hansı faydaları var?*

**Danışma**

**Dərslik, səh. 97**

1. Siz nə ixtira etmək istərdiniz? Aşağıdakı təlimata uyğun olaraq ixtiranız haqqında təqdimat edin.

Tapşırığı yerinə yetirmək üçün müəllim şagirdlərə müəyyən vaxt verir. Onlar hansı əşyaların ixtirası haqqında məlumat əldə etmək istədiklərini və bunun səbəbini izah edirlər.

Şagirdlər ixtira etmək istədikləri əşya, onun faydası, həmin əşyanın ixtirası üçün lazım olan bilik və materiallar haqqında fikirlərini şifahi şəkildə ifadə edirlər. Tapşırıq şagirdlərin yaradıcı bacarıqlarının inkişafına xidmət edir, onlarda özlərinə qarşı inam hissinin formalaşmasına, rastlaşdıqları problemi təhlil etməyə və həlli yolunu düşünməyə təşviq edir.

**Yazı**

**Dərslik, səh. 97**

2. Şəkillərə və təxəyyülünüzə əsasən “Odun kəşfi” haqqında mətn yazın.

Tapşırıq şagirdlərin yazı bacarığının inkişafına yönəlib. Şagirdlər tapşırıqda təqdim edilmiş şəkillər əsasında odun kəşfi haqqında mətn yazırlar. Müəllim mətnin tərkib hissələri haqqında məlumatları xatırladır. Mətn yazarkən giriş, əsas və sonluq hissələrinə ayrılmasının zəruriliyini bir daha izah edir.

**Diferensial təlim.** Müəllim tapşırığı yerinə yetirməkdə çətinlik çəkən şagirdləri yönəldici suallar və açar sözlərlə yazı fəaliyyətinə yönəldir.

**Suallar:**

*– Şəkildə hansı təbiət hadisəsi təsvir edilib?*

*– Meşədə baş verən yanğın insanlara necə təsir etdi? İnsanlar bu hadisəyə necə reaksiya verdilər?*

LAYİHƏ

*– Qədim insanlar odu əldə etmək üçün nə etdilər?*

*– Qədim insanlar oddan necə istifadə etdilər?*

**Açar sözlər:** ildırım, yanğın, qorxu, daşlar, isinmək, işıqlandırmaq, bişirmək.

Şagirdlər odun kəşfi haqqında yazdıqları mətni təqdim edirlər. Mətnin tərkib hissələrinə düzgün ayrıldığını yoxlayırlar. Lazım gəldikcə düzəlişlər edirlər.

**İş dəftəri, səh. 65**

**1.** Səncə, şəkillərdə təsvir edilmiş əşyalar hansı məqsədlə ixtira edilib? Nümunəyə uyğun olaraq cümlələr yaz.

Tapşırıqda insanların gündəlik həyatda istifadə etdikləri məişət əşyaları təsvir edilmişdir. Şagirdlər bu əşyaların yaranması və faydası haqqında bildiklərini yazırlar. Tapşırıq vasitəsilə şagirdlər gündəlik həyatda öyrəndikləri məlumatlar əsasında fikirlərini yazılı formada ifadə edirlər.

**Təqdimat**

**Dərslik, səh. 97**

**3.** İxtiralar haqqında apardığınız araşdırma əsasında məlumat vərəqi hazırlayın.

Məqsəd hər hansı bir mövzu üzrə məlumat vərəqinin hazırlanması və təqdimetmə bacarığının inkişafıdır. Qrup üzvləri apardıqları araşdırma zamanı əldə etdikləri məlumatları tapşırıqda təqdim edilmiş cədvəl üzrə qruplaşdırırlar. Daha sonra hər bir qrup hazırladığı məlumat vərəqini təqdim edir, məlumat vərəqləri müzakirə edilir, lazım gəldikcə düzəlişlər edilir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verilmiş mövzu ilə bağlı şifahi təqdimat hazırlayır. | Tap. 1 (D.) |
| Əldə etdiyi məlumatlar əsasında kiçikhəcmli informativ mətn yazır. | Tap. 2 (D.), tap. 1 (İ.D.) |
| Məlumat vərəqi tərtib edir. | Tap. 3 (D.) |

# 4-cü DƏRS

## Cümlənin məqsədə və intonasiyaya görə növləri. Kəmiyyət kateqoriyası. Ümumi və xüsusi isimlər. Əlamət bildirən sözlər. Hərəkət bildirən sözlərin inkarda işlənməsi

**Təlim nəticələri:**

**Yazı:**

- Durğu işarələrinin işlənmə yerini və məqsədini müəyyən edir (st. 4.1.3).
- Cəm şəkilçisini orfoqrafik normalara uyğun yazır (st. 4.1.2).
- Xüsusi isimlərin böyük hərflə yazılış qaydalarına əməl edir (st. 4.1.1).
- Cümlədə buraxılmış sözü müəyyən edir (st. 3.1.3).
- Feilin inkar şəkilçisindən düzgün istifadə edir (st. 4.1.2).

**Mövzuya yönəltmə**

Şagirdlər kəmiyyət şəkilçisi, ümumi və xüsusi isimlər, əlamət bildirən sözlər, hərəkətin təsdiqi və inkarına aid qrammatik qaydalarla tanışdırlar. Bu dərsdə şagirdlərin həmin mövzular üzrə bilik və bacarıqları təkrar olunur. Müəllim öyrədilən qaydaları yada salmaq üçün lövhədə bu mövzulara aid nümunələr yazır və şagirdləri fəaliyyətə cəlb edir.

Müəllim lövhədə cümlənin məqsədə görə növlərinə aid bir nümunə yazır:

1. Seymur bu il məktəbə gedəcək.
2. Seymur məktəbə nə vaxt gedəcək?
3. Seymur, məktəbə get.
4. Ura, Seymur məktəbə gedir!

Şagirdlər lövhədəki cümlələri oxuyurlar. Müəllim yönəldici suallar vasitəsilə şagirdlərə cümlələr arasındakı fərqi hiss etməyə kömək edir.

**Yönəldici suallar:**

*1. Hansı cümlədə sevinc ifadə edən söz var?*
*2. Hansı cümlə məlumat verir?*
*3. Hansı cümlə məlumat almaq üçün istifadə olunub?*
*4. Hansı cümlə ilə tapşırıq verilir?*

**Dərslik, səh. 98**

**1.** Sonunda uyğun durğu işarələrini qoymaqla cümlələri köçürün. Cümlələrin məqsədə görə növünü müəyyən edin.

LAYİHƏ

Şagirdlər "Sevimli qəhrəmanlarım" bölməsində cümlənin məqsədə və intonasiyasına görə növləri haqqında məlumat alıblar. Nəqli, sual, əmr və nida cümlələrini bir-birindən fərqləndirir, müvafiq durğu işarələrindən istifadə edirlər. Tapşırıq şagirdlərə bu mövzuda biliklərini xatırladır.

**Düzgün cavab:**

1. Günəşli bir yaz günü idi. (Nəqli cümlə)
2. Azərbaycan əsgərinə eşq olsun! (Nida cümləsi)
3. Sən hansı kitabı istəyirsən? (Sual cümləsi)
4. Əlini palçığa vurma. (Əmr cümləsi)
5. Ura, bir azdan tətil başlayır. (Nida cümləsi)
6. Bu gün ayın neçəsidir? (Sual cümləsi)
7. Çanta çox ağırdır. (Nəqli cümlə)
8. Tapşırıqları düzgün edin. (Əmr cümləsi)

**İş dəftəri, səh. 66**

**1.** Sözlərdən istifadə edərək nəqli, sual və əmr cümlələri qurub yaz.

**Düzgün cavab:**

**Nəqli cümlə:** Nənə nəvəsinə corab toxudu.
**Sual cümləsi:** Nənə nəvəsinə nə toxudu?
Nənə kimə corab toxudu?
**Əmr cümləsi:** Nənə, nəvənə corab toxu.

**İş dəftəri, səh. 66**

**2.** Misraların sonunda uyğun durğu işarəsi qoy.

**Düzgün cavab:**

Görəsən, gecə vaxtı
Bostanda kim işlədi?
Gəzib qarpıza baxdı,
Kələmləri dişlədi.
Şirin kökləri kəsdi.
Bəs nə üçün tələsdi?

**Dərslik, səh. 98**

**2.** Sözlərin düzgün yazılışını müəyyən edin.

Bu tapşırıq şagirdlərdə özünün və başqalarının yazısını təkmilləşdirmək bacarığını inkişaf etdirir. Tapşırıqda tərkibində *-lar, -lər* şəkilçisi tələffüz formasında verilmiş sözlər təqdim edilmişdir. Şagirdlər kəmiyyət şəkilçisi haqqında aldıqları biliklərə əsasən həmin sözlərdə orfoqrafik normalara uyğun düzəlişlər edirlər.

**Düzgün cavab:** sözlər, quşlar, qoyunlar, dostlar, günlər, insanlar, təkərlər, bağbanlar, oğlanlar, şirlər, işlər, səhərlər, qardaşlar, buludlar, qatarlar.

**İş dəftəri, səh. 66**

**3.** Səhv yazılmış sözləri seç (*) və düzgün yaz.

**Düzgün cavab:** quşdar – quşlar; anbarrar – anbarlar; aşpazdar – aşpazlar; faytonnar – faytonlar.

**Dərslik, səh. 98**

**3.** Cümlələrdə fərqləndirilmiş sözlərə diqqət edin. Səhvləri düzəldərək cümlələri köçürün.

Tapşırıq ümumi və xüsusi isimlər haqqında biliyin möhkəmləndirilməsinə və kontekstə görə sözlərin ümumi və yaxud xüsusi isim olduğunu müəyyənləşdirmək bacarığının inkişafına yönəlib.

**Düzgün cavab:**

b) Biz Nərgiz xalagilə ad gününə getdik.
a) Müəllim Ulduzu lövhəyə çağırdı.
a) Anar balaca bacısı Sevinci bağçaya apardı.

**İş dəftəri, səh. 66**

**4.** Verilmiş sözləri cümlələrdə elə işlət ki, həm kiçik hərflə, həm də böyük hərflə yazılsın.

Tapşırıqda kontekstdən asılı olaraq həm böyük, həm də kiçik hərflə yazıla bilən sözlər təqdim edilmişdir. Şagirdlər həmin sözləri cümlədə işlətməklə mövzunu anladıqlarını nümayiş etdirirlər.

**Dərslik, səh. 98**

**4.** Nöqtələrin yerinə əlamət bildirən sözlər əlavə etməklə cümlələri köçürün.

Şagirdlər uyğun əlamət bildirən söz seçməklə cümlələri tamamlayırlar. Bununla da həm əlamət bildirən sözlər haqqında bilikləri necə qavradıqlarını, həm də yiyələndikləri söz ehtiyatlarını nümayiş etdirirlər.

**Dərslik, səh. 98**

**5.** Hərəkət bildirən sözləri müxtəlif zamanlarda inkar formasında yazın.

Şagirdlər tapşırıqda təsdiq formasında verilmiş hərəkət bildirən sözləri inkarda işlədirlər. Bununla da hərəkətin təsdiqi və inkarı haqqında aldıqları bilikləri təcrübədə tətbiq edirlər.

LAYİHƏ

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Cümlənin məqsədə görə növünə uyğun durğu işarəsindən istifadə edir. | Tap. 1 (D.), tap. 1, 2 (İ.D.) |
| Cəm şəkilçisini orfoqrafik normalara uyğun yazır. | Tap. 2 (D.), tap. 3 (İ.D.) |
| Xüsusi isimlərin böyük hərflə yazılış qaydalarına əməl edir. | Tap. 3 (D.), tap. 4 (İ.D.) |
| Cümlədə buraxılmış sözü müəyyən edir. | Tap. 4 (D.) |
| Feilin inkar şəkilçisindən düzgün istifadə edir. | Tap. 5 (D.) |

# 3-cü fəsil
# AY

## 1-ci DƏRS
### Ayın itməsi

**Təlim nəticələri:**

**Danışma:**
• Həyatda gördükləri və təəssüratları haqqında danışır (st. 2.2.1).

**Oxu:**
• Obrazların nitqini müəllif nitqindən fərqli intonasiya ilə oxuyur (st. 3.1.1).
• Kontekstdən çıxış edərək tanış olmadığı söz və ifadələrin mənasını təxmin edir (st. 3.1.3).
• Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.2).
• Mətndəki hadisələrin ardıcıllığını müəyyən edir (st. 3.1.2).
• Mətnə əsasən hekayə xəritəsi tərtib edir (st. 3.1.2).

**Yazı:**
• Oxuduğu mətnin qısa məzmununu yazır (st. 4.1.4).

**Mövzuya yönəltmə. Danışma**

**Dərslik, səh. 99**

**1.** Səma cisimləri haqqında bildiklərinizi danışın.

Şagirdlər motivasiya xarakterli bu tapşırığı yerinə yetirməklə səma cisimləri, yəni günəş, ulduz, ay haqqında bildiklərini danışırlar.

**Oxu. Söz ehtiyatı**

**Mətnlə iş. Rollu oxu.** “Ayın itməsi” mətni dialoji mətn olduğu üçün rollu oxu üsulunu tətbiq etmək tövsiyə olunur. Əvvəlcə müəllim mətni bir dəfə oxuyur. Şagirdlər mətni izləyirlər. Daha sonra müəllim obrazların *(müəllif, Sincab, Maral, Ayı, Çaqqal, Şir, Bayquş, Dovşan)* nitqinə aid cümlələri şagirdlər arasında bölüşdürür. Bölüşdürmə fəaliyyətinin püşkatma üsulu ilə aparılması daha məqsədəuyğundur. Müəllim şagirdlərin nitqinə diqqət edir, obrazların hiss və həyəcanını ifadə etmək üçün onlara məsləhətlər verir.

**Dərslik, səh. 99. “Söz mücrüsü” rubrikası**

**Söz mücrüsü**

həyəcanlı • uydurmaq
qaranlıq • çığırmaq
dəyirmi • işıq saçmaq
əks • şüa • kölgə

Müəllim “söz mücrüsü”ndə verilmiş sözlərin mənasını izah edir. Bundan əlavə, müəllim oxu prosesində rast gəldikləri tanış olmayan sözləri şagirdlərə izah edir.

Şagirdlər yeni sözləri cümlələrdə işlətməklə onların mənasını anladıqlarını nümayiş etdirirlər.

**Söz ehtiyatı**

**Dərslik, səh. 100**

**2.** Hansı cümlələrdə fərqləndirilmiş sözlər mətndəki mənasında işlənib?

Tapşırıq şagirdlərin söz ehtiyatının zənginləşdirilməsinə yönəlib. Şagirdlər “ay” və “yer” sözlərinin mətndəki mənasında işləndiyi cümlələri seçirlər. Bununla da kontekstə əsasən sözlərin mənasını izah etmək bacarığını nümayiş etdirirlər.

LAYİHƏ

**Düzgün cavab:**

b) Ay buludların arxasında görünməz oldu.

b) Yer Günəşə yaxınlığına görə üçüncü planetdir.

**Dərslik, səh. 100**

**3.** Yanlış fikri seçin.

Şagirdlər mətnin məzmununa əsasən tapşırıqda verilmiş fikirlərin doğru və ya yanlış olduğunu müəyyənləşdirirlər. Bununla da mətni diqqətlə oxuduqlarını nümayiş etdirirlər.

**Düzgün cavab:** Ayı işıqlandıran Yerdir.

**İş dəftəri, səh. 67**

**1.** Hadisələri "Ayın itməsi" mətnindəki ardıcıllığa uyğun olaraq sırala.

Şagirdlər tapşırıqda verilmiş cümlələri "Ayın itməsi" mətnindəki hadisələrin ardıcıllığına uyğun sıralayırlar.

**Düzgün cavab:**

1. Sincab Ayın itməsi haqqında Marala xəbər verir.
2. Heyvanlar bir yerə toplaşdılar.
3. Şir heyvanları sakitləşdirir.
4. Heyvanlar Bayquşun yanına gedirlər.
5. Bayquş Ay, Yer və Günəş haqqında dərs keçdi.

**İş dəftəri, səh. 67**

**2.** Cümlələr hansı obrazların dilindən deyilir? Dairələrin içərisində uyğun hərfləri qeyd et.

Şagirdlər tapşırıqda verilmiş cümlələrin hansı obrazın nitqinə aid olduğunu müəyyən edirlər. Mətnin **rollu oxu** üsulu ilə oxunması bu tapşırığın asanlıqla yerinə yetirilməsinə kömək edir.

**Düzgün cavab:**

**Bayquş:**

– Günəş əks tərəfdə olduğuna görə Yer qaranlıqdır.

**Dovşan:**

– Günəş yoxdur, amma Ay işıq saçır.

**Sincab:**

– Gecə üçün ərzaq toplamaq lazımdır.

**Çaqqal:**

– Ay Günəş kimi dəyirmi olur.

**Şir:**

– Bayquşdan soruşsaq, ağıllı bir məsləhət verər.

**Dərslik, səh. 100**

**4.** "Ayın itməsi" mətni üzrə hekayə xəritəsi tərtib edin.

Tapşırıq şagirdlərin hekayə xəritəsi tərtibetmə bacarığını bir pillə də inkişaf etdirir. İndiyə qədər şagirdlər onlara təqdim edilmiş hekayə xəritəsini tamamlayırdılarsa, bu tapşırıqda artıq uyğun yarımbaşlıqlar yazmaqla hekayə xəritəsini müstəqil şəkildə tərtib edirlər.

**Yazı**

**İş dəftəri, səh. 67**

**3.** Bayquşun Ay, Günəş və Yer haqqında izahatını öz sözlərinlə yaz.

Tapşırıq oxu və yazı məzmun xətlərinin inteqrasiyasına imkan yaradır. Şagirdlər "Ayın itməsi" mətnində Bayquş obrazının nitqinə diqqət edir və onun Ay, Günəş, Yer haqqında izahatını öz sözləri ilə yazırlar. Bununla da mətnin məzmununu qavradıqlarını göstərirlər. Eyni zamanda tanış olduqları qrammatik konstruksiyaları necə mənimsədiklərini nümayiş etdirirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Həyatda gördükləri və təəssüratları haqqında danışır. | Tap. 1 (D.) |
| Obrazların nitqini müəllif nitqindən fərqli intonasiya ilə oxuyur. | "Ayın itməsi" mətni |
| Kontekstdən çıxış edərək tanış olmadığı söz və ifadələrin mənasını təxmin edir. | Tap. 2 (D.) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tap. 3 (D.), tap. 2 (İ.D.) |
| Mətndəki hadisələrin ardıcıllığını müəyyən edir. | Tap. 1 (İ.D.) |
| Mətnə əsasən hekayə xəritəsi tərtib edir. | Tap. 4 (D.) |
| Oxuduğu mətnin qısa məzmununu yazır. | Tap. 3 (İ.D.) |

LAYİHƏ

# 2-ci DƏRS
## Ayın ilk qonağı

**Təlim nəticələri:**

**Dinləmə:**
• Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir (st. 1.1.2).
• Mətndəki hadisələrin məntiqi ardıcıllığını (səbəb-nəticə əlaqəsini) müəyyən edir (st. 3.1.2).
• Dinlədiyi və oxuduğu mətnləri mövzu, məzmun və ideya baxımından müqayisə edir (st. 1.1.1).

**Yazı:**
• Əldə etdiyi məlumatlar əsasında kiçikhəcmli informativ mətn yazır (st. 4.1.4).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 101**

**1.** Şəkillərə baxın. Nöqtələrin yerinə uyğun səma cisimlərinin adını yazmaqla cümlələri köçürün.

Şagirdlər tapşırıqda verilmiş şəkillərə əsasən nöqtələrin yerinə uyğun sözü əlavə edərək cümlələri tamamlayırlar. Tapşırıq şagirdlərin diqqətini mövzuya cəlb etmək məqsədi daşıyır.

**Düzgün cavab:**
1. Ay Yer ətrafında fırlanır.
2. Günəş istilik və işıq mənbəyidir.
3. Ulduzlar günəşəbənzər səma cisimləridir, yəni işıq saçırlar.

**Dinləmə**

**Dərslik, səh. 101**

**2.** "Ayın ilk qonağı" mətnini dinləyin. Aşağıdakı suallara cavab tapmaq məqsədilə qeydlər götürün.

Müəllim şagirdlərin diqqətini tapşırıqdakı suallara cəlb edir. Şagirdlər tapşırıqdakı sualları oxuyur və mətni dinləyərkən həmin suallara cavab vermək üçün qeydlər götürürlər.

**Ayın ilk qonağı**

*Yer planetindən uzaqda yerləşən səma cisimləri insanları daim maraqlandırıb. Kometalar, planetlər, ulduzlar onlara əlçatmaz görünüb.*

*Ay insanların ayaq basdığı yeganə kosmik cisimdir. 1969-cu ildə Aya 3 amerikalı kosmonavt göndərildi. Kosmonavtlar Aya "Apollon 11" gəmisi ilə uçurlar. Aya birinci qədəm qoyan Nil Armstronq olur. Onun ayaqqabısının izləri hələ də Ayda qalır. Çünki Ayda nə külək əsir, nə də yağış yağır. Burada torpağa düşən iz yox olmur. Kosmonavtlar Ayda 21 saat qalırlar.*

*Kosmonavtlar Ayda müxtəlif qurğular quraşdırırlar. Bu qurğular Ayı uzaqdan öyrənməyə imkan yaradır. Tədqiqat üçün Aydakı torpaqdan nümunələr götürüb Yerə qayıtdılar.*

Mətni dinlədikdən sonra şagirdlər götürdükləri qeydlər əsasında sualları cavablandırırlar.

**İş dəftəri, səh. 68**

**1.** "Ayın ilk qonağı" dinləmə mətninə əsasən verilmiş fikirlərin doğru, yoxsa yanlış olduğunu qeyd et.

Şagirdlər tapşırıqda verilmiş fikirlərin "Ayın ilk qonağı" dinləmə mətninin məzmununa əsasən doğru, yoxsa yanlış olduğunu müəyyənləşdirirlər. Bununla da mətni diqqətlə dinlədiklərini nümayiş etdirirlər.

**Düzgün cavab:**
1-ci, 3-cü, 4-cü, 6-cı fikirlər doğru, 2-ci və 5-ci fikirlər isə yanlışdır.

**İş dəftəri, səh. 68**

**2.** "Ayın ilk qonağı" mətninin məzmununa əsasən cümlələri tamamla.

Tapşırıq şagirdlərin mətni nə qədər diqqətlə dinlədiklərini yoxlamağa imkan yaradır. Eyni zamanda analizetmə bacarığını inkişaf etdirir. Şagirdlər mətndə əks olunan hadisələri bir-biri ilə əlaqələndirir, hadisələrin səbəbini müəyyən edirlər.

**Dərslik, səh. 101**

**3.** Oxuduğunuz "Ayın itməsi" və dinlədiyiniz "Ayın ilk qonağı" mətnlərini müqayisə edin.

Bu tapşırıq şagirdlərin müqayisəetmə bacarığının inkişafına yönəlib. Şagirdlər tapşırıqda verilmiş fikirlərin oxuduqları "Ayın itməsi", yoxsa dinlədikləri "Ayın ilk qonağı" mətninə aid olmasını müəyyənləşdirməklə hər iki mətnin məzmununu qavradıqlarını nümayiş etdirirlər.

LAYİHƏ

Tapşırıq eyni zamanda şagirdlərin diqqətini bədii və informativ mətnlər arasındakı fərqə yönəldir.

**İş dəftəri, səh. 68**

**3.** Bilməcəni həll etsən, 1969-cu ildə Aya qalxan digər iki kosmonavtın adlarını öyrənərsən.

Şagirdlər rənglər, fiqurlar və hərflərlə şifrlənmiş bilməcəni həll edərək 1969-cu ildə Aya qalxan digər iki kosmonavtın adlarını müəyyən edirlər. Şagirdlər növbəti tapşırıqda bu məlumatdan istifadə edə bilərlər.

**Düzgün cavab:** Baz Oldrin, Maykl Kollinz.

**Yazı**

**Dərslik, səh. 101**

**4.** Oxuduğunuz və dinlədiyiniz mətnlərdən, eləcə də əlavə biliklərinizdən istifadə etməklə "Aya ilk səyahət" mövzusunda mətn yazın. Mətni aşağıdakı sxemə uyğun tərtib edin.

Tapşırığın məqsədi informativ mətnin tərkib hissələri haqqında alınan biliklərin tətbiq edilməsidir. Şagirdlər tapşırıqda verilmiş plan əsasında "Aya ilk səyahət" haqqında informativ mətn yazırlar. Bu zaman dinlədikləri mətndən və dərslikdəki tapşırıqlardan əldə etdikləri məlumatlardan istifadə edirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir. | Tap. 2 (D.), tap. 1 (İ.D.) |
| Mətndəki hadisələrin səbəbini müəyyən edir. | Tap. 2 (İ.D.) |
| Dinlədiyi və oxuduğu mətnləri mövzu, məzmun və ideya baxımından müqayisə edir. | Tap. 3 (D.) |
| Əldə etdiyi məlumatlar əsasında kiçikhəcmli informativ mətn yazır. | Tap. 4 (D.) |

# 3-cü DƏRS

## Əşyanın miqdarını bildirən sözlər. Mürəkkəb cümlələrin tərkib hissələri arasında vergüldən istifadə. Bağlayıcılar. Mürəkkəb sözlər

**Təlim nəticələri:**

• Sözləri ümumi mənalarına görə qruplaşdırır (st. 3.1.3).
• Sayların söz və rəqəmlə yazılışında uyğun qaydalara riayət edir (st. 4.1.1).
• Sözlər və cümlənin tərkib hissələri arasında uyğun bağlayıcılardan istifadə edir (st. 4.1.2).
• Bağlayıcılarda durğu işarələrindən yerli-yerində istifadə edir (st. 4.1.3).
• Mürəkkəb sözlərin yazılış qaydalarına riayət edir (st. 4.1.1).
• Sözləri quruluşuna görə fərqləndirir (st. 4.1.2).

**Mövzuya yönəltmə**

Şagirdlər əvvəlki bölmələrdə əşyanın miqdarını bildirən sözlər, mürəkkəb cümlələrin tərkib hissələri arasında vergüldən və bağlayıcıdan istifadə, mürəkkəb sözlər haqqında qrammatik qaydalarla tanışdırlar. Bu dərsdə şagirdlərin həmin mövzular üzrə bilik və bacarıqları təkrar olunur. Müəllim öyrədilən qaydaları yada salmaq üçün lövhədə bu mövzulara aid nümunələr yazır və şagirdləri fəaliyyətə cəlb edir.

**Dərslik, səh. 102**

**1.** Sayları cədvəl üzrə qruplaşdırıb yazın.

Tapşırıq şagirdlərin miqdar və sıra sayı haqqında aldıqları biliklərin möhkəmləndirilməsinə yönəlib. Şagirdlər tapşırıqda verilmiş sözləri miqdar və sıra sayları başlıqları altında qruplaşdırmaqla bu mövzuda biliklərini nümayiş etdirirlər.

**Düzgün cavab:**

**Miqdar sayı:** iki, yüz, min, yetmiş doqquz, 30, əlli.

**Sıra sayı:** dördüncü, səkkizinci, onuncu, 5-ci.

LAYİHƏ

**Dərslik, səh. 102**

**2.** Miqdar saylarından sıra sayları düzəldib yazın.

Şagirdlər tapşırıqda verilmiş miqdar sayları bildirən sözlərə uyğun şəkilçilər əlavə etməklə sıra sayları bildirən sözlər düzəldib yazırlar. Bu tapşırıq miqdar və sıra saylarının fərqləndirilməsi ilə yanaşı, çoxvariantlı şəkilçilərdən düzgün istifadə bacarığını da inkişaf etdirir.

**Düzgün cavab:** bir – birinci; altmış – altmışıncı; yüz – yüzüncü; doqquz – doqquzuncu; üç – üçüncü; altı – altıncı; yeddi – yeddinci; əlli beş – əlli beşinci; səksən iki – səksən ikinci; iki min iyirmi bir – iki min iyirmi birinci.

**İş dəftəri, səh. 69**

**1.** Miqdar saylarından sıra sayları düzəlt və cədvəlin uyğun bölmələrinə yaz.

Şagirdlər dərslikdə miqdar və sıra sayları haqqında verilmiş tapşırıqları kollektiv şəkildə yerinə yetirdikdən sonra iş dəftərində eyni mövzuya aid tapşırıqları müstəqil yerinə yetirirlər. Bu fəaliyyət müəllimə şagirdləri qiymətləndirmək üçün imkan yaradır. Bu tapşırıq sıra saylarının yazılış qaydalarının *(rəqəmlə, sözlə, rəqəm və şəkilçi ilə)* təkrarına yönəlib.

**Düzgün cavab:** 30 – otuzuncu – 30-cu; 50 – əllinci – 50-ci; 6 – altıncı – 6-cı; 103 – yüz üçüncü – 103-cü.

**Dərslik, səh. 102**

**3.** Nöqtələrin yerinə uyğun bağlayıcılar əlavə etməklə cümlələri köçürün.

Şagirdlər beşinci bölmədə bağlayıcılar haqqında məlumat alıblar. Bu tapşırıq bağlayıcılardan düzgün istifadə bacarığının möhkəmləndirilməsinə yönəlib.

**Düzgün cavab:**

1. Yaz gəldi və dağlarda qar əridi.
2. Hava çox soyuq idi, ona görə də qalın kürkümü geyinmişdim.
3. İlkin çox sevindi, çünki qardaşı cəbhədən qayıtmışdı.
4. Usta çox çalışdı, amma maşını düzəldə bilmədi.

**Dərslik, səh. 102**

**4.** Cümlələrdə vergül işarəsi səhv qoyulmuşdur. Səhvləri düzəldərək cümlələri köçürün.

Şagirdlərə beşinci bölmədə bağlayıcıların vergüllə işlənməsi haqqında məlumatlar verilib. *Amma, ancaq, lakin, çünki, ona görə də* bağlayıcılarından əvvəl vergül qoyulduğu halda *və* bağlayıcısı vergülsüz işlənir. Müəllimə tapşırıqlar yerinə yetirilməzdən əvvəl bağlayıcılar haqqında məlumatları xatırlatmaq tövsiyə edilir.

**Düzgün cavab:**

1. Lalə çağırdı, lakin Əli eşitmədi.
2. Qapı açıldı və hərbi forma geyinmiş qardaşım otağa daxil oldu.
3. Yarpaqlar saralmışdı, çünki payız gəlmişdi.
4. Hava isti idi, ona görə də jaketimi geyinmədim.

**İş dəftəri, səh. 69**

**2.** Nöqtələrin yerinə bağlayıcılar yaz. Uyğun yerlərdə vergül işarəsi qoy.

Bu tapşırıq uyğun bağlayıcılardan istifadə etmək bacarığı ilə yanaşı bağlayıcıların vergüllə işlənməsi haqqında biliklərin tətbiqinə və möhkəmləndirilməsinə imkan yaradır.

**Düzgün cavab:**

1. Çox gözlədim, amma gəlib çıxmadı.
2. Yarpaqlar saralmışdı, çünki payız gəlmişdi.
3. Soyuq külək əsir və tez-tez yağış yağırdı.
4. Gecə möhkəm şaxta olub, ona görə də hər yer buz bağlayıb.

**İş dəftəri, səh. 69**

**3.** Hansı cümlələrdə "və" bağlayıcısı sözləri bir-birinə bağlayır?

Tapşırıq şagirdlərin "və" bağlayıcısı haqqında biliklərinin tətbiqinə yönəlib.

**Düzgün cavab:**

2. Tar və kamança simli musiqi alətidir.
3. Xahiş edirəm, dəftər və qələmi mənə ver.
5. Sona və Mehribanı nahar yeməyinə dəvət etmişəm.

LAYİHƏ

**Dərslik, səh. 102**

**5.** Sözlər arasında uyğunluğu müəyyən edərək mürəkkəb sözlər yaradın və cədvəlin uyğun bölməsinə yazın.

Şagirdlər beşinci bölmədə mürəkkəb sözlərin yaranması və yazılış qaydaları haqqında məlumat alıblar. Bu tapşırıq şagirdlərin mürəkkəb sözlər haqqında aldıqları biliklərin tətbiqinə yönəlib.

**Düzgün cavab:**

**Yaxınmənalı sözlərin birləşməsindən yarananlar:** dost-tanış, meyvə-tərəvəz.

**Əksmənalı sözlərin birləşməsindən yarananlar:** sual-cavab, baş-ayaq.

**Müxtəlifmənalı sözlərin birləşməsindən yarananlar:** gülərüz, dördkünc.

**Eyni sözün təkrarından yarananlar:** tez-tez, baxa-baxa.

**İş dəftəri, səh. 69**

**4.** Nöqtələrin yerinə mürəkkəb sözlər yazmaqla cümlələri tamamla.

Şagirdlər nöqtələrin yerinə məhz mürəkkəb sözlər seçərək cümlələri bərpa edirlər. Bununla da mürəkkəb sözləri fərqləndirdiklərini nümayiş etdirirlər.

**Düzgün cavab:**

1. Ustalar işlərini günorta bitirdilər.
2. Qayaların üstü itburnu kolları ilə dolu idi.
3. Səlimə hazırcavab qızdır.
4. Təzə ayaqqabılar ayağımı sıxırdı.
5. Yarmarkada növbənöv məhsullar satılırdı.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Miqdar və sıra sayları ifadə edən sözləri fərqləndirir. | Tap. 1, 2 (D.) |
| Sayların söz və rəqəmlə yazılışında uyğun qaydalara riayət edir. | Tap. 1 (İ.D.) |
| Sözlər və cümlənin tərkib hissələri arasında uyğun bağlayıcılardan istifadə edir. | Tap. 3 (D.), tap. 2, 3 (İ.D.) |
| Bağlayıcılarda durğu işarələrindən yerli-yerində istifadə edir. | Tap. 4 (D.) |
| Mürəkkəb sözlərin yazılış qaydalarına riayət edir. | Tap. 5 (D.) |
| Sözləri quruluşuna görə fərqləndirir. | Tap. 4 (İ.D.) |

# 6-cı bölmə üzrə ümumiləşdirici təkrar

**Təlim nəticələri:**

**Yazı:**

• Ahəng qanununa tabe olan sözləri fərqləndirir (st. 4.1.1).
• Cəm şəkilçisini orfoqrafik normalara uyğun yazır (st. 4.1.2).
• Həm ümumi, həm də xüsusi isim kimi işlənən sözlərin yerindən asılı olaraq böyük, yoxsa kiçik hərflə yazıldığını müəyyənləşdirir (st. 4.1.1).
• Sözlər və cümlənin tərkib hissələri arasında uyğun bağlayıcılardan istifadə edir (st. 4.1.2).

**Mövzuya yönəltmə**

Şagirdlər altıncı bölmənin səhifələrini vərəqləyərək fəsillərin adlarını xatırlayırlar. Onlar bölmə üzrə öyrəndikləri mövzular haqqında öz təəssüratlarını bölüşürlər.

**Dərslik, səh. 103**

**1.** Ahəng qanununa görə dördündən biri fərqlidir.

Tapşırıq şagirdlərin ahəng qanunu haqqında biliklərini tətbiq etməyə, eyni zamanda məntiqi təfəkkürünün də inkişafına şərait yaradır. Şagirdlər hər sırada fərqli olan sözü müəyyən edir və seçimlərini əsaslandırırlar. Bu zaman fikrini düzgün çatdırma, əsaslandırma kimi bacarıqlar da formalaşır.

**Düzgün cavab:**

1-ci sırada "*kitab*" sözü fərqlidir. Çünki bu sözdə ahəng qanunu pozulub. Digər sözlər isə ahəng qanununa tabedir.

LAYİHƏ

2-ci sırada "*mülayim*" sözü fərqlidir. Çünki bu sözdə ahəng qanunu pozulub. Digər sözlər isə ahəng qanununa tabedir.

3-cü sırada "*istedadlı*" sözü fərqlidir. Çünki bu sözdə ahəng qanunu pozulub. Digər sözlər isə ahəng qanununa tabedir.

**Dərslik, səh. 103**

**2.** Verilmiş əlamətlərə uyğun üç söz yazın.

Şagirdlər bu tapşırıqda saitləri növlərinə görə qruplaşdırmaqla saitlərin növləri üzrə biliklərini möhkəmləndirirlər.

**Dərslik, səh. 103**

**3.** Sözləri cəmdə yazın.

Şagirdlər təkdə verilmiş sözlərə müvafiq olaraq *-lar, -lər* şəkilçisi artırmaqla sözləri cəmdə işlədirlər. Bununla da kəmiyyət şəkilçisinin düzgün yazılışı ilə bağlı öyrəndikləri bilikləri tətbiq edirlər.

**Dərslik, səh. 103**

**4.** Həm böyük, həm də kiçik hərflə yazıla bilən sözləri seçin. Cümlələrdə işlətməklə fikrinizi əsaslandırın.

Tapşırıqda kontekstdən asılı olaraq həm böyük, həm də kiçik hərflə yazıla bilən sözlər təqdim edilmişdir. Şagirdlər həmin sözləri cümlədə işlətməklə mövzunu anladıqlarını nümayiş etdirirlər.

**Dərslik, səh. 103**

**5.** Cümlələrdəki bağlayıcılar səhv işlənib. Onları uyğun bağlayıcılarla əvəz edərək cümlələri köçürün.

Bu tapşırıq uyğun bağlayıcılardan istifadə etmək bacarığının tətbiqinə və möhkəmləndirilməsinə imkan yaradır.

**İş dəftəri, səh. 70-71**

İş dəftərində verilmiş tapşırıqlar müəllimə şagirdlərin bu bölmə üzrə qazandıqları bilik və bacarıqları yoxlamağa imkan verir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Ahəng qanununa tabe olan sözləri fərqləndirir. | Tap. 1 (D.) |
| Cəm şəkilçisini orfoqrafik normalara uyğun yazır. | Tap. 3 (D.) |
| Həm ümumi, həm də xüsusi isim kimi işlənən sözlərin yerindən asılı olaraq böyük, yoxsa kiçik hərflə yazıldığını müəyyənləşdirir. | Tap. 4 (D.) |
| Sözlər və cümlənin tərkib hissələri arasında uyğun bağlayıcılardan istifadə edir. | Tap. 5 (D.) |

## 6-cı bölmə üzrə kiçik summativ qiymətləndirmə

İş dəftərinin 70-71-ci səhifələrindəki materiallar KSQ-yə hazırlıq məqsədilə verilmişdir. Qiymətləndirmə oxu və yazı məzmun xətlərini əhatə edən aşağıdakı meyarlar üzrə aparılır.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözün mətndəki mənasını müəyyənləşdirir. | Tap. 1 |
| Mətn üzrə faktoloji sualları cavablandırır. | Tap. 2 |
| Hadisələr arasında səbəb-nəticə əlaqəsini müəyyənləşdirir. | Tap. 3 |
| Mətndən fikrini əsaslandırmağa kömək edən faktı (məlumatı) seçir. | Tap. 4 |
| Cümlənin məqsədinə görə növlərini fərqləndirir. | Tap. 5 |
| Mürəkkəb cümlənin tərkib hissələri arasında uyğun bağlayıcılardan istifadə edir. | Tap. 6 |
| Mürəkkəb sözün bitişik, yoxsa defislə yazıldığını müəyyənləşdirir. | Tap. 7 |

LAYİHƏ

BURAXILIŞ MƏLUMATI

*Ümumi təhsil müəssisələrinin 3-cü sinifləri üçün*
*Azərbaycan dili (dövlət dili) fənni üzrə dərsliyin (qrif nömrəsi: 2022-005)*
***metodik vəsaiti***

**Tərtibçi heyət**

Müəlliflər **Rafiq İsmayılov**
**Ülkər Nurullayeva**
**Aynur Rüstəmova**

Layihə rəhbəri **Rafiq İsmayılov**

Dil-üslub redaktoru **Dilrüba Cəfərova**
Texniki redaktor **Rəşad Nəbiyev**
Dizayner **Nərmin Həsənova**
Korrektor **Fəridə Ziyadova**

**© Azərbaycan Respublikası Təhsil Nazirliyi**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun
hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq,
elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

ISBN 978-9952-8402-5-4

Hesab-nəşriyyat həcmi: 11,5. Fiziki çap vərəqi: 15.
Səhifə sayı 120. Formatı: 57×82 1/8. Kəsimdən sonra ölçüsü: 195×275.
Şriftin adı və ölçüsü: Calibri 12 pt. Ofset kağızı. Ofset çapı.
Sifariş ____. Tirajı 800. Bakı – 2022.

Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix: 22.02.2022

Çap məhsulunu nəşr edən:
Azərbaycan Respublikasının Təhsil İnstitutu (Bakı ş., A.Cəlilov küç., 86).

Çap məhsulunu istehsal edən:
“Tuna” QSC (Bakı, Keşlə qəs., 1-ci Önünə küç., 19).

LAYİHƏ

Pulsuz

LAYİHƏ